ABİD QAFAROV

# ANDALUNİYA



"Əsəbləri zəif olanların oxuması tövsiyyə olunmur"

ROMAN

ABİD QAFAROV

# ANDALUNİYA

Bakı 2022

**Abid Qafarov. “ANDALUNİYA”**
Bakı, 2022, 320 səh.

**Müəllif:** Abid Qafarov
**Redaktor:** Yasəmən Abbasova

Kişi çığırtısı, qadın harayı,
Təkcə boğulan səs, haqqın səsiydi.
Tartarada olan bu işgəncələr,
Dünyanın ən iyrənc işgəncəsiydi!..

*Şair Tofiq Həsənli*

Müəllif qələmi ilə insan talelərinin amansız səhnələrini canlandırmaqda Hollywood filmlərini geridə qoymağı bacarmışdır. Düşünürəm ki, bu əsər ölkə sərhədlərini aşmalıdır!

*Yazıçı Vəlixan İsmixan*

“Bakı Birlik Təşkilatı”nın dəstəyi ilə çap edilmişdir.
© Abid Qafarov, 2022

# Ön söz

Əziz oxucu, dünyada ərşə çatan zülmü görmək üçün eynəyə, mikroskopa və ya teleskopa ehtiyac yoxdur. Dünyanın dörd bir tərəfində az və ya çox olmasından asılı olaraq zülm var. Elə tarixə baxanda zülm və zülmətin ümumən dünyada hakim olduğunu müşahidə edirik.

Bir çox ölkələrdə despotik hakimiyyətlər 21-ci əsr üçün adekvat olmasa belə, hələ də hökm sürür. İstənilən hakimiyyətin despotik olub-olmamasını həmin hakimiyyətin xalqla davranışından, insan haqlarına və azadlıqlarına münasibətindən anlamaq olur.

Adətən bu cür hakimiyyətlərin idarə etdikləri xalqlar çox aşağı bir rifah şəraitində yaşamağa, yox-yox, sadəcə var olmağa məhkum edilirlər. Despotik hakimiyyətlər heç bir halda xalqın iradəsini təmsil etmir və əksər hallarda elə xalqın iradəsinə zidd olaraq formalaşır və hakimiyyət sürür.

Sözümüzün əvvəlində dünyadakı zülmdən söz açdıq, çox təəssüf ki, bir çox insanlar zülmü dərk etmir. Nəinki dünya ölkələrində baş verən zülmü, hətta yaşadıqları ölkədə, şəhərdə və kənddə hökm sürən zülmü dərk etmirlər. Bir halda ki, zülm onları dörd bir yandan əhatə etmişdir...

Bu yerdə "başa düşmək" ilə "dərk etmək" felləri arasındakı fərqə açıqlıq gətirmək yerinə düşər. Dəfələrlə "avtomobili idarə edərkən təhlükəsizlik kəmərini taxmaq lazımdır!" təlimatını eşitmişik. Bu təlimatda başa düşülməməli heç nə yoxdur və tam əminliklə deyə bilərik ki, eşidənlərin hamısı bu təlimatı başa düşür. Bu təlimatı dərk etməyin əlaməti isə avtomobilə oturan kimi təhlükəsizlik kəmərini taxmağımızdır. Bir az da sadələşdirsək, dərketmə başa düşülənin əməldə tətbiqidir.

Yaxşı, bəs zülm nədir? Kiminsə haqqını əlindən almaq, kiminsə öz yerində olmaması zülmdür. Əslində, zülmün

tərifi ədalətin tərifindən alınır. Ədalət hər kəsə haqqının verilməsi, hər şeyin öz yerində olmasıdır. Necə də lakonik və mükəmməldir!

Hə, yeri gəlmişkən, etimoloji olaraq, ərəb dilində "zülmət" sözü "zülm" sözünün cəm formasıdır. Yəni zülm o qədər çox olur ki, nur yoxa çıxır və yerini zülmət alır...

Təhlükəsizlik kəməri misalından aydın oldu ki, dərketmə kəmərin taxılmasıdır, bəs zülm mövzusunda dərketmənin nəticəsi nə olmalıdır? Bu suala əziz oxucu ilə birlikdə bu romanda cavab axtaracağıq...

Bu romanda baş verən hadisələr bir xəyal məhsuludur, yer və insan adlarında reallıqla hər hansı bir uyğunluq olarsa, sırf təsadüfdür.

# Andaluniya və Bakka ilə tanışlıq

Bura Andaluniyadır, Avropa və Asiya qitələrinin arasında yerləşən, “Şərq incisi” kimi tanınan ölkə. Ərazisi o qədər də böyük olmayan (təqribən 82 min km$^2$) Andaluniya ölkəsində olan neft sənayesinin sürətli inkişafı sayəsində paytaxt Bakka ucalır və yenidən qurulurdu. Yeni tikilən gözəl və dəbdəbəli binalar, əlbəttə ki, ölkəni zahirən çox möhtəşəm göstərir və turistləri cəlb edirdi.

Bakka şəhəri Sədəf dənizinin sahilində yerləşirdi, tarixən məğrur olan şəhər yeni tikilən binaların hesabına daha da məğrur görünürdü. Əsrlərdən bəri bu dənizdən inci əldə etmək üçün sədəf çıxarılırdı. Dənizdən çıxarılan incilər həm ölkə əhalisini zinətləndirir, həm də qonşu ölkələrə ixrac edilirdi.

Bakka şəhərinin əsas məşğuliyyəti sədəf çıxarmaq, balıqçılıq və ticarət olsa da, ümumilikdə Andaluniya əhalisinin tarixi məşğuliyyəti əkinçilik, maldarlıq, sənətkarlıq, toxuculuq və hərb sənəti idi. Ölkə əhalisinin əksəriyyəti türk mənşəli xalqlardan ibarət idi. Onlar hələ 16-cı əsrdə, Osmanlı imperiyası zamanında buralara köç etmişdi və əsasən də əsgərlərdən ibarət koloniyalar şəklində məskunlaşmışdılar.

16-cı əsr Osmanlı imperiyasının ən dolğun və siyasi hakimiyyətinin ən yüksək zirvəsində olduğu bir dövr idi. Belə ki, imperiya öz əsgərlərini koloniyalar şəklində ölkənin sərhədlərinə yaxın yerlərdə yerləşdirir, əsgərlərə əkib-becərmələri üçün torpaq payları verirdi. Bu, Nikolo Makiavellinin “Hökmdar” kitabında təsvir etdiyi klassik kolonizasiya metodudur. Əlbəttə, kolonizasiya yerli əhalinin sıxışdırılması nəticəsində baş verir, amma bu, Osmanlı sultanları üçün bir neçə səbəbdən çox əlverişli bir metod idi. Əlavə olaraq əsgər birləşmələrinə çoxlu pul xərcləmək lazım gəlmir, imperiyanın cənub-şərq sərhədinin bir hissəsi təhlükəsizləşir, yerli əhali isə müflis olaraq ya məhv olur, ya

da başqa ölkələrə köç etməli olduqlarından türklərlə əvəz olunurlar. Elə bu səbəblə də Andaluniya əhalisinin əksər hissəsi türk mənşəli idi. Türklər isə həm torpağı əkib-becərir, həm də onu qoruyurdular. Onların əsas vəzifəsi sərhədləri qorumaq olduğundan, hərb sənətini tərk etmirdilər, əksinə, hər on ildən bir gənclərini imperiyanın paytaxtına hərbi təhsil üçün göndərirdilər. Adətən varlı və zadəgan ailələrinin uşaqları bu şərəfə nail olurdular. Bu ənənə Osmanlı imperiyasının 1922-ci ildə dağılmasına baxmayaraq, hələ 20-ci əsrin sonlarına qədər davam edirdi.

Andaluniya Osmanlı imperiyasının süqutundan sonra ingilislərin koloniyasına çevrildi və bir müddət sonra, 1947-ci ildə xalq müqavimətinin hesabına ingilisləri ölkədən çıxararaq müstəqilliyini elan etdi. Yaşıl rəngli bayraqlarında aypara və şəmşir qılıncı tarixi İslam və türk mənşələrinə işarədir. Müstəqilliyinin ilk dövrünü çox çətinliklər və məhrumiyyətlərlə yaşamasına baxmayaraq, 70-ci illərdən sonra paytaxt Bakka da yeni neft yataqlarının kəşfi və istismarı nəticəsində iqtisadi çətinliklərdən çıxa bildi.

Ölkə əhalisinin böyük əksəriyyəti yuxarıda qeyd etdiyimiz səbəblərə görə türk mənşəli xalqlardır, ölkədə digər xalqların da nümayəndələri var və onlar bir yerdə harmoniya şəklində yaşayırlar. Ölkədə 10-dan çox millətin nümayəndələri yaşayır. Əhalinin əksəriyyəti əsasən türk olduğundan dövlət dili Andaluniya türkcəsidir. Digər xalqların öz dilləri olsa da, bu dili öyrəniblər və danışıqlarında cüzi ləhcənin olmasına baxmayaraq, rahatca ünsiyyət qura bilirlər.

Ölkə əhalisinin əksəriyyəti müsəlmandır. Baxmayaraq ki, əsrlərlə bu coğrafiyada zərdüştlük, xristianlıq, musəvilik və atəşpərəstlik olmuşdur, Osmanlının gəlişi ilə bu balans birtərəfli olaraq İslamın xeyrinə dəyişmişdir. Bəli, ölkə ərazisində çoxlu sayda kilsə, sinaqoq və məbədlər də

var, amma onlarla paralel minlərlə məscid də var. Bakka şəhərinin bəzi kəndlərində hətta məhəllə məscidləri də tikilib və əksəriyyəti də tarixi abidə kimi qorunur.

İnsanlar, ümumiyyətlə, İslam fundamentli milli adət-ənənələrə bağlıdır, bir çox şəhərlərdə mədrəsələr və dərnəklər fəaliyyət göstərir. Küçələrdə başlarındakı örtük və geyimləri ilə fərqlənən hocaları görmək mümkündür. Onların adətən başlarını aşağı dikib tələsik harasa getdiklərini müşahidə etmək mümkündür. Əlbəttə ki, insanlar onları görən kimi ədəb-ərkanla salamlayır və hörmətlərini saxlayırlar.

Bütün bunlara baxmayaraq, insanların çoxu dini qaydalara riayət etmir, sadəcə hörmət etməklə keçinir. Xeyir-şər məclisləri – toy və ya yas olduqda isə insanlar dini qaydalara riayət edir, kəbin kəsdirir və cənazəni dini qaydalar əsasında dəfn edirlər.

Ölkənin siyasi ab-havasına gəldikdə isə burada işlər heç də ürəkaçan deyil. 1947-ci ildə müstəqillik əldə olunandan sonra hakimiyyət ordu generalı Cəfər paşanın əlinə keçmişdi. Hərbi xunta rejimi yaratmış general insanlara zülm edirdi, aclıq və səfalət pik həddinə çatmışdı. Xalqa daha çox dinin vasitəsilə nəzarət etmək üçün mədrəsə və dərnəklərin sayını artırmışdı. Məscidlərdə ən çox çətinliklər və məhrumiyyətlər qarşısında səbir etmək, səbir müqabilində vəd edilmiş Cənnətdəki həyatın şirinliyindən danışılırdı.

Lakin bu çox uzun çəkə bilməzdi, insanlar çətinliyə 5, 10, uzağı 15 il dözə bilərdilər. Elə də oldu, 1971-ci ildə neft yataqlarının kəşfi xəbəri işıq sürəti ilə ölkəyə yayıldı və insanların daha yaxşı həyat arzusu onları dilə gətirdi. Bu arada ingilislər daha çox neft əldə etmək üçün ölkədə digər general Həşim paşanı maliyyələşdirdilər və o da 1972-ci ildə hərbi çevrilişlə hakimiyyətə gəldi. Həşim paşanı ingilislər maliyyələşdirdiyi üçün neftdən daha çox onlar yararlanmalı idilər. Maraqlısı bu idi ki, sadə bir müqavilənin tərtibi aylar

çəkdiyi halda, neft hasilatı, emalı və satışı üçün nəzərdə tutulan müqavilənin hazırlanması 2 ay çəkdi. 1972-ci ildə təmtəraqlı şəkildə neft hasilatı və satışı üzrə müqavilə imzalandı. Cəfər paşanın despotik hakimiyyətindən sonra insanlar Həşim paşanın sosialyönümlü hakimiyyət quracağına inanırdılar. Lakin bu belə olmadı.

Hakimiyyətinin ilk aylarından Həşim paşa yüksək vəzifələrə öz qohumlarını və yerlilərini təyin etdi. Məmurlar tezliklə özlərini xan kimi aparmağa başladılar. İnsanların, ziyalıların və siyasi xadimlərin tənqidlərinə baxmayaraq, Həşim paşa öz avtoritar hakimiyyətini sırf qohumbazlıq və yerlibazlıq prinsipləri üzərində qurmağa davam etdi. Amma Həşim paşanın bir fəndi də var idi, o, təşkilati işləri bacaran siyasətçiləri hakim komandaya dəvət edir, onlara kiçik vəzifələr verərək susdura bilirdi. Məhz elə bu fəndi sayəsində o, xalqın siyasi baxımdan aktivləşməsinin qarşısını ala bilirdi.

Hakimiyyət daxilində Həşim paşanın sosial psixologiyanı yönləndirəcək mini institutu var idi, amma bu institut heç bir halda milli strategiya və ya milli hədəflər üzərində çalışmırdı, sadəcə xalqın etirazlarının manipulyasiya edilməsi və siyasi aktiv insanların zərərsizləşdirilməsi istiqamətində layihələr üzərində çalışırdı. Həm Həşim paşanın, həm də hakim komandanın tək bir hədəfi var idi, hakimiyyəti möhkəmlətmək və onun ömrünü uzatmaq...

Həşim paşa Andaluniyanı dünyaya demokratik bir ölkə kimi təqdim etmək üçün hər beş ildən bir seçkilər keçirirdi, lakin total saxtalaşdırma fonunda keçən seçkilərin nəticəsində həmişə özü “qalib” olurdu. Əslində saxtakarlıq elə seçkilərin ilk mərhələlərindən başlayırdı, saxta namizədlərin seçkiyə qoşulmasının təmin edilməsi, telekanallarda əsl rəqiblərə şəraitin yaradılmaması bu seçkiləri “ədalət” və “bərabər şərait” məfhumlarından çox uzaq salırdı.

Həşim paşa öz hakimiyyətini 26 il əlində saxlaya bildi

və 1997-ci ildə vaxtsız ölüm onun digər planlarını yarımçıq qoydu. Onun ürək tutması səbəbi ilə gələn vaxtsız ölümü hakim komandanı qəfil yaxalamışdı və bir müddətliyə nə edəcəklərini bilmədilər. 2 ay ərzində hakim komanda daxilində növbəti prezidentin kim olması barəsində qızğın müzakirələr getdi və axırda Həşim paşanın oğlu Abbas əfəndini prezident seçmək məsələsində razılığa gəldilər.

Həmin vaxt Abbas əfəndinin 34 yaşı var idi, siyasi idarəetmədə təcrübəsiz və gəncliyini eyş-işrətdə keçirən bir insan idi. Qəfildən bu yükün altına girməsi onun fiaskosuna gətirib çıxara bilərdi, amma hakim komanda onu inandıra bildi ki, hamılıqla ona dəstək göstərəcəklər və beləliklə, Andaluniyanın növbəti prezidenti Abbas əfəndi oldu.

Yeni prezidentin siyasi səriştəsinin olmamasından gen-bol yararlanan hakim komanda daxilində korrupsiya artdı. Həşim paşanın dövründə az-çox qorxuları var idi, axı hər necə olsa da onları vəzifəyə o qoymuşdu və hərbçi xarakteri ona qəti addımlar atmaqda kömək olurdu. Həşim paşa hakimiyyəti dövründə hətta bir neçə naziri işdən qovmuşdu, buna baxmayaraq onların bəziləri Abbas əfəndinin hakimiyyəti dövründə yenidən vəzifələrə təyin olundu. Abbas əfəndi hakim komandanın dəstəyi ilə hakimiyyətə gəldiyinə, özünün siyasi səriştəsi olmadığına görə onların yanında gözükölgəli idi və bir az da onlara möhtac idi, axı idarəetmə onların əlində idi...

Ölkənin iqtisadi vəziyyəti isə tam olaraq hakim komandanın nəzarəti altında və bərbad vəziyyətdə idi. Belə ki, sahibkarlar üçün şərait yaradılmır, sağlam rəqabət mühiti formalaşdırılmırdı, bunun yeganə səbəbi isə hakim komandanın hər şeyi öz əlində cəmləşdirmək arzusu idi. Qısaca desək, ya şirkət hakim komanda üzvlərindən birinin ailə üzvünə məxsus olmalı, ya da mütləq şəkildə onlardan birinin nəzarəti altında olmalı idi. Bu isə ölkədə birqütblü iqtisadiyyatın formalaşmasına gətirib çıxarırdı...

# Ölkə və şəhərdəki zülmün təsviri

## Sosial rifahın vəziyyəti

Əvvəlcə ölkədəki sosial rifahın səviyyəsinə nəzər salaq. İlk növbədə sosial rifahın nə olduğunu anlamalıyıq: *Bir cəmiyyətin üzvlərinin əsas ehtiyaclarını ödəyə bilməsi üçün bir araya gələn və optimal həyatı təmin edəcək amillərin əlçatan olmasına sosial rifah deyilir.* Sosial rifahın yüksək olması dövlətin qüdrətinin və cəmiyyətin varlı olmasının göstəricisi olduğu halda, aşağı sosial rifah isə dövlətin zəif və cəmiyyətin yoxsul olmasının göstəricisidir.

Sosial rifahın bir neçə faktordan asılı olduğunu bilirik. Onlardan ən birincisi dövlətin sosial təmərküzlü siyasətidir, istər sosializmin tərkib hissəsi kimi olsun, istərsə də liberalizmin siyasi xəttinin tərkib hissəsi kimi olsun. Dövlət bu siyasətini əsasən bazarda azad rəqabət mühitinin formalaşdırılması, sahibkarlara şəraitin yaradılması və bunun nəticəsində də iş yerlərinin açılması ilə həyata keçirməlidir. İş yerlərinin çox olması və bazarda azad rəqabətin olması, heç şübhəsiz ki, əmək bazarında iş təklifi baxımından keyfiyyətin artmasına gətirib çıxaracaq. Bu isə öz növbəsində əmək haqlarının yüksək olmasına səbəb olacaq.

Digər faktor isə bazardakı qiymətlərdir. Asanlaşdırılmış gömrük və sadələşdirilmiş vergi sistemi bu sahədə olduqca önəmli məsələlərdən biridir. Axı istər ödənilən gömrük rüsumu, istərsə də vergi rüsumu ən axırda alıcı tərəfindən ödənilir. Büdcəyə pulu sahibkar köçürsə də, həmin pulu malın maya dəyərinə daxil edir, beləliklə, bazarda satılan malın qiyməti bu rüsumlara müvafiq olaraq artır.

Bu sahədə vəziyyət çox bərbadidi. Mərhum Həşim paşanın dövründə məmurlar əməlli-başlı ondan qorxurdular və hər hansı bir məsələnin ona çatdırılmasından ehtiyat edirdilər. Buna görə də öz işlərini gizlincə, qədərində və ehtiyatla

görürdülər. Abbas əfəndinin hakimiyyəti dövründə isə hər şey başqa cür idi. Hakim komandada (xüsusən də Həşim paşanın dövründə olan məmurlardan) ondan nəinki qorxan, heç çəkinən də yox idi. Onlar öz aləmlərində Abbas əfəndini hakimiyyətə gətirməklə ona minnət qoyurdular, axı o özü heç hakimiyyətə gələ biləcək qabiliyyətdə bir adam deyildi və hətta gələ bilsəydi belə, onun hakimiyyəti bir neçə ay çəkəcəkdi. Məhz elə bu səbəblərdən hakim komanda ölkədə istədiyini edirdi və özünü heç bir halda hesabat verməyə borclu hiss etmirdi. Kimin qarşısında hesabat verməli idilər ki?! Özlərinin hakimiyyətə gətirdiyi Abbas əfəndinin qarşısındamı, yoxsa min bir zülm içində olan, başı bir qarın çörək pulu qazanmağa qarışmış məzlum Andaluniya xalqının qarşısındamı?

Hakim komandanın ailə üzvləri və qohumları ölkədə istədiklərini edirdilər. Müvəffəqiyyətli iş adamlarının təqibi, şirkətlərinin əllərindən alınması onların ən sevimli məşğuliyyətlərindən biri idi. İş o yerə çatmışdı ki, rayon polis rəisinin restoranına hansısa nazirin ailə üzvünün təşrif buyurması həmin polis rəisinə “sənin restoranın bizlik olmalıdır!” mesajını verirdi və kefinə soğan doğrayırdı.

Hakim komandanın bu cür münasibəti, heç şübhəsiz ki, ölkədə sahibkarların azalmasına və azad bazar rəqabətinin məhv olmasına gətirib çıxarırdı. İlk mərhələdə sahibkarlarda qorxu yaratmaq üçün bəzilərini müxtəlif bəhanələrlə (adətən qanunsuz silah və narkotik maddənin saxlanması bəhanələri ilə) həbs etdirdilər. Sizdə sual yarana bilər ki, axı bu necə ola bilər, bəs qanun, bəs məhkəmə? Andaluniyada qanun da, məhkəmə də yalnız hakim komandanın iradəsinə xidmət edirdi, qanun da, məhkəmələr də onların idi.

Sonralar bəzi sahibkarlar məmur komanda ilə yola getməyi bacardı, şirkətlərinin 51 faizini onlara verməklə fəaliyyətlərini davam etdirənlər də, şirkətlərini heç-puça

onlara satıb ölkəni tərk edənlər də oldu. Bu nisbət ölkəni tərk edənlərin xeyrinə inkişaf etməyə başladı. Nisbətən qanunların işlədiyi və ədalətin olduğu başqa ölkələrdə yaşayıb iş qurmaq mümkün olduğu halda, niyə axı bu alçaltmalar qarşısında boynubükük qalmalı idilər?

Sahibkarlığın tənəzzülü fonunda iş yerlərinin azalması, əmək haqlarının minimum olması təbii bir prosesdir. İnsanlar gündəlik gəlirləri 6-8 dollara yaxın olan iş tapdıqda sevinir və səmimi şəkildə Tanrıya şükür edirdilər. Hakim komandanın ölkədə monopoliya və möhtəkirlik yaratması isə onsuz da ağır olan vəziyyəti bir az da ağırlaşdırırdı. Gömrük və vergi sistemində böyük dövlət rüsumları ilə yanaşı, ifrat dərəcədə rüşvətin də tələb edilməsi bazardakı qiymətlərin bahalaşmasına gətirib çıxarırdı. Ölkədə neft və qaz hasilatına baxmayaraq, neft məhsullarının və təbii qazın baha olması isə nəqliyyat və logistika qiymətlərinə təsirsiz ötüşmürdü. Bütün bunların hamısı bazardakı qiymətlərdə öz əksini tapırdı. Ölkədə hasil olunan təbii qazın böyük hissəsi xaricə satışa yönəldilmişdi, əhaliyə isə xaricə satılan qiymətdən üç dəfə baha satılırdı. Məhz elə bu bahalıq və aşağı əməkhaqqı səbəbindən evlərdə qaza qənaət edilir, bəzən insanlar evlərində palto və gödəkcələrlə otururdular. Maddi problemlərin müqabilində ölkədə dilənçilik geniş vüsət almışdı. İş o yerə çatmışdı ki, hətta telekanallarda belə insanları efirə çıxarıb, uşağın əməliyyatına görə insanlara pul diləndirirdilər. Dilənçiliyin efirlərdən təlqin edilməsi bu işin geniş vüsət almasına təkan verən digər bir amillərdən biri idi. Sanki insanlara "pul istəyirsənsə, dilənməlisən!" mesajı verilirdi. Bu taktika isə "müvəffəqiyyət"lə işləyirdi...

Abbas əfəndinin hakimiyyətinin ilk illərində hər yerdə "işçi qız tələb olunur" elanları yayılmağa başladı. Tarixən Andaluniya kişisi işləyib evə pul gətirər, qadın isə evdə uşaqların böyüdülüb tərbiyə edilməsi ilə məşğul olardı. Bu tip elanlar ilk vaxtlarda qeyri-ciddi qarşılansa da,

sonralar iş yerləri azaldığına və iş yerləri yalnız qızlara təklif edildiyinə görə adi hal kimi qarşılanmağa başladı. Beləliklə, əsrlərin dərinliklərindən gələn adət-ənənələr və milli-mənəvi dəyərlər dəyişikliyə məruz qaldı.

İşsizlik ardınca səfalət və əxlaqsızlıq gətirdi. Televiziya kanallarında bəh-bəhlə təqdim olunan "turizmin inkişafı" ölkədə əxlaqsızlığın yayılmasına gətirib çıxardı. Andaluniyaya gələn harın və qudurğan ərəblər əksər hallarda buraya məhz seks turizminə görə gəlirdilər. Ölkənin qız-gəlinini ərəblərə xidmət etməyə məcbur edən hakim komanda isə öz "əl işi"nə baxıb qürrələnirdi. Niyə də olmasın? Axı əsrlərdən bəri milli mentalitetində "qeyrət" və "namus" məfhumlarının böyük yer tutduğu bir xalqı əxlaqsızlığın və mənəviyyatsızlığın dibinə çökdürmüşdülər...

Son illərdə sosial durum o qədər ağırlaşmışdı ki, insanlar artıq ümidsizliyə qapılmışdılar. Onlar ya oğurluq edərək, kiməsə kələk gələrək dolanışıqlarını təmin etməli, ya da son çıxış yolu kimi intihara əl atmalı idilər. Oğurluq və kələk gəlməyin sonu heç də yaxşı qurtarmırdı, hakim komandanın milyardları oğurlaması müqabilində kar və kor olan ədalət "ilahə"si Femida kasıbların canını boğazından sanki tikanlı məftil kimi çıxarıb alırdı. Yazıq insanlar bu zülmə tab gətirmədikləri üçün canlarına qıyırdılar. Məhz elə bu səbəbdən də ölkədə intiharların sayı durmadan artırdı. Hərbi xidmətdə zülmə dözə bilməyən əsgər və zabitlər, universitetdə rüşvət verə bilmədiyinə görə imtahandan kəsilən tələbələr, işsiz olduğuna görə ailənin qarşısında başı aşağı olan atalar və s... Hə, bir də pulsuzluq və işsizlik ucbatından ölkəyə gələn ərəb turistlərinə seks xidməti göstərən qız-gəlinlər bunun üstü açıldıqda çıxış yolunu intiharda görürdülər. Onları buna xalqın adət-ənənələri təhrik edirdi, axı tarixən Andaluniyada namus və qeyrət anlayışları var idi və heç bir nəsil bu biabırçılığı

üzərində daşımağa razı deyildi. İntihar yolunu seçməyən qız-gəlinlər isə mütləq şəhəri və ya kəndi bir daha geri dönməmək şərti ilə tərk etməli idi, bundan sonra da onun nəsli bu damğa ilə yaşamağa məhkum olurdu.

## Korrupsiya bəlası

Abbas əfəndinin hakimiyyətinin üç dayağı vardı: 1. Qohumbazlıq (nepotizm, traybalizm). 2. Yerlibazlıq. 3. Rüşvət.

Bu üç ünsürün ittifaqı isə korrupsiya adlanır. Bu gün cəmiyyətdə insanların çoxu korrupsiyanı yalnız rüşvətin geniş yayılması halı kimi başa düşür, amma bu belə deyil. "Korrupsiya" ifadəsi ingilis dilində "corruption" kimi başa düşülür və izahlı lüğətə baxanda mənasının "zülm" olduğunu görürük. *"Zülm" kiminsə haqqını əlindən almaq və kiminsə (nəyinsə) öz yerində olmaması, yəni "ədalət"in olmamasıdır.* "Ədalət" isə hər kəsin öz haqqını alması və hər şeyin öz yerində olmasıdır. Qohumbazlıq, yerlibazlıq və rüşvətlə idarə olunan bir ölkədə bir insan öz haqqını necə ala bilər? Ləyaqətsiz bir insan sırf hansısa nazirin qohumu olduğuna görə bir idarənin rəisi olursa, həmin vəzifəyə daha çox layiq olan insan öz yerində necə ola bilər? Rüşvətlə universitet bitirərək hakim kimi işə düzəlmək olarsa və bunun nəticəsi olaraq, rüşvətlə məhkəmə qərarı əldə etmək olarsa, haqq öz yerini necə tutacaq?

Korrupsiya əsrlərlə müxtəlif dövlətləri uçuruma aparmış bir bəladır və təəssüf ki, bu bəla Andaluniyadan da yan keçməmişdi!

## Müxtəlif sahələrin məhvi

Korrupsiya bataqlığına düşmüş hakim komanda öz məqsədyönlü siyasəti nəticəsində bir çox sahələri məhv edib. Bir neçə vacib sahənin məhvini oxucunun diqqətinə çatdırmaqla vəziyyətin necə də acınacaqlı olduğunu

göstərməyi zəruri bildim.

**Təhsil** – bir dövlətin və xalqın təkamülü üçün olduqca zəruri olan bir sahə.

***"Dünyanı dəyişdirmək üçün istifadə edə biləcəyiniz ən güclü silah təhsildir"*** (Nelson Mandela).

Görünür, hakim komanda bu "silah"ın onlara qarşı yönələcəyindən qorxaraq, təhsilin kökünü qazımaq istəyirlər. Təhsilin məhvi hələ Həşim paşanın hakimiyyətə gəldiyi ilk dövrlərdə artıq başlamışdı. Abbas əfəndinin hakimiyyətə gəlişindən sonra isə vəziyyət lap dözülməz oldu. Əlbəttə, hansı despot istəyər ki, xalqı yüksək keyfiyyətli təhsil alıb sabah onun özünə qarşı çıxsın? Axı bu hakimiyyət milli maraqlara xidmət etmir, yalnız özünü düşünür və özünə xidmət edir.

Təhsilin məhvi bir neçə mərhələdə baş verdi, onların içində ən önəmli olan ikisindən danışacağıq. Birincisi rüşvətdir – təhsil sahəsinə rüşvətin düşməsi ot tayasına odun düşməsi kimidir, yandırıb külə döndərir. Min bir əziyyətlə oxuyub universitetə hazırlaşan gənclərin həm qəbulda, həm də təhsil müddətində rüşvətlə üzləşməsi tələbələrdə ruh düşkünlüyünə və təhsilə qarşı nifrətin yaranmasına səbəb olur. Bir təsəvvür edin, illərlə zəhmət çəkib oxuyasan, birtəhər universitetə girəsən, orada da sənə "pul verməsən qiymət yoxdur!" desinlər. Bu ki bir gəncin gözündə dünyanın həlakı deməkdir.

İkinci metod isə təhsildə öyrənməkdən və tətbiq etməkdən daha çox əzbərçiliyə yer verilməsi idi. Üstəlik, orta məktəblərdə və universitetlərdə o qədər tədris yükünü artırmışdılar ki, şagird və tələbə nəyi və necə əzbərləyəcəyini hələ də anlamırdı. Heç kim sual da vermirdi ki, "axı biz niyə bu qədər informasiyanı əzbərləməliyik?!". Sanki hamı axına qoşulub "irəliləyirdi". Universitetlərdə hələ də 60-70-ci illərin elmləri tədris edilirdi, tədris materiallarının yenilənməsi və yeni metodikalara keçid

haqqında isə heç söhbət belə gedə bilməzdi. Sanki "qarşına nə qoyurlarsa əzbərləməlisən, vəssalam!" metodu tətbiq edilirdi. Şagird və tələbələrə düşünmək üçün deyil, sadəcə başlarını doldurmaq üçün fənlər tədris olunurdu. Halbuki: ***"Təhsil beyni inkişaf etdirməkdir, başı doldurmaq deyil"*** (Mark Tven).

**Kənd təsərrüfatı** - əsrlər boyu Andaluniya xalqının məşğuliyyətlərindən biri də əkinçilik və maldarlıq olub. Lakin son 20 ildə Abbas əfəndinin hakimiyyəti altında bu sahə də çökdürüldü. Kənd təsərrüfatı hər bir ölkə üçün zəruridir, bu həm ölkənin qida təminatını qarşılamaq, həm də əyalətlərdə və kəndlərdə məşğulluğu təmin etmək üçün əvəzsiz bir sahədir.

Kənd təsərrüfatının məhvi hakim komandanın monopoliyasını təmin etmək üçün lazım idi. Yəni kəndlərdə kartof əkilmirsə, xalq zəhmət çəkib hansısa nazirin monopoliyasında olan, xaricdən gətirilmiş kartofu almalı olurdu.

Monopoliyanın yanında isə möhtəkirlik də öz sözünü deyirdi. Belə ki, məmurların qoçuları az-çox əkib-becərən kəndlilərə hədə-qorxu gələrək əllərindəki meyvə-tərəvəzi cüzi qiymətə alıb anbarlara yığırdılar, bir neçə ay keçəndən sonra isə baha qiymətə bazara çıxarırdılar. Bu proses xalqa ikiqat zərbə vururdu: 1. Bazardakı qiymətlər bahalaşırdı. 2. Az-çox əkinçiliklə məşğul olanlar bu işi tərk edirdi və nəticədə xaricdən gələn meyvə-tərəvəzdən asılılığı artırırdı.

Növbəti mərhələdə isə süni şəkildə torpaq və su problemləri yaradıldı. Hakim komandanın üzvləri əkib-becərə bilməyən və buna görə də ağır maddi durumda olan kəndlilərdən torpaq sahələrini çox ucuz qiymətə almağa başladılar, özləri əkib-becərdiklərinə görə də çaylar və kanallardakı suyu öz sahələrinə tərəf istiqamətləndirdilər. Kənd təsərrüfatı sahəsində su çatışmazlığı Fransadakı taun xəstəliyindən daha öldürücüdür. Beləcə, əkin sahələrinin

çoxu tərk edildi və insanlar işsiz qaldı.

Heyvandarlıq sahəsində də vəziyyət ürəkaçan deyildi. Otlaq sahələrinin çoxunu hakim komanda üzvləri öz əllərinə keçirmişdi və kəndlilər heyvan otarmağa sahə tapa bilmirdilər. Xarici ölkədən gətirilən arpa və digər yem vasitələri ilə isə heyvan saxlamaq çox baha başa gəlirdi. Beləcə, kəndlərdə sadəcə bəzi həyətlərdə beş-on qoyun saxlayaraq keçinmək olurdu, bu halda isə qazancdan söhbət belə gedə bilməzdi.

Kənd yerində başqa məşğuliyyət olmadığına görə kişilər ailələri qarşısında başıaşağı qalmamaq üçün ölkəni tərk edərək pul qazanmaq məqsədilə qonşu ölkələrə üz tuturdular. Bu isə kənd yerlərində kişi çatışmazlığına gətirib çıxarırdı, bir çox qızların yaşı keçsə də, ailə qura bilmirdi. Bu isə demoqrafik problemlə yanaşı digər fəsadlara da yol açırdı.

Rayon və kəndlərdə olan bu qədər problemlərin fonunda paytaxt Bakka sanki səhrada ucalan cənnət məkanı kimi görünürdü. Rayon və kəndlərdən baxanlar Bakka haqqında xəyallar qurur və xəyalların reallaşdığı yer kimi görürdü. Axı niyə də olmasın? Ölkəyə axan neft və qaz pullarının hesabına hakim komanda nümayəndələrinə məxsus tikinti şirkətlərinin tikdiyi dəbdəbəli və gözəl binalar, barlar, kafelər, restoranlar uzaqdan adama gəl-gəl deyirdi. İstehsal müəssisələri olmasa da, iaşə obyektləri və otellərdə kifayət qədər iş yerinin olması fikri insanları rahat buraxmırdı. Çəkilən şit və bayağı filmlərdə, gecə barlarında təsadüfi tanışlığın xoşbəxt sonluqla başa çatması təlqin edilincə isə insanların bu cür xam xəyallara düşməsi qaçılmaz olur. Axı xalq uşaq kimidir, onu necə tərbiyə edəcəksənsə, elə də böyüyüb formalaşacaq...

# Xalqın və ölkənin ruhunun məhvi

Andaluniya xalqının əksəriyyətinin türk mənşəli olduğunu qeyd etmişdik. Osmanlı sultanları sərhədlərin təhlükəsizliyi üçün koloniyaların yaradılması strategiyasından uğurla istifadə etmişdilər. Elə bu səbəbdən də Andaluniyaya köç edən türklərin mütləq əksəriyyəti əsgər ailələri idi. Onlar hər zaman döyüşə hazır olmaları üçün əkin və maldarlıqla yanaşı hərb sənətini də canlı saxlamalı idilər. Müharibə olarkən və səfərbərlik elan olunan kimi andaluniyalı əsgərlər dərhal hazırlıqlı şəkildə sultanın sərəncamında olmalı idi. Elə məhz bu səbəbdən də hərb sənəti əsrlərlə Andaluniya xalqının əsas məşğuliyyətlərindən biri olub və dəfələrlə məhz elə bunun sayəsində ölkənin siyasi həyatında vacib rol alıb.

Məsələn, 1947-ci ildə Cəfər paşanın rəhbərliyi altında ingilislərə qarşı müqavimət hərəkatı və müstəqilliyin qazanılması, 1971-ci ildə isə Həşim paşanın rəhbərliyi ilə hərbi çevriliş elə hərb sənətinin ölkə həyatında oynadığı ən önəmli rollardan idi.

Həşim paşa hərbi keçmişə malik və ordu sıralarında daha çox dəstəyə sahib olduğundan bu sahədə heç bir problem yaşamırdı. Onun ordu sıralarında tanışları və dəstəkçiləri kifayət qədər idi və özü də həmin sahədən çıxdığına görə orduya yüksək qayğı ilə yanaşırdı. Kim bilir, bəlkə də bu xüsusi qayğı mümkün olan hərbi çevriliş qorxusundan irəli gəlirdi. Amma onun hakimiyyəti dövründə bir dəfə belə olsun ordudan onun ünvanına hansısa xoşagəlməz söz söylənilmədi, əksinə daim ona sədaqətlə xidmət olundu.

Abbas əfəndi isə tamamilə ayrı bir mövzudur, onun nəinki hərbi sferada savadı yox idi, o heç hərbi xidmətdən belə keçməmişdi. Hərbi sahə ona yad idi və buna görə də o, bu sahəni hələ atası Həşim paşanın təyin etdiyi general Nəsrəddin paşaya həvalə etmişdi. Nəsrəddin paşa isə hakim

komandanın digər üzvləri kimi bu sahəni korrupsiyaya yoluxdurmuşdu, qohumbazlıq, yerlibazlıq və rüşvət üzərində hərbi struktur qurmuşdu. Rüşvət faktoru hərbi sıraların ən sonuncu cərgəsinə qədər gedib çıxa bilmişdi. Əsgərlərdən rüşvət almaq üçün onlara şər və böhtanın atılması, rüşvət verilməyəcəyi təqdirdə isə onların hərbi tribunala verilməsi hədəsi ilə alınan rüşvətləri hesablamaq üçün ən son model kalkulyator belə bəs etməz. Bu metod nəinki əsgər səviyyəsində, hətta ali zabit səviyyəsində də tətbiq edilirdi. Nəticədə hərbi struktur o qədər iyrənc bir vəziyyətə düşmüşdü ki, əsgərlər və zabitlər həsrətlə xidmət dövrlərinin başa çatıb tərxis olunacaqları günü gözləyirdilər. Xüsusən də zabit heyəti "başını aşağı sal, maaşını al" prinsipi ilə xidmətlərini davam etdirirdilər.

Ordu sıralarındakı bu zülm o qədər "inkişaf" etmişdi ki, zabit heyəti artıq boğaza yığılmışdı. Onlar ölkədə yeni bir çevrilişin və ya iğtişaşın olmasını istəmirdilər, məhz elə buna görə də Tartara rayonunda olan hərbi birləşmənin bir qrup zabiti yığışaraq Abbas əfəndiyə ünvanlanan bir müraciət yazıb imzalayaraq poçtla göndərdilər. Qırx beş zabitin və yüzlərlə əsgərin imzaladığı bu müraciət Andaluniya prezidenti Abbas əfəndiyə ünvanlansa da, Nəsrəddin paşanın əlinə keçdi. Əlbəttə, xərçəng şişi kimi dövlət strukturlarını bürümüş korrupsiyaçı məmurların hər bir idarədə kadrları var və bu kadrlar məhz elə bu cür məqamlarda təhlükəni önləmək üçün istifadə olunur.

Nəsrəddin paşa bu müraciəti oxuyan kimi bərk qəzəbləndi və həm də qorxuya düşdü. Əsəbiləşməyi aydın idi, axı bu zabit və əsgərlər kim olur ki, onun sistemi barədə Abbas əfəndiyə şikayət etsin?! Qorxusunun səbəbi isə bir gün bu şikayətlərdən birinin mətbuata və ya Abbas əfəndiyə çatacağı ehtimalına görə idi. Nəsrəddin paşa öz zalimanə dühası ilə bir tədbir görməli idi, elə bir tədbir ki, nəinki bu müraciəti yazanlara, hətta digər zabit və

əsgərlərə də ibrət olmalı idi. Öz müşavirləri və həmin birliyin komandanlığı ilə bir neçə gün məsləhətləşdikdən sonra o, çıxış yolu tapdı. Amma bunun üçün o, mütləq hərbi prokurorla da razılaşmalı idi.

Nəsrəddin paşa dərhal hərbi prokuror Şahmar paşa ilə görüşüb bu mövzunu müzakirə etdi.

Nəsrəddin paşa dedi:

– Əziz dostum, bəzi zabit və əsgərlər Abbas əfəndiyə bizim müştərək olaraq qurduğumuz rüşvət sxemi haqqında müraciət göndəriblər.

Şahmar paşa həyəcan dolu baxışlarla soruşdu:

– Nə danışırsız, paşa?! Bu, çox pis xəbər oldu! Nə etməyi planlaşdırırsınız? Nə məsləhət görürsüz? Müraciət Abbas əfəndiyə çatıbmı? Onun reaksiyası nə olub?

Nəsrəddin paşa:

– Qorxmayın, paşa! Qorxu hissi bizə yaddır! – deyə hiyləgərliklə gülümsəyir. Biz hələ ölməmişik ki, hansısa zabitlə əsgərin yazdığı müraciət Abbas əfəndiyə çatsın.

Şahmar paşa sevindi:

– Hə, deməli, müraciəti ələ keçirməyi bacarmısız, bravo, paşa! Bu artıq məsələni 1-0 bizim xeyrimizə dəyişir. Bu yaxşı oldu, lap yaxşı oldu. Bəs nə planlaşdırırsız? Nə tədbir görmək istəyirsiz?

Nəsrəddin paşa cavabında dedi:

– Əvvəlcə gərək Abbas əfəndini həmin zabit və əsgərlərin cəzalandırılması istiqamətində razı salaq. Bunun üçün isə sizin köməyinizə ehtiyacım var.

Şahmar paşa soruşdu:

– Cəza dedikdə nəyi nəzərdə tutursunuz və Abbas əfəndini necə razı salmağı planlaşdırırsız?

Nəsrəddin paşa hiyləgərcəsinə gülümsəyərək:

– Müraciəti imzalayan zabit və əsgərlərə görünməmiş bir divanın tutulması, – deyərək üzünə soyuq bir ciddiyyət ifadəsi verərək davam etdi: – Elə bir divan ki, bütün zabit

və əsgərlərin canına dəhşət və vəhşət vəlvələsi salsın!

Şahmar paşa təəccüb dolu nəzərlərlə dedi:

– Onu etmək bizim üçün asandır, çox asan! Əvvəlcə deyin görək, Abbas əfəndini bu işə necə razı salacaqsınız, onu necə inandıracaqsınız?

Nəsrəddin paşa daha hiyləgər təbəssümlə:

– Onu zabit və əsgərlərin qonşu dövlətin xeyrinə ölkədə hərbi çevriliş etmək istədiklərinə inandıracağam, – deyərək qəhqəhə çəkdi: – Öz kölgəsindən belə qorxan Abbas əfəndi dərhal tədbir görməyimiz üçün ayaqlarımıza düşəcək, ha-ha-ha...

Şahmar paşa təəccüb dolu təbəssümlə:

– Necə də dahiyanə bir plandır, sizdən əməlli-başlı qorxulur, paşam! Əgər siz bu planın tətbiqinə Abbas əfəndini razı sala bilsəniz, baş prokuror Kamal paşanı da razı salmaq mənim boynuma, ha-ha-ha...

Nəsrəddin paşa ciddiləşdi:

– Amma Abbas əfəndiyə deyəcəyim məsələ barəsində əlimizdə heç bir fakt yoxdur, birdən bizdən fakt istəsə nə edəcəyik?

Şahmar paşa özündən razı halda dedi:

– Siz nə danışırsız, paşa?! Biz faktları yoxdan var etmək qüdrətinə sahibik! Zabit və əsgərlər öz əleyhlərinə ifadə verəcəklər, quzu kimi etiraf edəcəklər. Bu işi bizə buraxın, sizdən yalnız canlı qüvvə dəstəyi istəyəcəyik, vəssalam, yerdə qalanı bizim boynumuza.

Nəsrəddin paşa ciddiyyətlə dedi:

– Yaxşı, razılaşdıq! Bir neçə günə mən Abbas əfəndinin razılığını alacağam, siz isə Kamal paşanı bu işə razı salın.

Hərbi prokurorun otağını tərk edən Nəsrəddin paşa dərhal öz qərargahına gedərək Abbas əfəndi üçün raportu hazırlamağa başladı. Raportu elə qorxulu bir məcrada hazırladı ki, Abbas əfəndi onu oxuyan kimi təşvişə düşsün və dərhal tədbir görülməsi üçün sərəncam versin. Əlbəttə,

hərbi və siyasi səriştəsi olmayan Abbas əfəndini bu işə razı salmaq heç də çətin başa gəlmədi. İctimaiyyəti isə “casusluq haqqında” bir bəyanatla aldatdılar. Ölkədə və xüsusilə də Tartara rayonunda elə bir ab-hava yaratmışdılar ki, hətta mülki şəxslər belə bir-birindən ehtiyat edirdi.

2019-cu ilin yayında Tartara rayonunda mövqe tutmuş hərbi birləşmədə əvvəllər nəinki Andaluniya tarixində, heç bəşəriyyət tarixində görünməmiş bir faciə yaşandı. Minlərlə zabit və əsgərlərə işgəncələr verildi, onlarla insan işgəncələr altında öldürüldü və yüzlərlə insan işgəncələrə dözməyərək öz əleyhinə “etiraf” ifadəsi verdi. Onlarla insan ömürlük həbs cəzası aldı, ailələr və nəsillər məhv oldu.

Tartara rayonunda baş verən dəhşətli hadisələr haqqında xəbər işıq sürəti ilə bütün ordu birləşmələrinə yayıldı, hamı bunun hansı səbəbdən baş verdiyini anlayırdı, amma susurdu. Heç kim cınqırını belə çıxarmağa cürət etmirdi. Kimə nə demək olardı ki?! Hərbi prokurorluq hərbi nazirliklə birləşib zabit və əsgərlərə zülm edirdi, Abbas əfəndiyə şikayət etməyin isə heç bir yolu yox idi. Ümid qalırdı yalnız Tanrıya!

Üstündən iki il keçəndən sonra bu məsələ mətbuata və ictimaiyyətə sızdı. “Tartara faciəsi”ndə qətlə yetirilmiş Elçinin anası Validə xanımın israrlı şikayətləri və müraciətləri sayəsində bir neçə hüquq müdafiəçisi bu işi araşdıraraq ictimailəşdirmək qərarına gəldi. Onlar araşdırmalarının nəticələrini sosial şəbəkələrdə bloqları və YouTube kanallarının köməyi ilə ictimailəşdirirdilər. Lakin bu çox çəkmədi, həmin hüquq müdafiəçilərindən birini sui-qəsd vasitəsi ilə aradan götürdülər, digər iki nəfəri həbs etdilər, yerdə qalanı isə ya ölkəni tərk etdi ya da bu işdən əl götürdü. Bu işi araşdıraraq ictimailəşdirən hüquq müdafiəçilərindən biri Aslan bəy idi. Onun gördüyü iş daha genişmiqyaslı idi, o, zərərçəkənlərdən müsahibə alaraq öz YouTube kanalında yerləşdirirdi. Gördüyü bu işin

müqabilində o, Şahmar paşa ilə Kamal paşanın qəzəbinə tuş gəldi, onun əleyhinə bir neçə şəxsdən ifadə alaraq "dövlət çevrilişinə cəhd" maddəsi ilə 15 il müddətinə həbs etdilər. O özü həbsdə olsa da, aldığı müsahibələr hələ də YouTube kanalında qalmaqdadır.

"Tartara faciəsi" haqqında qısa informasiyanın verilməsinin əsas səbəbi bu yolla Andaluniya xalqının hərbi ruhunun öldürülməsi və müqavimət göstəriləcəyi təqdirdə amansız reaksiyanın olduğunu nəzərinizə çatdırmaq idi. Bütün bu baş verənlərdən sonra xalqda hansı ruh qalmalıdır ki?! Bu hadisənin əslini bilməyənlər hələ də orduda xəyanətin olduğuna inanaraq hərb sənətinə nifrət bəsləyir, həqiqəti bilən azsaylı kütlə isə orada baş verən dəhşətli hadisələrdən qorxaraq səsini çıxarmırdı... Bax beləcə bir xalqın ruhunu sarsıtmış və məhv etmişdilər.

Hakim komanda həmçinin ölkənin də ruhunu məhv etməklə məşğul idi. Bəli, ölkəyə axan neft-qaz pullarının hesabına korrupsiyaya qurşanmış hakim komanda paytaxt Bakka şəhərini uca və möhtəşəm binalarla bəzəyirdi, amma bu nəyin bahasına başa gəlirdi?! Qədim və özündə ölkənin və şəhərin ruhunu daşıyan binalar sökülür, yerində isə müasir, dəmir-beton konstruksiyalı hündür binalar tikilirdi. İş o yerə çatmışdı ki, Bakkada, şəhərin mərkəzində bir neçə yüz illik tarixi olan bina tapmaq demək olar ki, mümkün deyildi. Bir-iki bina və məscidlər istisna olmaqla bütün binalar sökülmüş və yerlərində göydələnlər tikilmişdi. Hakim komandanın başı "yenidənqurma"ya elə qarışmışdı ki, hətta 5-6 əsrlik tarixi olan məscidləri belə insanların etirazına baxmayaraq söküb yerinə yeni və hündür, yaraşıqlı məscid tikməkdən çəkinmirdilər.

Etirazlar demişkən, elə bilməyin ki, hakim komandanın xalqı səfalətə sürükləyən siyasətinə etiraz edənlər olmur, qətiyyən belə deyil! Hələ Həşim paşanın hakimiyyəti dövründə də ara-sıra etirazlar olurdu, əksər hallarda bu

etirazlar hakim komandanın özbaşınalığı, qanunların tapdalanması və ağır sosial duruma qarşı olurdu. Heç bir halda Həşim paşanın idarəçiliyinə qarşı və ya hakimiyyət uğrunda təşkilati etirazlar olmurdu, sırf elə sadalanan səbəblərlə baş verirdi. Buna əsas səbəb isə Həşim paşanın məqsədyönlü şəkildə özünü xalqa qüsursuz lider kimi sırıması və siyasəti idi. Həşim paşa bu tip etirazlara icazə verirdi və sonra bir sərəncamla islahat görüntüsü yaradaraq gərginliyi azaltmağa nail ola bilirdi. Abbas əfəndinin dövründə isə siyasi proseslər nəzarətdən çıxırdı. Özünün güclü siyasi şəxsiyyəti olmadığına görə Abbas əfəndini müxalif düşərgədə ciddi qəbul edən yox idi, səriştəsizliyi isə məsələlərə soyuq başla baxmağa maneçilik törədirdi.

Abbas əfəndinin hakimiyyəti dövründə neçə-neçə ziyalı, siyasi xadim və jurnalist sui-qəsdlə məhv edildi. Bütün bunlar, əlbəttə ki, xalqın mənəvi genetik fonduna təsirsiz ötüşməyə bilməzdi. Xalqın qarşısında aparıcı ziyalı şəxslər olmadıqda nəinki mübarizə aparmaq, heç təşkilatlanmaq belə mümkün deyildi. Siyasi institutlar artıq “son saat”larını yaşayırdı, pərakəndə şəkildə bəzi insanların etirazı isə heç bir nəticə verə bilməzdi. Hakimiyyət hətta pərakəndə etiraza qarşı dözümsüz yanaşırdı, həmin şəxslərin şikayətinə baxmaqdansa, onlar min bir yolla şərlənərək ya həbs edilirdi, ya da dəlixanaya salınırdı.

Getdikcə artmaqda olan etirazları tənzimləmək, kütləvi etirazları dağıtmaq üçün çoxlu sayda texnikalar alınmış, dəlixana və həbsxanalar tikilmişdi. Ölkədə elə rəsmi olaraq ruhi-əsəb dispanserlərinə məqsədli şəkildə “dəlixana” deyirdilər, bu, insanlarda ikrah və qorxunu artırmaq üçün belə edilmişdi, alınırdı! Dəlixana və həbsxana demişkən, ümumilikdə Andaluniyada 23 dəlixana və 128 həbsxana var idi və bunların 80 faizi məhz elə Abbas əfəndinin hakimiyyəti dövründə tikilmişdi. Sadəcə Bakka şəhərinin Sədəf dənizi sahilində yerləşən Nurxana kəndində 21

həbsxana və 4 dəlixana var idi.

Bir təsəvvür edin, Sədəf dənizinin sahilini məşuq kimi tumarladığı Bakka şəhərinin mənzərəsi, məscid, neft buruqları və gözoxşayan hündür binaların fonunda dəlixana və həbsxanalar...

# Həbsxananadakı insanların acı xatirələri

Mavi Sədəf dənizinin sahilini bəzəyən möhtəşəm və əsrarəngiz Bakka şəhəri!.. Dənizin ortasında durub Bakkaya nəzər saldıqda ilk nəzərə çarpan məscidlər, onların ətrafında olan neft buruqları, arxa fonda isə təmtəraqlı və yaraşıqlı, modern üslubda tikilmiş uca göydələnlər olur. Mavi Sədəf isə sanki aşiqin məşuqunu qucaqladığı kimi Bakkanı ağuşuna basır, sahilini tumarlayır və ona nəvaziş göstərir. Mənzərə ilk görünüşdə möhtəşəm olsa da, bir az dərinə getdikdə bu mənzərəyə onlarla həbsxana və dəlixana da daxil olurdu.

Bakka şəhərinin Nurxana kəndində 21 həbsxana var idi, onların bir neçəsi isə Sədəfin sahilində idi. Ölkədəki həbsxanaların rəsmi şəkildə adları var idi, sanki bilərəkdən elə vahiməli adlar seçilirdi ki, insanlarda süni şəkildə həbsxana xofu yaransın. Sözün açığı, həbsxanalardakı ağır şərait, işgəncələrin verilməsi, bu xəbərlərin qeyri-rəsmi yollarla insanlar arasında yayılması bu xofu bir az da artırırdı. Əlavə olaraq, həbsxana rəisləri öz aralarında “kimin həbsxanası daha çox vahiməli olar” adlı bir rəqabət də aparırdılar. Dərd üstünə dərd...

Dəhşətli hadisələrlə xalq arasında ad çıxarmış həbsxanalardan Qara Quyu, Cəhənnəm, Labirint, Odlu Zəncir və Qış Yuxusu həbsxanalarını misal çəkə bilərik. Bir təsəvvür edin, sizi Cəhənnəm həbsxanasına gətirirlər və qapıda sizə “Cəhənnəmə xoş gəlmisən!” deyirlər, elə ilk andan vahimə insan ruhunu sarsıtmazmı? Mən hələ həbsxanada cəza çəkən cinayətkarların öz düşüncələri ilə hərəkət etmələrini demirəm. Bir təsəvvür edin, siz siyasi məhkumsuz, sizi şərləyərək həbs ediblər, həbsxana işçilərinin sizinlə heyvan kimi rəftar etməsi ilə yanaşı, hələ bir cinayətkarlar da sizin üçün əlavə problem yaradır.

Nurxana kəndinin kənarında, dənizin sahilinin yaxınlığında tünd boz rəngli, üzərində şüşə qırıqları və tikanlı məftil olan hündür divarla əhatə olunmuş "Bataqlıq" adlı həbsxana var. Həbsxana rəisi "Qara müəllim" ləqəbli bir polkovnikdir, o, rəisi olduğu həbsxananın "ad çıxarması" üçün əlindən gələn hər pisliyi edir. Orta əsrlərin qara dövrü haqqında çəkilmiş filmlərdə gördüyümüz cəza və işgəncə qurğuları isə bu həbsxananın aksesuarları arasında xüsusi yer tuturdu. Həbsxana nəzarətçilərinin məhbuslarla qeyri-insani davranışları isə şəhərə əməlli-başlı səs salmışdı.

Budur, məhbus daşıyan avtobus "Bataqlığ"ın qapısına yaxınlaşır, qapılar açılır və avtobus həbsxananın həyətinə daxil olur. İdarənin qarşısındakı meydançada dayanan avtobusdan on bir məhbus kişi düşür. Onlar bir sırada düzülüb qızmar günəşin altında gözləyirlər. Bir neçə dəqiqədən sonra iki zabit sıranın qarşısına çıxır.

Nəzarətçi:

– "Bataqlığ"a xoş gəlmisiz, qızlar! Bundan sonra bura sizin eviniz, rəisimiz Qara müəllim isə atanız olacaq! Sözə baxmasanız əriniz şəxsən mən olacağam! Bu isə rəisimiz Qara müəllimdir! – deyərək yanındakı rəisi məhkumlara təqdim edir.

Qara:

– "Bataqlığ"a düşməyinizdən heç də ağıllı olmadığınız bəlli olur. Çünki ağlınız olsaydı bura düşməzdiniz, – deyərək bərkdən gülməyə başlayır. – Burada sizin ağıllı olmaqdan başqa variantınız yoxdur, ağıllı olun ki, yaşayışınız olsun, – bu dəfə daha bərkdən qəhqəhə ilə gülməyə başlayır. – Nəzarətçi, siyahı üzrə yoxla və təhvil al!

Nəzarətçi:

– Baş üstə, rəis! – deyərək siyahını açır.

Məhbuslar təhvil alındıqdan sonra onlara həbsxana paltarı verilir. Onlar paltarlarını dəyişərək yenidən sıraya düzülürlər.

Nəzarətçi:
– Bura uşaq bağçası deyil! Bildiyiniz həyat "Bataqlığ"ın qapıları xaricində qaldı! Burada isə sizi növbəti illərdə ağrı və iztirab gözləyir! Sizə xoş gələcək heç bir şey gözləməyin! Yalnız ağrı, əziyyət və iztirab! Siz yalnız bu yolla ağıllana bilərsiz! İndilik kimin sualı var?
Məhbuslardan biri:
– Həbsxanada kitabxana varmı, mütaliə etmək üçün şərait varmı? – deyə soruşdu.
Nəzarətçi yeyin addımlarla məhbusa yaxınlaşaraq:
– Sən kimsən? Özünü təqdim et, axmaq!
Məhbus dedi:
– Adım Arizdir, mən siyasi məhbusam, axmaq-zad da deyiləm!
Nəzarətçi dedi:
– Sən axmaqsan və hələ üstəlik tərbiyəsizsən! Sənə öyrətməyiblər ki, danışmazdan əvvəl icazə almaq lazımdır? Belə sadə məsələləri bilməyəcək qədər axmaq və tərbiyəsizsən! Nəzarətçilər, götürün bunları və tərbiyə ocağına aparın, haydı! – deyərək əsəbi halda gülümsəyir. – Bu axmağa isə xüsusi diqqət ayırın ki, Qara müəllimin qarşısında bu cür axmaqlamasın!
Nəzarətçinin dediyi tərbiyə ocağı əslində işgəncə yeri idi. Məhbuslara "Bataqlığ"a gəldikləri gündən işgəncə verilirdi ki, gözləri qorxudulsun. Onları işgəncəyə aparan tərbiyəçilər idi, onları bilərəkdən belə adlandırırdılar. Onların üzündə tanınmamaları üçün maska var idi. Tərbiyə mərkəzi kiçik bir zal idi, içərisində məhbusun oturmuş halda əl-qolunu bağlamaq üçün 10 xüsusi kreslo, hər küncündə bir çarmıx və divarda növbənöv işgəncə alətləri var idi.
Zalın düz mərkəzində isə taxt var idi, bu, çətin tərbiyə olunan məhbuslar üçün nəzərdə tutulmuşdu. Tərbiyəçinin biri Arizi həmin taxta əyləşdirdi, əllərini və ayaqlarını bağlayandan sonra işgəncə alətləri asılmış divara tərəf getdi.

İşgəncə alətlərinin qarşısında duran tərbiyəçi:
– Ariz müəllim, sən kitab oxumaq istəyirdin, eləmi? – deyərək gülümsədi. Dişlərini bir-birinə sıxaraq: – O qədər oxumusan ki, artıq gic olmusan. Bəs eşitməmisən ki, çox oxuyan axırda gic olar?! – deyərək vahiməli səslə şaqqanaq çəkdi.
Tərbiyəçi divardan sağ əli ilə əmuda oxşar bir alət götürdü, sağ əli ilə dəstəsindən tutduğu halda əmudun başını sol ovcuna vura-vura Arizə yaxınlaşdı:
– Bunu görürsən? Bilirsən bu nədir? Bu, bir zərbə ilə beynindəki boşluqları doldurmaq üçün peşəkar alətdir.
Digər məhbuslara artıq işgəncə verməyə başlamışdılar, onların bağırtıları zalın içərisində elə bir vahiməli atmosfer yaratmışdı ki, insan diri ikən ölümü arzulamaq istəyirdi. Ariz otaqda baş verənlərə əhəmiyyət vermirdi, gözlərini əmudun başına zilləmişdi, qorxu hissini cilovlamağa çalışırdı, özünü toplayıb gülümsəyərək dedi:
– Əmud peşəkar alət ola bilər, bəs sən özün necə, peşəkarsan? – deyərək tərbiyəçiyə istehza etdi.
Tərbiyəçi dedi:
– Bravo, müəllim, bravo! Bu zalda hələ indiyə kimi heç kim belə pozitiv zarafat etməmişdi, sən ilk oldun, bravo! Əgər çox oxumusansa onda bu sualıma cavab ver. Başının çəkisi 5 kiloqram olan əmudu var gücümlə alnına vursam nə baş verəcək?
Arizin üzündəki təbəssüm anidən həyəcan və qorxu ilə əvəz olundu, o, artıq qorxusuna nəzarət edə bilmirdi, başı və dodaqları əsməyə başlamışdı. Özünü zorla toplayaraq:
– Bu, ölümlə də nəticələnə bilər. Belə olduqda bəs nə edəcəksiz, ailə üzvlərimə nə cavab verəcəksiz? – deyə qorxu və həyəcanla dolu bir səslə soruşdu.
Tərbiyəçi ona sarı əyilərək pıçıltı ilə qulağına:
– Sən bunu özünə dərd eləmə, üçüncü mərtəbədən meyitini atıb "qaçmaq istəyərkən yıxılıb öldü" deyərək qanını

batıracağıq. Qətiyyən narahat olma, sən ilk olmayacaqsan, – deyərək qamətini düzəltdi, əmudunu sağ əli ilə geriyə çəkərək başının üzərində fırlatmağa başladı.
Əmudun havadakı vıyıltısı Arizin qorxusunu getdikcə artırırdı, axı bilirdi ki, əmud nə qədər sürətlə fırlanarsa, o qədər də vıyıltısı bərk olar, bir o qədər də zərbə güclü alınar. Ariz bu çətin vəziyyətdən təcili çıxış yolu tapmalı idi, yoxsa əmuddan qabaq qorxudan ürəyi partlayıb ölə bilərdi. Çox düşünmədən Ariz çıxış yolunu tapdı, o, gözlərini yumaraq əmudun görüntüsünü özü üçün yox etdi. Qaldı əmudun səsi, onu yox etmək üçün isə bir zamanlar anasının onun üçün oxuduğu laylanı zümzümə etməyə başladı. Budur, artıq Arizin qəlbinə xəfif bir aramlıq gəldi. Xəyalında özünün beşikdə, həyətlərindəki bağın meynə talvarının altında ana laylasının müşayiəti ilə yırğalandığını canlandırdı. Ara-sıra meynə yarpaqlarının arasından günün şüası onun üzünə və gözlərinə düşürdü. İlahi! O, özünü necə də rahat və xoşbəxt hiss... Tarap!... Zülmət və sükunət...
İki nəzarətçi Arizin qoluna girərək onu sürüyə-sürüyə həbsxananın ikinci korpusunun dəhlizi ilə aparırdılar. Divarları döşəmədən 20-40 santimetrə qədər nəm çəkmiş nazik və uzun dəhlizdə Arizi başı sallanmış, ağzından və burnundan qan süzülə-süzülə kamerasına tərəf aparırdılar. Arizin başı sallanır, ayaqları isə yerlə sürünürdü. Dəhlizin döşəməsinə axan qanı isə yerlə sürünən ayaqları vasitəsilə yayılaraq özündən sonra iz buraxırdı.
Nəzarətçilər 73-cü kameraya çatanda dayandılar. Qapını açaraq içəri keçdilər. Dördnəfərlik kamerada altı məhbus var idi, dördü çarpayıda uzanmışdı və dərhal çarpayıdan düşüb farağat durdular, ikisi isə yerdə uzanmışdı, onlar da qalxıb farağat durdular.
Nəzarətçilərdən biri:
– Qızlar, sizə yeni qonaq gətirmişik, əylənin! – deyərək Arizin huşsuz bədənini döşəməyə buraxdılar və kameranı

tərk etdilər.
Məhbuslar bir müddət sakitcə Arizin huşsuz bədəninə baxdılar, birdən məhbusların içində ən yaşlı olanı:
– Nə gözünüzü döyürsüz, götürün onu yerdən, uzadın, su ilə üzünü yuyun, nəyi gözləyirsiz, haydı! – deyərək kamerada canlanma yaratdı.
Onlar tez Arizi döşəmənin üzərindən qaldırdılar və çarpayılardan birinə uzatdılar. Məhbuslar Arizin üzünü görəndə qorxub yerlərində dondular. Əmud Arizin alnından necə tutmuşdusa, alnı yurmuq boyda şişmiş, gözlərinin hər ikisi ifrat dərəcədə qaralmış və şişmiş, burnundan və ağzından axan qan isə üzünü tamamilə qırmızıya boyamışdı.
Yaşlı məhbus:
– Nə baxırsız, ilk dəfədir döyülmüş insan görürsüz?! Aydın, tez su və əski gətir!
Aydın adlı məhbus dərhal otaqda gizlətdikləri balaca qabı su ilə doldurdu, əskini islatdı və Arizə yaxınlaşdı. O, əlləri əsə-əsə Arizin üzünü yumağa başladı. Arizin üzünə su dəydikdə ayılacağını zənn edən Aydın onun suya reaksiya vermədiyini görəndə bir az da təlaşlanaraq dedi:
– Bu heç suya da reaksiya vermir, bəlkə ölüb? Birdən bizi zibilə salarlar ha?
Yaşlı məhbus:
– Yox, o ölməyib! Sadəcə zərbənin təsirindən huşsuzdur. Bu, birinci dəfə deyil ki?! Ölsəydi onu bura gətirməzdilər, birbaşa morqa aparıb “qaçmağa cəhd edərkən yıxılıb öldü” adı ilə rəsmiləşdirərdilər. Bu, köhnə metoddur, həmişə də işləyən bir metod. Ona dəyməyin, qoy bir az dincəlsin, özünə gəlsin. Aydın, sən bu günlük yerdə yatacaqsan, o, ayılana qədər ona dəymək olmaz, onu tərpətməyin, beyni hər şeyi yoluna qoyacaq.
Aydın:
– Baş üstə, dayı, sən necə deyirsənsə, elə də olsun! – deyərək

döşəmədə özü üçün yer düzəltməyə başladı.

Ariz artıq bir həftə idi ki, “Bataqlıq”da idi. O, artıq tam olaraq özünə gəlmişdi, baxmayaraq ki, ayılandan dörd gün sonraya qədər onu başgicəllənmələr, gözünün fokusunun qaçması, alnında və gicgahlarında şiddətli ağrılar narahat edirdi. Artıq Ariz məhbuslarla tanış olmuşdu, hər gün vaxtında digər məhbuslarla birgə yeməyə gedir, həyətə gəzməyə çıxırdı. “Dayı” ləqəbli yaşlı məhbusun kamerada hörmət sahibi olduğunu öyrənmişdi. Aydın, Şahsuvar, Kərim, Hikmət və Polad isə digər məhbusların adı idi. Onlarla sadəcə səthi tanışlığı vardı, kimin nə səbəbə həbs olunduğunu isə hələ ki, bilmirdi.
Ariz könüllü olaraq döşəmə üzərində yatırdı və bu halından məmnun olmasa da, narazılığını gizlətməyə çalışırdı. O, artıq öyrənmişdi ki, 500 nəfər üçün nəzərdə tutulan həbsxanada 850 məhbus saxlanılır. Bu isə özünü həm çarpayı, həm də qida çatışmazlığında büruzə verirdi. Lakin bu problemi məhbuslar həll edə bilməzdi, sadəcə razılığa gələrək nizamı pozmamağa çalışmaq lazım idi. Başını aşağı salaraq vaxtı keçirmək və bir daha tərbiyə mərkəzinə düşməmək lazım idi.

## Ümumi tanışlıq

Bir həftənin tamamında nahardan kameraya qayıdandan sonra məhbuslar Arizə ətraflı tanış olmağı təklif etdilər. Həbsxanada hər bir kəsin öz əhvalatı olur, nə qədər uzun əhvalat olsa da tələsəcək yerləri yox idi. Həyat tarixçəsi nə qədər uzun olsa da əsas odur ki, maraqlı olsun.
Söhbətə Aydın başladı:
– Hə, Ariz, gəl tanış olaq, bu fani dünyanın dar kamerasında heç rəvadırmı ki, yeddi nəfər bir-birini tanımasın? Mənim adım Aydındır, Bakkanın Şahsevən kəndində anadan olmuşam, 24 yaşım var, subayam. Ehtiyac üzündən

mağazadan oğurluq etmişəm, buna görə də həbs edilmişəm. 4 il həbs veriblər, artıq cəzamın təxminən yarısını çəkmişəm. O isə Kərimdir. Hə, Kərim, başla görək, söz səndə.

Kərim asta səslə dedi:

– Mən Bakkanın Dəmirçi kəndində anadan olmuşam, 32 yaşım var, subayam. Adam döydüyümə görə 6 il həbs cəzası veriblər, hələ 4 ili qalıb.

Növbə Hikmətə gəldi:

– Mənim adım Hikmətdir, Samirabad rayonunda anadan olmuşam, 28 yaşım var, subayam. Oğurluq üstündə yatıram, hələ 3 il də burdayam.

Polad dedi:

– Mən Poladam, Soğanaq rayonunda anadan olmuşam, 30 yaşım var, subayam. İnsanlara fırıldaq gələrək pullarını mənimsədiyimə görə 8 il həbs cəzası veriblər. Hələ 6 ili qalıb... Fırıldaqçı olmaq da bir sənət deyil, insanları aldatdığıma görə çox peşmanam, özümü islah etməyə çalışıram. Eh, mən bu dünyaya layiq deyiləm...

Şahsuvar:

– Mənim adım Şahsuvardır, Tartara rayonunda anadan olmuşam, 38 yaşım var, evliyəm, iki uşağım var, Əli və Zəhra. Vətənə xəyanət maddəsi ilə 18 il iş veriblər, amma iki balamın canı üçün, mən vətənə xəyanət etməmişəm, sadəcə zorla boynuma qoyublar. Bir bilsəz ki, Tartarada nələr baş verib...

## Dayının əhvalatı

Dayı dedi:

– Mənim adım Adildir, hamı Dayı deyə müraciət edir. Özüm Təngə rayonundanam, 58 yaşım var, ailəliyəm, üç övladım var. Mən qatiləm, adam öldürdüyümə görə 10 il iş veriblər, hələ 6 ili qalır.

Ariz soruşdu:

– Dayı, həmin adamı niyə öldürmüsüz ki? O kim idi, səbəb nə idi?
Dayı:
– Adam? Ona adam demək olarsa... Təngə rayonunun prokurorunun bacısı oğlu idi. Adı Samir idi, 24 yaşı var idi. Rayon mərkəzində, evimizin yanında bir restoran açmışdı, adı "Qara İnci" idi. Hər gün məhəlləmizdə sülənirdi, it küçüyü!... – deyə Dayı əsəbdən dişlərini bir-birinə sıxır. Qızım dərsdən evə qayıdarkən qarşısını kəsib ona restorana, oradan da yatağa getməyi təklif etmişdi. Həmin gün qızım evə ağlaya-ağlaya gəldi. Hər şeyi anasına danışdı, anası da mənə dedi. Mən vəziyyətin ciddiliyini dərk edirdim, təhlükəni də görürdüm. Qızıma evə başqa yolla qayıtmağı tapşırdım.
Bir neçə gün sakitlik oldu, hər şeyin yoluna düşdüyünü sandığım vaxt qızım yenə evə göz yaşları ilə gəldi. O əclaf onu yenə küçədə görərək maşını ilə qarşısını kəsmiş və binamus təkliflər etmişdi. Artıq vəziyyətin gərginliyi məni sıxırdı, təcili bir tədbir görmək lazım idi. Qızıma bir həftə evdə qalmağı tapşırdım.
O gədənin atası yox idi, çoxdan ölmüşdü, anası ilə söhbət etmək isə alınmazdı. Məcbur olub onun dayısına, Təngə rayon prokuroru Asim paşaya bir yol tapmalı idim. Rayonumuzun Ağsaqqallar Şurasının sədri Hafiz hoca ilə görüşüb, onu Asim paşa ilə birgə görüşə getməyə razı saldım.
Qısa deyəcəm, uzunçuluğu xoşlamıram. Asim paşanın qəbuluna getdik və mən dərdimi ona danışdım. Asim paşa mənə ağzına gələni dedi: "Sən özünü nə hesab edirsən ki, mənim əziz-xələf bacım oğlumdan mənə şikayət edirsən, sən kimsən ki, ay...." kimi və buna bənzər təhqirlər bir-birinin ardınca düzülmüşdü. Hafiz hoca da belə sözləri eşitdiyinə görə pərt olmuşdu.
Vəziyyətin kritik olduğunu görərək Samir ilə danışmağa qərar verdim. Növbəti gün axşam saatlarında "Qara İnci"nin qarşısına gedib onu soruşdum. Bir neçə idmançı gənclə

əlində pivə qarşıma çıxdı və mən aramla Samirə etdiyi hərəkətin dinimizə və adət-ənənəmizə zidd olduğunu izah etməyə başladım. Bir neçə cümlə demişdim ki, birdən o, sözümü kəsərək:

– Ə, qoca qaloş, nə gic-gic danışırsan? Eləmişəm, belə lap zor eləmişəm, bəs qız nə üçündür ki? – deyərək qəhqəhə çəkməyə başladı. Əsəblərimi cilovlayıb yenidən xoşluqla söhbətə başladım, bu işin yaxşı iş olmadığını, namus və qeyrət məsələsinin səbəb ola biləcəyi acı nəticələrdən danışırdım ki, birdən o:

– Alə, nə baxırsız, görmürsüz ki, məni hədələyir, nəyi gözləyirsiz?! – deyərək yanındakı gənclərə məni döymələri üçün işarə verdi. Anidən gözümdə ulduzlar dolaşdı, qulağıma dəyən zərbədən başım döndü və mən yerə yıxıldım. Mənə dəyən təpiklərin sayını itirdim, başıma, ağzıma, qabırğa və böyrəyimin üstünə təpiklər dəydikcə iniltim aləmi bürümüşdü. Bu azmış kimi Samir şərəfsiz əlindəki pivəni başıma tökdü. Sonra məni restoranın arxa tərəfinə sürüyüb oraya tulladılar. Bir müddətdən sonra güclə ayağa qalxdım, üst-başımı qaydaya salıb evə getdim.

Həyətə girən kimi əl-üzümü yudum, saçımı qaydaya saldım. Heç evə girmədim ki, halımı görüb qorxmasınlar. Sakitcə zirzəmiyə düşüb qapısını açdım və illərdən bəri gizlətdiyim ov tüfəngimi çıxardım. Ov qadağan edildiyindən artıq 5 il idi ki, tüfəngi çıxarmırdım. Onu yığdım, iki güllə qoydum və sakitcə küçəyə çıxdım. Tüfəngi paltomun altında gizlədərək "Qara İnci"yə tərəf getdim. Bir az aralıda, tut ağacının arxasına sığınıb gözləməyə başladım. İki saata yaxın gözlədikdən sonra Samirin iki dostu ilə restoranın qapısından küçəyə çıxdığını gördüm. İçkili idi və bərkdən gülüb-danışaraq maşınına tərəf gedirdi. İdmançı gənclərin onun yanında olması vəziyyəti qəlizləşdirirdi, amma buna baxmayaraq düşündüyümü etməkdə israrlı idim. Bu məsələ elə indi, elə buradaca bitməli idi!..

Tut ağacının arxasından çıxıb sakitcə onların ardınca getməyə başladım. Maşına beş metr qalmış onlara çatdım, tüfəngi çıxarıb ona tuşlayaraq:
– İt oğlu, sən kim olursan ki, mənim qızıma sataşırsan?! – deyə qışqırdım. Hər üçü geri dönərək əlimdəki tüfəngi görüb qorxdular. Samirin idmançı dostları dərhal qaçdılar. Mən Samirin üzərinə şığıdım, tüfəngi ona tuşladım, Samir isə qorxudan yerə yıxıldı və beli üstə arxaya sürünərək yalvardı:
– Ay dayı, qələt eləmişəm, ay dayı, ay dayı...
PART!
Güllə onun çənə nahiyəsindən tutmuşdu, bir metrlik məsafədən atəş açıldığına görə onun boğazı, çənəsi və sifəti dağılmışdı, bir gözü də bayıra çıxaraq, gicgahının yanında sallanmışdı. Anidən ətrafı qan gölməçəsinə dönmüşdü. Nəfəs borusu dağıldığından nəfəsinin kəskin xırıltısını və ağrıdan necə zingildədiyini hələ də yaxşı xatırlayıram, yaralı it kimi zingildədi və it kimi də gəbərdi.
Kamerada hamı nəfəsini dərmədən qulaq asırdı, heç kim Dayının sözünü kəsməyə cürət etmirdi. İki dəqiqəlik sükutdan sonra Aydın:
– Dayı, bəs sonra, sonra nə oldu? – deyə soruşdu.
Dayı:
– Heç nə, gəbərdiyinə tam əmin olduqdan sonra maşınıma əyləşdim və silahla birgə polisə təslim oldum. Samirin dayısı Asim paşaya xəbər çatan kimi özünü polis bölməsinə çatdırdı. Mən artıq polislərə hər şeyi danışmışdım, ifadə vermişdim və məni dəmir barmaqlıqda saxlayırdılar. Asim paşa nə qədər cəhd etsə də, onu yanıma buraxmadılar. Elə hey çığırırdı, söyürdü, mən isə onu xəbərdar etdiyimi deyirdim. Eh, kaş Asim paşa mənə qulaq asıb bir tədbir görəydi, bu bəla da baş verməyəydi.
Polad soruşdu:
– Peşmansan, Dayı?

Dayı:
– Niyə peşman olum? Qoy Asim paşa peşman olsun, vaxtında tədbir görmədiyinə görə, qoy o gədənin anası peşman olsun, düz-əməlli övlad böyüdə bilmədiyinə görə. Mən nə etməli idim? Əvvəl-axır qızıma təcavüz edəcəyini gözləməli idim? Guya bu birinci hadisə idi? Məhəlləmizdəki Talıb kişinin, Qasım kişinin qızlarını zorladığı kimi nə vaxt növbənin mənim qızıma çatacağını gözləməli idim? Budur, it kimi yaşadı, it kimi də gəbərdi. Deyilənə görə, heç onu qaydalara uyğun yuyub kəfənləmək də mümkün olmayıb. Rayona xəbər yayıldığından və əvvəlki binamus əməllərinə görə dəfninə heç gedən də olmadı, elə 10-15 nəfər ailə üzvləri və qohumlar.
Kamerada elə sükut var idi ki, orada uçan milçəyin vızıltısını və Dayının həyəcanlı ürək döyüntüsü hamı eşidirdi. Dərin baxışlarla uzaqlara dalan Dayını heç kim narahat etmək istəmirdi. Hamı sükutun nə vaxt pozulacağını gözləyirdi.
Birdən beşinci kameradan səs-küy qopdu. Nəzarətçilərin yoğun səsi məhbusların çığırtılarına qarışdı.
Ariz:
– Nə baş verir? Orada nə olub? – deyə təlaş keçirdi.
Şahsuvar aram bir səslə dedi:
– Beşinci kameranın məhbuslarını tərbiyə mərkəzinə aparırlar.
Ariz bərəlmiş gözlərlə:
– Niyə? Nə ediblər ki? Səbəb nədir?
Şahsuvar dedi:
– Səbəb? Heç bir səbəb yoxdur, sadəcə profilaktik tərbiyə prosedurudur, hər bir məhbus üç ayda bir dəfə bu prosedurdan keçməlidir.
Ariz həyəcanla etiraz etdi:
– Belə şey olar? Necə yəni profilaktik tərbiyə? Adamda can qalar? O əmuda can dözər?
Şahsuvar dedi:
– Yox, bu prosedurda əmud-zad olmur, sadəcə şallaq.

Kameradan aparılan zaman sərgilənən tərbiyədən asılı olaraq zərbə sayı dəyişir. Məsələn, beşinci kamera səs-küy saldığına görə şallaq sayı artacaq. Sağ olsun Dayı, bizi başa salıb, bizim növbəmiz çatanda bizi sakitləşdirir və inandırır ki, ən yaxşı variant sakit şəkildə tabe olmaqdır, belə olduqda zərbə sayı maksimum on olur. Axı niyə boş yerə özümüzə qırx şallaq vurduraq?

Ariz əsəbindən əsərək dedi:

– Siz nə danışırsız? Nə sakitlik? Başa düşmürəm, biz burda insanıq, yoxsa heyvan?

Dayı:

– Ariz, sən hələ təzəsən, hələ başa düşmürsən ki, bizim insanlığımız qaldı "Bataqlığ"ın qapısının xaricində. Biz burda heç heyvan yerində də deyilik. Özünü mənəvi baxımdan hazırla, iki günə növbə bizim kameraya çatacaq, olmasın ki, özünə nəzarət edə bilməyəsən və bizlərdən kimsə sənə görə artıq şallaq yesin! Bu məsələdə ciddi və rasional olmağını səndən təvəqqe edirəm! Eşitdin?!

Ariz çarəsiz halda dedi:

– Axı mən bir həftə əvvəl tərbiyə prosedurundan keçmişəm, mənim axı hələ üç ayım tamam olmayıb?!

Dayı:

– Bu heç kimi burada maraqlandırmır, nə bizi, nə də ki nəzarətçiləri, tərbiyəçilər üçün isə ümumiyyətlə fərqi yoxdur. Payına düşəni almalısan, vəssalam!

Aydın:

– Bayaq çay dəmləmişdim, təzə dəmli çayı kim içir? Çayla söhbət əla gedir, həm maraqlı, həm də dadlı, – əllərini bir-birinə sürtərək gülümsəyir.

Aydın tez qalxaraq hamıya çay süzür, bir-iki qurtum çay içəndən sonra hamının gözləri yol çəkməyə başlayır. Kim bilir, xəyalları onları hara aparır, onlar nə düşünürlər... Bu yerdə yazıçı fantaziyası acizdir...

# Şahsuvarın əhvalatı

Məhbusların çay içərək xəyallara dalması kamerada sükut yaratmışdı, sadəcə çayı içərkən udlaqlarından keçən qurtumun səsi gəlirdi. Sanki onlar Dayının danışdığı əhvalatı analiz edirdilər, həyata baxış bucaqlarına düzəliş edirdilər.

Birdən Arizin zehnində bir sual yarandı, Şahsuvar özü haqqında danışanda Tartara rayonunda baş vermiş hadisələrə işarə etdi. Əlbəttə, Ariz siyasi məhbus olduğundan bu hadisə barədə qiyabi də olsa xəbərdar idi, lakin indi əlinə gözəl bir fürsət düşmüşdü, hadisə şahidinin dilindən daha çox məlumat əldə edə bilərdi. Lakin sükutu da pozmağa cürət etmirdi, axı hamı indi xəyallarında haralarasa gedib, kimisi evinə, kimisi cinayət məkanına və s. O, bir az səbir etmək qərarına gəldi.

Çayını ilk əvvəl Polad içib qurtardı və Aydına çaya görə təşəkkür etdi. Beləcə sükut pozuldu və hamı gülümsəyərək Aydına təşəkkür etməyə və çayı tərifləməyə başladı. Ariz dərhal vəziyyətdən istifadə edərək sözə başladı:

– Şahsuvar, bayaq sən özün haqqında danışanda Tartaradakı hadisələrə toxundun. Sadəcə mənə maraqlı gəldi, sən özün həmin hadisələrin içində olmusan? Sənə də işgəncələr verilib?

Şahsuvar birdən bərəlmiş gözlərlə Arizə baxdı, onun üzündə və gözlərində bir dəhşət var idi, əli əsə-əsə başını tumarladı, saçlarını arxaya tərəf sığalladı. Sonra başını aşağı saldı və yerə baxaraq:

– Mən bu barədə heç danışmaq istəməzdim, yaxşı xatirələr deyil, hər dəfə yadıma düşəndə sanki kəllə sümüyüm yığılır və beynimi sıxmağa başlayır, gecələr yuxum qaçır. Başıma gələn hər şeyi danışsam, bu mənə hörmət gətirməz, yox əgər bir hissəsini deməsəm və ya yalan desəm, özümü bağışlaya bilmərəm. Neçə aydır ki, eyni kameranı bölüşürük, amma

orada yaşananları hələ dilimə gətirməmişəm. Məncə, bu məsələyə toxunmasaq yaxşıdır, başqa şeydən danışaq.
Dayı Şahsuvara etiraz edərək:
– Oğlum, elə şey-zad yoxdur, necə ki biz danışdıq, sən də danışmalısan, yoxsa bu ədalətli olmaz.
Şahsuvar:
– Dayı, inanın, orada yaxşı heç bir şey baş verməyib, yaxşısı budur mənə güc gəlməyəsiz. Orada yaşananları danışsam, sizin də halınız xarab olacaq. Dəyməyin, qoyun elə belə də qalsın.
Ariz dərhal müdaxilə etdi:
– Şahsuvar, mənim az-çox oradakı hadisələrdən xəbərim var, orada hansı formada işgəncələrin verildiyindən, hansı qeyri-əxlaqi üsullardan istifadə etdiklərindən də xəbərdaram. Bu barədə hüquqşünas Aslan bəyin öz YouTube kanalında yerləşdirdiyi müsahibələrdən xəbər tutmuşam. Hardasa 100-ə yaxın zərərçəkmişdən müsahibə alıb və öz kanalına yerləşdirib.
Şahsuvar hövlnak soruşdu:
– Necə, bu barədə araşdırma aparıb, zərərçəkmişlərdən kimsə danışıb? Bu necə olub, yəni onlara dəyib-toxunan olmayıb?
Ariz cavabında dedi:
– Sən Aslan bəyi tanımırsan, o, gizlicə müsahibələri götürüb, sonra bir gecədə hamısını öz kanalına yükləyib. Həmin müsahibələr çox səs-küyə səbəb oldu, insanların narazılığı artmağa başladı. Hamı hər yerdə Tartara faciəsindən danışırdı.
Şahsuvar:
– Yəni Aslan bəyə toxunan və ya həmin müsahibələri sildirən olmadı?
Ariz:
– Yox, niyə ki, Aslan bəyi “dövlət çevrilişinə cəhd” maddəsi ilə 15 illiyə həbs etdilər. Lakin müsahibələri sildirə

bilmədilər, dedim axı, sən Aslan bəyi tanımırsan. Kanalı xaricdə yaşayan bir dostuna açdırmışdı, müsahibələri də o kanala yükləyirdi, Aslan bəy həmin kanalın parolunu belə bilmirdi. Hakimiyyət bir gecənin içində fakt qarşısında qaldı. Həmin videolara yüz minlərlə, cəmi isə milyonlarla baxış olub. Xalq artıq kimin kim, nəyin nə olduğunu bilir. Əgər səni həbs ediblərsə, deməli, sənə də qeyri-əxlaqi işgəncələr veriblər.

Şahsuvarın başı əsə-əsə aşağı sallandı, əsəbi olduğu hər halından bəlli idi.

Ariz ona təsəlli verdi:

– Qardaşım, burada sənin heç bir təqsirin yoxdur, bu haldan heç kim sığortalanmayıb, bu axmaq hakimiyyətin əlində istənilən şəxsə ən ağlagəlməz işgəncəni vermək su içmək kimi bir şeydir. Sabah mənə də, hətta Dayıya da o işgəncələrdən verə bilərlər və bu, bizə heç bir mənəvi xələl gətirməz, on nəfər insan kimin üstünə düşsə, edəcək heç bir şey qalmaz. Odur ki, nə özünü qına, nə də ki, başqalarının sənin haqqında pis fikirlərə düşəcəyini düşün. Guya burdakı məhbuslara vaxtaşırı aparıb işgəncə vermirlər?

Şahsuvar:

– Burada həmin cür işgəncələr yoxdur, Tartarada baş verənlərin yanında "Bataqlıq" uşaq bağçasıdır. Oradakı zülmü heç nə ilə müqayisə etmək olmaz. İnanmıram ki, tarix nə vaxtsa elə işgəncələrə şahidlik etsin, – deyərək dərindən ah çəkdi.

Dayı:

– Bilmirəm sən nədən narahatsan, amma bu kamerada nə danışılacaqsa, elə burada da qalacaq, mən hamının yerinə sənə zəmanət verirəm. Sənə qarşı heç birimizin münasibəti də dəyişməyəcək, nə deməyindən asılı olmayaraq. Odur ki, bu daşı ətəyindən tök və başla danışmağa, haydı.

Ariz Şahsuvarın nələr danışacağını təxmin edirdi, sadəcə

canlı şahidin dilindən canlı-canlı bunu eşitmək istəyirdi. Bəli, Aslan bəyin müsahibələrinə söz ola bilməzdi, amma yenə də canlı şahidin dilindən eşitmək başqa şey idi. Ariz sağ əlini Şahsuvarın çiyninə qoyub:

– Başla, qardaşım, qətiyyən narahat olma, amma başdan, lap əvvəldən başla.

Şahsuvar birdən ayağa qalxdı və əlüzyuyana yaxınlaşdı, kranı açdı və iki ovcunu da su ilə doldurub üzünə çırpdı, yaş əllərini başına və boynuna sürtdü. Sanki bununla o, əsəbdən yaranmış gərginliyini canından çıxarmaq istəyirdi. Üzünün suyunu dəsmalla quruladı, bir az güzgünün qarşısında durub özünə baxdı. Bir neçə saniyə keçəndən sonra başını bulayaraq:

– Nə deyirəm ki, qulaq asmağa və anlayışla qarşılamağa hazırsınızsa, onda danışaram, – deyərək geri qayıtdı və yerinə əyləşdi. – Yerlərinizi rahatlayın, qısa söhbət olmayacaq.

Dayı və Hikmət yuxarıdakı çarpayılara dırmaşdılar, Polad və Kərim isə aşağıdakı çarpayıda dirsəkləndilər, Ariz isə Aydın ilə çarpayıların arasında yerdə oturdular. Hamı diqqətini Şahsuvara yönəltmişdi, sanki kinoteatrda idilər və maraqlı bir film izləyəcəkdilər. Beləliklə, Şahsuvar söhbətə başladı:

– Mən orduda zabit kimi xidmət edirdim, yaxşı yadımdadır, hərbi məktəbi bitirib rütbə alanda sevincimin həddi-hüdudu yox idi, sanki uçmaq üçün iki qanadım çatmırdı. Vətənə xidmət edəcəyim, onu düşməndən qoruyacağım, ölkəyə hücum olacağı halda necə döyüş tapşırıqlarını icra edəcəyim, döyüşəcəyim və şəhid olacağım haqda xəyallar qururdum. Bu hal məni aylarla tərk etmədi, ta ki mən elə doğulub böyüdüyüm Tartara rayonundakı “N” saylı hərbi hissəyə təyinat aldığım günə qədər. Həmin hərbi hissə barədə hələ yeniyetmə olduğum dövrlərdə müxtəlif söz-söhbətlər dolaşırdı.

Hərbi hissəyə gələn kimi məni birinci taborun birinci bölüyünə taqım komandiri təyin etdilər. İlk ayın tamamında maaşım mənə verilən kimi məni qərargaha çağırdılar və qərargah rəisi maaşımın on faizini daxili fonda köçürməyimi əmr etdi. Bu, mənə çox qəribə gəldi, axı hərbi hissədə hansı daxili fonddan söhbət gedə bilərdi. Dəqiqləşdirmək üçün bir neçə sual versəm də, onlar cavabsız qaldı. O, mənə izah etdi ki, bu köçürmə könüllü bir işdir və istəmirəmsə köçürməyə bilərəm. Mən bu barədə düşünəcəyimi deyib qərargahı tərk etdim. Bəli, bəzi problemlər elə bu söhbətdən sonra başladı.

Düz bir ay məni bir gündən bir park növbətçisi təyin etməyə başladılar. Park deyəndə döyüş texnikalarının saxlandığı avtoparkı nəzərdə tuturam. Bir ayın tamamında mən artıq əldən düşmüşdüm, axı nə qədər gecələr yuxusuz qalmaq olar?! Hərbi hissədə kifayət qədər zabit olduğu halda məni bu qədər növbətçiliyə yazmalarını həzm edə bilmirdim. Bir gün növbədən çıxdıqdan sonra qərargah rəisinə yaxınlaşdım və ona bu haqda etiraz etdim:

– Cənab mayor, hərbi hissədə kifayət qədər zabit olduğu halda niyə məni bu qədər sıx növbəyə yazırsız? Axı bu sizin səlahiyyətinizdə olan məsələdir, niyə bu cür ədalətsizlik yaranır?

– Yoldaş zabit, digər zabitlər bizim daxili fondumuza vaxtlı-vaxtında ianələr edirlər, biz də bunun müqabilində onlara bir az istirahət üçün şərait yaradırıq. Bilirsən necədir, sən hələ subaysan, ailən yoxdur, amma onların əksəriyyəti ailəlidir və gecələri evlərində ailələri ilə birlikdə keçirmələri üçün şərait yaradılmalıdır. Həm də ümumi işə xeyirləri dəyir, fondu nəzərdə tuturam.

– Deməli, əgər mən də fonda pul köçürsəm onlar kimi ayda 3-4 dəfə növbətçi olacağam?

– Bax görürsən, istəyəndə başa düşürsən, bəli, tamamilə doğrudur. Əlbəttə, bu, digər zabitlərin xoşuna gəlməyəcək,

axı indi onlar daha çox istirahət edirlər, buna görə sən maaşının on beş faizini fonda köçürməli olacaqsan. Həm də sən ilk təklifimizi rədd etdiyinə görə bu sənə bir ibrət dərsi olacaq, mən pulsuz dərs vermirəm, bir qonaqlıq da səndə, – deyərək bic-bic hırıldamağa başladı.
– Axı bu nə fonddur belə? Pul niyə yığılır ki?
– Niyə yox, kimə! Pulun altmış faizi hərbi hissə komandirinə çatır, yerdə qalanı isə onun müavinləri və tabor komandirləri arasında bölüşdürülür. Yoxsa elə bilirsən bahalı maşınlarımızı maaşlarımızla almışıq, benzinini cibimizdən tökməliyik, hə? Ağıllı olsan adam kimi gün görəcəksən, əks halda canın elə parkda çıxacaq! Növbətçilikdən imtina etsən, dərhal səni itaətsizliyə görə hərbi tribunala verəcəyik, oradan isə çıxış yoxdur! Ağıllı ol, leytenant, ağıllı ol!
Hələ mən özümü bu qədər alçaldılmış hiss etməmişdim. Ona sadəcə "oldu, cənab mayor!" deyərək uzaqlaşdım. Maaş gününə sayılı günlər qalmışdı, bu məsələni bir az araşdırmaq qərarına gəldim. Bir neçə zabit ilə bu barədə danışdım və vəziyyətdən hali oldum. Pul verməkdən başqa çıxış yolunun olmadığını çətin olsa da başa düşürdüm. "Əşşi, cəhənnəm olsun pul, təki başım sakit olsun" deyib özümü razı sala bildim. Bu mənim üçün çox çətin idi, içimdə təlatümlər var idi, çünki bunun düz olmadığını bilirdim, amma nə edə bilərdim, hamı o pulu verirdi, "palaza bürün, elnən sürün" deyimini özümə xatırladıb sakitləşməyə çalışdım.
Maaş günü gəldi, mən maaşımın on beş faizi ilə qərargah rəisinə yaxınlaşıb pulu ona verdim. O da adımı bloknotunda qeyd etdi və pulu sayıb şkafına qoydu.
– Aramıza xoş gəldin, leytenant! – deyə hırıldadı.
– Xoş gününüz olsun, cənab mayor, – deyərək mən də onu yola verdim.
– Amma bu, ikimizin arasında bir sirdir, heç kim

bilməməlidir. Hamı bu pulu verir, amma sən bunu bir sirr kimi saxlamalısan.
– Kişinin yanında baş kəsərlər, cənab mayor, bizdən söz çıxmaz! – deyib oradan uzaqlaşdım.
O gündən etibarən mən də digər zabitlər kimi ayda 3-4 dəfə növbətçiliyə çıxmağa başladım. Əlbəttə, mayora qonaqlıq da verdim, bahalı bir restoranda yaxşı bir yeyib-içmək təşkil etdim. Bu vasitə ilə onunla yaxınlaşacağıma, aramızda səmimiyyət yaranacağına ümid edirdim.
Növbəti ayda maaşımın on faizini ayırıb yenə yanına getdim. O, pulun azlığını görüb hirsindən qızardı:
– Bu nədir? Məni dolamısan? Məgər sənə deməmişdim ki, on beş faizini verəcəksən? – deyərək pulları üzümə çırpdı.
– Çıx rədd ol burdan, axşam park növbətçiliyinə hazırlaş! Mənə tula payı gətirməyinə bax bunun!
Mən özümü itirmişdim, bir yandan onun bu cür reaksiyası, digər tərəfdən də pulları üzümə çırpması məni sarsıtmışdı. Əyilərək pulları yerdən yığırdım, özümü əməlli-başlı alçaldılmış adam kimi hiss edirdim, bu mənə qarşı əsl təhqir idi. Amma digər tərəfdən də yenidən növbətçilik bəlasına qayıtmaq istəmirdim. Təcili bir qərar verməli idim, tamammı, davammı. Pulları yığıb dikəldim:

– Cənab mayor, ola bilsin mən sizi düzgün başa düşməmişəm, bilirsiz, sizə hörmətim var və heç bir halda həmin hörmətə xələl gəlməsini istəməzdim. Bunu gəncliyimə bağışlamağınızı xahiş edirəm, bir xətadır olub.

– Nə, xəta? Niyə bu xəta sənin xeyrinə olmalı idi? Olmazdı ki, elə xəta edib maaşının iyirmi faizini gətirəydin? Məni ələ salırsan, düdük?

Bu artıq əməlli-başlı açıq təhqir idi, əsəbdən ürəyimin döyüntüsünü gicgahlarımda hiss edirdim.

– Cənab mayor, xahiş edirəm, mən bu sözləri sizə yaraşdırmıram, bir az rasional olmağınızı sizdən xahiş

edirəm, lütfən, zabit şərəfinə riayət edək!

– Ala, nə zabit şərəfi? Zabit şərəfi bilən gəlib bir vaqon, boşaltmağa adam axtarırlar, – deyərək qəhqəhə çəkməyə başladı. – Sənə deməmişdim ki, ağıllı ol? Görünür, səni ağıllandırmaq çox vaxt aparacaq, mənim isə həvəsim yoxdur, pulsuz heç kimi ağıllandırmıram. Get! Get və maaşının iyirmi faizini gətir bura, tez!

– Oldu, cənab mayor! – deyərək çox uzatmadan oradan uzaqlaşdım.

Sanki həyatım qaralmışdı, hərbi məktəbdə bizə belə öyrətməmişdilər, zabit şərəfinin həyatdan da üstün olduğunu təlqin etmişdilər. Burada, reallıqda isə bunun belə olmadığını dərk etmək mənə çox ağır gəlirdi.

Kazarmamızda bir stəkan çay içib əsəblərimi sakitləşdirdim. Maaşımın üstündən iyirmi faizini götürüb mayorun yanına getdim. Pulu ona uzadıb:

– Cənab mayor, mənim xətamı gəncliyimə bağışladığınıza görə sizə təşəkkür edirəm! – dedim.

– Mən sənə demişdim axı, leytenant, – pulları sayaraq davam etdi, – mən heç kimə pulsuz dərs vermirəm, yenə bir qonaqlıq səndə, görək nə vaxt ağıllanacaqsan.

– Cənab mayor, gələn ay bir də xəta etməmək üçün soruşuram, gələn ay maaşımın on beş faizini sizə gətirməliyəm?

– Bu nə axmaq sualdır?! Birincisi mənə yox, ümumi fonda gətirirsən, ikincisi isə on beş faizini yox, artıq bundan sonra hər ay maaşının iyirmi faizini gətirəcəksən! Aydındır?

– Oldu, cənab mayor! Gedə bilərəm?

– Get! Get və ağıllı ol! Ağıllı olmasan, bir gün ya mənim səbrim tükənəcək, ya da sənin maaşın...

Onunla sağollaşaraq qərargahı tərk etdim. Bu işlərin haraya qədər davam edəcəyi məni narahat etməyə başlamışdı. Çox narahat idim, axı səsimi heç kimə çatdıra bilmirdim.

Bir neçə ay bu minvalla davam etdi, hər ay maaşımın iyirmi faizini mayora verirdim. Əvəzində isə bir az rahat nəfəs alırdım. Amma bu çox çəkmədi, 5-6 aydan sonra yenə mənə bir tələ qurdular və mən o tələyə düşdüm.

Bir gün zabit yoldaşlarla çayxanada oturmuşduq, çay içib söhbət edirdik. Birdən bir nəfər hərbi formada olmasına baxmayaraq paqonlarsız içəri daxil oldu, bizimlə salamlaşdı və masamıza əyləşdi. Özünü zabit kimi təqdim etdi və hərbi hissədəki vəziyyətdən gileylənməyə başladı. Mən də heç nədən xəbərsiz onunla söhbətə başladım:

– Nə olub ki, nə xoşuna gəlmir, səni nə qane etmir?

– Nə olacaq, bir ay işlə, maaşını alanda da bir hissəsini apar ver qərargah rəisinə, bu mayor da lap ağını çıxarıb. Vallah, artıq bezmişəm, belə xidmət, belə yaşayış olmaz, qardaş!

– Sən ümumi fonda keçirdiyin pulu nəzərdə tutursan? – deyə mövzunu bir az da açdım.

– Bəli, onu deyirəm, amma deyəsən, fond-zad yoxdur, sadəcə bizi aldadırlar. Belə şey olar, niyə mən hər ay aparıb maaşımın beş faizini ona verməliyəm ki?!

– Nə, beş faiz? Qardaşım, sən yaxşı qurtarmısan, bəs mənim yerimə olsaydın nə edərdin?

– Səndən nə qədər alırlar ki?

– Məndən iyirmi faiz alırlar, hər ay, – deyərkən zabit yoldaşımın bərkdən öskürməyinə məhəl qoymadım.

– Nə danışırsan, nə iyirmi faiz? Səni kim belə vəhşicəsinə yolur?

– Bizim taborun qərargah rəisi, mayor.

– Neçənci tabordasan ki?

– Birinci taborda, qərargahın sağ tərəfindəki tabor.

– Vay, vay, vay. Sənə baxanda mən lap şükürlüyəm ki, – deyərək özündən razı halda gülməyə başladı.

– Bizim mayorumuz çox alçaq adamdır, zabit şərəfi-zad da bilmir, çox əclaf adamdır.

– Onların yaxşısına lənət!

– Min lənət, qardaşım, min lənət! Hələ mən subayam, bir azdan, evlənəndən sonra nə edəcəyimi düşünəndə gələcəyi qara görürəm.

– Narahat olma, bir yolunu taparsan, mən getdim, özündən muğayat ol!

O, çayxanadan çıxan kimi zabit yoldaşlarım da qalxıb oranı tərk etdi. Bir stəkan da çay içib mən də hərbi hissəyə qayıtdım. Kazarmada 20 dəqiqə idi ki, oturmuşdum, birdən qərargah çaparı hövlnak içəri daxil oldu və qərargah rəisinin məni çağırdığını dedi. Tez qərargaha getdim və kabinetə daxil olanda gördüyümdən yerimdə donub qaldım. Çayxanada mənimlə söhbət edən zabiti polkovnik rütbəsində və qərargah rəisinin yerində əyləşdiyini gördüm. Boğazım qurudu, gözlərim qaraldı və üzümə dəyən qəfil sillə məni reallığa qaytardı.

Mayor:

– Ə, küçük, sən kimə alçaq və əclaf demisən, hə? – deyərək mənə daha bir sillə vurdu.

– Cənab mayor... – Part. Üçüncü sillə. – Cənab mayor...

Part. Dördüncü sillə.

– Nə cənab? Nə mayor? Bəs mənə alçaq və əclaf deyirdin, küçük!

Part. Növbəti sillə.

Artıq sillələrin sayını itirmişdim, sonuncunun təsirindən yerə yıxıldım, mayor ağzı köpüklənərək ana-bacı, var-yox söyüşləri söyərək məni təpikləyirdi. Polkovnik cəld ayağa qalxaraq onu qucaqladı və sakitləşməyi xahiş etdi:

– Yoldaş mayor, sakitləşin, xahiş edirəm, belə olmaz, biz axı Andaluniya zabitləriyik...

– Nə zabiti, hansı zabit? Görmədiniz ki, bu şərəfsiz necə məni alçaq və əclaf adlandırırdı?

– Hər şeyi əla gördüm, amma bu o demək deyil ki, siz onu mənim yanımda döyəsiz. Özünüzü ələ alın, lütfən!

Qoyun mən işimi bitirim, sonra siz nə istəsəniz edin.

– Yaxşı, cənab polkovnik, qoy siz deyən olsun! Buyurun! Polkovnik mənə ayağa qalxmağa kömək etdi, mən üst-başımı qaydaya salıb masa arxasında əyləşdim. Söhbət əsnasında məlum oldu ki, polkovnik xüsusi şöbənin rəisidir, Tartara rayonuna cavabdehdir. O, mənə izahat yazmağı əmr etdi, mən bir az tərəddüd etdim və o, çayxanada qeyd etdiyi səs yazısını işə saldı. Aman Tanrım, bu nə idi, mən nə balaya düşmüşdüm? Çətin də olsa səsə qulaq asdım və müqavimətin faydasız olduğunu anladım. Orada dediklərimi bircə-bircə izahatda qeyd etdim və imzaladım. Polkovnik özündən razı halda gülümsəyərək, izahat yazılmış vərəqi götürdü, oxuyub razılıqla başını yellədi:

– Deməli belə, yoldaş mayor, artıq mənim əlimdə sizə qarşı izahat var və siz canınızı mənim əlimdən elə-belə qurtara bilməzsiz, ha-ha-ha, – deyərək qəhqəhə çəkdi.

– Siz uzun aylardır ki, məni izləyirdiniz, cənab polkovnik və bunun kimi zibillər olmasaydı, siz məni heç vaxt yaxalaya bilməzdiniz. Amma buna baxmayaraq, mən sizə izahat yazıb verməyəcəm.

– Yoldaş mayor, olmadı ki, sizdən kim izahat istədi ki? Mən sizdən izahat istəmirəm, biz zabit yoldaşıyıq, mən zabit şərəfinə xəyanət etmərəm, – yenə hırıldayırdı.

– Bəs məndən bunun qarşılığında nə istəyəcəksiz?

– Sizdən cansağlığı və uzun ömür. Hə, bir də, bu sxemdən sizə çatan payın tam yarısını. Tabeçiliyinizdə olan zabitlərin sayını da, maaşlarını da bilirəm və maaşlarının ən azı on faizini də sizə verdiklərini bilirəm. Bütün yığılan məbləğin hər ay beş faizini sizdən alacağam və bunun müqabilində sizinlə işim olmayacaq, necə deyərlər, bir daş altdan, bir daş üstdən.

– Bəs bu zibillə nə edək? – mayor başı ilə məni işarə etdi.

– Bu, sizin zibilinizdi, nə istəsəniz onu da edərsiz, məni

maraqlandırmır.

Mayor özündən razı tərzdə üzünü mənə tutaraq əsəbi halda:

– Küçük, eşidirsən?! Sənə görə əməlli-başlı zibilə düşmüşəm, sənin zibilinə! Sənin zibilinə görə mənim ödəmək fikrim yoxdur! Cənab polkovniki yola salandan sonra səninlə hələ işim var.

Polkovnik gülər üzlə hər ikimizlə sağollaşıb kabineti tərk etdi. Mayor ilə baş-başa qaldım.

– Hə, leytenant, sən özün bir zibil deyilsən, məni də zibilə saldın! İndi polkovnikin haqqını mən ödəməliyəm, yoxsa sən?

– Cənab mayor, əgər mən cinayət törətmişəmsə, cəzamı çəkməyə hazıram!

– Ə, küçük, nə cinayət, demaqoqluq edirsən mənim üçün burda? Sən elə bir qələt eləmisən ki, bunun altından heç sənin nəslin də çıxa bilməz! Bu qələtini layiqli şəkildə düzəltməlisən! Deməli belə, nəzərə alsaq ki, zibili sən qaynatmısan, əsas yük də sənin üzərinə düşəcək!

– Hansı yükdən söhbət gedir, cənab mayor?

– Necə yəni hansı yük? Əlbəttə ki, pul verəcəksən və ayın tək günlərini park növbətçisi olacaqsan, növbəti 6 ay üçün! Pul məsələsi isə belə olacaq, maaşının iyirmi beş faizi fonda, iyirmi beş faizi də polkovnikə veriləcək məbləğə. Gələn dəfə bir də belə qələt eləsən dərini boğazından üzərəm, bildin?!

– Cənab mayor, maaşımın əlli faizini versəm bəs mənə nə qalacaq, evə nə göndərəcəyəm? – deyə sağ əlimlə ağzımın qanını sildim.

– Sən deyəsən məni başa düşmədin. Sən bu pulu hətta başqa hərbi hissəyə köçsən belə ödəyəcəksən, hətta ölsən belə ailənə sənin adına təqaüd düzəldəcəyik və təqaüdün əlli faizi yenə fond üçün tutulacaq. Ümid edirəm ki, indi dovşan yuvasının nə qədər dərin

olduğunu anlayarsan.

– Oldu, cənab mayor, icazənizlə mən gedim.

– Get! Get və ağıllı ol, leytenant!

– Oldu, cənab mayor! – deyərək kabineti tərk etdim.

Ertəsi gündən park növbətçiliyim başladı, bir gündən bir növbətçi olurdum və hər ay da maaşımın əlli faizini aparıb mayora verirdim. Səbirlə gözləyirdim ki, görüm axırı nə olacaq.

Beləcə altı ay keçdi və mənim növbətçilik cəzam tamamlandı. Keçən altı ay ərzində çox zəifləmişdim və əsəblərim də sarsılmışdı. Şəhərə çıxdım, xəstəxanaya, nevropatoloqun qəbuluna getdim və bir aylıq müalicə aldım ki, əsəblərim məni növbəti zibilə salmasın. Artıq çox ehtiyatlı idim, heç kimin yanında artıq-əskik heç nə danışmırdım, hərbi hissədə zərb-məsələ çevrilmiş “sal aşağı başını, al maaşını” qaydasına ciddi şəkildə əməl edirdim. Hamıdan şübhələnirdim və hər şeydən ehtiyat edirdim.

İki il də bu minvalla xidmət etdim, mayorla təmasdan qaçırdım, sadəcə maaşımı alanda əlli faizini ona vermək üçün görüşürdüm və söhbətləri rəsmi çərçivədə saxlayırdım. Düzdür, arabir boynuma qonaqlıq qoyurdu, məcburən yola verməli olurdum, nə edə bilərdim ki?!

Artıq yaşımın keçdiyini bildirən valideynlərim evlənməyim üçün təkid edirdilər, amma mən razılıq vermirdim. Ailəni nə ilə saxlayacaqdım, necə dolandıracaqdım? Dərdimi də onlara deyə bilmirdim. Amma çox müqavimət də göstərə bilmədim, onsuz da hərbi məktəbə gec daxil olmuşdum, 24 yaşımda bitirmişdim və artıq 27 yaşım var idi, daha haraya qədər uzadacaqdım ki?! Evin tək oğlu olduğum üçün atam arzu-kam ilə həyətdə iki balaca otaq tikmişdi və mənim razılığımı gözləyirdi. Axır ki razılıq verdim və məni evləndirdilər.

Ailə qurandan sonra təbii ki, xərclər artır və maaşımın

əlli faizi ikimizə kifayət etmirdi, hələ uşaq olandan sonra xərclərin artacağını düşünəndə isə ümumiyyətlə dəhşətə gəlirdim. Bu, belə davam edə bilməzdi, mütləq bir çıxış yolu tapmalı idim.

Uşaq məsələsinə gəldikdə isə, evliliyimizdən üç il keçməsinə baxmayaraq, xanımımda sağlamlıq problemi olduğuna görə bizdə alınmırdı. Əlbəttə, sağlam şəkildə qidalanma olmayanda belə problemlər qaçılmaz olur. Biz müalicə üçün həkimə müraciət etdik və o da çarənin yalnız müalicədə olduğunu dedi. Bu müalicə isə çox bahalı idi və mənim ona gücüm çatmırdı. Monopoliya dərman sahəsinə də keçmişdi, mətbuatda yazılanlara görə, Aslanşir adlı bir deputat bu monopoliyanın sahibi idi. Ölkəyə dərmanları yalnız o gətirə bilərdi və qiymətləri də o təyin edirdi. Bu səbəbdən də istənilən müalicə baha başa gəlirdi, xüsusilə bu məsələdə. Özümüzü güclə dolandırırdıq, müalicəyə pul necə çatacaqdı ki?!

Çətin maddi durumla əlaqədar mayorla danışmaq qərarına gəldim, onun məni başa düşəcəyinə ümid edirdim. Düzdür, inandırıcı gəlməsə də, yenə də ümid edirdim. Odur ki, mayorun yanına, kabinetinə getdim.

– Salam, cənab mayor! İcazə olar?

– Hə, leytenant, salam, buyur keç içəri, əyləş. Nədir, nə olub?

– Cənab mayor, çox vacib bir məsələ ilə əlaqədar məsləhətinizə ehtiyacım var. Mənə 5-10 dəqiqə vaxt ayıra bilərsizmi?

– Məsləhət? Sən bilirsən ki, mən pulsuz məsləhət vermirəm, ha-ha-ha, – deyərək qəhqəhə çəkdi.

– Əgər məsləhət versəniz, problemim həll olsa, inanın ki, xəcalətli qalmayacağam.

– Ooo, artıq əvvəlcədən şərt kəsirsən, deyəsən, tədricən ağıllanırsan ha. Buyur, eşidirəm.

– Cənab mayor, bilirsiz ki, mən artıq üç ildir ki evliyəm.

– Hə bilirəm, toyuna da gəlmişdik, unutmusan?
– Xeyr, əsla, yaxşı xatırlayıram. Bu üç il ərzində bizim övladımız olmadı, buna görə biz həkimə müraciət etdik və o da müalicə lazım olduğunu dedi. Müalicənin də necə bahalı proses olduğunu bilirsiz.
– Hə, bu heç yaxşı olmadı, heç düşmənə belə həkimə düşməsini istəməzdim. Bunu bildik, indi məndən nə istəyirsən?
– Cənab mayor, maaşımın əlli faizini sizə verdiyimə görə dolanışığımıza güclə pul çatır.
– Bir dəqiqə orada saxla! Sən mənə pul-zad vermirsən, düz-əməlli danış! İyirmi beş faizini fonda köçürürsən, iyirmi beş faizini də öz zibilinə görə ödəyirsən! Sənin dilindən mən tutub danışdırırdım? Yoxsa öz zibilini unutmusan?
– Cənab mayor, xeyr, unutmamışam, hər şey yaxşı yadımdadır və mən bunu danmıram. Amma vəziyyətimin qəlizliyini də siz başa düşün, çox xahiş edirəm. Mən artıq ailə başçısıyam, ailə saxlamalıyam, müalicə xərcləri, uşaq olandan sonra əlavə xərclər, mənə bir çıxış yolu lazımdır, mən nə edim? – gözlərim doldu, əllərim də əsirdi.
– Səsinin tonunu aşağı sal, bura sənin üçün qışqır-bağır yeri deyil!
– Üzr istəyirəm, cənab mayor, vəziyyətim çox kritikdir, artıq ümidsizliyə qapılıram, xahiş edirəm, təcrübəli bir zabit kimi, rəisim kimi mənə bir çıxış yolu göstərəsiz. Əsla mən maaşımın əlli faizini verməkdən imtina etmək üçün gəlməmişəm, məni düz başa düşün.
– Hə, bax bu başqa məsələ, gərək elə bundan başlayaydın. Deyəsən, yavaş-yavaş ağıllanırsan ha, leytenant. Mənə iki gün möhlət ver, sənə bir çıxış yolu taparam. İndi isə gedəsi yerim var, məni çox saxlama.
– Baş üstə, cənab mayor! – uşaq kimi sevinərək ona

təzim edərək kabineti tərk etdim.

İçimdə təlatümlər var idi, sanki bir tərəfdən qəlbimdə ümid işığı yaranmışdı, digər tərəfdən isə həyata məni belə bir əclafa möhtac etdiyinə görə nifrət edirdim. Amma başqa çıxış yolu yox idi, ailənin yükü mənim çiyinlərimdə idi, yalnız mənim. Özümü həyatın bütün haqsızlığı qarşısında tək hiss edirdim.

İki gün keçdi və mayor məni yanına çağırtdırdı, yubanmadan kabinetinə getdim.

– Salam, cənab mayor! Çağırmışdız?

– Hə, salam, leytenant, keç içəri və əyləş.

– Təşəkkür edirəm, cənab mayor.

– Sənin problemin haqqında fikirləşdim və deyəsən, bir çıxış yolu tapmışam.

– Mən heç şübhə etmirdim ki, sizin kimi təcrübəli rəis mütləq bir çıxış yolu tapacaq.

– Tələsmə, əvvəlcə bir neçə sualıma cavab ver. Sənin taqımında neçə əsgər var?

– İyirmi beş əsgər və iki çavuş.

– Çavuşları çıx, əsgərlərindən neçəsi Bakka qeydiyyatındadır?

– Əsgərlərimdən on beşi Bakka qeydiyyatlıdır, amma iyirmisi Bakkada yaşayır.

– Gözəl, çox gözəl! Onda sənin işin həll oldu ki, – deyərək bic-bic gülümsədi.

– Bu mənim problemimi necə həll edəcək ki, cənab mayor?

– Çox sadə, ayda dörd əsgərini məzuniyyətə göndərirsən və qayıdanda onlardan 100 dollar pul alırsan, onun 50-si sənin, 50-si də mənim olur. Məzuniyyətlərin sənədləşməsini qərargahda mən həll edəcəm, ona görə narahat olma.

– Belə şey olar? Axı hər əsgərə ildə bir dəfə məzuniyyət düşür, bunu necə edəcəyik?

– Ay axmaq, dedim axı, sənədləşmə işini mən həll edəcəm, sən onun üçün narahat olma, sən əsas odur ki, hər ay məzuniyyətə getmək istəyən dörd əsgər tap, çox da olsa olar, artıq pul cibimizi yırtmır ki?!

– Cənab mayor, bu işin üstü açılsa necə olacaq? Əlavə daha bir zibilə düşmək istəmirəm, onsuz da boğuluram.

– Burada zibillik heç nə yoxdur, qətiyyən narahat olma, sən get və əsgər tap, eşitdin? Yoxsa sənə pul lazım deyil?

– Yox, lazımdır, cənab mayor. Baş üstə, elə bu gündən bu məsələ ilə məşğul olacağam.

– Onda get, get və ağıllı ol, leytenant!

Tez-tələsik kazarmaya gəldim və jurnalı açıb əsgərlərin siyahısına baxdım. Az-çox güvəndiyim əsgərlərdən birini otağıma çağırdım.

– Gəlmək olar, komandir?

– Hə, gəl, əsgər, əyləş.

– Çağırmışdız, komandir?

– Bəli, sən Bakkada qeydiyyatdasan, elə orada da yaşayırsan?

– Bəli, komandir, Bakkada yaşayıram. Nə olub ki?!

– Heç nə, – deyərək fikrə daldım. Axı bunun cinayət olduğunu bilirdim, indiyə qədər heç bir cinayətdə iştirak etməmişdim, necə olacağını da bilmirdim.

– Buyurun, komandir, nəsə bir qulluğunuz var Bakkalıq?

– Yox, nə qulluğu? Son dəfə məzuniyyətdə nə vaxt olmusan?

– Komandir, artıq 10 aydır xidmətdəyəm və hələ məzuniyyətdə olmamışam, ümumiyyətlə bizim taqımda heç kim məzuniyyətdə olmayıb. Nə yaxşı ki, söhbəti açdınız, mən çox istəyirəm ki, məzuniyyətə gedim, buraxarsız?

– Buraxaram, əlbəttə, buraxaram, – deyə gülümsədim.

– Amma bir problem var və heç bilmirəm haradan başlayım.

– Buyurun, komandir, məzuniyyətə getmək üçün nə desəniz razıyam, təki məni buraxasız.
– Hər nə desəm?
– Bəli, hər nə desəz! Başqa taqımların əsgərləri vaxtlı-vaxtında məzuniyyətə gedirlər, biz də uşaq deyilik ki, hər şeyi yaxşı başa düşürük, nə lazımdırsa deyin. Siz hələ bilsəniz ki, digər əsgərlərimiz bu xəbəri eşidəndə necə sevinəcəklər, əməlli-başlı növbə yaranacaq məzuniyyət üçün.
– Tələsmə, hələ bir bu ay dörd əsgəri göndərək, sonrasına baxarıq. Mən bu ay sadəcə dörd əsgərin məzuniyyətini həll edə bilərəm, çox yox.
– Bilirəm, komandir, dedim axı, uşaq deyilik, bu sxemin necə işlədiyini də bilirəm. Siz narahat olmayın, məndən nə tələb olunursa, onu deyin, gerisi düzələn işdir.
– Vallah, heç bilmirəm necə deyim, çaşıb qalmışam. Deyəsən, bu hərbi hissədə məndən başqa hamı hər şeyi bilir.
– Komandir, belə pis çıxmasın, ya standart qiymət olur, ya da damara baxıb qan alırlar. Siz nəyi necə desəniz, elə də olacaq.
– On günlük məzuniyyət üçün 100 dollar verən olar?
– Komandir, ikiəlli yox ey, hətta dördəlli razılaşacağıq! Məzuniyyət həsrəti çəkməkdən gözümüzün kökü saraldı ki.
– Onda tələsmə, əgər sən razısansa, birinci sənin sənədlərini rəsmiləşdirim, sonra sənin məsləhətinlə daha üç əsgər taparıq, amma qiymət məsələsini onlara demə.
– Ayıb deyil, komandir, hətta sizə kimin damarının nə qalınlığında olduğunu da deyərəm. Əmanətinizi də məzuniyyətdən qayıdan günü sizə çatdıracam, qətiyyən narahat olmayın.
– Yaxşı, bu yaxşı oldu, səninlə dil tapmaq asan oldu,

gələcəkdə bu məsələlərdə mənə kömək edəcəksən.

– Baş üstə, komandir, – əsgər sevindiyindən qanadı olsa uçardı.

Beləcə, mən əsgərləri növbə ilə məzuniyyətə göndərirdim və geri qayıdanda da onlardan yüz dollar alırdım, əllisi mayora, əllisi isə mənə qalırdı. Hansısa əsgər ikinci dəfə məzuniyyətə getmək istəyəndə isə iki yüz dollar alırdım, əllisi mayora, yüz əllisi isə mənə qalırdı. Əsgərlər xoşbəxt, mayor razı, mən isə sevincli idim. Bu, hamını qane edən bir sxem idi. Bir neçə ay keçəndən sonra bütün hərbi hissənin bu sxemlə işlədiyini öyrənə bildim, demək ki, burada bu adi hal idi.

Aylar keçdikcə işlər qaydasına düşməyə başlayırdı. İlk aylarda mənə iki yüz dollar pul qalsa da, sonralar bu məbləğ altı yüz dollara qədər qalxdı. Başımız bu işə o qədər qarışmışdı ki, artıq ay ərzində altı əsgəri məzuniyyətə buraxırdıq. Aylıq "gəlir"im artıq səkkiz yüz dollara qədər yüksəlmişdi. Bu, mənim aylıq maaşımdan da çox idi, nəzərə alsaq ki, maaşım altı yüz dollar idi və mən onun yarısını mayora verirdim, bu, heç də pis nəticə deyildi.

Bu minvalla illər ötməyə başladı. Xanımım lazım olan müalicəni aldı və bizim çoxdan bəri yolunu gözlədiyimiz övladımız oldu. Oğlan idi, ona atamın adını verdim, Əli. Artıq ailəmiz natamam görünmürdü, aylıq gəlirlərim dolanışığımızı tam olaraq görürdü və çatışmazlıq hiss etmirdik.

Bir neçə il də keçəndən sonra bir qızım oldu, anamın adını qoydum, Zəhra. Artıq ailəmiz tamamlanmışdı, özümü xoşbəxt ata kimi hiss edirdim. Bir kişiyə nə lazımdır ki, sevdiyi xanım, oğul və qız övladı, iş, stabil gəlir və rahat həyat. Hətta bir az pul toplayıb bir maşın da aldım. Yeri gəlmişkən, bu illər ərzində həm vəzifəm artırılmışdı, həm də rütbəm, mən artıq kapitan rütbəli bölük komandiri idim. Həyatım alınıbmış kimi görünürdü. Amma bu, çox çəkmədi.

# “Tartara faciəsi”nə aparan yol

2019-cu ildə hərbi hissəyə yoxlama gəlməli idi, əsas yoxlanış silah-sursat, şəxsi heyət və texnika üzərində olmalı idi. Şəxsi heyət və silah-sursat barədə bir problemimiz yox idi, amma texnika cəhətdən məsələ çox ağır idi. Döyüş maşınlarımızın əksəriyyəti hələ müstəqillikdən öncə istehsal olunmuş ingilis maşınları idi. Təsəvvür edirsiz, 60 illik texnika hələ də hərbi hissələrin parklarında idi. Mütləq əksəriyyəti isə sıradan çıxmış və istifadəyə tam yararsız idi. Bizə yoxlama gələnə qədər bütün maşınları işlək vəziyyətə gətirmək tapşırığı verildi. Biz çaş-baş qalmışdıq, on illərlə istifadəsiz vəziyyətdə qalmış maşınları necə işlək vəziyyətə gətirmək olardı ki? Maşınların nəinki təkərləri, hətta dəmir hissələri belə çürümüşdü, heç onlara minmək belə mümkün deyildi.

Yoxlama üç aydan sonra gəlməli idi, yəni bizim üç ay vaxtımız var idi. Sözün açığı, problemlər o qədər çox idi ki, haradan başlayacağımızı bilmirdik. Gündəlik axşam düzülüşləri elan olundu, bütün zabitlər öz texnikası üzərində aparılan işlər barədə gündəlik məruzə etməli idilər.

Bölük komandiri olaraq mənə 4 maşın təhkim edilmişdi, hamısı da 1946-cı il istehsalı olan və şəxsi heyəti daşımaq üçün nəzərdə tutulan yük maşınları idi. İlk əvvəl texniki baxış keçirdik və bəlli oldu ki, hər maşına 4 təkər lazımdır, yəni ümumilikdə 16 təkər. Maşınların üstü də, içi də natəmiz şəkildə idi və ilk əvvəl təmizlik işlərindən başladıq. İlk günün düzülüşündə bütün zabitlər kimi mən də hesabat verdim. İkinci gün isə maşınların mühərriklərini yoxlamaq qərarına gəldik, məlum oldu ki, bütün maşınlara akkumulyator lazımdır və mühərriklər də uzun müddət qaldığına görə sıradan çıxıb, mütləq mühərriklər açılmalı və təmir olunmalı idi. Yalnız təkər və akkumulyatorların qiyməti təxminən dörd min dollar edirdi. Bu, çox böyük

rəqəm idi, hələ mən mühərriklərin təmirini, sonradan üzə çıxacaq sürətlər qutusu, əyləc və mufta sistemi və digər nasazlıqları demirəm.

İkinci günün düzülüşü qalmaqallı oldu, bölük komandirlərindən biri tabor komandirinə etiraz etdi:

– Cənab mayor, bu nə deməkdir? Maşınlar bizim atamızın maşını deyil ki?! Dövlət var, büdcəsi var, büdcədən hər il milyardlarla dollar vəsait ayrılır, mən niyə uşaqlarımın boğazından kəsib maşınları təmir etməliyəm?

– Necə, əmrə itaətsizlik edirsən?

– Qeyri-qanuni əmrə itaətsizlik etmək mənim haqqımdır! Dövlətin ayırdığı vəsaitdən pul ayrılsın və maşınlar da təmir edilsin, bəs hərbi hissədə avtomobil xidməti nəyə lazımdır? Biz aldığımız maaşla ailəmizi saxlayaq, yoxsa maşın təmir etdirək?

– Sənin, deyəsən, dilin uzun düşüb, keç qərargaha və izahat yaz, mən sənə göstərərəm əmrə itaətsizlik nədir.

– Nə izahatı, nə haqda izahat? Siz nə danışırsız?

– Keç içəri, mən sənə göstərəcəm nə izahatı!

Həmin zabit tabor komandiri ilə qərargaha getdi, düzülüşü qərargah rəisi davam etdirdi. Biz isə təmizlik işləri barədə məruzə etdik və sabah görüləcək işlər barədə məlumat verdik.

Səhər açılanda dünən etiraz edən zabitin hərbi hissədən qaçdığı xəbəri yayıldı. Hərbi hissə ətrafında onu axtarışa başladıq, evinə xəbər verildi. Axşam saatlarında onun meyitinin meşə yaxınlığında tapıldığı xəbəri hamımızı şoka saldı. Hamımızı eyni sual narahat edirdi, o niyə ölüb və ya onu kim öldürüb? Hamımız dəhşət içində idik.

Üçüncü günün sonunda düzülüşün önünə tabor komandiri çıxdı.

– Yəqin ki, hamınız zabit yoldaşınızın aqibətindən xəbərdarsınız. Onun ölüm səbəbi hərbi prokurorluq

tərəfindən araşdırılacaq, bizə isə heç bir şey məlum deyil. İstintaq sirrini nəzərə alsaq, bizə hansısa bir informasiyanın veriləcəyinə də inanmıram. Dünənki düzülüşdə onunla aramızda yaşananları siz də gördünüz, mən heç belə olmasını istəmirdim və gələcəkdə də sizin hansısa birinizlə eyni halın yaşanmasını istəmirəm. Hamınız ağıllı olub işinizi görməlisiz! Bu gün başımız meyit axtarışına qarışdığından, texnka ilə işə vaxt ayıra bilmədiyinizi bilirəm, ona görə də düzülüşü qısa edəcəm. Hamı sabah görəcəyi işlər barədə məlumat verəcək və dağılışacağıq.

Cərgədə duran zabitlər çaşqınlıq içində idi, onlar başa düşə bilmirdilər ki, tabor komandiri başsağlığı verir yoxsa onlara hədə-qorxu gəlir. Cərgədə gərginlik əməlli-başlı hiss olunurdu. Biz növbəti gün üçün planımız barədə məlumat verdik və dağılışdıq.

Həmin zabit haqqında maraqlanmağa başladım, məlum oldu ki, subay idi və hərbi hissəyə yenicə gəldiyindən hələ məşhur sxemlə işləmirdi, kim bilir, bəlkə də imtina etmişdi. Ola bilər ki, özünü təmiz saxlamağa çalışırdı. Düşünürdüm ki, əgər onunla bu cür rəftar etdilərsə, gör indi bizimlə nə edərlər?

Növbəti gün hamı parka ustaları dəvət etmişdi, ustalar maşınların vəziyyətinə baxıb texniki qiymətləndirmə verməli, alınacaq ehtiyat hissələrinin siyahısını tərtib etməli, onların qiymətlərini, təmir müddətini və ustaların zəhmət haqqını hesablamalı idi. İşin həcmi maşınların tam istifadəyə yararlı olması və texniki baxışdan keçməsini əhatə edirdi. Mənim dörd maşınım üçün qiymət təxminən belə idi: Ehtiyat hissələrin qiyməti cəmi təqribən 22.000 dollar, təmir müddəti altmış beş gün, ustaların zəhmət haqqı 18.000 dollar.

Mən az qala havalanacaqdım, axı bu 40.000 dollar pulu mən haradan tapacaqdım? Evimi, maşınımı, hətta ailəmi

də satsaydım bu pulu düzəldə bilməzdim. Qiymətlərin bu qədər yuxarı olmasının əsas səbəbi ehtiyat hissələrinin tapılmamasına görə idi, əlbəttə, 21-ci əsrdə biz hələ də 1946-cı il istehsalı olan maşınlara ümid bağlamışdıq. Sonradan öyrəndim ki, digər bölüklərdə də vəziyyət ürəkaçan deyilmiş, elə bölük var idi ki, maşınlarının təmirinə 80.000 dollar pul tələb olunurdu. Maşınların cəmi on faizi yeni idi, yerdə qalanı isə meyit idi, sadəcə meyit.

Bütün zabitlər bu haldan bərk narazı idi, heç kim başa düşmürdü ki, bu vaxta qədər atılmış maşınlar niyə birdən-birə lazım olub, məqsəd nə idi. Növbəti düzülüşdə hələ tabor komandiri gəlməmiş zabitlər öz aralarında danışır və gileylənirdilər, bir neçə zabit isə ümumiyyətlə meyit kimi görünürdü. Hamının əlində ustaların verdiyi qiymətləndirmə var idi, mat-mat rəqəmlərə baxırdılar. Çox keçməmiş tabor komandiri sıranın qarşısına çıxdı:

– Bildiyimə görə, bu gün hamı texniki qiymətləndirməni həyata keçirib, elədirmi?

– Bəli, elədir, cənab mayor, – deyərək hamı bunu təsdiqlədi.

– Əla! Kimin nə sualı var, kimə nə aydın deyil, kimə nə qaranlıq qalıb?

Sonuncu sualın qarşısında hamı susurdu. Heç kim nəsə deməyə cürət etmirdi.

– Sual yoxdursa, hamıya hər şey aydındırsa, qiymətləndirmə haqqında yazılı məlumatı qərargah rəisinə indi təqdim edin, yubanmadan! Sonra dağılışa bilərsiz.

Hamı tez-tələsik texniki qiymətləndirmə haqqında qısa hesabat yazaraq qərargah rəisinə təhvil verdi. Qərargah rəisi hamını saxladı, dağılmağa qoymadı və tabor komandirinin kabinetinə getdi. Zabit heyəti qərargahın qarşısında, toplanış meydanında durmuşduq. Hamı narahat idi, bu işlərin axırının necə olacağı haqqında düşünürdü. Birdən

zabitlərdən biri dözməyib dedi:

– Qardaşlar, bu belə olmaz, belə iş olmur, belə dövlət olmur! Hər il hərbi təchizat üçün milyardlar ayrılır, bəs o pullar hara xərclənir ki, indi maşınları biz təmir etməli oluruq. Bu qədər də olmaz axı! Vallah, özüm borcun içində üzürəm, evimi, ailəmi güclə dolandırıram, bu pulu mən yetim haradan tapıb verəcəm? Bu nə vaxta kimi belə davam edəcək? Nəsə bir tədbir görməliyik, yoxsa ya məhv olacağıq, ya da bizim də meyitimiz meşə kənarında tapılacaq. Doğrudan da, heç meyiti tapılan zabitin aqibətindən də xəbər tuta bilməmişik. Bura hərbi hissədir, yoxsa Amazon cəngəlliyi?

– Düzdür, düzdür! – deyə zabitlərin çoxu onun sözünü təsdiqlədi.

– Mən təklif edirəm ki, sabah saat 10:00-da hamımız yığışaq və bu barədə bir məsləhət edək, bəlkə bir çıxış yolu tapdıq.

Qərargah rəisinin qərargahdan çıxdığını görcək hamı susdu və düzüldü.

– Deməli belə, hesabatlarınız tabor komandirinə təqdim olundu, sabah o, hesabatları hərbi hissə komandirinə təqdim edəcək. Bu, artıq sizin tərəfdən rəsmi razılıq kimi qəbul edildi, yoxlamaya qədər maşınlarınızı saz vəziyyətə gətirəcəyiniz barədə razılıq. Sizə uğurlar! İndi isə dağılışa bilərsiz!

Ertəsi gün bütün zabitlər qərargahın qarşısında idi, hamı narahat görünürdü. Hamı qeyri-müəyyənlikdə idi və bərk narahatlıq keçirirdi. Hamı 3-3, 4-4 yığışıb gileylənirdi. Birdən zabitlərdən biri dünənki təklifi bizə xatırlatdı ki, saat 10:00-da hamımız çayxanada yığışaq və bu məsələni müzakirə edək. Hamı razılaşdı və danışılan vaxtda istisnasız olaraq hamımız həmin çayxanada idik. Dünən etiraz edən zabit, Mahir sözə başladı:

– Bilirəm, hamımız üçün çıxılmaz vəziyyətdir,

amma mənim üçün isə dözülməz həddir. Özüm borc içindəyəm, ev almaq üçün 25.000 dollar borc götürmüşəm, indi də sınıq-salxaq maşınları təmir etmək üçün 45.000 dollar pul tapmalıyam? Bilirəm, illərlə bizi müxtəlif cinayətlərə bulaşdırdıqlardan bu gün onların yanında çoxumuzun dili qısadır, amma şəxsən mənim üçün bu, ölümə bərabərdir. Mən bu axşam düzülüşdə etiraz edəcəm, öldürəcəklərsə öldürsünlər, lap yaxşı, canım qurtarar.

– Mahir, sən nə danışırsan, öldürmək nədir? Bura məgər dağ başıdır ki, kimi istəsələr öldürsünlər? – deyə zabitlərdən biri Mahirin sözlərinə reaksiya verdi.

– Görünür, siz bir neçə gün əvvəl meyiti tapılan zabit haqqında ekspertizanın rəyindən xəbərsizsiz. Dünən gecə ailəsi ilə əlaqə saxladım, ekspertiza "meşədə gəzərkən ayağı ilişib, yerə yıxılıb və başı daşa dəyib" rəyini verib. Ailə tabutu açmaqda israr edib, əsgərlər mane olmağa çalışıb, qarşıdurma yaranıb. Yaxınları tabutu evə soxub qapıları bağlayıblar və kənd camaatını həyətlərinə səsləyiblər. Kütlə qarşısında əsgərlərdə yumşalma olub. Ailə tabutu açıb və zabitin bədənində işgəncə izlərini görüblər. Sol qaşı partlayıb və tikilib, hər iki gözünün altı qaralıb, dodaqları daxildən cırılıb, burnu qırılıb, qabırğa nahiyəsində qançırlar, böyrək nahiyəsində qançırlar, qol və ayaqlarında qançırlar, başı arxadan partlayıb və tikilib. Bir sözlə, onu ölənə qədər döyüblər. Hərbi Nazirlikdən dərhal onlara paşalar gəlib və sakitlik yaradıblar. Çox güman ki, pul və ya hədə-qorxu ilə susdurublar, ailəsi bu məsələyə toxunmadı. Onu dünən günorta dəfn ediblər. Ekspertizanın rəyini də rəsmi olaraq mətbuatda və telekanallarda veriblər. Vəssalam, bu da bizim dövlətimiz...

Hamımız qanı donmuş və gözlərimiz dəhşətdən bərəlmiş vəziyyətdə qulaq asırdıq, amma eşitdiklərimizə inanmaq

istəmirdik. Necə yəni, adamı döy öldür, sonra da qanını batır?? Bu, bizə qorxulu bir yuxu kimi gəlirdi.

– Mən sizi qorxutmaq istəmirəm, amma etiraz etməyin bu cür sona çatmasını da istisna etmirəm. Hər bir halda mən bu axşam etiraz edəcəm, heç kimi məcbur etmirəm, amma hər bir halda başıma bir iş gəlsə siz həqiqəti çılpaqlığı ilə biləcəksiz. Mən bu addımı iki məqsədlə atıram, birincisi, bu yükü çəkmək istəmirəm, ikincisi, öldürüləcəyim halda sizi qəflətdən ayıldacağam. İndilik isə mən evə gedirəm, bir az dincəlmək istəyirəm, axşama enerji lazım olacaq, – deyərək çayxananı tərk etdi.

Biz hamımız hərbi hissəyə qayıtdıq, nəyi haradan başlayacağımızı bilmirdik. Usta çağıraq, axı ehtiyat hissəsi yoxdur. Ehtiyat hissələrinin ardınca gedək, axı pul yoxdur, heç ehtiyat hissələri də yoxdur. Ustalar pul verildiyi təqdirdə ehtiyat hissələrini İngiltərədən sifariş edəcəkdilər. Hər şey gəlib pulun üstündə dayanırdı. Hər zabit bir maşının yanında durub nə edəcəyini düşünürdü. Çıxış yolu tapmaq mümkün deyildi, ən azından hələ ki, belə görünürdü.

Axşam düşdü və biz qərargahın önündə düzüldük. Hamı pərişan görünürdü, bircə Mahirdən başqa, o, cərgədə qürurla durmuşdu, şax bir qamətlə. Tabor komandiri və qərargah rəisi qərargahdan çıxıb sıranın önünə gəldi. Tabor komandiri qəzəbli görünürdü:

– Bu gün mən sizin qiymətləndirmə haqqında hesabatları hərbi hissə komandirinə təqdim etdim və hamınızın əvəzindən cənab polkovnikə maşınların vaxtında təmir ediləcəyinə dair öhdəlik götürdüm. İndi sıra sizdədir, siz təcili lazım olan vəsaitləri mənə verməlisiniz! Hərbi hissə komandiri sizə lütf edərək, maşınları Bakkada yerləşən təmir taboruna göndərərək, orada təmir edilməsi üçün nazirliyə müraciət etdi və razılıq aldı. Hə, bir məsələni də deyim, maşınların Bakkaya göndərilməsi və oradan qaytarılması qatarla olacaq,

buna görə də əlavə 1.000 dollar ödəməli olacaqsınız. Biz bu cür məsuliyyətli işi sizin kimi yaramazların öhdəsinə buraxa bilmərik! Vaxtımız məhduddur, təmir taborunda isə ehtiyat hissələri və usta var, qalır yalnız onların pulunu ödəmək. Təmir taboru bütün işləri 65 günə tamamlamaq öhdəliyini götürüb. İşlər planladığımız üzrə gedərsə, yoxlamadan ən geci on gün əvvəl bütün maşınlar hərbi hissədə olacaq. Ən geci üç günə hamı öhdəsinə düşən məbləği təqdim etməlidir, aydındır?! Kimə nə qaranlıq qaldı?

– Cənab mayor, – deyə Mahir sözə başladı, – madam ki təmir taborunda ehtiyat hissələri və usta var və bütün bunlar dövlət büdcəsi hesabına təmin edilir, bizdən pul almağa nə gərək var? Məgər təmir taborunun işi elə xarab maşınları təmir etmək deyil? Axı bu maşınlar bizim şəxsi malımız deyil ki, onları da biz təmir edək, niyə dövlətin maşını elə dövlətin ayırdığı öz pulu ilə təmir edilməməlidir?! Özüm borc içində üzürəm, ev üçün götürdüyüm 25.000 dolları ödəyə bilmirəm, maşınlar üçün 45.000 dolları haradan tapım?

– Nə sərsəmləyirsən, kapitan?! Mənə nə var haradan tapacaqsan, istəyirsən lap cəhənnəmdən tap! Məni maraqlandırmır! Sənə bir sutka vaxt verirəm, sabah pul məndə olsun, eşitdin?!

– Cənab mayor, mən dövlətin maşınını təmir etmək üçün bir sent belə verməyəcəyəm, heç fikrim də yoxdur! Bundan sonra nə istəyirsiz edin, heç vecimə də deyil!

– Sən deyəsən artıq qaşınırsan ha, kapitan! Keç qərargaha, tüllab! Gəlib səni başa salacağam!

– Mən getdim, siz də çox yubanmayın, gəlin görüm mənə nəyi başa salacaqsız... – deyə Mahir kinayəli gülüşlə cərgəni tərk edib qərargaha getdi.

– Heç kim, eşidirsiz, heç kim bu məsələdə xam xəyala düşməsin! Sizin ananızı ağladaram, bildiniz?! – tabor

komandirinin əsəbdən ağzı köpüklənirdi. – İndi isə rədd olun burdan, üç günə isə pulları yerin dibindən, cəhənnəmdən olsa belə tapıb gətirin, aydındır?! – çığırtı ilə sözünü bitirib qərargaha tərəf tələsdi. Gedərkən qərargah rəisinə də onunla gəlməsinə işarə etdi.

Hamımız yerimizdə donmuşduq, Mahirin dediyi düz sözlər bizim zehnimizdə cavabsız suallar doğurmuşdu. Belə baxanda Mahir hər şeyi düz deyirdi. Beş ya altı dəqiqə qərargahın qarşısında durduq, birdən qərargahdan yüksələn səsləri eşitdik. Sözləri başa düşməsək də, çığırtılı nitq olduğu bizə aydın idi. Hamımız tez-tələsik oranı tərk edib evə getdik.

Səhər düzülüşündə bütün zabitlər qərargahın qarşısında düzülmüşdü. Hamının gözü Mahiri axtarırdı, o isə gözə dəymirdi. Hamı nigaran və narahat idi. Qərargah rəisi sıranın qarşısına çıxdı, sıra yoxlaması keçirildi, amma Mahir hələ də gözə dəymirdi. Qərargah rəisi onu fərari elan etdi və axtarışa veriləcəyini dedi. Biz yerimizdə donub qalmışdıq, burada nə baş verdiyini ya dərk etmirdik, ya da dərk etmək istəmirdik.

Düzülüş bitən kimi dağılışdıq, zabitlər bir kənara çəkilib Mahirin taleyini müzakirə etməyə başladılar. Hərə bir versiya deyirdi, kimisi qaçmağına, kimisi də öldürüldüyünə ehtimal verirdi. Mən isə sakitcə qulaq asıb versiyaların dəhşətinə dalırdım. Birdən zabitlərdən biri meşə kənarını yoxlamağı təklif etdi. Mən bu təklifi eşidəndə başım gicəlləndi...

Bir neçə zabit meşə kənarına getməyə razılıq verdi, bir az düşünüb mən də onlara qoşuldum və biz birlikdə oraya getdik. Hərbi hissədən meşə kənarına 800 metrə yaxın məsafə var idi. Yolda zabitlər öz aralarında zarafatlaşırdılar, “əgər Mahirin də meyiti orda olsa, daha ağ olar da, yəni bunların fantaziyası başqa heç nəyə çatmır” deyərək gülüşürdülər və tabor komandanlığını ələ salırdılar. Keçən

dəfə zabitin meyitinin tapıldığı yeri hamımız bilirdik, ona görə də qeyri-ixtiyari həmin istiqamətdə hərəkət edirdik. Həmin yerə çatmağa 100 metr qalmış gözümüzə bir qaraltı dəydi. Diqqətlə baxanda həmin yerdə bir neçə itin cəm olduğunu anladıq və həmin tərəfə qışqıra-qışqıra qaçmağa başladıq. Kimsə qaçaraq yerdən götürdüyü daşı itlərə tərəf tolazladı və itlər dərhal qaçıb uzaqlaşdılar. Biz həmin yerə yaxınlaşanda gözlərimizə inanmadıq, Mahirin meyiti orada idi, itlər qismən boynunu parçalamışdı, yanında da avtomat silah var idi. Mənzərə o qədər vəhşətli idi ki, bir neçə zabit özünü saxlaya bilməyib qusdu. Mənim isə gicgahlarım və beynim sıxılırdı, ürəyim gəlib boğazıma dirənmişdi, sanki elə indicə öz ürəyimi qusacaqdım. Biz sadəcə donub qalaraq meyitə, silaha və Mahirin parçalanmış boğazına baxırdıq. Birdən mən güllə yarasının Mahirin iki kürəyinin arasında olduğunu gördüm, ilahi, onu arxadan vurmuşdular. Hamımız bu hadisəni Mahirin dünənki düzülüşdə etdiyi etirazla əlaqələndirirdik. Həqiqət bizə çox ağır gəlirdi, sanki üzümüzü çevirib dünyanın o başına qaçmaq istəyirdik, iç dünyamız sarsılmışdı.

– Qardaşlar, Mahirin dünən çayxanada dediklərini xatırlayırsız? Xatırlayırsız, o, bizə öldürüləcəyi ehtimalını demişdi, xatırlayırsız, sizinləyəm, danışın da, nə susub mal kimi baxırsız?? – zabitlərdən biri artıq isterikaya qapılmışdı, onu başa düşürdüm, elə mən də özümə güclə nəzarət edirdim.

– Sakitləş, qardaş! – digər zabit onu qucaqladı. – Sakitləş! Mahir sonunu əvvəlcədən bildiyi yola özü qədəm qoydu, özü bu yolu seçdi. Atdığı addım çox cəsarətli və təqdirəlayiqdir, hər kişinin işi deyil ki, sonunun ölüm olacağını bildiyi yola qədəm qoysun. İndi onun canı bu zibillərdən qurtardı və artıq biz də keçəndəfəki qətlin səbəbini bildik, qaydalarla oynamasaq, bizi də bu son gözləyir. Odur ki, hamımız soyuqqanlı davranmalıyıq,

tədbirli olmalıyıq.

Hərbi hissəyə xəbər verdik, polis və prokurorluq əməkdaşları ora tökülüşdülər və ərazini nəzarətə götürdülər. Ekspertlər, kriminalistlər hadisə yerinə gəldi və meyitə baxış keçirəndən sonra onu qara polietilen kisəyə qoyub apardılar.

Biz isə bir neçə saat özümüzə gəlmədik, təhlükəli reallığın acısını hələ həzm edə bilmirdik. Bu xəbər bütün zabitlər arasında işıq sürəti ilə yayıldı, hamı iki gündən sonra nələr olacağının narahatlığını çəkirdi.

Axşam yenə bütün zabitlər qərargahın qarşısında düzülmüşdü, tabor komandirini gözləyirdik. Tabor komandiri gəldi və asta səslə:

– Cənab zabitlər, əminəm ki, bugünkü hadisə hamımızı eyni dərəcədə sarsıdıb, bu, bizim hissə üçün böyük itkidir, amma nə etmək olar, həyat davam edir, Mahirlə ya da Mahirsiz. Allah rəhmət eləsin, başqa nə deyə bilərik? Hə, bir məsələni də bildirim, mən keçəndəfəki hadisə baş verəndə demişdim ki, belə bir halın heç kimin başına gəlməsini istəməzdim, indi də deyirəm, mən bu cür hadisənin kiminsə başına gəlməsini arzu etmirəm! Nə isə, keçək öz işimizə, hərbi hissə komandirinin əmri ilə üç gündən sonra zabitlərlə təlimə gedəcəyik, təlimdə güllə atışı və digər döyüş tapşırığı olacaq. Maşınların təmiri üçün pulu verənlər həmin təlimdən sağ-salamat və yaxşı nəticələrlə hərbi hissəyə qayıdacaq. Amma əvvəlcədən nəzərə alın ki, təlimdə hər cür hadisə baş verə bilər, çalışın ki, maşınların təmiri üçün nəzərdə tutulan pulu, dövlətə borcunuzu həmin günə qədər verəsiz! Oldu? Hələ ki, heç kim pulu mənə verməyib, belə olmaz, kişi vətəninə borcunu qaytarmalıdır, mən bilən siz axı kişisiniz, – deyərək kinayə ilə gülümsədi.

– İndi isə dağılışın və pul axtarmaqla məşğul olun. Hə, bir də elə edin ki, heç kim meşə kənarına getməsin,

yazıqsız! – deyərək qərargah tərəfə getdi.
Həmin gecə fikirlər məni tərk etmədi, yerimin içində Mahirin məsələsini və tabor komandirinin bizi hədələməsini fikirləşirdim. Bəli, üç gündən sonra təlimə getmək söhbəti rəsmən bizi ölümlə hədələmək idi, nə olursa olsun, mən o pulu tapıb verməyi qərarlaşdırdım, mənim iki uşağım var idi və mən indi ölə bilməzdim, mən yaşamalı və ailəmin gələcəyini təmin etməli idim.
Ertəsi gün artıq hamı pul axtarışı ilə məşğul idi. Hamı nəyisə satmaq və ya bankdan kredit götürmək haqqında götür-qoy edirdi. Mən nahar fasiləsində şəhər mərkəzindəki banka getdim və kredit üçün müraciət etdim. Hərbçilərə xüsusi güzəştlə kredit verilirdi, illik iyirmi bir faiz ilə. Götürəcəyim 40.000 dollar məbləği beş ilə qaytarmalı idim, bu həm uzun sürən proses idi, həm də ayda təxminən min dollar ödəməli olduğum təqdirdə ailə büdcəmizə kəskin təsir edəcəkdi. Amma çıxış yolu yox idi, mən mütləq o pulu verməli idim.
Kredit üçün sənədlər hazırlandı, imzalandı və kredit mütəxəssisi dedi ki, sabah yaxınlaşım. Bəli, sabah mən o pulu bankdan alacaqdım və ölüm təhlükəsini özümdən uzaqlaşdıracaqdım.
Növbəti gün mən banka getdim və 40.000 dolları bankdan aldım. Sözün açığı, mən heç vaxt ömrümdə o qədər pulu bir yerdə görməmişdim. Həmin pulun həcmi və çəkisi az olduğu halda məsuliyyəti çox idi, növbəti beş il ərzində mən hər ay təxminən min dollar banka ödəməli idim.
Hərbi hissəyə getməmişdən öncə evə getdim və “qara gün” üçün saxladığım pulun üstündən min dollar da götürdüm, axı maşınların Bakkaya göndərilməsi üçün əlavə ödəniş etməli idim. Evdə əlavə olaraq üç min dollar da var idi, bu, ilk aylarda mənim əlimdən tutacaqdı. Gerisini isə hələ düşünmək istəmirdim...
Hərbi hissəyə çatan kimi düz qərargaha, tabor komandirinin kabinetinə getdim. Kabinetin qapısına çatanda daha üç

zabitin növbədə durduğunu gördüm. Hər birinin əlində paket var idi, onların içində nə olduğuna isə heç bir şübhə yox idi. Hər birinin üzündən dərin sarsıntı, gələcək haqqında bədbin güman və daha çox qeyri-müəyyənlik oxumaq olurdu. Bəli, hamı hansısa çətinliklər müqabilində bu pulu tapmışdı.

Birdən məndə bir sual yarandı və zabitlərdən asta səslə soruşdum:

– Yaxşı, qardaşlar, bəs ölmüş iki zabitin yerinə bu məbləğləri kim verəcək, aqibəti necə olacaq?

Zabitlər qəribə və qorxu dolu baxışlarla mənə baxıb çiyinlərini çəkdilər. Əlbəttə, indi onları ən az maraqlandıran məsələ bu idi, onlar yalnız öz canlarının hayında idilər. Hər kabinetə daxil olan zabit təxminən on beş dəqiqəyə oradan çıxırdı. Hardasa qırx dəqiqəyə mənim növbəm çatanda məndən sonra iki zabit də növbədə durmuşdu. Sonuncu zabit kabinetdən çıxan kimi dərindən bir ah çəkərək içəri daxil oldum:

– İcazə olar, cənab mayor?

– Hə, sənsən, kapitan, buyur, keç içəri və əyləş!

– Təşəkkür edirəm, cənab mayor, – deyərək içəri keçdim və əyləşdim.

Tabor komandiri fincanını götürərək yerindən qalxdı və kabinetinin başında olan samovara yaxınlaşdı, çay süzərək sözə başladı:

– Görürsən də, necə bir zamana gəlmişik?! Meşə kənarında meyitləri tapılan zabitləri deyirəm, heç kimin başına gəlməsini arzu etmərəm!

– Bəli, çətin zəmanədir, cənab mayor, – könülsüz halda onun sözünü təsdiqlədim, amma qəlbimin dərinliyində onunla razı deyildim, axı nə etmək olardı?!

– Sənin Mahir haqqında məhkəmə tibbi ekpertizasının verdiyi rəydən xəbərin var? – əlində çay gəlib qarşımda əyləşdi.

– Xeyr, cənab mayor, xəbərim yoxdur. Məgər artıq ekspert rəyi verilib?
– Bəli, verilib, dünən də dəfn edilib.
– Rəydə nə yazılıb ki, cənab mayor?
– Mahir, – çaydan bir qurtum içir, – Mahir intihar edib, ona təhkim edilmiş silahla özünü vurub.
– Necə yəni, öz silahı ilə?
– Bəli, öz silahı ilə özünü vurub.
– Necə yəni?! Mən anlamadım, silahı bölük növbətçisinin xəbəri olmadan silah anbarından necə götürüb? Axı axşam saat 22:00-dan sonra hərbi hissə növbətçisinin icazəsi olmadan silah anbarı açıla bilməz, silah anbarının da açarları bölük növbətçisində olur, icazəsiz oranı aça bilməz! Belə olduğu halda silah onun əlinə necə keçib?
– Bilmirəm, bu məni maraqlandırmır, bunu araşdırmaq mənim işim deyil. Müstəntiqlər var, onlar da araşdırar, mənim nəyimə lazımdır?!
– Cənab mayor, mən Mahirin meyitini görmüşəm, güllə yeri onun iki kürəyinin ortasında idi, belə olduğu halda o, özünü necə vura bilərdi?
– Eee, bu nə suallardı mənə verirsən, prokuror-zadsan? Ekspert deyirsə intihar edib, deməli intihar edib! Sən ümumiyyətlə bura niyə gəlmisən? Müstəntiqsən, araşdırma aparırsan? – əsəbi və gərgin görünürdü.
– Xeyr, cənab mayor, sadəcə ekspert rəyini eşidən kimi təbii olaraq bu suallar məndə yarandı. Suallarımla sizi narahat etdimsə üzr istəyirəm!
– Üzr istəmə, de görüm bura niyə gəlmisən?
– Cənab mayor, tapşırığınıza əsasən, maşınların təmiri üçün nəzərdə tutulan pulu sizə verməyə gəlmişəm, – onun əsəbiləşdiyini görüb tez mövzunu birbaşa pulun üstünə yönəltdim.
– Mənə? Mənə pul-zad lazım deyil, səhv salma, sən

vətənə olan borcunu verirsən! Dayan görüm, sənin qiymətləndirmən necə idi? – deyə yazı masasının üzərindən bloknotunu götürdü və siyahıya nəzər saldı.

– Cənab mayor, 40.000 dollar idi.

– Bir dəqiqə, aha, bax buradadır. Deməli, sənin borcun 41.000 dollardır. Məni aldatmaq istəyirdin, ay dələduz?

– Xeyr, cənab mayor, əsla! Maşınların göndərilməsi üçün nəzərdə tutulan min dolları unutmuşdum, amma onu da gətirmişəm, cəmi 41.000 dollar.

– Haradadır, çıxart görüm!

Mən tez pulu çıxardım, saydım və ona verdim. O da pulu alan kimi məxsusi bir acgözlüklə onu saymağa başladı. Sayıb bitirəndən sonra:

– Aha, indi sənin üstündən xətt çəkə bilərik, ha-ha-ha, – deyə qəhqəhə çəkdi. – Qorxma, sənin adının üstündən xətt çəkəcəyəm, sən özün hələ bizə lazımsan, indi sənin kimi ağlı başında olan zabit tapmaq çətindir.

– Cənab mayor, bir sual da verə bilərəmmi?

– Yığdın bu gün məni öz suallarınla boğaza, ver!

– Cənab mayor, ölmüş o iki zabitin borcu necə olacaq?

– Nədir, yoxsa onların yerinə də pul vermək istəyirsən?

– Xeyr, yox, istəmirəm, sadəcə maraqlı gəldi, onların maşınları bəs necə təmir olunacaq?

– Bax bu da mənim problemimdir! Görürsən, onlar ölüb canlarını qurtardılar, mən isə onların zibilini təmizləməliyəm! Hələ bilmirəm necə olacaq, amma bu problemi də mən həll etməliyəm. Başqa sualın yoxdursa, gedə bilərsən! Bir də Mahirin məsələsində verdiyin sualları unutsan, sənin özün üçün yaxşı olar! Mən istəmərəm ki, eyni aqibət başqa zabitin də başına gəlsin!

– Oldu, cənab mayor! İcazənizlə, mən gedim.

– Get, get və ağıllı ol, kapitan!

Həmin axşam düzülüşdə məlum oldu ki, bütün zabitlər

tələb olunan pulu tabor komandirinə verib. Məhz elə bu səbəbdən də zabitlərin hamısı cərgədə rahat dayanmışdı, amma bu rahatlıq müvəqqəti idi. Tabor komandiri sıranın qarşısına çıxdı:

– Deməli belə, cənab zabitlər, vətənə olan borcunuzu tam və gecikdirmədən ödədiyinizə görə vətən sizə təşəkkür edir! Hərbi hissə komandirinə bu barədə məruzə etdim və nəzərdə tutulan təlim qeyri-müəyyən zamana qədər təxirə salındı. İndi artıq rahat nəfəs ala bilərsiz! Hə, onu da deyim ki, maşınların daşınmasına yaxın bir həftə ərzində başlanılacaq. Siz isə digər gündəlik işlərinizlə məşğul ola bilərsiz. İndi isə dağılışın!

Bir neçə gün keçəndən sonra əlliyə yaxın əsgər və zabit heyəti hərbi hissəyə gəldi. Onlar maşınları yaxınlıqda olan qatar stansiyasına daşıyırdılar, deyildiyi kimi, maşınlar Bakkaya qatarla yola salınırdılar. İşlərini bitirməyə iki gün qalmış hərbi hissəyə gəlmiş zabitləri çayxanaya dəvət etdik və orada həm maraqlı, həm də müəmmalı bir söhbət oldu.

– Qardaşlar, sizə təşəkkür edirik, axır ki, bu maşınlar da həyata qayıdacaq, bilirik, bu, sizin işinizi artıracaq, amma biz də bu işin baş tutması üçün az zəhmət çəkməmişik, haqqını tam olaraq ödəmişik. Səbirsizliklə maşınların təmirdən qayıdacağı günü gözləyəcəyik! – deyə zabitlərdən biri sağlıq deyirmiş kimi onlara təşəkkür etdi.

– Nə, təmir, nəyi təmir, bu zir-zibili təmir etmək? – deyə təmir taborunun zabitlərindən biri heyrətini gizlədə bilmədi.

– Bəli, bu maşınları təmir etməlisiz.

– Canım, siz nə danışırsız, bu maşınların ömrü bitib, onlar təmir üçün aparılmır.

– Bəs nə üçün onları aparırsız?

– Onları rəsmi olaraq istifadədən çıxaracaqlar, sizə isə əvəzinə Çin və Rusiya istehsalı olan maşınlar veriləcək,

təptəzə maşınlar!

– Siz nə danışırsız, necə yəni təmir edilməyəcək?

– Başa düşmədim, deyirəm ki, sizə bu zibillərin əvəzinə yeni, qapıları möhürlü maşınlar veriləcək, siz isə elə hey təmiri soruşursuz. Başa düşmədim, siz yeni maşın istəmirsiz?

– Yox, bir dəqiqə, axı bizə deyilib ki, siz maşınları təmir etmək üçün aparırsız, siz isə yeni maşınlardan danışırsız. Axı bizə deyilənlə sizin dediyinizin arasında fərq var.

– Mən bilmirəm kim sizə nə deyib, bizə isə deyilib ki, iki aydan sonra sizə yeni maşınları gətirib təhvil verməliyik. Bu qədər, qardaş, mən başqa heç nə bilmirəm.

Təmir taborunun zabitinin dedikləri bizi şoka salmışdı, həqiqətin nə olduğunu isə bilmirdik. Nə etməli idik, sadəcə iki ay gözləmək lazım idi, hər şey onda bəlli olacaqdı.

İki ay tez gəlib keçdi, artıq iki dəfə banka min dollar ödəmişdim. Evdə bir az pul ehtiyatı olduğundan hələ pul çətinliyi çəkmirdim, amma bir-iki aydan sonra çətinliklər qaçılmaz olacaqdı. Yeganə ümidimiz pul müqabilində məzuniyyətə əsgər göndərmək idi, amma son vaxtlar onun da qarşısı alınırdı, yeni qərargah rəisi bu məsələlərdə bir az ehtiyatlı idi, ayda iki əsgərdən çox məzuniyyətə buraxmırdı. Yeri gəlmişkən, qərargah rəisimiz dəyişsə də, mən yenə hər ay maaşımın əlli faizini verirdim, amma bu dəfə yeni qərargah rəisinə. Necə deyərlər, ilanın ağına da lənət, qarasına da, amma bu dəfə bu misal "mayor" üçün lap yerinə düşürdü...

Nəhayət ki, gözlənilən vaxt gəlib çatdı, hərbi hissəyə maşınların gəlməsi barədə xəbər güllə kimi yayıldı. Avtopark hərbi hissədən 800 metr aralıda yerləşirdi, yubanmadan ora tələsməli və maşınları təhvil almalı idik. Zabit heyəti qərargahın qarşısında düzüldü və hamı bir

nəfər kimi parka tərəf istiqamət aldı.

Parka daxil olanda gözlərimizə inanmadıq, artıq on altı maşın parkın girişində düzülmüşdü, amma hamısı yeni maşınlar idi. Biz nə baş verdiyini hələ də anlamırdıq. Bakkadan maşınları müşayiət edən, onları bizə təhvil verməli olan zabitləri gördük. Biz onları tanımırdıq, lakin onlar bizə maşınlara texniki baxış keçirmək üçün göstəriş verdilər. Zabitlərin rəisi polkovnik rütbəli bir zabit idi. O, dərhal öz zabitlərini maşınların yanına yolladı və siyahı ilə bizim hərbi hissənin zabitlərinin adını çəkərək onlara yaxınlaşmağı əmr etdi.

Bir neçə zabitimiz onlara yaxınlaşdı, baxmayaraq ki, mənim adım çəkilməmişdi, mən də maraq üçün onlara yaxınlaşdım. Həm maşınları müşahidə etmək, həm də nə baş verdiyini anlamaq istəyirdim. Gəlmə zabitlər maşınları işə salırdılar, işıq, siqnal və mexaniki hissələri işə salıb təqdim edirdilər. Maşınları parkın daxilində sürərək nümayiş etdirir və təhvil verirdilər. Maşınların bəzisi Çin, bəzisi də Rusiya istehsalı idi. Sözün açığı, pis maşın deyildilər, amma bizə komandanlıq tərəfindən belə deyilməmişdi, biz təmirdən qayıdacaq maşınları gözləyirdik, amma onların əvəzinə yeni maşınlar gəlmişdi.

Bu qarışıq vəziyyəti görüb, təmir taborundan gəlmiş bir kapitana yaxınlaşıb soruşdum:

– Yoldaş kapitan, bəs bizim köhnə maşınlarımız necə oldu?

– Hansı maşınlar, dəmir konserv bankası halında olan zibilləri deyirsiz? Onları rəsmi qaydada istifadədən çıxardılar və utilizasiya üçün poladəritmə zavoduna təhvil verdilər.

– Necə yəni poladəritmə zavoduna? Bəs təmir edilmədi?

– Xeyr, yoldaş, o maşınlar təmirə gələcək halda deyildi. Əslində sizin yeni maşınlarınız 6 ay bundan əvvəl gəlmişdi, nədənsə sizin komandanlıq onları təhvil

almağı uzadırdı, yəqin ki, bir səbəb olub.

– Hə, yüz faiz hansısa bir səbəb olub, – “bizdən pul qopartmağın yolunu axtarırmışlar” deyə özlüyümdə düşündüm. – Nə isə, siz işinizdə olun, sizə mane olmayım, – deyə oradan uzaqlaşdım. Bizim bu söhbəti digər zabitlər də eşidirdi.

Növbəti dörd gün ərzində maşınların hamısı gəldi və bizə təhvil verildi. Təmir adı ilə göndərdiyim dörd köhnə maşının yerinə iki Çin və iki Rusiya istehsalı olan maşınlar gəlmişdi. Sözün açığı, maşınlar çox əla keyfiyyətdə idi, bir də ki, təptəzə maşınlar necə olmalı idi ki?! Amma bir məsələ bizi narahat edirdi, axı bizdən təmir adı ilə külli miqdarda pul alınmışdı, biz özümüzü aldadılmış, alçaldılmış və ələ salınmış kimi hiss edirdik.

İki gündən sonra tabor komandiri zabitlərə düzülüş təyin etdi, hamımız qərargahın qarşısında düzüldük. Tabor komandiri özündən razı halda sıranın qarşısına çıxdı:

– Hə, yoldaş zabitlər, yeni maşınlarınız necədir? Hamısını təhvil aldınız, yoxladınız, razı qaldınız?

– Cənab mayor, səhv etmirəmsə, maşınlar təmir olunmaq üçün təmir taboruna aparılmışdı, bizdən təmir qiymətləndirilməsi etməyi tələb etmişdiniz, həmin məbləği də bizə ödətdirmişdiniz. Bəs necə oldu ki, maşınlar təmir edilmədi, amma təmir əvəzinə yeni maşınlar gəldi? – deyə Vaqif adlı bir kapitan marağını gizlədə bilməyərək sual verdi.

– Kapitan, sizin üçün nə fərqi var ki?! Maşınlar təmir edildi, yoxsa yenisi ilə əvəz olundu, məgər yeni maşın daha yaxşı deyil?

– Elədir ki var, cənab mayor, sözsüz ki, yeni maşın təmir olunacaq köhnə maşınlardan yaxşıdır, amma şəxsən məni narahat edən təmir üçün məndən 53.000 dolların niyə alınmasıdır. Madam ki yeni maşınlar veriləcəkdi, niyə bizdən təmir üçün pul alınmalı idi? Dövlət artıq bu

maşınları almışdısa, niyə bizdən təmir üçün pul alındı?
– Nə maşın alınması? Nə sarsaqlayırsan? Heç bilirsən biz nə zülmlər çəkdik, sizin zir-zibilinizi yeni maşınlarla əvəz etmək üçün nazirliyi dilə tutmağa nə qədər çalışdıq?! Elə bilirsən bu işlər elə-belə həll olur? Bilmirəm, bəlkə siz buranı uşaq bağçası ilə səhv salmısınız?!
– Cənab mayor, biz həqiqəti bilirik! Təmir taborundan gəlmiş zabitlərlə bu barədə danışmışıq. Maşınların hələ altı ay bundan əvvəl ora gəldiyindən xəbərimiz var. Həmin maşınların bizim hərbi hissə üçün nəzərdə tutulmasına baxmayaraq, hərbi hissə onların təhvil alınmasını yubadıb. Necə oldu ki, aylarla yubanan təhvil-təslim prosesi biz pulları verəndən sonra başladı?
– Yenə nə sarsaqlayırsan?! Nə altı ay, nə cəfəngiyat danışırsan?
– Cənab mayor, mən cəfəngiyat danışmıram, həmin zabitlərlə söhbət edəndə kapitan Namiq, Saleh, Şahsuvar, Tofiq və Fərid də orada idi. Şahsuvar özü onlara sual verirdi, onlar da səmimi şəkildə cavab verirdilər.
– Kapitan, düz deyir? – tabor komandiri mənim üzərimə gələrək soruşdu.
– Bəli, cənab mayor, hər şey Vaqifin dediyi kimi olub! – qorxu hissi keçirərək cavab verdim.
– Siz də orada idiniz? – tabor komandiri digər zabitlərdən soruşdu.
– Bəli, bəli, orada idik! – digər zabitlər də qorxaraq cavab verdilər.
– Mən bilmirəm kim sizə nə deyib! Maşınlar təmirə getmişdi, mən hərbi hissə komandiri ilə nazirliyi dilə tutub onları yeni maşınlarla əvəzləməyə razı saldım. Verdiyiniz pullar isə bu işin həll olunmasına sərf edildi, heç bəs etmədi də, yerdə qalanını öz cibimizdən verdik.

İndi siz bu cür boşboğazlıq edərək bizə təşəkkür edirsiz? Ay sizi nankorlar! Burnunuzdan gəlsin etdiyimiz yaxşılıq! Rədd olun, dağılışın burdan!

Bu söhbət burada bitmədi, dağılışan kimi Vaqif bizi hərbi hissə yaxınlığındakı çayxanaya səslədi, hamımız ora yığılışdıq. Bu məsələnin mahiyyəti, həqiqəti hamımız üçün maraqlı idi. Vaqif isə ümumiyyətlə, bu məsələnin kökünü qazımaq istəyirdi:

– Qardaşlar, maşınları gətirən zabitlərlə bir polkovnik gəlmişdi, xatırlayırsız? Mən onunla iki gün kafeyə getdim, ətraflı müzakirə etdim və həqiqəti tam olaraq bilirəm. Tabor komandirinə qarşı o cür danışmağımın səbəbi parkdakı zabitlərin dedikləri deyildi. Həmin polkovnikin nömrəsini də almışam, indi yanınızda ona zəng edəcəm və siz hər şeyi öz qulaqlarınızla eşidəcəksiniz.

Vaqif mobil telefonunu çıxardı və səsgücləndiricini qoşaraq polkovnikə zəng etdi:

– Alo, cənab polkovnik, salam, necəsiz? Mənəm, Vaqif, Tartaradakı hərbi hissədən, kapitan Vaqif, – bütün zabitlər səssizcə qulaq asırdı.

– Hə, salam, Vaqif, necəsən? Xatırladım, əlbəttə, xatırladım. Buyur! – biz hamımız polkovnikin səsini tanıdıq.

– Cənab polkovnik, bütün zabitlərimiz adından yeni maşınlara görə sizə təşəkkür etmək üçün zəng etmişəm. Çox sağ olun, var olun! Bir bilsəniz bizi necə zülmdən qurtardınız!

– Dəyməz, çox sağ olun, borcumuzdur! Bu maşınları hələ altı ay əvvəl sizə verməli idik, amma nədənsə sizin komandanlıq təhvil-təslim prosesini uzadırdı. Daha bilmirəm səbəb nə idi, amma çox şükür ki, bu baş tutdu.

– Bəli, siz bunu hələ burada olanda bizə demişdiniz. Cənab polkovnik, bəs bizim köhnə maşınların aqibəti

necə oldu?
– Sizə dedik axı, poladəritmə zavoduna təhvil verildi, hamısı, istisnasız. Niyə ki? Orada olanda da bu sualı mənə tez-tez verirdiz. Nədənsə nigarançılığınız var?
– Xeyr, cənab polkovnik, sizdən nə nigarançılığımız olacaq ki?! Sizin gördüyünüz iş tərifə layiqdir, heç bilmirik sizə necə təşəkkür edək. Əslində bizi narahat edən bir məsələ var, amma bunun sizinlə heç bir əlaqəsi yoxdur, məncə, sizi heç bununla əlaqədar narahat etməyimiz də düzgün deyil. Oldu, cənab polkovnik, narahat olmayın, sağ olun.
– Bir dəqiqə, Vaqif, sən mənimlə səmimi və açıq danışa bilərsən, de görüm sizi narahat edən məsələ nədir? Heç nədən qorxma və çəkinmə! Buyur, eşidirəm, – polkovnikin səsində həm səmimiyyəti, həm də ciddiyyəti hamımız hiss etdik.
– Cənab polkovnik, heç bilmirəm necə deyim. Bizə deyilmişdi ki, maşınlarımız təmir olunmalıdır və bunu biz öz pulumuzla etməliyik. Sonra isə bizdən təmir üçün nəzərdə tutulan pulları aldılar və maşınları təmir taboruna göndərəcəklərini dedilər. Dedilər ki, təmir taboru maşınlarımızı bizim öz pulumuzla təmir edib, yenidən özümüzə qaytaracaq. Amma bu belə olmadı və siz nəyin necə olduğunu bizdən yaxşı bilirsiz.
– Vaqif, mən bildiyimi sənə dedim. Maşınlar bizə altı ay əvvəl gəlib, sadəcə sizin hərbi hissəni gözləyirdik, nə bizə pul verilib, nə də kiməsə pul verildiyindən xəbərim var. Sadəcə bizə siqnal verildi, adam göndərib maşınları avtoparkdan Bakkaya nəql etdik, sonra da sənədləşdirmə işləri, onları istifadədən çıxarmaq üçün aktlar, təftişlər və s. oldu, ondan sonra da poladəritmə zavoduna təhvil verildi. Bu iş bitəndən sonra isə yeni maşınların sənədləşməsi, təftişlər, təhvil-təslim aktlarının yazılması və s. oldu. Heç bir təmirdən söhbət

belə getməmişdi, nə əvvəldə, nə də axırda. Sizdən kimin və nə qədər pul aldığından isə nə xəbərim var, nə də bu məsələnin mənə aidiyyəti var. Bu söhbəti ilk dəfə səndən eşidirəm. Ümumiyyətlə, sizdən nə qədər pul alınıb?

– Cənab polkovnik, məsələ bir az fərqlidir, hər maşının texniki vəziyyətindən və hər zabitə təhkim olunmuş maşının sayından asılı olaraq, 35.000-60.000 dollar arasında hər zabitdən pul alınıb, 45 zabitdən.

– Sən nə danışırsan? Haradan tapıb vermisiz bu qədər pulu? Bu, təxminən iki milyona yaxın pul edir, kim yığıb sizdən bu pulu? – polkovnikin səsində əsəb və həyəcan hiss edildi.

– Cənab polkovnik, məncə, bura qədər müzakirəmiz kifayət edər, bundan sonrası artıq qalır bizim öz öhdəmizə. Biz özümüz bir çarəsinə baxarıq, sizi bu məsələlərlə narahat etmək istəmirəm.

– Əslində mən indi narahat olmağa başladım. İndi məlum oldu ki, maşınların təhvil-təslim prosesini sizinkilər niyə uzadırdı, yəqin ki, sizdən pul qoparmaq üçün yollar axtarır və buna görə sizə möhlət vermişdilər. Məni narahat edən odur ki, hansısa dələduz bizim adımızdan və zəhmətimizdən istifadə edib milyonlar qazanacaq, bizim isə abrımız aradan gedəcək?

– Xeyr, əsla, cənab polkovnik, sizə olan hörmətimiz sarsılmazdır, biz heç vaxt razı olmarıq ki, sizin adınız bu cür murdar işlərdə hallansın. Qətiyyən narahat olmayın, biz bir çarəsini tapacağıq və sizə də bu barədə məlumat verəcəm. Siz rahat olun, sizin təmiz adınız və zəhmətkeş şəxsiyyətiniz bizim üçün daim əziz və uca olacaq. Hələlik, sağ olun.

– Sağ ol, Vaqif, amma bir xahişim var, ehtiyatlı olun və məni də məlumatlandırın.

– Oldu, cənab polkovnik, sağ olun, – Vaqif dəstəyi asdı.

Artıq hamımız nə baş verdiyini anlamağa başlamışdıq, bəzi zabitlərin isə üzündə hələ də çaşqınlıq ifadəsi var idi. Vaqif bir dəqiqəlik sükutdan sonra vəziyyətə nəzarəti öz əlinə almaq üçün sözə başladı:

– Qardaşlar, əslində bu məsələ mənim üçün gün kimi aydın idi, sadəcə sizin də agah olmağınız üçün polkovnikə zəng etdim. Onsuz da hələ onlar bizim parkda olanda Şahsuvar onları sorğu-sual etmişdi və bəziləriniz də həmin söhbətə şahidlik etmişdiniz.

– Bəli, – mən əlimi havaya qaldırdım, – mən həmin zabitlərlə parkda söhbət etmişdim, sözün açığı, həmin söhbətdən sonra mənim fikirlərim qarışmışdı. Axı bizə deyilənlərlə həmin zabitlərin dedikləri arasında yerlə göy qədər fərq var idi. Mən həqiqətin necə olduğunu bilmirdim və bu gün Vaqifə polkovnikə zəng edərək bu qaranlıq məsələyə işıq saldığına görə təşəkkür edirəm! Amma bundan sonra nə edəcəyimizi də bilmirəm. Özümü aldadılmış, alçaldılmış və ələ salınmış kimi hiss edirəm. Bankdan götürdüyüm 40.000 dolları növbəti beş il ərzində ayda min dollar verərək ödəməliyəm. Onsuz da maaşım ailəmə güclə çatırdı, indi isə tamamilə məhvə məhkum olmuşuq. Mütləq bir çıxış yolu tapmalıyıq.

– Bəli, – digər zabitlər nəhayət ki, dilləndilər, – bəli, düzdür, belə olmaz, bu fırıldaqçılıqdır, adam aldatmaqdır.

– Bir dəqiqə, qardaşlar, – Vaqif müdaxilə etdi, – bu işlər çayxanada danışmaqla düzəlməz, mütləq bir tədbir tökməliyik! Əgər hamımız razılaşacağıqsa, bir müraciət yazaraq ölkə prezidenti Abbas əfəndiyə göndərməyi təklif edirəm. Bu müraciət hərbi hissədə olan bütün qanunsuz işləri özündə ehtiva etməli, bütün zabitlər tərəfindən imzalanmalıdır. Bu məsələni ancaq prezident səviyyəsində qaldırmaqla həll etmək mümkün olar. Hə,

nə deyirsiz?

– Məncə, əsgərlərdən də imza toplamaq olar, belə olduğu halda müraciətin çəkisi artacaq, – mən təklif verdim.

– Əla, Şahsuvar, əla təklifdir! Hə, nə deyirsiz, səsə qoyaq?

Vaqifin və mənim təklifimi qısaca müzakirə etdikdən sonra səsə qoyduq və bütün zabitlər qəbul etdi.

– Əla! Madam ki hamı razıdır, onda mən müraciəti yazmağa başlayacağam, siz isə əsgərlərinizlə bu barədə söhbətlər aparın, amma ehtiyatı da əldən verməyin! – deyərək Vaqif söhbəti bitirdi və biz dağılışdıq.

Hərbi hissədə əsgərləri də narahat edən məsələlər çox idi, yemək çatışmazlığı və aşağı keyfiyyətdən tutmuş hərbi geyimin pul ilə satılmasına qədər problemləri sayıb qurtarmaq mümkün deyildi. Zabitlər iki gün ərzində əsgərlərlə söhbət etdi və bütün əsgərlər bu işə razılıq verdi. Hərbi hissədəki digər taborlar da bu işə qoşulmağa razılıq verdi. Bütün bu danışıqlar gizli şəkildə həyata keçirilirdi ki, komandanlıq duyuq düşməsin.

Üç gündən sonra Vaqif zabitləri çayxanaya topladı, müraciət artıq hazır idi. O, müraciəti oxudu, demək olar ki, hərbi hissədə olan bütün problemləri orada mükəmməl şəkildə təsvir etmişdi. Müraciət səkkiz səhifədən ibarət idi, yəqin ki, indi siz orada təsvir edilən problemləri təsəvvür edə bilirsiz. Vaqif müraciəti oxuyub bitirən kimi zabitlərə sual verdi:

– Müraciətlə tanış oldunuz, kiminsə narazılığı varmı?

– Xeyr, – zabitlər dilləndilər, – xeyr, hər şey orada mükəmməl şəkildə izah olunub, hətta iki zabitin ölümü də müraciətdə var, yaxşı yazılıb.

– Elə isə ilk imzanı özüm atıram, siz də razılığınızı öz imzalarınızla təsdiq edəcəksiniz.

Vaqif ilk olaraq müraciəti imzaladı və sonra növbə ilə bütün zabitlər də onu imzaladı.

– İndi isə bu müraciəti növbə ilə əsgərlərə imzaladacağıq, ilk imzanı özüm atdığıma görə növbədə ilk özüməm, sıra ardıcıllığı imzalarla müəyyən ediləcək. Çalışmalıyıq ki, əsgərlərin bu müraciəti imzalaması bir saatı keçməsin, beləcə 72 saat ərzində bütün imzalar toplanacaq. Bu işi yubatmadan bitirib, müraciəti poçtla Abbas əfəndiyə göndərməliyik! – deyərək Vaqif çayxananı tərk etdi və biz də dağılışdıq.

Hər şey plan üzrə gedirdi, hər bir zabit müraciəti bir saat ərzində imzaladıb, onu növbədəki zabitə verirdi. Üç gün ərzində müraciət bütün zabit və əsgərlər tərəfindən imzalandı, cəmi min yeddi yüzə yaxın imza var idi. Sonda müraciət Vaqifə verildi, o da poçtla onu Bakkaya, Abbas əfəndiyə göndərdi. Qanuna əsasən otuz gün ərzində bizə cavab gəlməli idi, amma bizim səbrimiz çatmırdı, bu bəladan tezcə xilas olmaq istəyirdik. Müraciətə cavab gələnə qədər isə başımızı aşağı salıb işimizi görürdük, sanki heç nədən xəbərimiz yoxdur.

Müraciəti göndərdiyimiz gündən artıq bir ay keçirdi, amma heç bir xəbər yox idi. Hamımız səhər işə gəlir, axşam isə evimizə gedirdik. Müraciət barəsindəki səssizlik bizi qorxutmağa başlamışdı, bəzi zabitlər peşmançılıqlarını da dilə gətirirdi. Bu səssizlik sanki fırtınaqabağı səssizliyə bənzəyirdi. Biz diqqətlə hərbi hissə və tabor komandirinin rəftarını izləyirdik, onların halında heç bir dəyişiklik yox idi, nə yumşalma, nə də sərtləşmə müşahidə edirdik.

Artıq müraciəti göndərməyimizdən qırx gün keçirdi, yenə də səs-səmir yox idi. Axşam hamımız evə getdik, sabahın xeyirlə açılacağına ümid edərək yatdıq. Birdən mobil telefonuma zəng gəldi, zəng edən hərbi hissə növbətçisi idi, döyüş həyəcanının verildiyini dedi. Dəstəyi asıb tez saata baxdım, gecə saat üç idi. Dərhal qalxıb geyindim və hərbi hissəyə yollandım.

Hərbi hissəyə çatanda orada gördüklərim məni bir az da

təəccübləndirdi. Qapıda, nəzarət buraxılış məntəqəsində fərqli rənglərdə olan hərbi geyimli, maskalı və əlində avtomat silahlı əsgərlər var idi. Mən içəri keçmək istəyəndə qarşımı kəsdilər:

– Dur! Özünü təqdim et! – hündürdən və qəzəbli səslə maskalı əsgərlərdən biri mənə komanda verdi.

– Kapitan Salmanov Şahsuvar, buyurun, zabit vəsiqəm, – vəsiqəmi onlara təqdim etdim.

– Keç! Onu buraxın, burada xidmət edir! – deyə qapıdakı əsgərlərə səsləndi.

– Nə baş verib ki? – maraqlanıb soruşdum.

– Keç, içəridə biləcəksən, şərəfsiz! – deyə qəzəbli tonla mənə cavab verildi.

– Bu nə danışıqdır?! Şərəfsiz də varsan, beş də artığı! – deyərək həmin əsgərin üzərinə yeriməyə başladım.

– Dur, orada dur! – deyə əsgər silahı üzərimə tuşladı. – Keç içəri, orada hər şeyi biləcəksən, məni burada zibilə salma!

Üzərimə silah çəkilməsini ümumiyyətlə başa düşmədim, bu hal həm məni məyus etdi, həm də qorxutdu. Axı nə baş verdiyini hələ də bilmirdim. Sakitcə başımı aşağı salaraq hərbi hissəyə daxil oldum və qərargaha sarı getdim. Qərargahın qarşısına çatanda tabeçiliyimdə olan zabitlərin və əsgərlərin orada düzüldüyünü gördüm, amma başqa bölüklər yox idi, yalnız mənim bölüyüm. Mən zabitlərə yaxınlaşaraq:

– Burada nə baş verir? – deyə soruşdum.

– Bilmirəm, – bölüyümüzdə xidmət edən Nicat adlı leytenant cavab verdi, – amma mən hərbi hissəyə çatanda iki bölüyü maşınlara doldurub harasa apardılar, hələ ki, heç kim heç nə demir. Burada gözlədiyimiz vaxtda tabor komandiri bölüyümüzün maşınlarını bura gətirməyimizi əmr etdi, sürücülər artıq parkdadırlar, bir azdan maşınlarla bura gələcəklər.

– Bəs maşınların parkdan çıxarılması üçün icazə vərəqələrində istiqamət hara göstərilib?

– İcazə vərəqəsi yoxdur, sadəcə şifahi əmr var.

– Yəni Andaluniya düşmən hücumuna məruz qalıb? Yəni vəziyyət o qədər kritikdir ki, icazə vərəqələrinin yazılmasına vaxt itirmək istəmirlər? Əgər döyüş həyəcanıdırsa, bəs silahlarınız hanı, niyə götürməmisiniz?

– Silah götürməmək əmr edildi, yalnız şəxsi heyət və maşınlar.

– Silahsız döyüş həyəcanı olar, belə şey olur?

– Bilmirəm, Şahsuvar, mən heç nə bilmirəm. Yaxşısı budur gəldiyin barədə tabor komandirinə məruzə edəsən, kabinetindədir və gözləyir.

Mən tələsik tabor komandirinə məruzə etmək üçün qərargaha getdim. Qərargahın girişində dörd nəfər maskalı və silahlı əsgər var idi. Tabor komandirinin otağında isə heç vaxt görmədiyim paşalar var idi, kabinetin qapısında da üç nəfər maskalı və əlisilahlı əsgər var idi. Mən icazə alıb otağa daxil oldum və məruzə etdim. Tabor komandiri heç üzümə baxmadan "get sıranın başına və əmrimi gözlə!" dedi, mən də "oldu, cənab mayor!" deyərək kabineti tərk etdim.

Mən sıraya qayıdanda artıq maşınlar hərbi hissəyə daxil olmuşdu və onlar qərargahın qarşısına tərəf gəlirdi. Maşınlar qərargahın qarşısına çatıb dayanan kimi qərargahın qapısında olan maskalı əsgərlərdən birinin dərhal tabor komandirinə məlumat verməsi üçün qərargaha daxil olduğunu gördüm. Bütün bu baş verənlər məni açmırdı, nələrsə baş verirdi, bu maskalı əsgərlər, kabinetdəki paşalar, bunların hamısı əbəs yerə ola bilməzdi.

İki dəqiqədən sonra tabor komandiri dörd maskalı əsgərlə sıranın qarşısına gəldi.

– Bölük, farağat! – deyə mən bölüyə komanda verdim.

– Azad! – tabor komandiri sözə başladı. – Kapitan

Salmanov, şəxsi heyətinizi maşınlara doldurun və bu əsgərlərin dediyi istiqamətdə hərəkət edin! – deyərək maskalı əsgərlərə işarə etdi. – Əmrimi dərhal icra edin!

– Oldu, cənab mayor! – deyərək üzümü bölüyə tutdum.

– Hamı ştatlar üzrə maşınlara minsin! – deyə əmr etdim.

Bölüyüm dərhal hərəkətə keçdi, təxminən üç dəqiqədən sonra yerdə heç kim qalmamışdı. Maskalı əsgərlərin hərəsi bir maşına minib, sürücünün yanında əyləşdilər, mən isə birinci maşının arxasında, əsgərlərin yanında əyləşdim. Biz dörd maşınla hərbi hissəni tərk etdik, amma hansı istiqamətə getdiyimizi bilmirdik. Təxminən 20 dəqiqə yol getdikdən sonra maşının sağa döndüyünü hiss etdim və dərhal çölə baxdım, yol kənarında olan lövhədə “Şaharx kəndi” yazılmışdı, “deməli, biz hələ də Tartaradayıq” deyə düşündüm.

Beş ya altı dəqiqə də hərəkət etdikdən sonra maşınlar dayandı. Mən maşından düşdüm və çoxdan tərk edilmiş bir hərbi hissənin önündə olduğumuzu gördüm. Hərbi hissə çoxdan tərk edilmiş olsa da, həyətində işıqlar yanırdı, qapısında isə maskalı və silahlı əsgərlər var idi.

– Biz bura niyə gəlmişik, əsgər? – deyə maskalı əsgərlərin birindən soruşdum.

– Sən sakit dur, kapitan, söz verəndə danışarsan! – maskalı əsgərlərdən biri cavab verdi.

– Zabitlə bu nə danışıq tərzidir? Siz çaşmısınız belə? – deyə etirazımı bildirdim.

– Dedim axı, sən sus! İçəridə sənə sual veriləcək, onda danışmağa kifayət qədər vaxtın olacaq.

– Özünü təqdim et, əsgər! – deyə üzərinə getdim.

– Dur! – silahı mənə tuşladı. – Vəziyyəti daha da qəlizləşdirmə! Bir az səbirli ol, özün hər şeyi biləcəksən.

Maskalı əsgərlərlə söhbətin bir nəticə verməyəcəyini başa düşdüm. Nə edə bilərdim, onlar silahlı, biz isə silahsız. Qapıda dayanan maskalı əsgərlərdən biri mənə yaxınlaşdı:

– Bölük komandiri sənsən? – deyə soruşdu.

– Bəli, mənəm, kapitan Salmanov!

– Şəxsi heyəti maşınlardan düşür, əsgərlər içəri keçəcək, zabitlər isə burada gözləyəcək, cəld! – mənim xoşuma gəlməsə də, nizamnaməyə uyğun olmasa da, faktiki olaraq bir əsgər bir kapitana komanda verirdi.

– Yaxşı! – deyə cavab verdim, axı bir əsgərə necə "oldu!" cavabını verə bilərdim. – Bütün şəxsi heyət, maşınlardan düşün və taqımlarla düzülün!

Zabitlər və əsgərlər maşınlardan düşdülər və düzüldülər. Biz zabitləri qapıda saxlayıb əsgərləri içəri apardılar. Qapıdan əsgərlərin kazarmalardan birinə tərəf aparıldığını gördüm, amma hələ də nə baş verdiyini dərk etmirdim. Axı niyə döyüş həyəcanı ilə biz tərk edilmiş bir hərbi hissəyə gətirilməliyik?

Tabeçiliyimdə olan zabitlərin üzündə narahatlığı və nigarançılığı sezmək o qədər də çətin deyildi, öz aramızdır, mən də bərk narahat idim, heç bir iş döyüş həyəcanı planı üzrə getmirdi. Silahsız, maşınların çıxışı üçün icazə vərəqəsi olmadan, tərk edilmiş bir hərbi hissə, sanki bir tapmacanın içində idik.

Uzaqdan qatarla gələn hərbi maşınların işıqları görünməyə başladı, maskalı əsgərlərdən biri:

– Növbəti partiya gəlir, ey Coni, bu zabitləri apar kazarmalarına! – deyə digər bir əsgərə komanda verdi.

– Oldu! Nə dayanmısız, tez düşün qabağıma! – deyə silahı bizə tuşladı və biz göstərilən istiqamətə getdik.

Hərbi hissənin qapısından daxil olub, əlli metr gedəndən sonra sağ tərəfdə bir kazarmaya tərəf gedirdik. Kazarmaya daxil olduq, içəri daxil olan kimi qapının qarşısında daha üç əlisilahlı, maskalı əsgər gördük. Onlar silahlarını bizə tuşlayıb soyunmağı əmr etdilər:

– Durun! Soyunun, əyninizdə alt paltarından başqa hər şeyi çıxarın!

– Necə yəni soyunaq? – deyə mən etiraz etdim. – Ağlınız yerindədi?

Birdən başımın arxasından bir zərbə dəydi və mən yerə yıxıldım, huşum özümdə olsa da, ağrının şokundan sanki nokaut vəziyyətində idim. Digər zabitlərin üstünə qışqırırdılar, zabitlər çaşqınlıq içərisində soyunmağa başladılar. Mən yerdə uzanmış halda:

– Siz nə edirsiz? – deyə etiraz etdim.

Bu dəfə maskalı əsgərlərdən biri ağzımın üstünə təpiklə vurdu:

– Səhərdən yığmısan bizi boğaza! Sənə neçə dəfə deməliyəm axı, sus, bizi zibilə salma! Qoy işimizi görək!

Ağzımın içi partlamışdı, qan mənim boğazıma dolurdu, heç qanı tüpürməyə gücüm qalmamışdı, uzandığım yerdə başım dönürdü, deyəsən, öz qanımda boğulacaqdım. Birdən maskalı əsgərlərdən biri məni üzü üstə çevirdi, boynumun arxasında tutub ayağa qalxmağa kömək etdi. Ayağa qalxsam da, güclə dururdum, hələ də başım hərlənirdi.

Digər zabitlər artıq soyunmuşdular, onları kazarmanın içinə apardılar, arada maskalı əsgərlərdən birinin “sakit, heç kim danışmasın!” əmri qulağıma dəyirdi. Maskalı əsgərlərdən biri yaxamdan tutub məni silkələdi:

– Ey, kapitan, özünə gəldin? Tez elə, soyun, yalnız alt paltarın qalsın! Yoxsa birini də elə ilişdirərəm ki, özün könüllü olaraq əzrayılı axtararsan! Tez elə, soyun!

Mən halsız şəkildə yavaş-yavaş soyunmağa başladım. Birdən hərbi hissənin həyətində başqa bir bölüyün əsgərlərinin üzbəüzdə olan kazarmaya tərəf getdiyini gördüm. Hələ də nə baş verdiyini anlamırdım, amma vəziyyətin çox kritik olduğunu aldığım zərbələrdən dərk edirdim.

Mən soyunub qurtarandan sonra məni kazarmaya əsgərlərin yatması üçün nəzərdə tutulan hissəyə apardılar. İçəri daxil olanda bir xoşagəlməz iy burnuma dəydi, deyəsən,

sidik iyi idi. Kazarmanın içində işıq az idi, alaqaranlıq bir mühit var idi. Kazarmanın uzun divarı boyunca dizi üstə çökdürülmüş, gözləri maykaları ilə bağlanmış, əlləri arxadan bağlanmış insanlar var idi, təxminən otuz nəfərə qədər. Məni də gətirib onlarla bir cərgədə saxladılar, dizimin arxasından təpiklə vurdular və qeyri-ixtiyari diz üstə çökdüm. Əllərimi arxadan plastik xamıtla bağladılar, sonra isə əynimdəki maykanı cırıb çıxardılar və onunla da gözlərimi bağladılar. Mən hələ də nə baş verdiyini anlamırdım və narahatçılığım məni dilləndirdi:

– Axı bu nədir bizim başımıza gətirirsiz? Bunlar kimdir, niyə bizimlə bu cür rəftar edirsiniz? – deyə sual vermişdim ki...

ŞART. Sol üzümdən bir zərbə aldım. Zərbənin təsirindən yerə yıxıldım, qulağımdakı zingiltidən zərbənin qulaq nahiyəsinə vurulduğunu anlamışdım. Ağrıdan sadəcə inildəməyə gücüm çatırdı, başqa heç bir şey edə bilmirdim.

Səslərdən maskalı əsgərlərin çölə çıxdığını anladım, otaqda tam sakitlik var idi. Sakitcə, bir növ pıçıldayaraq öz zabitlərimin burda olub-olmamasını dəqiqləşdirdim:

– Uşaqlar, buradasız?

– Bəli, Şahsuvar, hamımız buradayıq! – eyni pıçıltı ilə bir nəfər cavab verdi, səsindən Nicat olduğunu bildim.

– Digərləri kimdir? – deyə soruşdum.

– Biz hamımız buradayıq, – səsindən Vaqifi tanıdım.

– Bura haradır, burdan niyə belə üfunət iyi gəlir? – deyə soruşdum.

– Bu əclaflardan biri buradakı zabitlərin üzərinə sidiyini ifraz edib, – pıçıltı ilə dediyindən səsindən onu tanımadım.

Mənim narahatlığım daha da artdı, axı bu nə demək idi? Zabitlərin üzərinə sidik ifraz etmək nə deməkdir? Hələ də heç nə anlamırdım. Bizdən sonra iki saat ərzində bir neçə

dəstə zabitləri kazarmaya gətirdilər. Onları da soyundurub, əllərini və gözlərini bağlayaraq diz üstə oturtdular. Bizim əynimizdə yalnız alt paltarı var idi. May ayının sonu idi, gündüzlər isti olmasına baxmayaraq, gecələr çox soyuq olurdu. Mən özüm də üşüyürdüm, hələ kazarmadakı zabitlərin də üşüdüyünü hiss edirdim.

Səhərə qədər həmin kazarmada qaldıq. Bütün zabitlər gətirildikdən sonra təxminən bir saat ərzində kazarmada sakitlik oldu, bəzi zabitlər elə diz üstə olduqları halda yuxuya getmişdilər. Səhərin açıldığını bayırdakı quşların oxumağından təxmin edirdik.

Bir müddətdən sonra maskalı əsgərlər kazarmaya daxil olub zabitləri beş-beş qərargaha aparmağa başladılar. Növbə mənə və zabitlərimə çatdı, bizi də ayaq üstə qaldırıb sıraya düzdülər. Arxadakı zabitə əllərini önündəki zabitin çiyinlərinə qoymasını əmr etdilər. Biz gözlərimiz bağlı halda qatar şəklində hərbi hissənin həyətində hərəkət edirdik. Qərargahın qarşısına çatanda bizi durdurdular. Pilləkən olduğuna görə bizi bir-bir qaldırdılar, üçüncü mərtəbəyə qalxdıq, dəhlizlə bir neçə metr gedəndən sonra soldakı kabinetə daxil olduq. Üçüncü mərtəbəyə qalxanda dəhşətli səslər eşidilirdi, sanki kiminsə diri-diri dərisini soyurdular. İlahi, mən o səsləri xatırlayanda indi də dəhşətə gəlirəm.

Bu hərbi hissə tərk edilməmişdən öncə burada olmuşdum, təxmin edirdim ki, bura qərargahın üçüncü mərtəbəsində yerləşən nizami hissənin iş otağı idi, qərargah rəisinin kabineti ilə üzbəüz olmalı idi. Otaqda hamımız diz üstə oturmuşduq, otağın özündə sakitlik olsa da, digər otaqlardan dəhşətli səslər eşidilirdi. Biz nə baş verdiyini hələ də anlamırdıq, amma eşitdiyimiz dəhşətli səslər bizim vahiməmizi daha da artırırdı. Qısa müddət keçəndən sonra ayaq səslərindən otağa kimlərinsə daxil olduğunu hiss etdik. Dörd və ya beş nəfər içəri daxil olmuşdu, onlar bizimlə üzbəüz dayanıb soruşdular:

– Ay şərəfsizlər, hansı dövlətin xüsusi xidmət orqanları ilə əlbir olub dövlət çevrilişi etmək istəyirdiniz?

– Birincisi, şərəfsiz özünüzsünüz ki, Andaluniya zabitləri ilə bu cür rəftar edirsiniz! – deyərək bölük komandiri kimi mən müdaxilə etdim. – İkincisi, siz kim olursunuz ki, bizimlə bu cür rəftar edirsiniz? Üçüncüsü, nə haqla siz vətəninə şərəflə xidmət edən zabitləri "dövlət çevrilişinə cəhd"də günahlandırırsınız?

Elə sözüm bitmişdi ki, ağzıma təpik zərbəsi vuruldu, mən yıxıldım, onlar dəyənəklərlə məni döyməyə başladılar. O qədər vurdular ki, artıq ağrını hiss etmirdim, gözlərim bağlı olsa da, ağzım açıq idi və oradan dayanmadan qan gəlirdi, dişimin birinin sındığını hiss etdim, lakin necə olduğunu da bilmədim, ya udmuşdum, ya da qanla birgə yerə tüpürmüşdüm.

Onlar məndən əl çəkib Nicata sual verdilər:

– Ay şərəfsiz, kimə işləyirsiz? Kimə xidmət edirsiz?

– Biz hamımız vətənimiz Andaluniyaya xidmət edirik! – deyə Nicat qürurlu halda, lakin qorxudan titrəyən səslə cavab verdi.

Onu da necə döydüklərini eşidirdim, dəyənəklərin zərbədən yaratdıqları səs gözümüz bağlı olsa belə, bizə zərbələrin şiddətli olduğundan xəbər verirdi. Hər dəfə Nicata zərbə dəyəndə gözlərimi biixtiyar şəkildə qırpırdım.

Sonra növbə Mehmana, Cəsarətə və Namiqə çatdı. Onlara da eyni sualı verib döyməyə başladılar. Onları da döyəndən sonra yenə mənə yaxınlaşdılar və sual verdilər:

– Ay şərəfsiz, de görüm axı kimə işləyirsən? Kimin tapşırığı ilə dövlət çevrilişi etmək istəyirdiniz? Cavab ver, əclaf!

– Ay qardaş, – mən güclə dilləndim, – axı bunu sizə kim deyib? Haradan çıxarmısız ki, biz dövlət çevrilişi etmək istəyirik?

– Qələtini elə, alçaq! Andaluniya təhlükəsizlik xidməti

bizə hesabat verib və hamınızın adı orada qeyd olunub! Siz alçaq və şərəfsizsiz! – deyərək yenə də döyməyə başladılar.

Bir neçə gün bizi eyni otaqda saxladılar, eyni sualları verərək döyürdülər. Hətta bizi tualetə getməyə qoymurdular, biz öz təbii ehtiyacımızı elə oturduğumuz yerdə, dizi üstə ödəyirdik. Otağı üfunət basmışdı, hər dəfə maskalı əsgərlər içəri daxil olanda üfunətə görə bizi söyür və daha dəhşətli şəkildə döyürdülər. Artıq günləri də itirmişdik, neçə gün keçdiyini bilmirdik, bizə nə su, nə də yemək verirdilər, artıq taqətimiz də qalmamışdı, gələcək bizim üçün qaranlıq meşə kimi görünürdü.

Növbəti dəfə maskalı əsgərlərdən biri otağa daxil olan kimi taqətsiz bir səslə mən ondan içməyə su istədim:

– Qardaş, artıq neçə gündür ki, bizi burada döyürsüz, bu günlər ərzində bizə su belə verməmisiniz. Xahiş edirəm, bizə bir qurtum su ver, lütfən.

– Su istəyirsiz, – maskalı əsgərlərdən biri qarşımda aşağı çökərək dedi, – hə, nə olar, biz sizə su verərik, amma əvvəlcə bir sualıma cavab verin. Siz kimə işləyirsiz və kimin göstərişi ilə dövlət çevrilişi etmək istəyirdiniz?

– Qardaş, vallah, billah biz dövlət çevrilişi etmək istəməmişik, bu cəfəngiyatı sizə kim deyib axı? Heç olmasa, əlinizdə bir fakt varsa, onu təqdim edin, bəlkə fakta əsasən biz də sizə bir kömək edə bildik. Axı belə araşdırma olmur, artıq neçə gündür ki, bizi burada, digərlərini də qonşu otaqlarda döyürsüz, bəs bizdən biri ölsə nə cavab verəcəksiz?

– Sizin kimi alçaqlar ölsə də heç nə olmaz! Yer üzündə şərəfsizin sayı azalar! Yaxşısı budur ki, bizimlə əməkdaşlıq edəsiniz, biz sizə kömək etmək istəyirik, siz bizim suallarımıza cavab versəniz, sizin əziyyətləriniz bitəcək.

– Kömək etmək istəyirsən? Onda hələ bir qurtum su ver, görək doğrudan da kömək istəyirsən, ya necə?

– Mənimlə şərt kəsirsən? Yaxşı, indi mən sizə su verərəm!

Həmin əsgər otağı tərk etdi, otaqda sakitlik idi. Birdən Mehman:

– Komandir, deyəsən su üçün getdi, hə?

– Deyəsən, mən bilmirəm, bu dəqiqə sudan başqa heç nə düşünə bilmirəm.

– Amma onu əla tora saldın, komandir. İndi o, bizə kömək etmək niyyətini sübut etmək üçün su gətirməlidir.

– Bəli, amma tələsməyək, hələ gözləyək, görək nə olur.

Bir az keçmiş həmin əsgər otağa daxil oldu və əlindəki vedrədən sidiklə qarışıq olan suyu başımıza tökməyə başladı:

– Hə, alın, için bu sidiyi, ha-ha-ha, sizin kimi şərəfsiz alçaqlar elə bu suya layiqsiz!

Biz suyun üfunətindən onun sidiklə qarışıq olduğunu dərhal anladıq. Mən üzümü və ağzımı qorumaq üçün başımı dərhal aşağı saldım, amma su başımdan süzülərək üzümə yayıldıqca onun üfunətini, ağız nahiyəmə çatdıqda isə onun şor dadını hiss edirdim. Sanki dəvəquşu kimi başımı yerə soxmaq istəyirdim, bu hal məni çox incidirdi. Sidiklə qarışıq su ağzıma daxil olmasın deyə onu bərk-bərk sıxırdım. Nicatın necə öyüdüyünü eşidirdim, ilahi, belə zülmmü olar?

Birdən otağa başqa birinin daxil olduğunu hiss etdim, o, dərhal həmin əsgəri saxladı və:

– Bir dəqiqə dayan! Sən nə edirsən?

– Onlar məndən su istədilər, mən də onlara içməyə sidik verirəm, ha-ha-ha, – deyə gülməyə başladı.

– Sənin başın xarabdır? İnsana belə zülm etmək olar? Allahın suyunu belə onlara vermirsən? Sən nə cür insansan? Yekə kişisən, səndən su istəyiblərsə,

ya onlara su verməlisən, ya da imtina etməlisən, sənin etdiyin hərəkət isə kişi işi deyil! Dərhal rədd ol gözümün önündən! Get və plastik butulkalarda beş ədəd su gətir, tez!

– Oldu! – deyərək həmin əsgər dərhal otağı tərk etdi.

Otaqda olan əsgərin daha məntiqli olduğunu güman edərək sözə başladım:

– Qardaşım, niyə bizə belə zülmlər edirsiniz? Axı biz nə etmişik? Hansı əsaslarla bizi dövlət çevrilişinə cəhddə təqsirləndirirsiz?

– Birincisi, mən sənin qardaşın deyiləm, heç Allah eləməsin ki, sənin qardaşın olum! İkincisi, bu barədə yuxarıdan bizə xəbər verilib, sizin hər birinizin adı da siyahıda qeyd olunub. Bizə isə bu işi araşdırmaq tapşırılıb, gerisini isə bilmirik!

– Axı belə araşdırma olmur, bunun adına işgəncə deyilir və bu, qanunla qadağan olunmuş bir işdir, bunu da bilmirsiz?

– Deyəsən, sənə üz göstərəndə astar da istəyirsən, elə eləmə ki, valı dəyişim, sakit otur oturduğun yerdə!

Su üçün getmiş əsgər otağa daxil oldu:

– Hə, suları gətirdim.

– İndi onlara bir-bir içirt! Bu, sənin bayaqkı axmaqlığının cəzasıdır! Bir də onlara sidik vermə!

– Oldu!

Digər əsgər otağı tərk etdi, əvvəldən üzərimizə sidikli su tökən əsgərlə baş-başa qaldıq:

– Çox sevinməyin, sizin dərsinizi onsuz da verəcəm! – həmin əsgər əsəbi halda dedi.

O, butulkanın qapağını açdı və mənə ağzımı açmağı əmr etdi, mən də ağzımı açdım. O, butulkanı ağzıma soxub var gücü ilə butulkanı sıxdı. Aman Tanrım, su sürətlə ağzımdan boğazıma tərəf getməyə başladı, mən nə baş verdiyini dərk etmədən su burnumdan fışqırmağa başladı. İlahi, nəfəs

boruma düşən su məni boğmağa başlamışdı, mən nəfəs ala bilmək üçün ağzımı kənara çəkmək istədim, əsgər başımı tutaraq buna imkan vermədi. O, başımı bərk-bərk tutaraq butulkanı hələ də ağzımda saxlayaraq onu sıxırdı, artıq mən su içmək yox, sadəcə nəfəs almaq istəyirdim. O, suyu elə təzyiqlə sıxırdı ki, bir anlıq həmin suyun gözlərimdən də fışqırdığını hiss etdim. Huşumu itirmək anına çatanda o, butulkanı ağzımdan çıxardı, başımı buraxdı və mən üzü üstə yerə yıxıldım, öskürür və öyüyürdüm. Ciyərlərimə dolan suyu nəfəs ala bilməyim üçün tez bir zamanda bayıra çıxarmalı idim. Bir neçə dəfə öyüyəndən sonra suyu qaytarmağa başladım, yalnız ondan sonra öskürəklə müşayiət olunsa da nəfəs almağa nail oldum. Xırıltı ilə, öskürərək nəfəs alırdım, boğulmaqdan xilas olan insan kimi.

Digər zabitlərə də suyu eyni qaydada içirdi, onlar da boğulub öyüyür və öskürərək nəfəs alırdılar. Özümə gələn kimi dedim:

– Sənin etdiyin insan işi deyil, su içən adama ilan belə toxunmadığı halda, sən bizə su içməyə belə imkan vermədin. Allah sənə və sənin kimilərə lənət etsin!

Növbəti gün bizi həmin otaqdan çıxardılar, pilləkənlərlə aşağı, ikinci mərtəbəyə apardılar və ayırdılar, hərəmizi bir otağa saldılar. Məni otağa salan kimi divara yaxınlaşdırıb əllərimi kəndirlə bağladılar və kəndiri yuxarı çəkdilər. Ayaqlarım yerdən üzülməsə də, barmaqlarımın ucunda güclə dayanmışdım. Kəndiri bərkidəndən sonra maskalı əsgərlərdən biri qarın nahiyəmə yumruq vurdu, ağrıdan nəfəsim kəsildi. Burada da işgəncələrin veriləcəyini yəqinləşdirdim.

Otaqda məndən başqa heç bir zabit yox idi, yalnız mən və maskalı əsgər:

– Hə, sənin adın nə idi?

– Şahsuvar, kapitan Salmanov Şahsuvar, – mən nəfəsimi dərərək cavab verirdim, – bəs sənin adın nədir?

– Coni, mən Coniyəm, burada hamı Conidir.

– Hə, bildim, hərbi hissənin qapısında da birini Coni çağırırdılar, deməli, hamınızın adı Conidir.

– Hə, adı boş ver, de görüm ağıllanmamısan hələ? Kimə işlədiyini deyəcəksən, ya yox?

– Qardaş, mən heç nə bilmirəm, bizi burada boş yerə qırıb-batırırsız.

– Siz hələ qırıb-batırmağın nə olduğunu bilmirsiz.

Birdən kürəyimdə bir ağrı hiss etdim, sanki dərimi, ətimi kəsdilər, ağrıdan elə çığırdım ki, az qala boğazım yırtılsın. Bu dəfə artıq məni dəmir trosla döyürdülər. Tros hər dəfə bədənimə dəyəndə dərimi cırır və bədənimdə ölənə qədər qalacaq izlər buraxırdı. Trosla o qədər döyüldüm ki, axırda huşumu itirdim.

Özümə gələn kimi Coni əllərimi kəndirdən ayırdı, arxası üstə bir stolun üzərinə uzandırdı, ayaqlarımı stolun ayaqlarına bağladı, bağlı əllərimi isə başqa kəndirlə tarım çəkib harasa bərkitdi. İndi mən əlləri və ayaqları bağlı halda stolun üzərində uzanmışdım. Neçə gün dizi üstə, o gün səhərdən qolları bağlı halda durmuşdum, son günlərdə ilk dəfə idi ki, uzanırdım. Anidən bədənimə bir rahatlıq gəldi, asıldığım müddət ərzində qollarım və kürəklərim bərk yorulmuşdu, indi onlara da rahatlıq gəlirdi. Dərindən bir nəfəs aldım, həmin nəfəsi buraxdıqca rahatlığın beynimə keçdiyini hiss edirdim, sanki sərin meh altında məni yuxu aparırdı. Birdən Coni üzümə bir sillə vurdu, bununla da o, yuxuma haram qatdı, məni reallığa qaytardı. Mən tarım şəkildə stolun üzərində bağlanmışdım, heç tərpənə də bilmirdim.

– Hə, danışırsan? Kimə işləyirsən? – Coni soruşdu.

– Mən, mən heç kimə işləmirəm, vətənim Andaluniyaya xidmət edirəm.

– Bax, Şahsuvar, biz səni onsuz da sındıracağıq, sən hər şeyi bizə danışacaqsan, amma sənin üçün daha yaxşı olar ki, sən özün könüllü surətdə etiraf edəsən. Hələ ki, şans var. Amma özün bilərsən, məndən deməkdir.

Coni dəsmalı ağzımın üzərinə qoydu və dəsmalın üzərinə də su tökməyə başladı. Mən nəfəs almağa çalışdıqca, dəsmala hopan su nəfəs almağıma mane olurdu, sanki boğulurdum.

– Bəli, – deyə Ariz müdaxilə etdi, – bu üsul çoxdandır ki, işgəncələr üçün tətbiq edilir. Əslində su həmin dəsmaldan keçmir, insanın ciyərlərinə su getmir, sadəcə insana elə gəlir ki, suda boğulur. Su sadəcə dəsmaldakı aralıqları doldurur və havanın keçməyinə mane olur. Yəqin ki, heç də xoşa gəlməyən hisslərdir.

– Bəli, insana heç də xoşa gəlməyən hisslər yaşadır. – Şahsuvar bir anlığa həbsxana reallığına qayıdır, o, hələ də “Bataqlıq”dadır, Dayı və digər məhbuslar da maraqla ona qulaq asırdılar.

– Buyur, üzr istəyirəm ki, sözünü kəsdim, – deyə Ariz üzrxahlıq etdi, axı o, söhbətin yarımçıq qalmasını istəmirdi, – davam et, lütfən.

Şahsuvar Tartarada baş verənləri xatırladıqca gicgahları sıxılırdı, onun üçün çox çətin idi, amma danışmaya da bilməzdi, çünki o dəhşətli hadisələri danışdıqca, onlarla bölüşdükcə dərdinin azalacağını, yüngülləşəcəyini bilirdi.

– Bir neçə saat ərzində məni beləcə su ilə boğdular. Bir neçə dəfə hətta huşumu itirdim, Coni məni sillələyib ayıldırdı, eyni sualları verib cavab almadıqda isə təkrar eyni şeyi edirdi.

Axşam çağı məni stoldan ayırıb ayaq üstə qaldırdılar, heç taqətim qalmamışdı, ayaq üstə belə dayana bilmirdim. Əllərimdən kəndirlə yuxarı, əvvəlcədən otağın divarlarına bərkidilmiş trubaya bağladılar, yenə barmaqlarımın ucunda dayanmışdım.

Bir az özümə gələn kimi məni plastik borularla döyməyə başladılar. Əsasən kürəklərimə, belimə və ayaqlarıma zərbələr endirirdilər. Ağrıdan ilan kimi qıvrılırdım, onlara məni vurmamaları üçün yalvarırdım.

– Hə, nədi, ağıllanırsan yavaş-yavaş? – deyə Coni bir anlıq əl saxladı. – Hə, indi deyəcəksən kimə işlədiyini?

– Mən heç kimə, – ağrıdan ağladığıma görə burnumu çəkərək hıçqıra-hıçqıra danışırdım, – mən heç kimə işləmirəm, nə olar, mənə bu qədər zülm etməyin.

– Yox, sən hələ də adam olmamısan, deməli, biz hələ də davam etməliyik. Ey, Coni, oradan mənə trosu ver, bu əbləhi bir az da trosla döyək.

– Hansı ölçülü trosu verim, ha-ha-ha? – digər Coni soruşdu.

– Ən naziyini ver, qoy bu şərəfsizin dərisini, ətini qoparsın!

İlk zərbədən həqiqətən də, sanki dərimin və ətimin qopduğunu hiss elədim, mən hələ belə ağrı görməmişdim. Dayanmadan kürək və bel nahiyəmə, bud və baldır nahiyələrimə zərbələr endirməyə başladılar. Heç iki dəqiqə keçmədi ki, huşumu itirdim.

Birdən kəskin bir iyin burnumdan beynimə işlədiyini hiss etdim, bu, naşatır spirtinin iyi idi, məni ayıltmaq üçün iylədirdilər. Kəskin baş ağrısı ilə ayıldım, hətta səsləri də uzaqdan eşidirdim.

– Həkim baba, ayıldı? O dərman nədirsə, onu burada saxla, ona hələ çox ehtiyacım olacaq.

– Bu dərman deyil, naşatır spirtidir, onunla ehtiyatlı olmaq lazımdır.

– Həkim, – mən güclə eşidilən bir səslə həkimə yalvarmağa başladım, – məni burada döyürlər, az qala öldürəcəklər, mənə kömək edin.

– Bəlkə ölüm sənin üçün daha yaxşı bir çıxış yoludur? – həkim istehza ilə dedi. – Sənin kimi şərəfsizlərin

yaşamağa haqqı belə yoxdur!

– Həkim, mənim heç bir günahım yoxdur, onlar sadəcə mən başa düşmək istəmir.

– Mənəm qanmaz, hə? – Coni əsəbi səslə soruşdu. – Coni, oradan kəlbətini mənə ver!

– Hansı kəlbətini? Diş üçün olanı, yoxsa dırnaq üçün olanı?

– Dırnaq üçün olanı ver mənə, tez ol bir az! O biri otaqdan da köməyə adam  çağır.

Bir neçə nəfər qonşu otaqdan gəldi, onlar mənim sol ayağımı qaldırıb bərk- bərk tutdular, Coni isə kəlbətinlə baş barmağımın dırnağından yapışdı. Əvvəlcə dırnağımı yuxarı, sonra isə sağa və sola tərpədərək yerindən qopardı. Baş barmağımdan düz beynimə ildırım sürəti ilə elə bir ağrı yüksəldi ki, onu sözlə izah etmək belə mümkün deyil. Sonra digər barmaqlarımın dırnaqlarını çıxardılar. Ayağımdan qanın necə süzüldüyünü hiss edirdim.

Ayağımı buraxandan sonra qeyri-iradi olaraq yerə qoydum, ağrının şiddətləndiyini hiss edərək tez də yuxarı qaldırdım. Coni ayağımdan yapışıb onu yerə basdı, sonra isə təpiklə barmaqlarımın ucundan vurdu. Ağrı elə şiddətli oldu ki, elə bildim barmaqlarımın ucu yanır. Yenə huşumu itirdim, bir müddət sonra isə yenə naşatır spirtinin kəskin iyi məni ayıltdı.

Eyni-eyni sualları verərək işgəncələri günün sonuna qədər davam etdirdilər. Amma bu işgəncələr arasında mənə su verirdilər, əlbəttə, çox az su verirdilər, amma "buna da şükür" deyib dözürdüm.

Növbəti günü Coni daha əsəbi görünürdü, daha doğrusu, eşidilirdi. Onların adlarını bilmədiyimə görə hamısına elə Coni deyirdim. Hay-küylə otağa daxil olub sürətlə mənə yaxınlaşdı.

– Hə, kapitan, ağıllanmırsan?

– Vallah, mən ağıllıyam, vətənimə sədaqətlə xidmət

edirəm, amma siz məndən nə istəyirsiz, bax bircə onu bilmirəm.

– Əgər həqiqətən də dediyin kimi ağıllısansa, onda gəl səninlə səmimi söhbət edək. Bütün bu əziyyətlər dərhal bitə bilər, yetər ki, sən öz günahını etiraf et və başqa kimin bu işdə əli olduğunu bizə söylə, sənə söz verirəm, bütün bu əziyyətlərin dərhal bitəcək!

– Axı mən heç nə etməmişəm, heç nə bilmirəm. Mən necə özümə və başqasına böhtan ata bilərəm?!

– Yox, kapitan, yox, sən hələ də ağıllanmamısan! Ey, Coni, oradan kəlbətini bəri elə və köməyə adam çağır.

Bu dəfə onlar mənim sağ ayağımın dırnaqlarını çıxardılar, sonra yaraların üzərinə duz tökdülər. Mən artıq iki dəfə huşumu itirmişdim və onlar məni naşatır spirti ilə ayıltmışdılar. Ürəkləri hələ də soyumamışdı, onlardan biri yaralarımın üzərinə sidik ifraz etdi. Hər yeni işgəncədə "mən hələ belə alçaldılmamışdım" deyə düşünürdüm, amma hər dəfəsində məni daha da təəccübləndirirdilər.

Üzü axşama doğru bir neçə Coni otağa daxil oldu və onlardan biri gülə-gülə:

– Hə, uşaqlar, indi kabab növbəsi bu şərəfsiz kapitanındır. Gətirin şişi, ona nuş etdirək. Onu bərk-bərk tutun, qoy çapalaya bilməsin!

Bu heç də yeməli olan kabab-zad deyildi. Onlar ucu pul kimi qızarmış şişi mənim baldırıma soxdular. Şiş yandıra-yandıra mənim bədənimə daxil olurdu. İlahi, öz bədənimdən çıxan kabab iyi burnuma dəyirdi, ağrıdan qıvrılıb çırpılsam da, onlar məni tutduqlarına görə bu çırpıntı heç bir fayda vermirdi. Onlar şişi əvvəlcə sağ ayağıma soxdular, sonra yenidən aparıb, qızdırıb gətirdilər və sol ayağıma soxdular. Amma bununla da ürəkləri soyumadı, yaralara duz qoydular və yenə də sidik ifraz etdilər. Yeganə rahatlıq tapdığım anlar huşumu itirdiyim anlar idi, o da çox çəkmirdi, naşatır spirti bu rahatlığımı yarımçıq qoyurdu.

Artıq günlərin sayını itirmişdim, otaqda məndən başqa hərbi hissəmizdən olan zabit yox idi. Ağrılarımla, acılarımla baş-başa qalmışdım, özümü bu dünyada tək-tənha hiss edirdim. Növbəti gündə məni hansı işgəncələrin gözlədiyini təxmin etməyə çalışırdım, amma mənim fantaziyalarım bu baş verənlərlə ayaqlaşa bilmirdi.

Növbəti gündə Coni bir neçə əsgərlə otağa daxil oldu.

– Hə, şərəfsiz kapitan, deyirsən kimə işlədiyini?

– Mən heç kimə işləmirəm, yalandan heç kimin üzünə də durmayacağam. Nə bilirsiz, edin!

– Hə, sən yəqin elə düşünürsən ki, bura qədər dözmüsənsə, sona qədər də dözə biləcəksən. Yaxşı, sənə sürprizlər etmək şəxsən mənim boynuma! Coni, – digər əsgərə müraciət etdi, – avadanlıqlar gəlib?

– Yox, hələ gəlməyib, amma yoldadır, bir azdan gətirib çıxararlar.

– Onda hazırlıq işləri görün, bir-iki vedrə su gətirin.

Bir müddət keçəndən sonra bir neçə əsgər otağa daxil oldu, nəsə ağır bir şey daşıdıqları təngnəfəs olmalarından bilinirdi. Gözlərim uzun müddətdir bağlı olduğundan digər hisslərim kəskinləşmişdi, hətta bəzən əsgərlərin səslərinə əsasən onların simalarını belə təsəvvür edirdim. Gətirdikləri avadanlığı yaxınlığımda yerə qoydular, döşəməyə toxunduqda çıxan səsə əsasən otuz-otuz beş kiloqramlıq bir avadanlığın olduğunu təxmin etdim.

– Bu nədir belə? – deyə sual etdim.

– Bu, sənin bağlı dilini açacaq bir avadanlıqdır, tələsmə, bir azdan onun sehrli gücünü bədənində, yox-yox, ruhunda hiss edəcəksən, ha-ha-ha.

– Sehrli güclərə inanacaq yaşım artıq keçib, görünür, siz hələ də böyüməmisiz, – deyə istehza etdim.

– Sağ ol səni! Hələ bizə sataşmağı da var. Darıxma, indi biləcəksən. Ey, Coni, nə oturmusan, gəl onu ayaqlarına və əllərinə bağla.

Ayaqlarımın ikisini də cütləyib, topuqlardan bir naqil ilə bağladılar, sonra isə əllərimi biləklərimdən naqillə bağladılar.

– Hə, Coni, indi aparatı toka qoş!

Birdən otaqda dırıltı səsi peyda oldu. Mən nigarançılıq keçirməyə başladım.

– Bu nədir, mənə tok verəcəksiniz? Budur sizin sehriniz?

– Darıxma, indi biləcəksən. Coni, toku ver!

Birdən aparatdan bir şaqqıltı səsi gəldi və məni yüngül bir cərəyan narahat etdi. Mən gülümsəməyə başladım.

– Budur sizin tokunuz? Bu ki yalnız adamı qıdıqlamağa bəs edir.

– Coni, vedrədəki suyu bəri ver, onu islatmağı unutmuşuq.

Vedrədəki suyu stulun üzərinə çıxaraq üzərimə tökdülər, əl barmaqlarımın ucundan ta ayaq barmaqlarımın uclarına qədər islanmışdım.

– Hə, indi hazırdır, ver toku.

Aparatın şaqqıltısı ilə bədənimin alovlar içində yandığı hissiyyatı üst-üstə düşdü. Bədənimdən keçən elektrik cərəyanı həm ürəyimin döyüntüsünü, həm də nəfəsimi saxladı. Sanki nə isə yemişdim və o, mənim ürəyimdə qalmışdı, nə aşağı gedirdi, nə də yuxarı çıxırdı. Gözlərim bağlı olsa da, sanki bir ildırım gördüm. Bütün əzələlərim gərginlik içində idi, sanki epileptik qıcolma keçirirdim. Ağrıdan ilan kimi qıvrılır və çapalayırdım. Qulaqlarımda isə uzaq bir cingilti səsi var idi. Fikirlərimi cəm edə bilmirdim, sadəcə yaşamaq uğrunda çapalayırdım.

Bir neçə dəqiqədən sonra özümə gəlməyə başladım, artıq rahat nəfəs almağa başlamışdım, qulaqlarım normal eşidirdi. Başımı sağa-sola hərlədim, balansı yoxlamaq istəyirdim.

– Hey, Coni, bu əbləh özünə gəldi.

– Lap yaxşı, onda qoş, bir də ona tok verək.

Bu dəfə də şaqqıltı və bədənimi sarsıdan elektrik cərəyanı öz işini gördü. Növbəti dəfə ayılanda bir şırıltı səsi eşidirdim. Başımı səs gələn tərəfə çevirdim, nə baş verdiyini anlamağa çalışırdım.

– Nədi, kapitan, nigaran qalmısan? Narahat olma, tok bədəninə daha rahat nüfuz etsin deyə, suya sidiyimizdən qatırıq, ha-ha-ha.

– Siz necə də alçaq adamlarsınız! Sizin elədiyiniz kişi işi deyil! Siz fahişə qadından da betərsiniz! – deyə sərt reaksiya verdim, amma bunun köməyi olmadı.

Onlar stulun üzərinə çıxaraq, sidikli suyu üzərimə tökdülər. İlahi, necə bir üfunət və murdarlıq! Artıq özümü dünyanın ən alçaq və ən rəzil insanı hesab edirdim. Özümə ölüm diləməyə bir neçə addım qalmışdı.

Aparatın şaqqıltısı ilə mənim bütün bədənim lərzəyə gəldi, bu dəfə elektrik cərəyanının bütün şiddətini ruhumda hiss etdim. Əzələlərimin daxilində sanki yanğın var idi, onlar tam olaraq qıc olmuşdu.

Bir neçə müddətdən sonra yenə özümə gəldim, onlar bunu hiss edən kimi:

– Coni, mən artıq bezirəm, gəl bu əbləhin əl dırnaqlarının hamısını çıxaraq.

– Hmm, yaxşı fikirdi, gəl edək.

Onlar stullara dırmaşıb, əllərimi bərk-bərk tutdular və hər iki əlimdən üç dırnağımı çıxardılar. Dərhal da yaralarıma duz basdılar.

– Yox e, Coni, bu artıq mənə maraqlı deyil, gəl onun çıxarılmış dırnaq yerlərinə tok verək, görək hələ bir nə olur.

– Əla fikirdir, məncə bu, cəhənnəm ağrısı olacaq.

Onlar naqilləri həm ayaq, həm də əl dırnaqlarımın çıxarılmış yerlərinə qoşdular. Mən baş verənlərdən mənəvi olaraq sarsılmışdım. "Axı bunlar kimdir, necə insanlardır? Adam da adama belə işgəncələr verər", – deyə düşünürdüm

ki, aparatın şaqqıltısı bu fikirlərimi yarımçıq qoydu.

Yara yerlərinin müqaviməti az olduğundan, elektrik cərəyanının şiddəti də çox olur, məhz elə buna görə də bu dəfə mən huşumu itirdim. Yenə də qəlbimə və bədənimə rahatlıq gəlmişdi, xoş bir rahatlıq. Amma naşatır spirtinin kəskin iyi yenə mənim rahatlığıma haram qatdı. Mən ayılan kimi şokdan çırpınmağa başladım.

– Yavaş! – deyə Coni bədənimə plastik borunu vuraraq çırpınmağımın qarşısını kəsməyə cəhd etdi, – Üstündəki sidiyi üzərimizə sıçratma. Bu hələ harasıdır, gör səni hələ hansı sürprizlər gözləyir. Ey, Coni, onun alt paltarını aşağı çək, ona sünnətindən tok verəcəyik!

– Nə danışırsan, mən sənin ağlına lap heyranam ki!

Mən eşitdiklərimə inanmırdım, bunlar haradan gəliblər belə? Bu nə işgəncə metodlarıdır? Mən bu vaxta qədər belə metod nə görmüşdüm, nə də eşitmişdim, heç oxumamışdım da.

Onlardan biri mənim alt paltarımı aşağı çəkdi və naqili sünnətimə bağlamağa başladı. Mən özlüyümdə mat-məəttəl qalmışdım. Hansı kişi digər bir kişinin sünnətinə toxunar, ona oradan elektrik cərəyanı verər? Bu suallar mənim zehnimdə dövr etdiyi vaxtda onlar artıq naqili bağlamışdılar. Bir az kənara çəkilib öz əl işlərinə baxmağa başladılar.

– Yox e, Coni, bu məni qane etmir. Bir az da əlavə etmək lazımdır.

– İndi biz nə edək ki, səni qane etsin? Ha-ha-ha.

– Diş kəlbətinini bəri ver e. Qoy dişini çıxarıb, naqilin birini də damağına bağlayaq.

Aman Tanrım! Bunlar nə danışırdılar, onların xəstə təxəyyülünün hüdudları yox idimi? Bu cür xəstə təfəkkürlü insanları Andaluniya silahlı qüvvələrinə kim və niyə gətirmişdi? Bunlar haradan gəliblər? Mən bunları düşünürdüm ki, onlardan biri mənim başımı tutub ağzımı

güclə açdı, digəri isə kəlbətinlə mənim sağ yuxarı köpək dişimdən yapışdı. Bir-iki dəfə irəli-geri tərpədərək onu yerindən qopardı. Ağzımdan qanın necə fışqırdığını hiss edirdim, ağzım yarıaçıq şəkildə inildəyir və zingildəyirdim.

Coni əllərimdəki naqili açdı, ucuna maşa bağladı və ağzımı açaraq maşanı dişin çıxdığı yerdən damağıma bərkitdi. Maşanın iti ucları damağımın ətinə yeridi. Coni onun bərkliyini yoxlayıb geri çəkildi:

– Hazırdır, ver toku!

Aparatın şaqqıltısı və... Budəfəki şaqqıltı mənə cəhənnəmi yaşatdı. Sanki ağzımın içində qumbara partladı, sünnətimdəki hisslər isə izah oluna biləcək deyil, sanki o, qopub yerə düşmüşdü. Saniyənin mində biri qədər zaman kəsiyində elektrik cərəyanının insana edə biləcəyi təsiri təcrübə edirdim. Beynimdəki neyronların necə bir-birinə dəydiyini, damağımdan beynimə gedən sinirlərin necə gərildiyini və beynimdə bir ağrı fontanının necə fışqırdığını hiss edirdim. Bir neçə saniyəlik qıcolma mənə əbədiyyət kimi gəldi, bu ağrıların nə zaman huşsuzluq rahatlığı ilə əvəz olacağı anı gözləyirdim, həmin şirin rahatlıq indi mənə hava və su kimi lazım idi, daha bu ağrılara dözə bilmirdim. Sünnətimin isə qopub-qopmaması həmin anda heç vecimə belə deyildi, sadəcə huşsuzluğun gətirəcəyi rahatlığı arzulayırdım.

Naşatır spirtinin kəskin iyi məni huşsuzluğun rahatlığından acı reallığa çıxardı. Otaqda kimlərinsə olduğunu hiss edirdim, tərpənməz qalaraq onların duyuq düşməsini istəmirdim. Ağrılar hələ də səngiməmişdi, gicgahlarımdakı ağrılar, damağımdakı kəskin ağrı, sünnətimdəki yanıq ağrısı, bir sözlə, ağrı ağrıya qarışmışdı. Birdən Coninin səsini eşitdim:

– Bu şərəfsiz hələ də ayılmayıb? İçirt ona naşatır spirtini!

Yaxınlaşan ayaq səslərini görüb tərpənməyə başladım.

– Sən hələ buna bax, burdan bura bizə kələk gəlmək istəyir. Deyəsən, hələ də ağıllanmayıb, hə? Ver, ona bir neçə dəfə tok ver!

Bu üsulla naqilin biri damağıma, digəri isə sünnətimə qoşulu halda bir neçə dəfə də mənə elektrik cərəyanı verdilər. Ağrı və keçirdiyim hisslər məni hələ də rahat buraxmır, elə indi də bunları xatırlayanda beynim sıxılır, əllərim əsir, halım dəyişir.

Axşam yaxınlaşdıqca və onlar heç bir nəticə almadıqca daha da qəzəblənirdilər, bu isə onların xəstə təxəyyülünü daha da qorxulu edirdi. Coni nəticə almadığını görərək əsəbi halda:

– Yox, bu belə davam edə bilməz! Gətir qonşu otaqdan qalın naqili, biz artıq başqa bir şey düşünməliyik!

Digər əsgər qonşu otağa gedib, əlində qalın naqil ilə qayıtdı. Bu müddət ərzində digər otaqlardan elə bağırtılar və nəriltilər gəlirdi ki, orada diri insanın dərisinin soyulduğunu güman etmək olardı. Elə sadəcə səslərin özünü eşitmək belə insanı vahiməyə salırdı. Coni qalın naqili digər əsgərdən alıb, arxama tərəf keçdi.

– Oradan vazelini ver bura!

Coni naqilin ucuna vazelin vurub, ombalarımı aralayaraq onu mənim anus dəliyimə yeritdi. Yerində möhkəm qaldığına əmin olandan sonra elektrik naqilini onun ucuna bağladı.

– Hə, Coni, de görüm, əl işim xoşuna gəlir?

– Əsl incəsənət əsəridir, komandir, ha-ha-ha.

– Onda qoş aparatı və tok ver, baxaq görək buna nə deyəcək.

Mən bilmirdim ki, bu halıma ağlayım, yoxsa mat qalım. Heç bir insan da öz millətinin zabitinə belə işgəncələr verər? Yox, onlar ya bu millətdən deyildilər, ya da...

Aparatın şaqqıltısı yenə fikirlərimi yarımçıq qoydu. Bu dəfə bağırsaqlarımın daxilindəki alovu bağlı gözlərimlə

görürdüm. İçimdə elə bir yanğı var idi ki, sanki ora cəhənnəmdən bir ovuc köz düşmüşdü. Damağımdakı naqilin cərəyanı beynimə vurduğu halda, bağırsağımdakı cərəyan mənim bütün içalatımı sarsıtmışdı. Bağırsaqlarımı bürüyən sancı gah mədəmə tərəf hərəkət edirdi, gah da qaraciyərimə tərəf. Qaraciyər ən ağrısız orqan olduğu halda onun da bu cür şiddətlə ağrıması inanılmaz hisslər yaşadırdı. Dalağımın sancısı isə ifadə edilməyəcək bir ağrı idi. Bütün içalatım sanki tavada qovrulurdu. İçimdə yaşanan bu ağrı qasırğası yenə də huşsuzluq rahatlığı ilə əvəz olundu.

Onlar yenə məni ayıldaraq tok verirdilər. Beləcə günün sonuna kimi davam etdi. Günün sonunda onlar məni hələ ömrümdə eşitmədiyim söyüşlərlə təhqir edirdilər, alçaldırdılar.

– Ay alçaq, ay şərəfsiz, ay əclaf, elə bilirsən ki, biz səni sındıra bilməyəcəyik? Hah, xam xəyaldasan, sənə sabah başqa sürprizlər hazırlamışıq. İndi isə bir tikə çörək ye və su iç ki, səhərə qədər gəbərməyəsən.

Mənə bir-iki dişlək çörək verib, bir az da su içirdilər. Bu, sadəcə mənim ölməməyim üçün idi. Həmin gündən etibarən gecələr məni bağlandığım trubadan açıb yerə uzadırdılar və əllərimi arxadan bağlayırdılar. Gecə səhərə qədər bir neçə dəfə məni yuxu aparsa da, qarabasmalar məni narahat edirdi və mən yuxudan ayılırdım. Bu şəkildə səhəri açdım. Amma nə qədər qəribə səslənsə də, heç səhərin açılmağını istəmirdim.

Səhər yenidən əsgərlər otağa daxil oldu, cəld məni ayaq üstə qaldırdılar, əllərimi öndən bağlayaraq, yenidən trubaya bağladılar. Əsgərlərdən biri plastik boru ilə məni döyməyə başladı. Sözün açığı, mən artıq elə işgəncələr görmüşdüm ki, plastik boru ilə döyülmə mənə masaj kimi gəlirdi. Birdən Coninin səsi eşidildi:

– Oynamayın, bu metod bir nəticə vermədi, gətirin onu,

yerdə uzadın!

Məni trubadan açıb otağın ortasında yerə uzatdılar. Yer bərk və nahamar olsa da, asılı qalmaqdan daha yaxşı idi. Mənə dincəlmək üçün bir fürsət kimi gəlirdi. Birdən qarnımın üzərinə isti nəsə tökülməyə başladı. Çox kəskin ağrılarla qışqırmağa başladım. Əllərim ön tərəfdən bağlı olduğundan, hirslə onlara güc gəlib plastik xamıtı qıra bildim. Tez gözlərimi bağlayan maykamı kənara çəkərək nə baş verdiyinə baxdım. Maskalı bir əsgər üstümdə oturaraq, yanan plastik butulkanın ərintisini qarnımın üstünə axıdırdı. Mən dərhal onun çənəsinə bir yumruq vurdum və o yıxıldı. Birdən otaqda qışqırıq səsləri gəldi:

– Açıldı, onun əlləri açıldı, tez bura gəlin! – Coni qışqırmağa başladı.

Elə ayağa qalxmaq istəyirdim ki, beş və ya altı nəfər plastik boru və troslarla məni döyməyə başladı. Mən müqavimət göstərəcək halda deyildim, sadəcə yumurlanaraq, başımı və üzümü qorumağa çalışırdım. Halsız vəziyyətdə qaldığımı görərək tez əllərimi yenidən bağladılar. Onlardan biri zəhmli bir səslə:

– Hansı əli ilə vurdu səni?

– Bax bu əli ilə.

– Gətir bura plastik butulkanı.

Plastik butulkanı yandıraraq sağ əlimin üzərinə axıtmağa başladılar. Əlimi tərpədə bilməməyim üçün dörd əsgər məni döşəməyə sıxmışdı. Əlimin üzərinə bir xeyli müddət ərzində yanan plastik butulkanı axıtdılar, yanan plastik kütlə əlimin üzərindəki dəri qatını sümüklərimə qədər yandırdı. Mən ağrıdan yenə də huşumu itirdim.

Naşatır spirti məni ayıldanda yenə də trubadan asıldığımı gördüm. Əlimin ağrısı çox dözülməz idi, elə hey durmadan ağrıdan inildəyirdim. Birdən Coni otağa daxil oldu və digər əsgərlərə dedi:

– Vəssalam, artıq bir neçə zabit və əsgər etiraf edib,

onlardan izahat da alınıb. Bu şərəfsizlər düşmənin xüsusi xidmət orqanlarına işləyirlər, məhz elə onların sifarişi ilə də dövlət çevrilişi etmək istəyirdilər. Hə, şərəfsiz kapitan, artıq yolun sonuna gəldik! – deyib mənə yaxınlaşdı.

– Mən sizinlə heç bir yol getməmişəm və getmərəm də, biz ayrı-ayrı yolların yolçularıyıq. Mən Andaluniyaya sədaqətli xidmətim ilə şərəfli və ali bir yoldayam, siz isə şərəfsiz və alçaq yoldasız!

– Açın bu alçağın gözlərini!

Dərhal gözlərimi açdılar, günorta olduğundan otaqdakı bol işıq gözlərimi qamaşdırmağa başladı. Yarıyumulu gözlərlə Coninin sifətinə baxdım, maska arxasında mənə baxan bir cüt qəzəbli gözdən başqa heç bir şey görmədim. Gözlərim işığa alışandan sonra otağın hər bir tərəfinə nəzər saldım. Bədənimə elektrik cərəyanı vermək üçün istifadə edilən aparat hələ də orada idi. Qəhvəyi rəngli, elə təxmin etdiyim kimi otuz-otuz beş kiloqramlıq bir aparat idi. Otağın bir küncündə isə masa var idi və üzərində müxtəlif kəlbətinlər, troslar, plastik borular və s. işgəncə alətləri var idi. Sonra isə diqqətlə Coninin üzünə baxdım, onun gözlərindən belə bir murdar məxluq olmasının səbəblərini oxumağa çalışırdım.

– Bunları görürsən? – Coni əlindəki vərəqləri havaya qaldıraraq yellədi, – bu izahatlar sənin zabit və əsgərlərindən alınıb, onlar hər şeyi bir neçə gün əvvəl etiraf ediblər.

– Bir neçə gün əvvəl etiraf ediblər? Onda bəs niyə bu qədər yubadırdınız ki?! Kimi aldatmağa çalışırsız? Məni belə ucuz metodlarla aldada bilməzsiniz!

– Sən deyəsən hələ də reallığı dərk etmirsən, ya da inkarçılıq yolunu tutmusan. Diqqətlə bu izahatlara bax! – deyə Coni vərəqləri gözlərimin önünə yaxınlaşdırdı. – Kor gözlərini yaxşı-yaxşı aç və oxu, bərkdən oxu!

Mən gözlərimə inanmırdım, izahatın biri leytenant Mehmanın adından, digərləri isə əsgərlərim Elçinin və Səxavətin adından yazılmışdı. İzahatlar qısa və lakonik idi, orada deyilirdi: “Mən etiraf edirəm ki, Andaluniyada dövlət çevrilişi etmək üçün düşmənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq etmişəm”. Sonda da ad və soyadları, imzaları və tarix var idi.

– Nədi, kor gözlərin görməyə başladı? Hələ bu harasıdı, bizdə digər bölüklərin zabitlərinin və əsgərlərinin də etirafı var, budur, bax! Ruslanın etirafı, Tariyelin etirafı, Elvinin etirafı və s.

– Bunları nə gözümə soxursan, hə? Tfu, – mən Coninin əlində tutduğu vərəqlərə tüpürdüm, – bu yalançı izahatlara da, sənin kimi gədalara da!

Coni tez vərəqləri dəsmalı ilə silməyə başladı:

– Ay axmaq, sən elə bilirsən ki, bunlar yalandandır? Biz artıq bir neçə gündür ki, bu izahatları almışıq. Sənin artıq çıxış yolun qalmayıb!

– Neçə gündür bu izahatları almısınızsa, niyə mənə bir neçə gün əvvəl yox, məhz indi deyirsiz?

– Biz sənə bir şans vermək istədik, amma sən o qədər axmaqsan ki, indi belə bu şansı dəyərləndirə bilmirsən. Hələ sənin əsgərlərin olan Emin və Gündüz sənin əleyhinə izahatlar da verib, darıxma, hər şeyi biləcəksən!

– Sübut edin, onların əleyhimə izahat verdiklərini sübut edin!

– Bu dəqiqə, açın bu şərəfsizin qollarını! Əllərini də arxasında bağlayın ki, keçəndəfəki kimi hoqqa çıxartmasın!

Məni trubadan açıb qollarımı arxadan bağladılar. Arxadan qollarımı yuxarı qaldıraraq, hər qoluma bir əsgər keçdi və məni birinci mərtəbəyə düşürtdülər. Birinci mərtəbənin dəhlizinin girişində məni saxladılar, sol tərəfdə

üstü əsgər ədyalı ilə örtülmüş bir hündürlük var idi. Coni ədyalı qaldırdı və mənim başımı həmin istiqamətə çevirdi:

– Bax! Ay şərəfsiz, bunları görürsən?

İlahi, bu nə idi, sanki bir göy qurşağı kimi üst-üstə qalanmış, göyərmiş, yaşıl və qırmızı rənglərə boyanmış bir neçə meyit topası idi. Onların bir neçə gün əvvəl öldüyü rənglərindən və üfunətindən bəlli idi, İlahi, onlar artıq çürüməyə başlamışdı. Mənim canıma vahiməli bir qorxu düşdü, bu nə idi axı mən görürdüm?

– Bunlar kimdir? – mən qorxu və vahimə içində soruşdum.

– Biri Vaqifdir, o birisi Mehman, digəri Ruslan, o birisi isə Elçin, digəri isə Salehdir. O biriləri artıq tanınmaz hala düşüb, nəyinə lazımdır? Əsas odur ki, sən də orda olmaq istəyirsən, ya yox.

Sonra məni başıaşağı halda dəhlizlə apardılar. Tualetin yanından keçərkən onlara tualetə getmək istədiyimi dedim. Bir az tərəddüd edəndən sonra razılaşdılar, əllərimi açıb nəzarət altında məni tualetə daxil etdilər. Sözün açığı, sünnətimə elektrik cərəyanı veriləndən sonra nigaran qalmışdım, orada hissiyyatın olub-olmamasını yoxlamaq istəyirdim. Hissiyyatın olduğunu görüb "çox şükür, İlahi!" deyərək daxilən sevindim. İşimi görüb tualeti tərk etdim.

Onlar məni başıaşağı vəziyyətdə kabinetlərin birinə apardılar. Orada məni stula əyləşdirdilər, kabinetdə bir neçə paşa da var idi, onda onları tanımırdım, sonradan onların Şahmar paşa, İmran paşa, Kamal paşa və Həkim paşa olduğunu öyrəndim. Şahmar paşa ölkənin hərbi prokuroru, İmran paşa onun müavini, Kamal paşa baş prokuror, Həkim paşa isə birinci ordu birləşməsinin komandiri idi, səhv etmirəmsə elə indi də həmin vəzifədədirlər.

Coni qarşıma ağ vərəq və qələm qoyub kənara çəkildi. Paşaların ağır baxışları altında sanki əzildiyimi hiss edirdim, qorxudan danışmaq istəmirdim, sadəcə susaraq

nələrin baş verəcəyini gözləyirdim. Birdən İmran paşa oturduğu kürsüdə yerini rahatlayaraq mənə müraciət etdi:

– Özünü təqdim et!

– Kapitan Salmanov Şahsuvar, paşam.

– Sənin düşmən xüsusi xidmət orqanlarına xidmət edərək, onların xeyrinə dövlət çevrilişində iştirakın barədə əlimizdə faktlar var. Bu barədə nə deyə bilərsən, yoldaş kapitan?

– Mən yalnız Andaluniyaya sədaqətlə xidmət etmişəm, paşam, deyilən ittihamlarla mənim yaxından-uzaqdan heç bir əlaqəm yoxdur.

– Eləmi? Olsun, axırıncı şansından imtina etmək istəyirsənsə, qoy elə olsun. Qoşun çəkilişi, qoy baxsın!

Coni otaqdakı televizoru işə saldı və bir video faylı seçərək onu qoşdu. Ekran açıldıqda orada tabeçiliyimdə olan leytenant Mehmanı gördü. O, bir stulda oturmuşdu, baş-gözünün şişdiyindən çoxlu döyüldüyü bəlli olurdu. Qorxudanmı yoxsa ağrıdanmı başı əsirdi. Videoda onu sorğuya çəkirdilər.

– Özünü təqdim et!

– Leytenant Əliyev Mehman.

– Bölük komandirin kimdir?

– Kapitan Salmanov Şahsuvar.

– Siz kimə xidmət edirsiz?

– Düşmən dövlətin xüsusi xidmət orqanlarına.

– Nə planlaşdırırdınız?

– Dövlət çevrilişi.

– Sizin başçınız kim idi?

– Kapitan Vaqif.

– Sonra kimlər bu işin içində idi?

– Hamısı, bütün zabitlər və əsgərlər.

– Bölük komandirin kapitan Salmanov da bu işin içində idi?

– Bəli.

– Sizi o, bu işə sövq etmişdi?
– Bəli.
– Bəli, nə?
– O sövq etmişdi, kapitan Salmanov.
– Bunun əvəzində sizə nə vəd edilmişdi?
– Pul, vəzifə.
– Andaluniyaya xəyanət etdiyinə görə peşmansan?
– Peşmanam.
– Bu xəyanətin cəzasını bilirsən?
– Bilirəm.
– Xəyanətin cəzası nədir?
– Ölüm?
– Bəli, ölüm!

Mehmanın üzündəki qorxu və narahatlıq fonunda video kəsildi. Mən gördüklərim və eşitdiklərimdən şokda idim. Qorxa-qorxa başımı paşalara tərəf çevirdim, qorxudan güclə udqundum və otaqdakı sükutda onun səsi hamı tərəfindən eşidildi.

– Qorxma, kapitan, əgər özün könüllü surətdə etiraf etsən, səni öldürməyəcəyik, amma bu iş könüllü olmalıdır. Sənə daha bir şans veririk.
– Paşam, Mehmanın döyüldüyü və işgəncə altında etiraf etdiyi gün kimi aydındır. Onun dedikləri ilə mənim heç bir əlaqəm yoxdur.
– Bax, kapitan, sən hər dəfə sənə verilən şansdan üz çevirdikcə şərait ağırlaşır, yəni bunu hələ də dərk etməmisən? Daha bir şans, düşün!
– Paşam, vallah, billah mənim heç bir xəyanətdən, çevrilişdən xəbərim yoxdur, mən sizi necə inandırım axı?!
– Aydındır, əsgərləri gətirin bura!

Coni tələsik kabineti tərk etdi, bir az keçəndən sonra əsgər Tariyel və Elvinlə geri döndü. Əsgərlər də mənim kimi çılpaq idi, onların əynində yalnız alt paltarları var

idi. Onların gözlərində qorxu-hürkünü sezmək o qədər də çətin deyildi.

– Əsgərlər, özünüzü təqdim edin! – İmran paşa onlara əmr etdi.

– Əsgər Elvin, əsgər Tariyel, – hər biri ayrı-ayrılıqda cavab verdilər.

– Siz bu kapitanın əsgərlərisiz?

– Bəli, bəli.

– Siz düşmənin xüsusi xidmət orqanlarına xidmət edirdiniz?

– Bəli, bəli.

– Dövlət çevrilişi planlayırdınız?

– Bəli, bəli.

– Sizi bu işə kim sövq etmişdi?

– Kapitan Salmanov, – deyə hər ikisi bir ağızdan cavab verdi.

– Öz əməlinizdən peşmansınız?

– Bəli, bəli.

– Aparın bunları, hər şey aydındır.

Coni onları kabinetdən çıxardı. İmran paşa və digərləri məni qınayıcı nəzərlərlə süzürdülər.

– Hə, kapitan, indi nə deyirsən?

– Mən heç nə bilmirəm və xəyanət ittihamını da rədd edirəm! Məgər sizə aydın deyil ki, onlar işgəncə altında ifadə verirlər? Siz heç könüllü surətdə ifadə verən lüt insan görmüsüz? Məsələ sizə aydın deyil?

– Hə, bu doğrudan da axmaq kapitandır ki... Aparın onu, etiraf edənə qədər ona suallar verin və hazır şəkildə hüzurumuza gətirin!

Yenə mənim qollarıma iki əsgər girdi, qollarımı yuxarı qaldıraraq, başı aşağı vəziyyətdə məni kabinetdən xaric etdilər. Məni qərargahdan çıxarıb, kazarmalardan birinə apardılar. Orada onlarla zabit və yüzlərlə əsgər var idi. Onları divarların kənarında dizi üstə, əlləri arxadan bağlı

halda düzmüşdülər. Burada əksəriyyətinin gözləri açıq idi, sonradan bildim ki, burada “etiraf” almaq üçün işgəncələri göz önündə verirdilər ki, işləri bir az yüngül olsun, çünki bəziləri elə gördüklərindən dəhşətə gəlib istənilən izahata imza atmağa razılıq verirdi.

Məni gətirib kazarmanın yuxarı hissəsində, qapı ilə üzbəüz divarın yanında dizi üstə otuzdurdular. Hələ bir üstəlik oturduğumuz halda əziyyət çəkək deyə yerə çınqıl tökmüşdülər. Təsəvvür edirsiz, çılpaq bədənlə çınqılın üstündə diz çöküb saatlarla oturmaq nə deməkdir? Əllərimi divara bərkidilmiş trubaya bağladılar. Sağ əlimin üzəri yandığından bərk ağrı verirdi, lakin dizi üstə on dəqiqə oturandan sonra bu ağrını unutdum, çınqıllar sanki diz qapağımı deşirdi, dərini keçib sümüyə qədər çatdığını hiss edirdim. Yerimi rahatlamaq üçün bir az tərpənsəm də, bu vəziyyəti daha da ağırlaşdırdı.

## İnsana qarşı qeyri-insani işgəncələr

Həmin kazarmada gördüyüm işgəncə növlərini hələ də beynim dərk etmir. Sadəcə xatirəmdə dərin iz buraxmış, məni ruhən sarsıtmış bir neçə işgəncəni və şəxsən mənim başıma gələnləri sizə danışacağam.

Orada bir zabit var idi, adını indi xatırlamıram, onu kazarmanın ortasına gətirib əllərini yuxarı bağladılar, gözləri açıq idi. Kazarmanın içində iyirmi növ qurğu var idi ki, insanı əllərindən asmağa onlara imkan verirdi. Coni ona arxadan yaxınlaşaraq, bir neçə dəfə plastik boru ilə kürəklərinə zərbə endirdi. Zabitin nəriltisi ərşə yüksəlirdi. Sonra Coni onun qarşısına keçdi:

– Hə, nədir, etiraf edəcəksən?

– Xeyr, o əsgərlər işgəncə altında mənə şər atırdılar! Mənim heç bir günahım yoxdur!

– İndi biz sənə sonuncu şansı verəcəyik, amma diqqətli ol ki, sonuncu şansını əldən verməyəsən! Gətirin onu

bura!

Birdən qapı tərəfdən bir səs-küy qopdu, maskalı əsgərlər bir qızı saçlarından sürüyərək asılmış zabitin qarşısına gətirdilər.

– Bacı! – deyə zabit dərhal onu görən kimi tanıdı. İlahi, bu nə səhnə idi? – Ay şərəfsizlər! Mənim bacımı bu işə niyə qatırsız? Ay alçaqlar, əclaflar!

– Bu sənin son şansındır, şərəfsiz! Ya indi etiraf edirsən, ya da özündən və bacından küs!

– Nə etirafı, ay şərəfsizlər! Belə etiraf olur? Siz əməlli-başlı binamus və biqeyrətsiniz! Allah sizin bəlanızı versin! Buraxın bacımı!

– Hə, deməli, sən son şansını da qaçırdın! – Coni qızın saçından tutaraq ayaq üstə qaldırdı, qız ağrının şiddətindən inildəyib zingildəyirdi.

– Yox, buraxın onu, ay binamuslar, onun bu işlərə heç bir aidiyyəti yoxdur!

– Soyundurun bu küçüyü! – Coni qızı itələdi və o yerə yıxıldı.

Digər maskalı əsgərlər sanki kaftarlar leşə hücum edirmiş kimi qızın əynindən paltarı cırıb çıxardılar. Onun əynində yalnız qurşağından aşağı alt paltarı qalmışdı. Yazıq qız əlləri ilə harasını örtəcəyini bilmirdi.

– Durun! – zabit qışqırdı. – Əl saxlayın! Etiraf edirəm, bəli, mən dövlət çevrilişinə cəhd etmişəm, xarici xüsusi xidmət orqanlarına işləmişəm, hər şeyi etiraf edirəm, bircə bacıma toxunmayın!

– Yox, alçaq, yox, sən artıq son şansını əldən vermisən! İndi növbə bizdədi!

Zabitin bacısını lüt halda ona yapışqan lentlə (skotçla) sarıdılar. İlahi, bu nə mənzərə idi? Qardaşı lüt halda bacı ilə üzbəüz halda skotçlayandan sonra onları növbə ilə plastik boru ilə döyməyə başladılar, bir zərbə qardaşa, bir zərbə də bacıya. Mən onda gördüyüm bu mənzərəni hələ də dərk

edə bilmirəm, axı hansı insan belə işgəncəni təsəvvür edə bilər? Bir müddət onları bu halda döyəndən sonra əllərini açdılar və sürüyərək kazarmadan çıxardılar.

Bu arada gözüm əlində kamera ilə dolaşan bir nəfərə sataşdı, onun maskası yox idi, elə hey deyib-gülərək bu amansız işgəncələri lentə alırdı. Bu yerdə anladım, sonra bu çəkilişi məhkəmədə sübut və dəlil kimi istifadə edəcəkdilər. Yəni Andaluniya məhkəmələri lüt zabitin etirafını dəlil kimi qəbul edəcəkdi? Bu fikirlərlə, qorxu-ürkü içində oturub orada baş verən işgəncələrə baxırdım, düşünəndə ki, mənə də növbə çatacaq, az qalırdı ödüm ağzıma gəlsin.

Bir müddət sonra başqa zabiti gətirib əllərini yuxarıdan bağladılar. Ona da eyni suallar verildi və təbii ki, zabit etiraf etmədi. Dərhal onun anasını ora gətirdilər.

– Ana! Yox, buraxın onu! Eşidirsiz, buraxın onu!

– Etiraf edirsən? – Coni qəzəbli səslə soruşdu.

– Bəli, mən hər şeyi etiraf edirəm! Mən xainəm, vətənim Andaluniyaya xəyanət etmişəm, dövlət çevrilişinə cəhd etmişəm, eşidirsiz? Hə, nə baxırsız, etiraf etdim, onu niyə buraxmırsız?

– Yox, bu məsələ belə sadə bitə bilməz! Sənin kimi xəyanətkar övlad doğduğuna görə bu ana mütləq cəzalandırılmalıdır! Eşidirsən, ana? Sənin oğlun anamız olan Andaluniyaya xəyanət edib.

– Eşitdim! – ana qəzəbli halda oğlunu təpədən dırnağadək süzdü.

– İndi həm sən, həm də o cəzalanmalıdır! Açın onun qollarını və yerə uzadın!–Zabitin qollarını açıb yerə uzatdılar. – Anası, indi sən onu cəzalandırmalısan!

– Mən niyə? Qanun var, qoy qanun cəzalandırsın!

– Yox, belə olmaz! Bu cəza həm sənə, həm də ona aiddir! Mütləq biz deyən olmalıdır, yoxsa özümüz onu dəhşətli şəkildə cəzalandıracağıq, səni isə belə bir şərəfsizi dünyaya gətirdiyinə görə orada duran altı əsgər

kabinetdə cəzalandıracaq!

– Ana, qurban olum, nə deyirlərsə et, bu şərəfsizlər sərhəd tanımırlar! Yoxsa məni öldürüb, səni isə zorlayacaqlar! Nə deyirlərsə et, yalvarıram! – zabit ağlayaraq anasına yalvarırdı.

– Deyəsən, oğlun ağıllanmağa başlayıb, onun sözlərinə əməl etməyi sənə tövsiyə edirəm! Cəza o qədər də çətin olmayacaq, sadəcə onun başına sidik ifraz etməlisən.

– Siz nə danışırsız? Belə cəza olar? Məni öldürsəniz bundan daha yaxşıdır!

– Nə, öldürmək? Öldürmək ən sonuncu və ən asan metoddur! Biz hər ikinizə elə işgəncələr verəcəyik ki, siz ölüm üçün bizə yalvaracaq və ayaqqabılarımızın altını yalayacaqsınız! Gətirin oradan butulkaları, tok aparatını, deyəsən, bu ana da oğlu kimi axmaqdır!

– Ana, qurban olum sənə, nə deyirlərsə onu da et! Mən sənin işgəncə görməyinə dözə bilmərəm! Bax, sən onların dediklərini etməsən, onlar məni öldürəcəklər! Sən övlad qatili olmaq istəyirsən? – burada zabitin hiylə işlətdiyini başa düşmək o qədər də çətin deyildi.

Coni butulka və tok aparatını gətirən kimi ananı hədələməyə başladı, onun sadəcə bir hədəfi var idi, ananı oğlunun başına sidik ifraz etdirmək, vəssalam. Ana həyəcandan tir-tir əsirdi və hıçqırtı ilə ağlayırdı. Oğlu isə quzu kimi ona yalvararaq razı salmağa çalışırdı. Sonda oğlu ananı razı sala bildi, yazıq ana ağlaya-ağlaya başını razılıq əlaməti olaraq tərpədirdi. Coninin istəyi baş tutdu, ananı oğlunun başına sidik ifraz etdirdilər. Proses bitəndən sonra ana daha da şiddətlə ağlamağa başladı, oğlunun başını qucaqlayaraq öpürdü, ondan üzr istəyirdi.

– Anan sənə qurban, bağışla məni, bunu sadəcə səni qorumaq üçün etdim, sən hələ yaşamalısan və onlardan qisas almalısan! Eşidirsən? Sən yaşamalısan!

Ananı oğlundan güclə ayırdılar və qapıya tərəf

sürükləyərək onu kazarmadan çıxardılar. Zabiti isə sürüyərək kazarmadan çıxardılar. Sonradan məhkəmə prosesində bildik ki, həmin ana evlərinə çatan kimi tövləyə girərək orada üstünə benzin töküb, özünə od vuraraq intihar edib. Bu bir ailənin faciəsi idi, amma son da deyildi.

Bir müddətdən sonra yaşlı bir giziri kazarmanın ortasına gətirdilər, əllərini yuxarı bağladılar və döyməyə başladılar. Bir azdan gənc bir əsgəri tam geyim formasında sürüyərək onun qarşısına gətirdilər.

– Oğlum, sən burada nə edirsən? Onu bura niyə gətirmisiz?

– Ata, burada nə baş verir? Səni niyə bağlayıblar? Məni niyə bura gətiriblər?

– Ay alçaqlar, onun xidmət etdiyi hərbi hissə Andaluniyanın o biri başındadır, onu bu məsələyə niyə qatırsız?

– Bizim üçün vətənin o başı, bu başı yoxdur! – Coni qəzəblə dilləndi. – Vətənin hər yerinə biz nəzarət edirik! Sən isə bu vətənə xəyanət etmisən! Etmisən, yoxsa yox?

– Hə, etmişəm! Etiraf edirəm! Uşağı buraxın, onun bu məsələyə heç bir dəxli yoxdur!

– Madam ki, etiraf edirsən, onda səni cəzalandırmalıyıq, həm də oğlunu yoxlamalıyıq ki, görək vətəninə nə qədər sədaqətlidir! Ey, küçük, tez elə, atanın başına sidik ifraz elə!

– Siz nə danışırsınız? Başınız xarabdır?

– Bax, sənin atan anamız Andaluniyaya xəyanət edib, sən də bu işdə şübhəli şəxssən, ya öz vətənpərvərliyini isbat etməlisən, ya da səni də onun kökünə salıb işini bitirəcəyik! Açın alçağın qollarını, uzadın onu yerə!

– Yox, mən bunu etməyəcəyəm! İstəyirsizsə ikimizi də öldürün, bu daha şərəfli bir yoldur!

– Nə, öldürmək? Xeyr! Bizim sizi öldürmək fikrimiz yoxdur, sənin ananı və bacını bura gətirəcəyik! Elə

bilirsən sizin ünvanınızı bilmirik?

– Oğlum, – yerdə uzadılmış ata acizanə bir səslə dedi, – mən xəyanət etmişəm, sən isə günahsızsan, nə deyirlərsə et! Ananı və bacını bura gətirmələrinə yol vermək olmaz!

– Ata, sən nə danışırsan?! Bu işi mən necə görə bilərəm? Bundan sonra necə yaşaya bilərəm?

– Oğlum, sənə deyiləni et, yalvarıram sənə, dedikləri kimi başıma sidik ifraz et! Sən hələ işgəncənin nə olduğunu bilmirsən, ana-bacını bura gətirəndən sonra onların da yalvarışlarına şahid olacaqsan. Tez, yubatma, deyiləni et!

Ata oğluna yalvardığı müddətdə maskalı əsgərlər həm onu, həm də oğlunu plastik boru ilə döyürdülər. Oğul qadın ailə üzvlərinin bura gətirildiyi təqdirdə onlara da bu cür işgəncələr veriləcəyini anlayırdı. Ağlayaraq, atasına bağışlaması üçün yalvararaq onun başına sidik ifraz etdi. Proses başa çatan kimi hər ikisini sürüyərək kazarmadan çölə çıxardılar.

Arada bir neçə nəfərin kazarmanın ortasına aparılarkən etiraf etdiyini müşahidə etdik. Məni dərin düşüncələr öz ağuşuna almışdı, gördüklərimdən mənən sarsılmışdım, ürəyim bulanırdı. Ana ilə oğulun vidalaşma mənzərəsi hələ də gözlərimin önündə idi. Gec-tez növbə mənə də çatacaqdı, belə olduğu halda məni hansı sürprizin gözlədiyini düşünmək belə istəmirdim. Anamı yoxsa atamı, həyat yoldaşımı yoxsa uşaqlarımı, bəlkə hamısını bura gətirəcəkdilər? Bu suallar içində mənən qıvrılır və çapalayırdım.

Birdən iki maskalı əsgərin mənə yaxınlaşdığını gördüm, ürəyim tir-tir əsirdi, növbə mənə çatmışdı. Məni sürüyərək kazarmanın ortasına gətirdilər və əllərimi yuxarıdan kəndirə bağladılar. Coni mənimlə üzbəüz dayandı:

– Hə, kapitan, nəhayət, səninlə də görüşdük, lap

darıxmışdım sənin üçün, ha-ha-ha.

– Mən isə heç darıxmamışdım, səhərdən gözümün önündəsiniz, insanlara ağlagəlməz işgəncələr verirsiz.

– Hə, düzdür, elə bil kinoya baxırdın, hə? Ha-ha-ha.

– Nə? Kino? Yox, mən bu cür vəhşilikləri heç bir kinoda görməmişəm.

– Düzdür, axı kino nədir ki? Həyatın bir anı. Burada isə sizə həyatın özünü nümayiş etdiririk, bu isə kinodan da üstündür. Əsl incəsənət də elə budur!

– Allah kəssin belə həyatı! Belə incəsənət olar? İnsanlara olmayan zülmü edirsiniz!

– Yaxşı, bəsdir sarsaqladın! De görüm indi necə, ağıllanmısan? – deyərək Coni mənim arxamdan üzü qapıya tərəf baxdı və gülümsədi.

Aman Tanrım! Mən arxada bir neçə insanın addım səsini eşidirdim, bizi arxası qapıya tərəf asdıqlarına görə kimin gəldiyini görmürdük. Mən gözlərimi yumdum və ayaq səslərinə diqqətlə qulaq asmağa başladım. Oradakı hay-küydən ayaq səslərini güclə ayırd edə bilirdim. Amma səslərin içində qısa addımların olduğunu hiss etdim. İlahi, deyəsən, mənim uşaqlarımdan biridir, ya da hər ikisidir. Gözlərimi dərhal açdım, Coniyə baxaraq:

– Bəli, mən etiraf edirəm, Andaluniyaya xəyanət etmişəm, düşmənə işləmişəm və dövlət çevrilişinə cəhd etmişəm. İt kimi peşmanam və qanuni cəzamı çəkməyə də hazıram! – bu cümlələri tez-tez, sanki əvvəlcədən əzbərləyibmiş kimi birnəfəsə dedim.

– Sağ ol səni! Əməlli-başlı ağıllanmısan ki, kapitan. Lap məni təəccübləndirdin. Bax görürsən, əgər ilk günlərdən etiraf etsəydin, bütün bu zülmləri yaşamazdın, ailəni də narahat etməzdik. Madam ki bura qədər gəliblər, gətirin bura, qoy kapitan sonuncu dəfə onları görsün.

Mən Coninin bu sözlərindən bərk narahat olmuşdum, kimin gətirildiyini bilmirdim, lakin addım səsləri getdikcə

yaxınlaşırdı. Birdən qarşıma həyat yoldaşım və qızım keçdi. Onları görcək hisslərim qarışdı, bilmirdim sevinim, yoxsa kədərlənim.

– Əzizim, qızım, necəsiz, sizi incitməyiblər ki?

– Yox, ata, biz yaxşıyıq, sən necəsən? – qızım şirin səsi ilə soruşdu.

– Yaxşıyam, qızım, narahat olma, indi əmilər sizi evə yola salacaqlar, – dolmuş gözlərimlə, yalvarışlı baxışlarla Coniyə tərəf baxdım. Baxışlarımla ona onlara əl vurmaması üçün yalvarırdım.

– Sən nə etmisən, Şahsuvar? Səni niyə bu hala salıblar, bizi niyə bura gətiriblər? – həyat yoldaşım təlaşlı və narazı səslə soruşdu.

– Heç nə olmayıb, əzizim, sadəcə anlaşılmazlıq var, onu aydınlaşdıracaqlar və məni buraxacaqlar. Söz verirəm, buradan çıxan kimi evə gələcəyəm, siz narahat olmayın. İndi isə evə gedin, məndən nigaran qalmayın, – yenə yalvarışlı baxışlarla Coniyə baxdım.

Coni gözlərini kənara çəkdi, yanındakı əsgərlərə ailəmi yola salmağı əmr etdi. Onları itələyərək kazarmanın çıxışına apardılar. Mən isə ağlayırdım, sındırıldığım üçün mənən çökmüşdüm.

– Bu kapitanı aparın digər xainlərin yanına! Orada onu daha çox sürprizlər gözləyir!

Mənim qollarımı açdılar, əllərimi arxadan bağlayıb qoluma girdilər, başımı aşağı əyərək, kazarmanın çıxışına tərəf apardılar. Həmin kazarmadan çıxıb hərbi hissənin ən uzaq hasarına tərəf apardılar, orada başqa bir kazarma var idi, əvvəlki kazarmadan bir az kiçik idi. Bura əvvəllər zabitlərin kazarması olmuşdu.

Biz içəri daxil olduq, içəridə ondan artıq zabit var idi, onların hamısı divar dibində otuzdurulmuşdular. Bəzilərinin ayaqlarının arasında qan izləri var idi, bu mənzərə məni narahat etdi, burada hansı işgəncələrin

verildiyini hələ bilmirdim. Məni də divar dibində yerə əyləşdirdilər. Bu kazarmada ona yaxın maskalı əsgər var idi. Coni onlara yaxınlaşaraq:

– Hə, Şrek müəllim, işləriniz necə gedir?

– İşlərimiz plan üzrə gedir, Coni. Sizdə vəziyyət necədir, etiraf edirlər?

– Lap bülbül kimi, ha-ha-ha.

– Əla! Nə qədər çox etiraf etsələr, o qədər yaxşıdır, biz də burada darıxmarıq, ha-ha-ha.

Coni sağollaşıb kazarmanı tərk etdi. Mən maraqla digər zabitlərə baxırdım, niyə ayaqlarının arasının qanlı olduğunu hələ başa düşmürdüm. Təxminən yarısı bu vəziyyətdə idi. Birdən Şrek otağa nəzər saldı və zabitlərdən birini kazarmanın ortasına gətirməyi əmr etdi. Bir neçə nəfər məndən aralı olan Cəsarəti sürüyərək kazarmanın ortasına apardılar. Cəsarət çığıraraq, çapalayaraq və dırnaqlarını döşəməyə ilişdirərək müqavimət göstərməyə cəhd edirdi, amma heç bir faydası olmadı. Onu kazarmanın ortasındakı qaldırıcı qurğunun yanına gətirdilər. Qollarını qaldırıcı qurğunun qarmağına bağladılar və qurğunun zəncirini fırlayaraq onu qaldırmağa başladılar.

Cəsarətin bədəni artıq havada sallanırdı. Onun ayaqlarından iki nəfər tutdu və önə tərəf çəkməyə başladı, digər əsgər isə qurğunun zəncirini geri fırladaraq Cəsarətin bədənini aşağı salmağa başladı. Şrek bir az aralıda olan masanın üzərindən bir şüşə butulka götürdü, onu Cəsarətin altına yerləşdirdi. Əsgərin biri Cəsarətin əynindəki yeganə alt paltarını aşağı çəkdi. Cəsarət çırpınır və sağa-sola vurnuxurdu.

– Yox, etməyin, eləməyin! Bu nədir edirsiz axı? Etiraf istəyirdiz, verdik, axı bu nə deməkdir?

– Sakit dur! – Şrek qəzəbli səslə dedi. - Nə qədər çox müqavimət göstərsən, o qədər də pis olacaq! Ağıllı ol və müqavimət göstərmə! Sadəcə təslim ol!

Qurğunun zənciri fırlandıqca Cəsarətin bədəni aşağıya doğru gəlirdi, butulkanın ucu onun anus dəliyinə istiqamətləndirilmişdi. Butulka dəliyə daxil olduqda Cəsarətdən şiddətli bir çığırtı çıxdı, o, sağa-sola vurnuxurdu. Şrek arxasından əllərini onun çiyinlərinə qoyaraq sabit saxlamağa çalışırdı, birdən Cəsarət başını sola çevirərək onun əlini dişlədi. Şrek tez əllərini onun çiynindən çəkərək:

– Bu alçağa bax hələ! Onun quduz it kimi dişləməyi də var imiş. İndi sənə göstərərəm adam dişləməyin nə olduğunu. Açın onu, bağlayın "Sınıq xaç" qurğusuna!

Şrek əlini tutub inildəyirdi. Kazarmanın ortasında qəribə bir qurğu var idi. Daha çox xaça bənzəyirdi, onun üst hissəsi boltlarla döşəməyə bağlanmışdı, ayaq hissəsi isə iki əlli santimetrlik zəncirlə üst hissəsinə bərkidilmişdi. Cəsarətin əllərini açıb xaçın üst hissəsinə, birini sağ tərəfə, digərini isə sol tərəfə bağladılar. Ayaqlarını isə xaçın zəncirlə üst tərəfinə bərkidilmiş aşağı hissəsinə bağladılar. Sonra isə xaçın ayaq tərəfinə bağlanmış kəndiri geriyə, Cəsarətin başı istiqamətinə tərəf dartmağa başladılar. Beləliklə, Cəsarətin əlləri xaçın tərpənməz hissəsinə bağlı olduğu halda, ayaqları başının üzərinə qaldırıldı, yan tərəfdən baxanda qurğu sınmış xaçı xatırladırdı. Aman Tanrım, deyəsən, məhz elə buna görə də ona "Sınıq xaç" deyirdilər.

Şrek masanın üzərindən plastik borunu götürdü və Cəsarətin anus dəliyinə yeritdi. Cəsarət nə qədər qışqırsa da, faydası olmadı. Şrekin hirsi hələ də soyumamışdı, o yenidən masaya yaxınlaşdı və bu dəfə on altı millimetrlik polad armaturu götürdü. Şrek həmin armaturu da Cəsarətin anus dəliyinə yeritdi. Armaturun üstü nahamar olduğundan Cəsarətin bağırsağını dağıtmışdı, oradan sürətlə qan axmağa başladı. Şrek armaturu çıxararaq özündən razı halda:

– Qoy bu əbləhə və başqalarına bir dərs olsun! Şreklə

belə axmaqlıqlar keçmir! Şrek belə şeyləri bağışlamır və dərhal cəzalandırır! Açın əllərini, tullayın onu bir kənara.

Mən dəhşət içində baş verənləri izləyirdim, aman Tanrım, bu nə zülmdür? Niyə göydən daş yağdırıb, yerdən alov çıxarıb bunların hamısını, elə bizi də məhv etmirsən? Bu nə sınaqdır, bu nə imtahandır?? Cəsarəti ayaq üstə qaldırdılar, onun ayaqları arasından düz dabanına qədər qan süzülürdü. Əllərini yenidən bağlayaraq öz yerinə qaytardılar. Cəsarət ağrılar içində ilan kimi qıvrılırdı.

Birdən bir neçə maskalı əsgər kazarmaya daxil oldu, onlar lüt halda bir nəfəri gətirib Şrekin qarşısında yerə atdılar:

– Şrek, bu mayoru Həkim paşa dərhal cəzalandırmağı əmr etdi, ən alçaq şəkildə cəzalandırılmalıdır!

– Nə edib ki? Bu da xəyanət edib?

– Yox, bu əbləh bir neçə ay öncə Həkim paşaya cavab qaytarıb, bu şəxsi məsələdir və dərhal ən alçaq şəkildə cəzalandırılmasını əmr edir!

– Ən alçaq şəkildə? Yəni necə?

Mayoru gətirmiş əsgər Şrekin qulağına nə isə pıçıldayır və gedir. Şrek bir mayora baxır, bir də bizlərə. Dərhal mayoru "sınıq xaç"a bağlamağı əmr edir. Sonra mənə tərəf gələrək:

– Bu şərəfsiz ən sonuncu gəlib?

– Bəli, bəli! – digər əsgərlər onun sözünü təsdiqlədilər.

– Onda buna elətdirərik! Bağlayın o mayoru, tez olun! İndilərdə Həkim paşa bura gələ bilər.

Mayoru "sınıq xaç"a bağladılar və ayaqlarını başının üzərinə qaldırıb hazır vəziyyətdə saxladılar. Şrek mayorun ətrafında bir-iki dövrə vuraraq mənə yaxınlaşdı:

– Sən deyəsən kapitansan, hə?

– Bəli, kapitan Salmanov Şahsuvar.

– Kapitan, bu mayoru görürsən? Onu cəzalandırmaq

lazımdır, başa düşürsən?

– Necə yəni cəzalandırmaq? Bunu mənə niyə deyirsiz ki? Mən niyə kimisə cəzalandırmalıyam ki?

– Kapitan, mənim başımı xarab eləmə! Həkim paşa istəyir ki, sizlərdən biri bu mayoru zorlasın, mən də səni seçdim, sən onu zorlamalısan!

– Sən nə danışırsan? Başın xarabdır? Mən? Onu zorlamaq? Sizin ağlınız əməlli-başlı gedib deyəsən!

– Aydındır, bunu xoşluqla etmək istəmirsən, hə, nə olar, onda səni buna məcbur edərik! Döyün bu əbləhi!

Dərhal iki əsgər plastik boruları götürüb məni döyməyə başladı. Başıma, kürəyimə, belimə, qollarıma və ayaqlarıma o qədər vurdular ki, mən artıq leş kimi yıxılıb qalmışdım. Heç inildəməyə belə halım qalmamışdı. Şrek yenidən mənə yaxınlaşdı.

– Hə, kapitan, təslim olursan? Bu mayoru zorlayacaqsan?

– Yox, mən dediyiniz o murdar işi görməyəcəyəm! – güclə danışırdım. – Mən kişiyəm, siz deyəsən, məni hələ yaxşı tanımırsız! Kişi kişiyə nədir, ə?! Mənim diri-diri dərimi soysanız belə, bu işə qol qoymayacağam! İndi nə istəyirsiz, edin!

– Yox, sən bu dünyaya axmaq gəlmisən, axmaq da gedəcəksən! Bunun leşini salın! O qədər çırpın ki, iniltisi belə kəsilsin.

O iki əsgər sanki bir himə bənd idilər, dərhal canıma daraşdılar və o ki var döydülər. Mən halsız halda yıxılıb qalmışdım, heç zarıya da bilmirdim. Şrek əmr etdi və qonşu otaqdan bir gənc əsgər gətirdilər, o da bizim kimi çılpaq idi, səhv etmirəmsə beşinci bölüyün əsgəri idi. Ona mayoru zorlamağı əmr etdilər, əsgər əvvəlcə imtina etdi, onu da döyməyə başladılar. Bir neçə dəqiqədən sonra əsgər onlara yalvarırdı:

– Döyməyin, durun! Əl saxlayın! Yaxşı, mən onu zorlayacağam, amma məni daha vurmayın!

– Aha, axır ki, əsgər ağıllandı. Qaldırın onu, gətirin mayorun yanına.

Əsgər mayoru zorlamağa başladı, aman Tanrım, mayordan çıxan səslər və o iyrənc səhnə məni narahat etməyə başladı. Mən üzümü sola çevirdim və birdən kazarmanın qapısında Həkim paşanı gördüm. O, yanında iki nəfər zabitlə durmuşdu. Əli ilə zorlanan mayoru göstərib qəhqəhə çəkirdi.

Bu nə mənzərə idi, İlahi! İnsan nə qədər xəstə psixika sahibi olmalıdır ki, başqa insanın zorlanmasına üzündə gülüşlə baxsın?! Mən artıq bilmirdim ki, daha nəyə təəccüb edim. Zabitlərə verilən işgəncələrəmi, mayorun zorlanmasınamı, yoxsa Həkim paşanın bu mənzərəni gülüşlə seyr etməsinəmi...

Birdən kazarmada qışqırıq qopdu:

– Saxla, saxla, onu qan apardı, saxla! Tez həkim çağırın, deyəsən, mayor özündən gedib.

Mayor özündən getmişdi və bağırsağından qan fışqırırdı, deyəsən, bağırsağı çox pis şəkildə zədələnmişdi. Tez həkimlər özlərini çatdırdılar, bu hala etiraz edərək, mayorun təcili olaraq tibb məntəqəsinə aparılmalı olduğunu dedilər. Şrek qapıda duran Həkim paşaya baxdı, onun razılığını alan kimi mayoru açmağı əmr etdi. Həkimlər tez onu xərəyə qoyub tibb məntəqəsinə apardılar.

Ara sakitləşən kimi Şrek mənə yaxınlaşdı:

– İndi bu axmağın növbəsidir! Qaldırın onu və əllərini qurğuya bağlayın!

Məni kazarmanın ortasındakı qaldırıcı qurğunun yanına apardılar, əllərimi onun qırmağına bağlayıb, qaldırmağa başladılar. Artıq bədənim yerdən üzülmüşdü, iki əsgər ayaqlarımdan tutub önə tərəf çəkdilər. Mən düşüncələrimin dərinliyində müqavimət göstərib-göstərməmək haqqında fikirləşirdim. Bir tərəfim müqavimətin vacib olduğunu qışqırır, digər tərəfim isə Cəsarətin başına gələnləri

mənə xatırladaraq müqavimət göstərməməyə səsləyirdi. İçimdəki təlatüm mənə mənən əziyyət verirdi, tez bu halın bitməsini arzulayırdım. Birdən Şrekin əlində butulka ilə mənə sarı gəldiyini gördüm, o, butulkanı mənim altıma qoydu və əli ilə əsgərlərə məni aşağı salmaları üçün işarə etdi. Əsgərin biri dərhal mənim alt paltarımı aşağı çəkdi. Butulkanın ucu arxamdan mənim anus dəliyimə çatar-çatmaz mən qıvrılmağa başladım.

– Yox, bu olmadı! – Şrek arxama keçərək əllərini çiyinlərimin üzərinə qoydu.

Mən çırpınmağa cəhd etdikcə, Şrek çiyinlərimdən daha çox basaraq məni sabit saxlamağa cəhd edirdi. Butulka bağırsağıma daxil olanda, mən üzümü yuxarı qaldıraraq fəryad etməyə başladım:

– Aman Tanrım, yox, yox, etməyin, yox!

Şrekin gülüşünü hiss edirdim, o, sakitcə qulağıma pıçıldadı:

– Döz, bir az qaldı, döz, axmaqlıq edib işimizi çətinə salma!

Butulka anus dəliyimə daxil olduqca bayırdakı dərini də özü ilə birlikdə daxilə tərəf çəkib aparırdı. Getdikcə butulkanın diametri artırdı, omba əzələlərimdə artan təzyiq çanaq sümüyümə yayılmağa başladı. Çanaq sümüyündə yaranmış həmin dəhşətli ağrı onurğa sütunumun sinirləri ilə hərəkət edərək düz beynimə vururdu. İlahi, bu nə ağrı idi, mən əslində elə indi, məhz bu halda özümə ölüm arzu edirdim! Həm mənliyim heç olmayıbmış kimi alçaldılırdı, həm də ağrıların şiddəti o qədər idi ki, mən yenə də huşsuzluq rahatlığını axtarmağa başladım. Amma bu ağrılar mənə huşsuzluq gətirmirdi. Mən elə hey üzü yuxarı baxaraq çığırır və ağlayırdım.

Birdən Şrek əllərini çiyinlərimdən çəkdi və məni qaldırmağı əmr etdi. Əsgərlər dərhal məni qaldırmağa başladılar. Mən tam olaraq qalxandan sonra ayaq üstə dura

bilmirdim. Ayaqlarımın arasından qanın düz dabanlarıma qədər süzüldüyünü gördüm. Əsgərin biri alt paltarımı yuxarı çəkdi, qollarıma girib məni öz yerimə gətirdilər və yerə tulladılar. Mən mənən sınmış halda, ayaqlarımı qucaqlayaraq divara qısıldım, əsərək hıçqırtı ilə ağlayırdım. Ömrümün sonunun və ölümün gəlməsini arzu edirdim.

Bu anda qərargahın ikinci mərtəbəsinin girişində gördüyüm iylənmiş meyitlər yadıma düşdü. Ah, aman Tanrım, onlar necə də xoşbəxt idi, onlar bütün bu vəhşətləri görmədən ölmüş, bu əziyyətləri dadmadan əbədi rahatlığa qovuşmuşdular. Bəli, məhz elə bu kimi hallarda dirilər ölülərə qibtə edə bilər. Xoş həmin ölənlərin halına!

Bizi bir müddət də orada saxladılar, şəxsən məni orada iyirmi səkkiz gün saxladılar. Sonra bizi hospitala göndərdilər, bir az sağaldandan sonra məhkəmə qarşısına çıxardılar. Məhkəmələr qapalı oldu, bizə vəkil versələr də hakimlər heç bir vəsatəti qəbul etmədilər, şikayətlərimizi dinləmədilər. Kimisinə iyirmi il, kimisinə də on iki il həbs cəzası kəsib həbsxanalara tulladılar. Rəsmi olaraq doqquz nəfərin öldüyünü qeyd etsələr də, öldürülənlərin sayı əlliyə yaxın idi. Sadəcə onları başqa-başqa adlarla rəsmiləşdirdilər.

Öz əleyhinə ifadə vermiş bir çox əsgərdən əlli-altmış min dollar alaraq onları azad etdilər. Bəzilərini yenidən xidmətə qaytardılar, bəzilərini isə "uyğunsuzluq" maddəsi ilə tərxis etdilər. Hə, zorlanmış həmin mayor hələ də xidmət edir. Tərxis olunanları təqaüddən də məhrum etdilər. Bir sözlə, şahid və zərərçəkmişləri pərən-pərən saldılar! Yalnız məhkəmələr zamanı bizə aydın oldu ki, bizim Abbas əfəndiyə ünvanladığımız məktub hərbi nazir Nəsrəddin paşanın əlinə keçmiş, o da hərbi prokuror Şahmar paşa ilə birləşərək bizi cəzalandırmışdı. Bizi "dövlət çevrilişinə cəhd" adı ilə cəzalandırmaqla həm Nəsrəddin paşa Abbas əfəndinin yanında hörmət qazanmışdı, həm də orduda

hamıya göz dağı vermişdi. Çətin bu ordu bundan sonra özünə gələ...

İki gün boyunca danışaraq öz əhvalatını bitirən Şahsuvar dərin bir ah çəkdi, əsəbdən əsən əlləri ilə əsəbdən əsən başını tumarlamağa başladı. Başını qaldırıb kameradakıların üzünə baxdı, hamının üzündə dəhşət əlamətləri var idi, bircə Dayını görmürdü. Dayı ikinci mərtəbədəki çarpayısında, üzü yuxarı uzanmış halda için-için ağlayırdı. Bu, onun ömründə eşitdiyi və eşidə biləcəyi ən dəhşətli əhvalat idi. Onun illər boyu təcrübələrlə zənginləşmiş beyni eşitdiklərini həzm edə bilmirdi, sanki Şahsuvarın ağrılarına şərik olmuşdu. Bəli, insan olan kəs digər insanın dərdinə də, ağrısına da şərik olmağı özünə vacib bilir.

Ertəsi gün profilaktik tərbiyə günü idi, nəzarətçilər gələrək kameradakı məhbusları özləri ilə birlikdə tərbiyə mərkəzinə apardılar. Dayının təlimatlarına uyğun olaraq Ariz müqavimət göstərmədi, ona da digərləri kimi standart olaraq on şallaq vuruldu. Tərbiyə mərkəzindən qayıdan məhbuslar öz yerlərini tutdular. Hamı sakit oturmuşdu, Aydın isə təzə dəmlədiyi çaydan onlara süzdü, hamı sakitcə çayını içərək düşüncələrə dalmışdı. Birdən Dayı sükutu pozdu:

– Şahsuvar, oğlum, sənin danışdıqlarına qulaq asdıq, baş verənlərdə sənin bir təqsirin olmadığına görə səni heç kim qınaya bilməz. Bundan sonra sən mənim himayəm altındasan, hər kim sənə nəsə desə, dərhal mənə bildir, mən lazım olan tədbiri tökərəm.

– Sağ olasan, Dayı! Mən öz əhvalatımı sizə danışaraq xeyli yüngülləşdim.

– Ariz, bəs sən nə vaxt öz əhvalatını danışacaqsan? – Dayı Arizə tərəf baxaraq soruşdu.

– Dayı, mənim əhvalatım uzundur, heç Şahsuvarın əhvalatı kimi də maraqlı deyil.

– Nə? Uzun? Biz məgər harasa tələsirik? Maraqsız?

Sükutdan da maraqsız olacaq? Yaxşı görək, naz eləmə, başla danışmağa.

Ariz əlində çay ayağa qalxaraq kameranın sonunda olan kiçik pəncərəyə yaxınlaşdı. Pəncərədən Bakka sahilini tumarlayan Sədəf dənizinin sahilləri görünürdü. Ləpələr sahilə tərəf və geriyə hərəkət edərək onu sığallayırdı və Arizi uzaq xəyallara aparırdı. Həm məkan baxımından, həm də zaman baxımından uzaq xəyallara...

## Zülmdən qəflətdə olan həyat

Ariz Bakka şəhərinin Şüalıq kəndində dünyaya göz açmışdı, orta məktəbi də elə orada bitirmişdi. Kəndin adı ilin çox hissəsi günəşli olduğuna görə belə adlandırılmışdı. Neçə əsrlik tarixi olsa da, Şüalıq kəndi son iyirmi ildə elə dəyişmişdi ki, daha ora kənd demək də mümkün deyildi. Kəndin iki tərəfi Sədəf dənizi ilə əhatə olunmuşdu. Həyətlərdə cürbəcür ağaclar vardı, insanları mehriban idi. Amma bütün bunlar Abbas əfəndinin hakimiyyəti dövründə dəyişmişdi. İnsanlar arasında soyuq münasibət, bir-birinə inamsızlıq artmışdı.

Əlbəttə ki, bir tərəfdən hündürmərtəbəli binaların tikintisi, parkların salınması, müxtəlif məmurların bu kənddə özlərinə iqamətgah tikmələri kəndi zahirən gözəlləşdirmişdi, amma di gəl ki, insanlar arasında münasibətlər korlanmışdı. Bütün bunların səbəbi hakim komandanın insanların ləyaqətini alçaldan siyasəti və ölkədəki işsizlik, yəni yoxsulluq idi.

Ariz orta məktəbi bitirən kimi universitetə daxil oldu və neft hasilatı üzrə bakalavr dərəcəsini alaraq oranı bitirdi. Hərbi xidmətini zabit kimi başa vuraraq, qonşu kəndlərin birində neft sahəsi üzrə işə girdi. O, öz üzərində çalışır, işi dərindən öyrənməyə səy göstərirdi. İllər keçdikcə, onun təcrübəsi artdıqca vəzifəsi də artırdı.

Həyatı uğurlu alınıbmış kimi görünürdü, ali təhsili,

ixtisası üzrə işi, karyerası, yüksək maaşı, kənddə və qohumları arasında hörməti də yerində idi. Ara-sıra xarici ölkələrə səyahət edirdi, Türkiyə, İngiltərə, Amerika, Gürcüstan, Tailand, Qətər, Şotlandiya və s. kimi ölkələrdə olmuşdu. Səyahəti və yeni yerləri kəşf etməyi xoşlayırdı. İşlədiyi müddət ərzində neft hasilatı üzrə ikinci təhsilini alaraq, magistr dərəcəsini də almışdı. Bu illər ərzində Yeganə adlı bir xanımla evlənmişdi və Nərmin adlı on yaşlı bir qızı var idi.

Onun yüksək maaşı olduğuna görə ölkədəki ağır iqtisadi durumu hiss etmirdi, yanında kimsə çətinlikdən danışarkən o sadəcə üzünü çevirib gedirdi, sanki reallıqdan qaçmağa cəhd edirdi.

Bir gün iş yerində tabeçiliyində olan bir fəhlə ilə arasında çox qəribə bir söhbət baş tutdu. Davud adlı fəhlə elə hey ölkədəki ağır iqtisadi durumdan gileylənirdi. Onun bu söhbətləri Arizin də qulağına çatmışdı. Odur ki, Ariz onunla söhbət etmək qərarına gəldi. O, fəhlələrin oturduğu emalatxanaya gedərək Davudla söhbətə başladı:

– Hə, Davud əmi, - yaşca Arizdən böyük olduğuna görə onunla arasında pərdə saxlayırdı, – salam, necəsiz?

– Salam, rəis, təşəkkür edirəm! Siz necəsiz?

– Mənəm də, yeni layihə üzərində çalışıram, görüm axırı necə olacaq. Son zamanlar başım yaman qarışıqdır, sizə də gəlib baş çəkə bilmirəm. Yenə əvvəllər gəlib bir çayınızdan içirdim, hal-əhval tuturdum, indi isə...

– Rəis, bu dəqiqə sizə təzə dəm bir çay süzüm, əşşi, bu qocalıq da nə yaman şeydir, sizə çay təklif etmək təmiz ağlımdan çıxıb. – Davud cəld qalxaraq çaydana tərəf getdi.

– Yox e, Davud əmi, elə deməyin, siz hələ min cavana dəyərsiz.

– Yox, ay rəis, artıq hiss edirəm ki, əvvəlki deyiləm, – süzdüyü çayı Arizin qarşısına qoydu. – Nuş olsun, rəis,

konfetlər də buradadır.

– Təşəkkür edirəm, Davud əmi, var olasız! Əyləşin, lütfən.

Ariz söhbətə haradan başlayacağını bilmirdi, ilk dəfə idi ki, bir işçisi ilə bu istiqamətdə söhbət edəcəkdi. Bir neçə qurtum çaydan içərək hey daxilində haradan başlamağı düşünürdü. Söhbətə şəxsi həyatından başlamağı qərarlaşdırdı:

– Davud əmi, şəxsi vəziyyətiniz necədir?

– Belə də, qocalığı çıxmaq şərti ilə pis deyil.

– İşin burada çox ağır deyil? Yaşını nəzərə alırlar?

– Yox, sağ olsunlar, yaşımı nəzərə alıb çox yükləmirlər, ağır işlərə cəlb etmirlər, hörmətimi saxlayırlar, sağ olsunlar! Qətiyyən bu barədə narahat olmayın, rəis.

– Bəs maddi vəziyyətin necədir? Maaşın səni qane edirmi, yaşamağa bəs edirmi?

– Rəis, bu barədə də şikayətim yoxdur. Çox şükür, dolanırıq, oğlumu evləndirmişəm, qızımı da köçürmüşəm, iki ahıl insana aldığım maaş artıqlaması ilə bəs edir, hərdən nəvələrə də hədiyyə alırıq, onlara qonaq gedirik.

Ariz Davudun üzündə məsum bir təbəssüm görürdü.

– Lap yaxşı, sevindim. – Ariz bir qurtum da çaydan içib əsas söhbətə başladı. – Bir neçə dəfə qulağıma çatmışdı ki, nədənsə narazısan, gileylənirsən, sözün açığı, bir az narahat olmuşdum, çoxdan gəlib hal-əhval tutmaq istəyirdim, amma alınmırdı. Baxıram ki, gileylənəcək bir mövzu yoxdur, elə isə sirr deyilsə, nədən narazılıq edib gileylənirdin? Bəlkə bunlar şayiədir, həqiqət deyil?

– Rəis, olur arada narazılıq etməyim və gileylənməyim də olur, bilirsiz, yaşlı insanların belə bir xüsusiyyəti də var. Gileylənməsək də olmur.

– Olsun, əgər gileylənməyə bir səbəb varsa, qoy o da olsun. Mənə sadəcə səbəbi maraqlı idi. Nigaran

qaldığım sahələri dəqiqləşdirdim, şükür ki, dolanışıq sarıdan gileylənməyə bir səbəb yoxdur. Bəs onda əsl səbəb nədir?
– Rəis, əslində daha çox ölkədəki vəziyyətdən narazılığım var, məhz elə bu səbəbdən də gileylənirəm.
– Nə olub ölkədəki vəziyyətə? Mən gileylənəcək bir səbəb görmürəm axı.
– Rəis, elə deyil, bizim işimiz və yaxşı maaşımız ola bilər, amma bu o demək deyil ki, ölkədə bütün insanların vəziyyəti yaxşıdır.
– Siz heç dünyada mənə bir ölkə göstərə bilərsinizmi ki, orada hamının vəziyyəti yaxşı olsun? Kiminin vəziyyəti yaxşı, kiminin də vəziyyəti pis olur, bu dünya belə gəlib, belə də gedəcək. Burada qəribə nə var ki?
– Yox, rəis, mən kiminsə maaşının az olmasından danışmıram, məni narahat edən ölkədəki qlobal məsələlərdir.
– Hansı qlobal məsələlər, ay Davud əmi, sən nəyi qoyub nəyi axtarırsan? – bu yerdə Ariz Davudu psixoloji təzyiqə məruz qoymaq üçün "sən" müraciət formasına keçid alır. – Fəhlə adamsan, sal aşağı başını, al maaşını, bundan sadə nə var ki?
– Xeyr, rəis, elə deyil, bu ölkə mənə ata-babamdan miras qalıb, məndən sonra da övladlarıma və nəvələrimə miras qalacaq. Mən onlara gözəl bir ölkə qoyub getməyin dərdindəyəm.
– Nə olub axı bizim ölkəyə? Məgər görmürsən, yollar salınır, körpülər tikilir, yeni hündürmərtəbəli binalar, məktəblər, məscidlər tikilir, parklar salınır. Ölkəmizin gündən-günə çiçəkləndiyini məgər görmək bu qədər çətindir?
– Rəis, dediyiniz şeyləri görmək üçün iki göz kifayət edər, dediklərinizi mən də görürəm, amma məsələ o deyil.

– Nədir bəs səni narahat edən məsələ? – Ariz sualı ciddi tonda verdi.

– Rəis, düzdür, şəhərdə hündürmərtəbəli binalar tikilir, amma içləri boşdur. Siz heç gecələr o binalara baxmısınız? Onların doxsan faizinin gecələr işıqları yanmır, deməli, onlarda yaşayanlar yoxdur. Bəli, yollar və körpülər salınır, amma o yollar və körpülərlə insanlar iş axtarmaq üçün sülənirlər, işə gedib-gəlmirlər. O yolların və körpülərin tikintisi hakim komandanın şirkətləri tərəfindən həyata keçirilir, dövlət büdcəsindən pul oğurlamaq üçün bunu edirlər. Bəli, yeni məktəblər tikilir, amma içində təhsil məhv edilib. Keçən il üçün universitetlərə keçid ballarına baxmısınız? Təhsilin səviyyəsini o qədər öldürüblər ki, şagirdlər keçid üçün yüz balı belə toplaya bilmirlər. Amerikada əqli zəif şagirdlərin yay tətili üçün nəzərdə tutulmuş "Curriculum" tədris metodunu bütün ölkəyə tətbiq ediblər, bunun nə ilə nəticələnəcəyini indidən düşünə bilirsiz? Bəli, yeni məscidlər tikilir, amma içində imanı xarab ediblər. Məscidlərdə xütbə verən imamlara hazır mətnlər verildiyini də bilmirsiz? Bəli, parklar salınır, düzdür, amma bu parklar insanları dolanışıqla təmin etmir. Ölkədə zavod və fabriklərin demək olar ki, heç olmamasını görmürsüz? Olanların da hansı komandaya məxsus olduğunu bilmirsiz? Sahibkarlığın ölkədə məhv edildiyini bilmirsiz? Bəli, yeni və yaraşıqlı məhkəmə binaları, zalları inşa edilir, amma içində ədalətin can verdiyini görmürsüz? Məhkəmələrin siyasi sifarişlə hökm verdiklərini də bilmirsiz? Axı ədalət mülkün təməlidir, ədalətin öldüyü bir məmləkətdə hansı mülkdən söhbət gedə bilər? Bütün bunlar məni bir Andaluniya vətəndaşı kimi narahat etməməlidir?

– Davud əmi, sən niyə bu qədər aqressivsən? Tutaq ki, elə dediklərinin hamısı düzdür, indi nə edək? Durub

üsyan edək? Dövlətə qarşı çıxaq?
– Xeyr, rəis, nə üsyan etmək lazımdır, nə də dövlətə qarşı çıxmaq. Bu dövlətin həqiqi sahibləri bizik, siz, mən, övladlarımız və digər Andaluniya vətəndaşları. Problem bizim dövlətimizdə deyil, problem bizim hakimiyyətimizdədir, dövlət və hakimiyyət başqa-başqa anlayışlardır. Ölkədəki bir az öncə saydığım problemləri məhz hakimiyyət yaradıb, öz səriştəsizliyi və acgözlüyü ilə. Onlar özlərini dövlət qulluqçusu yox, xan hesab edirlər. Bu problemlər də ölkədə fəsadların yaranmasına, artmasına səbəb olur.
– Hansı fəsadlardan danışırsan? Mən heç bir fəsad görmürəm.
– Hansı fəsadlar? Ölkədə narkomaniya tüğyan edir, nəinki rayonlarda, hətta Bakka kəndlərində narkomaniya geniş vüsət alıb. İndi hər on evdən beşinə bu bəla daxil olub. Gənclər, istedadlar və ailələr məhv olur. Neçə-neçə idmançı gəncin bu bəlaya düçar olaraq öldüyünü görmüşük, neçə-neçə ailənin bu bəla səbəbindən dağıldığına şahidlik etmişik...
– Davud əmi, heç kimə zorla götürüb narkotika vermirlər ki?! İnsanlar özləri könüllü onu qəbul edir, məncə, bir az şişirdirsən.
– Rəis, söhbət məcburiyyətdən getmir, bu zəhrimarı əlçatan ediblər ölkədə, hansı sosial şəbəkəyə daxil olursan, narkotika satışı elanları adamın gözünə girir. Məgər narkotika ticarəti qanunla qadağan deyil? Niyə onu satanlar həbs edilmir? Niyə bu işlərə göz yumulur? Heç özünüzə bu sualı vermisiz? Heçmi bu hal sizi düşündürmür, qayğılandırmır? Sizin övladlarınız üçün hazırlanmış bu bataqlıq heçmi sizi narahat etmir?
– Mənim övladlarım üçün narahat olma, onların qayğısını mən çəkəcəyəm. De görüm, sənin övladların bu bəlaya mübtəla olublarmı?

– Xeyr, çox şükür ki, xeyr.
– Yaxşı da, daha niyə səni bu məsələ narahat edir ki?!
– Rəis, bu bəla mənim övladlarıma hələ ki, birbaşa təsir etməyib, amma artıq bir neçə dəfə oğlumun həyətindən oğurluq baş verib.
– Bunun narkotika məsələsinə nə dəxli var ki?!
– Rəis, narkotikaya qurşananlar heç yanda işləmir, onlar növbəti dozanı almaq üçün həyətlərdən oğurluq edirlər, yəni bunu da bilmirsiz?
– Yaxşı, tutaq ki, narkotika bəlası ilə razılaşdım, amma bunun hakimiyyətlə nə əlaqəsi var?
– Əlaqəsi var, rəis, çox böyük əlaqəsi var! Əvvəllər narkotika ölkəyə xaricdən gəlirdi, onlar ölkəyə necə keçirdi?
– Yəqin ki, sərhəddən.
– Bəli, sərhəd xidməti, gömrük xidməti hara baxırdı? Heç bunu düşünmüsüz? İndi isə narkotikanı ölkədə istehsal edirlər, bəs ölkə daxilində bu işə kim nəzarət etməlidir?
– Polis, yəqin ki, polis və prokurorluq.
– Bəli, düzdür, rəis, polis və prokurorluq. Necə olur ki, birinin toyuğunu oğurlayanı bir neçə saata tapıb həbs edirlər, amma narkotikanın satışı açıq-aşkar şəkildə sosial şəbəkələrdə reallaşır? Yəni onları tapıb həbs etmək o qədər çətindir? Bəs niyə həbs etmirlər? Sizcə, polis və prokurorluq orqanları onları himayə etmirmi?
– Bir az qəliz sual oldu, amma razıyam ki, polis bu barədə bir tədbir görməlidir.
– Narkomaniya digər bir problemi də qabardıb. Əlbəttə, əvvəllər bu problem var idi, amma indi daha çox qabarıb.
– Hansı problem?
– Əxlaqsızlıq, narkotikaya pul tapa bilməyən qız və qadınların əxlaqsız yola düşməsini deyirəm, bilirsiz

heç reallıq nə vəziyyətdədir? Artıq məktəblərin önündə beş-altı dollara bu zəhrimar şagirdlərə satılır, universitetlərin qarşısında günəbaxan tumu kimi satırlar. Satıcılar heç bir qorxu-ürkü çəkmədən qiymət cədvəlini tələbələrə təqdim edirlər. Qız və qadınların bu bəlaya qurşanması isə vəziyyəti əməlli-başlı pisləşdirib.
– Əxlaqsızlıq hər bir ölkədə var, nə olsun ki?! – Ariz çiyinlərini çəkdi.
– Rəis, siz heç gecələr ərəb turistlərinin qaldığı otellərin qarşısına getmisiniz?
– Yox, mənim oralarda nə işim var?
– Baxın, mən bir neçə ay öncə, evdə qaldığım günlərimdə yaxınlıqda olan bir neçə otelin qarşısına getdim. Bilirsiz orada nə qədər qız-gəlin var idi. Narkomaniya bir yandan, işsizlik də bir yandan həmin qızlarımızı fahişəliyə sövq edir. Həmin qızların bir neçəsi ilə söhbət də etmişəm.
– Davud əmi, bu qoca yaşında da dinc dayanmırsan ha,
– Ariz gülümsədi.
– Rəis, məsələ o deyil, xahiş edirəm, vəziyyətin ciddiliyindən və dəhşətindən fikriniz yayınmasın, lütfən.
– Yox, yox, əsla! – Ariz özünü yığışdırıb ciddi görkəm aldı. – Buyur, davam elə.
– Söhbət etdiyim bir neçə qız mənimlə ağlayaraq danışırdı. Məlum oldu ki, onların çoxu polisin nəzarəti altında bu işlərə sövq edilirlər. Təsəvvür edirsiniz, qanunla qadağan olunmuş fahişəlik xidməti polisin nəzarəti altında baş verir. Bəziləri narkotika da satırdı, bu iş də polisin nəzarəti altında baş verir. Bir təsəvvür edin, 18-25 yaş arası qızları fahişəliyə sövq edirlər, onları ölkəyə gələn ərəb turistlərinə intim xidmət göstərməyə vadar edirlər. Bu sistemə daxil olan qızları isə çıxmağa qoymurlar. Heç bilirsiz ki, ölkədə hər həftə

nə qədər intihar hadisəsi qeydə alınır? Heç bilirsiz ki, həmin intiharların neçə faizini həmin qızlar edir?
– Niyə intihar edirlər ki?!
– Bəziləri həyatlarından iyrəndiklərinə görə, bəziləri isə ailələrinin onların əxlaqsız fəaliyyətindən xəbərdar olduqlarına görə. Heç bilirsiz bu sahədə vəziyyət necə vahiməlidir?
– Davud əmi, sən çox təhlükəli və qorxulu şeylərdən danışırsan, – Ariz artıq üzünü çevirib getmək, bu söhbəti bitirmək istəyirdi, – iş yeri bu cür söhbətlər üçün deyil. Biz bura bir parça çörəyimizi qazanmaq üçün gəlirik. Sənin dediklərin məni çox narahat etdi, indi anlayıram ki, niyə iş yoldaşların səndən gileylənirlər.
– Rəis, əslində sizi narahat edən mənim ağzımdan çıxan sözlər deyil, ölkədəki vahiməli durumdur. Bu da normaldır, ağlı başında olan insanı bu hal elə narahat etməlidir. Ölkədəki bu durum kimi narahat edirsə, onu təbrik etmək lazımdır, deməli, həmin şəxsin vicdanı hələ ölməyib.
– Yaxşı, Davud əmi, çox zilə qalxma. Sən dedin, mən də qulaq asdım. Məncə, ürəyini boşaltmaq üçün sənə kifayət qədər vaxt ayırdım, şərait yaratdım. Amma bu qədər yetər, bir problemi ki biz həll edə bilməyəcəyik, o problemlə insanları narahat etmək olmaz, bu yaxşı iş deyil. Gəl sən elə etmə ki, iş yoldaşların bir də səndən şikayət etsinlər, oldu?
– Necə yəni həll etmək mümkün deyil?! Mümkündür! Bu problemləri elə biz həll etməliyik! Biz təşkilatlanmalıyıq və ölkədəki qanunsuzluqlara qarşı birgə mübarizə...
– Davud əmi, – Ariz səsinin tonunu qaldıraraq onun sözünü kəsdi, – dedim axı, kifayətdir! Bura konfrans zalı deyil, qurultay deyil, bura bizim iş yerimizdir! Növbədən çıxandan sonra məhəllələndə kiminlə nədən istəyirsən danış, amma burada olmaz! Məncə, mən fikrimi kifayət

qədər aydın izah etdim. Gerisi isə sənlikdir, elə et ki, bir də səndən şikayət daxil olmasın. Sağ ol və çaya görə də təşəkkür!

Ariz emalatxananı tərk etdi, amma ora gedəndə olduğu hal ilə indiki halın arasında fərq var idi. Davuda üz vurmasa da, kişinin dedikləri onu narahat etməyə başlamışdı, axı eşitdiklərini inkar etməyə heç bir əsası yox idi.

Həmin gündən etibarən Ariz ətrafda və ölkədə baş verənlərə daha çox diqqət ayırmağa başladı. Sosial şəbəkələrdə daha çox əyləncə və səyahət səhifələri ilə kanallarını izləyirdi, siyasi və ictimai sahədə olan səhifə və kanallara o qədər də fikir vermirdi. Amma indi artıq o tip yazıları və videoları izləməyə başlamışdı. Bir neçə müddət izləyəndən və reallığı dərk edəndən sonra onu vahimə basmışdı, lakin heç nə edə bilməyəcəyi ilə barışıb bu işi tərk etdi. Yenə də əyləncə və səyahət mövzulu kontentləri izləməyə başladı. O, elə düşünürdü ki, problemləri inkar etmək, onlardan qaçmaqla hər şey düzələcək, amma tale ona gələcək üçün sürprizlər hazırlamışdı, sadəcə onun hələ bundan xəbəri yox idi.

Davudla söhbətdən sonra sakitlik idi, daha ondan şikayət yox idi, amma bu çox çəkmədi. Bir neçə aydan sonra müdiriyyətdən Arizə şikayət daxil oldu və Davudu işdən qovmaq qərarı verildi, Davuda bu qərarı onun rəisi kimi Ariz çatdırmalı idi. Bu necə də ağır bir tapşırıq idi, Ariz özünü əzilmiş, mənən çökmüş kimi hiss edirdi, amma başqa çıxış yolu da yox idi, bu iş onun üzərində idi. Ariz bu çətin söhbəti iki gün yubadaraq özündə güc topladı və emalatxanaya getdi. Davud orada idi, məngənədə bir metal detalı əyə ilə hamarlayırdı. O, Arizi görcək işini saxladı və onunla salamlaşdı.

– Salam rəis, xoş gəlmisiz! Necəsiz?

– Salam, Davud əmi, mən yaxşıyam, sən necəsən?

– Bu günümüzə şükür, rəis, təşəkkür edirəm. Əyləşin,

sizə bir çay süzüm.

Ariz Davudun hərəkətlərini izləyirdi, onun işdən xaric edilməsi barədə məktub onun cibində idi. Davud çayı süzüb gətirənə kimi Ariz məktubu cibindən çıxarıb masanın üzərinə qoydu. Davud xüsusi ədəb-ərkanla süzdüyü çayı Arizin qarşısına qoydu.

– Nuş olsun, rəis.

– Davud əmi, yadındadır, bir neçə ay öncə mən bura gəlmişdim və bizim aramızda bir söhbət olmuşdu, xatırlayırsan?

– Bəli, çox yaxşı xatırlayıram, necə məgər?

– Axı mən səndən xahiş etmişdim ki, daha iş yerində bu cür söhbətlər etməyəsən, düzdür?

– Bəli, - Davud qayğılı halda başını aşağı saldı, – xatırlayıram, rəis. Başa düşdüm, mən sözümü tutmamışam və yenə sizə şikayət daxil olub. Sözümü tutmadığıma görə mən sizdən üzr istəyirəm!

– Yox, Davud əmi, bu dəfə mənə heç bir şikayət daxil olmayıb.

– Doğrudan? – Davud sevincək gülümsədi və anidən ciddi görkəm aldı. – Bəs haradan bilirsiz? Yoxsa başqa adama şikayət daxil olub?

– Bəli, – Ariz sağ əlinin şəhadət barmağını yuxarı qaldıraraq dedi, – yuxarılara şikayət daxil olub, müdiriyyətə.

– Hə, bu pis oldu, bu qədərini gözləmirdim.

– Mən isə gözləyirdim, elə buna görə də keçən dəfə sənə tapşırdım ki, bir də burada belə söhbətlər etməyəsən! Artıq indi mən sənə heç cür kömək edə bilmərəm, sənin barəndə artıq müdiriyyət qərar verib. – Ariz məktubu Davuda tərəf uzatdı.

Davud məktubu götürdü, əlləri əsə-əsə onu açdı və oxumağa başladı. Bu, onun işdən xaric edilməsi barədə müdiriyyətin qərarı idi, bu, onun son növbəsi idi. Bu

növbədən çıxandan sonra artıq o, işə gələ bilməyəcəkdi. Davud qərarı oxuya-oxuya gözləri doldu, başı da əsməyə başladı. Qərarı oxuyub bitirən kimi onu qatladı, masanın üzərinə qoyub əlləri ilə gözlərini sildi. Stulun üzərində geri çəkilərək rahat əyləşdi, gözləri uzağa baxırdı, sanki dərin düşüncələrə qapılmışdı. Birdən irəli gələrək:

– Niyə? Niyə axı, niyə? Niyə insanlar problemlərə qarşı bu qədər biganədir? Axı mən nə deyirdim? Məgər mənim ölkə reallıqları barədə dediklərim yalan idi? Məgər mənim bu qoca yaşımda kor gözlərimlə gördüklərimi başqaları görmür? – Davudun səsi hər səslənən sualla yüksəlirdi.

– Davud əmi, bir az sakitləş, mən səni xəbərdar etmişdim. Ölkədəki problemləri bilirdinsə, iş yerində bu cür söhbətlər edənlərin də işdən qovulduqlarını bilməli idin! Mən səni keçən dəfə qorudum, xəbərdar etdim, sən isə qulaq asdın, amma eşitmədin. Bu da nəticəsi! Məncə, sənin üçün yeni bir şey olmadı.

– İlahi, ölkədəki problemlər yalnız mənimi qayğılandırır? Heçmi bu insanlar düşünmürlər?

– Davud əmi, dedim axı, sakitləş! Dur, bir stəkan su iç, bir az çölə çıx, hava al. İndi burada əsəbiləşməyin nəticəni dəyişməyəcək. Səhər sənin növbən bitir, get və əşyalarını yığ, sabah müəssisəni tərk edəndən sonra daha səni içəri buraxmayacaqlar.

Ariz sağ əlini Davudun çiyninə qoydu, sanki bununla ona ürək-dirək vermək istəyirdi, amma zavallı haradan biləydi ki, bu onların son görüşüdür. Ariz qalxıb emalatxananı tərk etdi. O, kabinetinə gedərkən yolda Davudun dolmuş gözlərini xatırlayaraq, ixtiyarsız şəkildə gözlərinin yaşardığını hiss etdi. Ariz qəlbinin dərinliyində Davuda qarşı haqsızlıq edildiyini dərk edirdi, amma ona kömək edə bilmirdi. Kabinetinin qapısına qədər bu düşüncələrlə gəldi, qapının qarşısında bir müddət durdu, sonra öz-

özünə "əşşi, mən ona xəbərdarlıq etmişdim!" – deyərək gözlərinin yaşını sildi, dərindən nəfəs alaraq kabinetinin qapısını açıb içəri daxil oldu.

Ertəsi gün Davud bütün əşyaları ilə birgə müəssisəni tərk etdi, adına olan alətləri Arizlə görüşməmək üçün baş ustaya təhvil vermişdi. Ariz onun bu əməlindən qəzəblənmişdi, düşündü ki, heç olmasa vidalaşmaq üçün gələ bilərdi, amma o, haradan biləydi ki, Davud onu utandırmamaq üçün onunla görüşməmişdi.

Müəssisədə bir neçə ay işlər öz yolu ilə getdi. Artıq Davudun gedişindən bir neçə ay keçmişdi. Ariz öz kabinetində yeni bir layihənin sənədlərini yoxlamaqla məşğul idi. Birdən onun şöbəsində işləyən usta kabinetə daxil oldu.

– Salam, rəis! Gəlmək olar?

– Salam! Əlbəttə, buyur.

– Rəis, bu gün işdən bir az tez çıxmağa bizə icazə verərsiz?

– Nə olub ki? Nə məsələdir?

– Heç, bizdə işləyən Davud əmi var idi, yadınızdadır?

– Bəli, yadımdadır. Görəsən, nə edir indi? Çoxdandır onu görmürəm. İşdən çıxanda da heç gəlib mənimlə vidalaşmadı, ondan bir az incik qalmışam. Nə olub ki?

– Heç, rəis, Davud vəfat edib, ailəsinə başsağlığı vermək üçün getmək istəyirik.

– Necə? Davud vəfat edib? Nədən?

– Eşitdiyimə görə ürəyi tutub, yəqin ki, infarkt...

– Ay da, yazıq Davud, əlli beş yaş nə yaşdır ki?

– Rəis, öz aramızda qalsın, eşitdiyimə görə, onun kürəkəni narkotikaya qurşanmışdı, Davudun qızı da ondan boşanmışdı. Amma o əbləh yenə onlardan əl çəkmirdi, elə hey qapılarına gəlib narkotika üçün pul tələb edirdi. Bir neçə dəfə Davudla əlbəyaxa da olmuşdular.

– Sən nə danışırsan? Nə narkotikası? Ciddi deyirsən?

– Rəis, vallah mən belə eşitmişəm, hələ iki ay öncə mən bu söz-söhbəti eşitmişəm. Nə qədər doğru olduğunu da bilmirəm. Elə getmişkən onu da öyrənərik. İstəyirsizsə siz də bizimlə gedə bilərsiz, mən onların evlərini tanıyıram, bir neçə dəfə onlarda olmuşam.

– Yox, mənim işlərim çoxdur, amma siz gedin, hamınız gedin, bu çətin məqamda onun ailəsini tək qoymaq olmaz. Bir dəqiqə gözlə, – Ariz cibindən bir neçə yüz dollar çıxardı, – al bunları, götür, Davudun yoldaşına verərsən, indi onlara dəstək olmaq lazımdır.

– Oldu, rəis, biz də bir az pul yığmışıq, bunları da qoyarıq onun üstünə və verərik evlərinə.

– Düz edirsiniz, yaxşı, siz yubanmayın, gedin. Mənim adımdan başsağlığı verməyi də unutmayın, adımdan üzrxahlıq edərsiniz.

– Oldu, rəis, arxayın olun, – usta sağollaşaraq kabineti tərk etdi.

Ariz eşitdiklərindən şoka düşmüşdü, görəsən, Davudun kürəkəninin narkotikaya qurşanma söhbəti düzmü idi, yoxsa sadəcə şayiədir. Yazıq Davud, axı o, narkotikanın necə bir bəla olduğu haqda Arizlə söhbətində demişdi. Ariz hələlik səbir etmək və işçilərin oradan qayıtmasını gözləmək qərarına gəldi.

Ertəsi gün işçilər emalatxanaya daxil olan kimi Ariz özünü oraya çatdırdı və onlardan Davudun ölüm səbəbi haqqında məlumat aldı. Deyilənlər düz idi, Davudun kürəkəni narkotikaya qurşanmış, pul tapa bilmədiyi üçün öz həyat yoldaşını döyərək otellərin qarşısına gedib pul qazanmağa məcbur edirdi, həyat yoldaşı da bu yola getməyərək ondan boşanmışdı. Davudun isə bu yaşında bu dərdə dözməyərək ürəyi partlamışdı. “Yazıq Davud, – deyə Ariz fikirləşirdi, – deməli, qorxduğun şey başına gəldi, heyif səndən!”

Davudun ölümündən sonra Ariz ölkədəki vəziyyət

haqqında yenidən düşünməyə başlamışdı. O, ölkədəki vəziyyət haqqında müxtəlif jurnalist araşdırmalarını, politoloqların təhlillərini və siyasətçilərin fikirlərini öyrənməyə başladı. O, bir neçə YouTube kanalına da abunə olmuşdu və mütəmadi olaraq onları izləyirdi. Həmin kanalların sahibləri və aparıcıları müxtəlif Avropa ölkələrinə hicrət etmiş və əvvəllər məhbəs həyatı yaşamış siyasi mühacirlər idi.

Ariz bu işə o qədər aludə olmuşdu ki, evə çatan kimi sosial şəbəkələrdəki xəbərləri izləməyə başlayırdı. Adətən o, öz otağında, sakitlikdə oturub bunu edirdi. Bir gün o, yenidən bu işlə məşğul idi, tam sakitlikdə xəbərləri oxuyurdu. Birdən evin divarının o biri tərəfindən ucadan səslər eşidilməyə başladı. Sanki bir neçə nəfər eyni vaxtda qışqıraraq danışırdı. Bu, Arizin fikrini yayındırdı, o, diqqətlə qulaq asmağa başladı. Ariz sözləri başa düşməsə də, qışqırıqları və arada şüşə qırılmasının səsini eşitdi. O, cəld yerindən qalxdı və divara tərəf yaxınlaşdı, amma nə qədər etsə də, yenə heç nə başa düşmədi.

Ariz tez qapıya qaçdı və qapının gözlüyündən bayıra baxmağa başladı. Birdən qonşunun qapısı açıldı, qonşunun Sona adlı qızı ağlayaraq evdən çıxdı və pilləkənlərlə üzü aşağı düşdü. Sonanın arxasınca onun atası Əkbər çıxdı və onu söyməyə başladı. Əkbərin səsinə onun həyat yoldaşı da qapıya çıxdı, Ariz onun da ağladığını gördü. Əkbər hirsli şəkildə həyat yoldaşını evə daxil etdi və qapını hirslə çırparaq bağladı.

Ariz gördüklərindən dəhşətə gəlmişdi, axı bütün bunlar niyə baş verirdi? Ariz Əkbəri qanacaqlı və qabiliyyətli bir adam kimi tanıyırdı, onun qızı Sona da binalarında qabiliyyətinə görə fərqlənən qız idi. Sona həm də ağıllı qız idi, universitetin üçüncü kursunda oxuyurdu, axı nə səbəbə atası onunla bu cür rəftar etməli idi?

Bu hadisə Arizi bərk narahat etdi. Tez əynini geyinərək

mənzildən çıxdı və həyətə düşdü. Həyətdə onun gözləri Sonanı axtarırdı. Birdən onun həyətdə, skamya üzərində oturduğunu gördü. Tez ona yaxınlaşdı, Sona onu görmürdü, o, ağlayır və göz yaşlarını silirdi. Ariz onun diqqətini cəlb etmək üçün yüngülcə öskürdü. Sona başını qaldırıb, ağlamaqdan qızarmış gözləri ilə Arizə baxdı.

– Salam, Sona! Nə olub, niyə ağlayırsan? Kimsə xətrinə dəyib? Nəsə problemin var? – Ariz sualları dalbadal, birnəfəsə verirdi.

– Heç nə olmayıb, get burdan, məni tək burax! – Sona daha da şiddətlə ağlamağa başladı.

– Sona, sən axı ağıllı qızsan, mən də sənin xətrini dünyalar qədər istəyirəm. Nəsə bir problemin varsa, mənə deyə bilərsən, söz verirəm, mən sənə kömək edəcəm.

– Get burdan, istəmirəm, mən səndən heç nə istəmirəm, məni tək burax, eşitmirsən?

Sona dərhal skamyadan qalxdı, üzünü çevirərək binaya tərəf getdi. Ariz mat-məəttəl halda onun ardınca baxa-baxa qaldı. O, skamyada əyləşib sakitləşmək istəyirdi, amma Sonanın halı da ona rahatlıq vermirdi. Ariz qalxıb binaya tərəf getdi.

Pilləkənlərlə öz mərtəbəsinə qalxdı, o, altımərtəbəli binanın üçüncü mərtəbəsində qalırdı. Qapısının önündə dayanıb mənzilinin açarlarını çıxardı, açarı kilidin yuvasına daxil edib bir anlıq düşündü. Açarı çıxarıb geriyə döndü, Əkbərin evinin qapısını döydü. Bir neçə saniyədən sonra qapını Əkbər açdı.

– Salam, Əkbər! Necəsən?

– Sağ ol, Ariz, buyur, nə lazımdır? – Əkbər əsəbi halda soruşdu.

– Əkbər, bayaq səsiniz gəlirdi, bir qonşu kimi nigaran qaldım, mən sizə necə kömək edə bilərəm?

– Əşşi, adam ələ salmısan? Nə kömək? Bu dəqiqə heç

mən özüm özümə kömək edə bilmirəm! Get işinlə məşğul ol! – Əkbər qapını Arizin üzünə çırparaq bağladı.

Ariz yerində donmuşdu, Əkbərdən bu vaxta qədər görmədiyi rəftarı görürdü. İlahi, axı nə baş verirdi, niyə axı Əkbər kimi qabiliyyətli, qanacaqlı bir kişi özünü belə aparırdı. Ariz başını aşağı salıb fikrə getmişdi. Birdən çöldən, binanın qarşısından qışqırtı səsləri gəlməyə başladı. Ariz tez pilləkənlərlə aşağı enərək çölə çıxdı.

Binanın qarşısına xeyli insan toplaşmışdı və hamı yuxarı baxaraq qışqırırdı. Ariz binanın girişindən bir az uzaqlaşaraq geri döndü və başını qaldıraraq yuxarı baxdı. İlahi, Sona binanın damına çıxmışdı, o, damın kənarında dayanaraq qollarını yana açmışdı, sanki uçuşa hazırlaşan quş kimi gözlərini yumaraq özünü damdan atmağa hazırlaşırdı.

Ariz sanki bir yuxu görürdü, ilahi, bu nə mənzərə idi? Ariz cəld oradakı uşaqların birini Əkbəri çağırmağa göndərdi. Ariz gözlərini Sonadan çəkə bilmirdi, qorxudan onun bədəni əsirdi. Ətrafındakı insanların çığırtıları isə bu vahiməni daha da artırırdı. Birdən Ariz də ixtiyarsız şəkildə onlarla birgə qışqırmağa başladı:

– Sona! Sona, eşidirsən? Sona, bütün problemləri həll etmək olar, eşidirsən, özünə qıyma, Sona! Sona, mənə bax, Sona, intihar çıxış yolu deyil, Sona, özünü atma, Sona!

Birdən Sona pərvaz edən bir quş kimi özünü qabağa verərək damdan aşağı tullandı. Onun tullanışı ilə qışqırtılar birə-beş şiddətləndi. Sona cəmi bir neçə saniyə ərzində üzü aşağı uçaraq şappıltı ilə yerə dəydi, şap!..

## Oyanış!..

Bu şappıltı səsi sanki Arizin daxili dünyasını sarsıtdı, o, qızdırmalı adam kimi titrəməyə başladı, artıq ətrafdakı səsləri eşitmirdi. Bir neçə il öncə həyətdə onun qızı ilə

oynayan, atası ilə ona termosda çay gətirən, ağıllı və gülərüz Sona şappıltı ilə yerə dəyərək ölmüşdü. Arizin başı hərlənirdi, sanki qulaqları tutulmuşdu, heç nə eşitmirdi, gözləri qaralırdı. Birdən binanın qapısında Əkbər göründü, o, Sonanın meyitinə yaxınlaşdı, bir neçə saniyə baxaraq meyitə tüpürdü və evinə tərəf getdi.

Ariz divara söykənib oturmuş və yerdə başının altından qan axan Sonanın meyitinə baxırdı. Ətrafdakı insanların səs-küyü, ağlaşması, Sonanın anasının fəryadını isə heç eşitmirdi. Sonanın intiharından sonra oradakı izdiham beş dəfə azalmışdı, yalnız bir neçə qonşu və Sonanın anası orada idi. Amma bu dəqiqə onun beynini məşğul edən başqa şeylər idi. O, öz-özünə ardıcıl suallar verirdi. Sona niyə intihar etdi? Hansı səbəblər onu intihara təhrik etdi? Niyə evlərində səs-küy var idi? Niyə Əkbər öz qızının meyitinə tüpürdü? Niyə insanlar bu məsələyə bu qədər biganə yanaşırlar? Niyə Sonanın intiharından sonra hamı oranı tərk etdi? İnsanın dəyəri cəmiyyətimizdə bu qədərmi ucuzdur?

Ardı-arası kəsilməyən sonsuz suallar sanki Arizi reallıqdan uzaqlaşdırmışdı, ətrafda baş verənləri sönük baxışlarla izləyir, amma dərk etmirdi. Birdən hadisə yerinə gələn təcili tibbi yardım maşınının sirena səsi onu reallığa qaytardı. Həkim heyəti maşından düşərək meyitə yaxınlaşdılar, baxış keçirməyə başladılar. Bir azdan polis də hadisə yerinə gəldi. Onlar da həm hadisə yerinə, həm də meyitə baxış keçirdilər. Sonra Sonanın meyitini təcili tibbi yardım maşınına qoyub apardılar. Ariz bir xeyli maşının arxasınca baxdı, sanki uzaq xəyallara dalmışdı.

Ariz gecəni yata bilmədi, elə hey evdə o yan-bu yana var-gəl edirdi. Binanın qarşısında özünə verdiyi suallar onu rahat buraxmırdı. Səhər işə getməli idi, yuxusuz gecədən sonra işləyə bilməyəcəyini də yaxşı dərk edirdi. Odur ki, müdirinə mesaj yazıb səhərə icazə aldı. Suallar ona

yatmağa imkan vermirdi. Səbirsizliklə səhərin açılmasını və bu məsələni araşdırmağa başlamaq istəyirdi. Kresloda oturaraq bu barədə fikirləşərkən yuxuya getdi.

Səhər yuxudan ayılanda artıq saat on idi. Həyat yoldaşı Yeganə və qızı Nərmin hələ də yatırdı. Tez qalxdı, əl-üzünü yuyaraq həyətə endi. Hadisə yerinə yaxınlaşdı, oranı lent ilə mühasirəyə almışdılar, asfaltın üzərində tabaşirlə Sonanın bədəninin konturları çəkilmişdi. Ariz ürək ağrıdan bu mənzərəyə bir xeyli tamaşa etdi, dünənki sualları xatırlamağa çalışırdı. Hə, indi o, həmin sualları xatırlayırdı. Dərhal bu intiharın səbəbini araşdırmalı idi.

Ariz ətrafa boylandı, bu barədə sual vermək üçün nəzərləri ilə kimisə axtarmağa başladı. Birdən eyni binada yaşayan bir neçə yeniyetmənin bir kənarda toplaşdığını gördü. Ariz onlara tərəf getməyə başladı. Yeniyetmələrin toplaşaraq mobil telefonda nəyəsə baxdıqlarını gördü. Onların arasında belə bir dialoqu eşitdi.

– Ay da, bu da bu!..

– Gör bir nə edir?

– Ayıb olsun! Sonra da ata deyir ki, qızım var.

– Belə qıza elə tüpürərlər də.

Ariz söhbətin Sona barədə getdiyini ehtimal edərək bir az da onlara yaxınlaşdı. Yeniyetmələrdən biri Arizi görən kimi digərlərinə işarə etdi, tez telefonu yığışdırdılar.

– Ariz əmi, salam, – yeniyetmələrdən biri Arizi salamladı. Yaş fərqinə görə ona əmi deyə müraciət edirdilər.

– Salam, uşaqlar! Hə, necəsiz?

– Yaxşıyıq, Ariz əmi, siz necəsiz?

– Mən də yaxşıyam. Deyin görüm, dünənki hadisə sizi sarsıtmayıb?

– Hansı hadisə? Sonanın intiharını deyirsiz?

– Bəli, başqa hansı hadisə olacaq ki? Başqa nə isə yenə baş verib?

– Yox, biz heç nə bilmirik! – yeniyetmələr şübhəli şəkildə

bir-birlərinə baxdılar.

– Heyif Sonaya! Yaxşı qız idi, ağıllı-kamallı, qanacaqlı-qabiliyyətli, əxlaqlı-tərbiyəli, heyif ona!

– Hə, həri, çox da əxlaqlı idi, – yeniyetmələrdən əlində telefon olanı ağzını büzərək cavab verdi.

Bütün bu şübhəli baxışlar və replikalar Arizin diqqətindən yayınmırdı, o, uşaqları ürkütməmək üçün hələ ki, sadəcə üstünü vurmurdu. Onu əsas maraqlandıran telefonun sahibi idi, Ariz telefonda Sona ilə bağlı hansısa məlumatın olduğuna əmin idi. Onun əminliyi uşaqların şübhəli davranışları sayəsində daha da artmışdı. Ariz əlini telefonu olan yeniyetmənin çiyninə qoyub dedi:

– Səninlə təklikdə işim var, mənə vaxt ayıra bilərsən?

– Mənimlə? Mən nə etmişəm ki?!

– Heç nə etməmisən. Niyə qorxursan, sadəcə söhbətim var, olar?

– Bəli, Ariz əmi, qulluğunuzdayam.

– Sağ olun, Ariz əmi, onda biz gedək, sizə mane olmayaq, – digər yeniyetmələr oradan uzaqlaşdılar.

Ariz söhbətə haradan başlayacağını bilmirdi, yeniyetməni qorxutmaq və ya ürkütmək də istəmirdi. Ehmallıca mövzuya giriş etmək və maksimum dərəcədə məlumat almaq istəyirdi.

– Sonanın intiharı məni çox sarsıdıb, yəqin ki, sizlər də sarsılmısız.

– Belə də, intihar etməsəydi daha yaxşı olardı, amma bəzən çıxış yolu da elə intihar olur.

– Necə yəni? – Ariz eşitdiklərindən sarsılmışdı və daha çox məlumat almaq istəyirdi.

– Ariz əmi, bəzən insan elədiyi işə görə məsuliyyət daşımalıdır, düzdür?

– Bəzən niyə, insan elə həmişə əməllərinə görə məsuliyyət daşımalıdır!

– Yox, mən demək istədim ki, elə əməllər də olur ki,

onların məsuliyyəti lap çox olur.
– Ola bilər, məsələn, hansı əməllər ola bilər?
– Nə bilim, hər hansısa.
– Axı hansı əməlin məsuliyyəti intihar qədər ola bilər? – Ariz artıq kəşfiyyat xarakterli suallar verirdi.
– Nə bilim, məsələn, namus xarakterli pis bir əməl və ya əxlaq cəhətdən ayıb sayıla biləcək əməl.
– Bizim mövzumuz Sonanın intiharıdır! – Ariz artıq hücuma keçir. – Sonanın hansı əməli olub ki, intihara aparıb çıxarsın?
– Görürəm ki, sizin heç nədən xəbəriniz yoxdur. Bir-iki gün səbir edin, sizin də xəbəriniz olacaq. Arada sosial şəbəkələrə də baxın, məsləhətdir, – yeniyetmə oradan uzaqlaşmaq istədi.
– Bir dəqiqə dayan! – Ariz onun əlindən tutdu. – Sən nə isə bilirsən! Nə baş verib? Telefonunda nə var ki, ona baxıb müzakirə edirdiniz?
– Telefonumda heç nə yoxdur! – yeniyetmə təlaş keçirməyə başlamışdı. – Buraxın əlimi, mən evə gedirəm!
– Bir dəqiqə dayan dedim sənə! Telefonunu bura ver! Görüm axı sən nə bilirsən ki, Sona kimi əxlaqlı qız haqqında belə danışırsan!
– Ariz əmi, aramızda yaş fərqi var, ayıbdır, xahiş edirəm, əlimi buraxın, mən getmək istəyirəm.
– Yox! Buraxmayacağam! Bildiklərini mənə deməlisən və telefonundakını mənə göstərməlisən! Tez!
– Ariz əmi, siz başa düşmürsüz, elə şeylər var ki... Bilirsiz, axı mən utanıram. Mən onu sizə göstərə bilmərəm! Əlimi buraxın, mən gedim!
– Mən səni başa düşürəm, əgər göstərə bilmirsənsə, onda mən sənə telefon nömrəmi verim, onu göndər mənə, mən sonra təklikdə baxaram. Razılaşdıq?
– Siz nömrənizi mənə deyin, mən bir azdan onu sizə

göndərərəm.

– Yox, bir azdan yox, elə indi!

Ariz yeniyetməni uzaqlaşmağa qoymadı, nömrəsini ona dedi və o da ona bir video göndərdi.

– Ariz əmi, çox xahiş edirəm, atama deməyəsiz, yoxsa məni öldürər!

– Narahat olma, birincisi ona demərəm, ikincisi də o, atandır, səni niyə öldürsün ki?! İndi gedə bilərsən.

Yeniyetmə oradan uzaqlaşdı. Ariz tez telefonunu açdı, videonu yükləməyə qoydu, irihəcmli bir video idi, bir müddət gözləməli olacaqdı. O, tez mənzilə qalxaraq bir qəhvə hazırladı. Yuxusuz gecədən sonra bir az kofeinə ehtiyacı vardı. Yeniyetmə ilə söhbətdə əsəblərinə hakim ola bilməmişdi.

Qəhvəni hazırlayıb kresloda əyləşdi, telefonunu açdı, video hələ tam yüklənməmişdi. Ariz nigaran idi, yeniyetmənin niyə bu cür danışdığını anlamağa çalışırdı. Bir neçə qurtum qəhvədən içdi, video artıq yüklənmişdi. Ariz videonu açdı və baxmağa başladı. Sadə və səliqəli bir otaq görürdü, deyəsən, otel otağı idi, bir oğlan göründü, geyimindən ərəb turistinə oxşayırdı. Birdən bir qız da peyda oldu, arxası kameraya olduğundan hələ üzü görünmürdü. Oğlan əynini soyundu, ardınca qız da soyundu. Qız çarpayıya uzanmaq üçün üzünü kameraya tərəf çevirdikdə Ariz onu tanıdı, bu Sona idi! İlahi! Bu nə səhnələr idi, onlar çarpayıya uzanıb qeyri-əxlaqi işlərlə məşğul idilər. Arizin əlləri əsməyə başladı, fincanını saxlaya bilməyib yerə buraxdı. Aman Tanrım! Bu nə səhnələr idi, Arizin gicgahları sıxılmağa başladı, ürəyi bulandı. Telefonu stolun üstünə qoyub hamama qaçdı. Gördükləri onun acından boş olan mədəsini bulandırmışdı. Bir neçə dəfə öyüyəndən sonra əl-üzünü yudu. Güzgü qarşısında bir az özünə baxdı, üz cizgilərində dəyişikliyi seyr etdi. Çox gərgin və yorğun görünürdü. Hələ də gördüklərindən özünə gəlməmişdi.

Bir az sonra geri qayıtdı və videonu axıradək izlədi. Orada gördüklərindən çox pis olmuşdu, amma bunun niyə baş verdiyini bilmirdi. İndi artıq onun beynində başqa suallar yaranmışdı. Görəsən, videogörüntüdəki həqiqətən də Sona idi, yoxsa yox? Bu videonu kim və nəyə görə çəkmişdi? Əgər videodakı həqiqətən də Sona idisə, onu bu işə vadar edən nə idi?

Arizin ac olmasına baxmayaraq, heç iştahası da yox idi. O, tez bir zamanda onu narahat edən suallara cavab tapmalı idi. Yenidən aşağı, həyətə düşdü, o, ümid edirdi ki, öz suallarına cavab tapacaq.

Həyətə düşən kimi o, ətrafa boylandı. Qonşu blokun qarşısında bir neçə kişinin bir yerə yığışaraq söhbət etdiyini gördü. Ehmallıca onlara yaxınlaşaraq salamlaşdı.

– Salam, qonşular! Necəsiz?

– Salam, Ariz! – qonşuların hamısı Arizin salamını aldı.

– Dünənki hadisədən sonra buralar necə də sakitdir. Sanki heç dünən burada intihar olmayıb.

– Bəli, sakitlikdir, – Arizlə eyni blokda yaşayan Sərvər adlı qonşusu təsdiqlədi.

– Sadəcə məni narahat edən sual intiharın səbəbidir. Görəsən, niyə yazıq qız intihar etdi? – Ariz həqiqəti bildiyi üçün ehtiyatla soruşdu.

– Hə, bilirəm, sən bütün günü işdə olursan deyən baş verənlərdən xəbərin yoxdur.

– Nə isə baş verib ki, Sərvər?

– Doğrudan xəbərin yoxdur ki?! Bilmirsən nə olub?

– Yox, haradan bilim? Bayaq özün dedin ki, hər gün işdə oluram, heç dünyadan xəbərim yoxdur.

– Əkbərin qızının internetdə bir videosu yayıldı, Sonanın. Bir ərəb turisti ilə qeyri-əxlaqi hərəkətlər edirdi. Bundan da xəbərin yoxdur? Həmin videonu görməmisən?

– Yox, Sərvər, görməmişəm, – Ariz yalan dediyini bildiyi

üçün udqunaraq cavab verdi. – Sən nə danışırsan? Axı o qız qanacaqlı və tərbiyəli qız idi. Niyə o belə şey etsin ki? Bəlkə yalandır, bəlkə videodakı başqa adam olub?
– Sən nə danışırsan, ay Ariz? Ərəb həmin videonu öz facebook səhifəsində paylaşıb, Sonanın adını da yazmışdı, hamı onu görən kimi tanımışdı, şərhlərdə hamı Sonanın adını qeyd edirdi.
– Bu nə vaxt olub? Nə vaxt baş verib bunların hamısı?
– Bilmirik, ərəb videonu iki gün əvvəl yerləşdirib, ingiliscə də yazıb ki, Bakkadakı səyahətini maraqlı edən Sonaya minnətdarlıq edir. Orada yerləşdirilən video tamdır, yalnız o videonun bir hissəsi, qısa versiyası telefonlarda gəzir. Tam video qırx beş dəqiqəyə yaxındır, tammetrajlı pornofilm kimi. Əməlli-başlı min oyundan çıxırlar, – Sərvər gülməyə başlayır, digər kişilər də ona qoşulurlar.
– Yaxşı, bəsdirin! – Ariz onlara iradını bildirdi. – Burada bir insanlıq, bir ailə faciəsi baş verib, siz isə gülürsüz. Heç sizə yaraşdırmadım!
– Nə olub? Niyə acığına gəlir ki? Canı çıxıb belə işlərə qoşulmazdı, indi də zibili çıxmazdı, – Sərvər dedi.
– Bu məsələdə hələ araşdırılası bir çox məqam var! Məsələn, Sonanı bu işə təhrik edən nə idi? Niyə bu ərəb həmin görüşü videoya çəkib yaymalı idi? Niyə bu hadisənin sonluğu intiharla nəticələnməli idi?
– Ariz, sən də elə danışırsan ki, guya doğrudan da dünyadan xəbərin yoxdur. Hamısı Əkbərin biqeyrətliyindən baş verdi!
– Necə yəni? – Ariz təəccübləndi.
– Necə yəni necə? İş yox, güc yox, oturub evdə, qız da universitetdə oxuyur, ödənişli əsaslarla. İş-güc olmayandan sonra bu təhsil haqqını kim ödəməlidir, necə ödəməlidir? Qız da guya hansısa restoranda işə düzəlibmiş və orada işləyib pul qazanırmış, həm ailəsini saxlayırmış, həm də təhsil haqqını ödəyirmiş. Əkbər də

özünü qoymuşdu gicliyə, guya xəbəri yox idi. Hələ bir neçə ay öncə ona deyilmişdi ki, qızının otellərin birinin qarşısında durduğunu görüblər, gör heç vecinə idi? İndi asqırıb ayılıb ki, qızı ərəb turistlərinə pul müqabilində intim xidmət göstərirmiş. Belə də şərəfsiz ata olar?
– Bir dəqiqə, Əkbərin bunu bildiyinə necə əmin oldun ki?
– Ay qardaş, bir ataya desinlər ki, qızın otellərin qarşısında sülənir, o da gedib araşdırmasın, bir maraqlanmasın? Onda bu lap şərəfsizin yekəsidir ki.
– Bir dəqiqə! – Arizin cavab verməyə arqumenti yox idi, sadəcə daha çox məlumat almaq istəyirdi. – Sonanı hansı otelin qarşısında görüblər?
– Şəhərdə, "Bakka küləyi" otelinin qarşısında, dəniz kənarında var ha, bax onun qarşısında.
– O ki daxili işlər nazirinə məxsusdur, bildiyimə görə. Yəni həmin oteldə belə işlər baş verir?
– Eh, rəhmətliyin oğlu, bu xarabada narkotika və fahişəliyə elə onlar nəzarət edir də. Sən də nəyi qoyub nəyi axtarırsan.
– Yaxşı, bəs niyə o intihar etsin ki?!
– Bəs nə etməli idi ki?! Qonşuların dediyinə görə, keçmiş iş yoldaşlarından biri həmin videonu Əkbərə göndərib, guya bilmirmiş ki, videodakı onun qızıdır. Əkbər də videonu görüb əsəbiləşmişdi, Sonaya zəng edib təcili evə gəlməsini tələb etmişdi. Sona da evə gələn kimi evdə qırğın düşmüşdü. Əkbər əlinə bıçaq götürüb qızına "bu qələti ancaq qanla yumaq olar, məni zibilə salma, get özünü as!" deyib. Qız da çıxıb özünü damdan aşağı atıb. Vəssalam! Burada qəribə nə var ki?! Sona nə birinci, nə də sonuncudur, heç bilirsən hər ay nə qədər belə intihar hadisələri olur? Öyrəşmək lazımdır, reallığı qəbul etmək lazımdır.
Ariz Sərvərin bu cür münasibətindən narahat

olmuşdu. Necə yəni öyrəşmək lazımdır? Necə yəni burada qəribə nə var ki? Sərvəri və orada dayanıb gülüşənləri acılamamaq üçün tez sağollaşaraq oranı tərk edib evə getdi. Yolda isə özlüyündə insanlığın bu həddə qədər pozulub geriləməsini lənətləyirdi.

Artıq Yeganə və Nərmin yuxudan ayılmışdılar. Günorta vaxtı olduğundan Yeganə yemək hazırlayırdı. Nərmin isə divanda oturub cizgi filminə baxırdı. Mövsümlərarası tətil olduğundan dərsə getmir, amma ağıllı qızlar kimi dərslərini təkrarlayırdı. Ariz evə daxil olub qızını öpərək qucaqladı.

– Ay mənim ağıllı qızım! Necəsən?

– Yaxşıyam, ata, sən necəsən? – Nərmin özünə məxsus şirinliklə atasına cavab verdi.

– Çox sağ ol, mənim ağıllı qızım. Dərslərini təkrarlayırsan? Əhsən sənə! Oxu, oxu ki, bəlkə sizin nəsil bizim xalqı bu zülmətlərdən nura çıxara bildi.

Ariz sakitcə mətbəxə keçdi, Yeganəni sobanın qarşısında görüb ona gülümsədi.

– Sabahın xeyir, canim, necəsən? Necə yatmısan?

– Ariz, dünənki dəhşətdən sonra heç də yaxşı yata bilməmişəm. Bilirəm, görürdüm, sən də yata bilmədin. Heç bilirsən niyə belə olub? Vay-vay, qızın əxlaqsız bir videosu yayılıb, atası da xəbər tutub, dəhşət!

– Bilirəm, xəbərim var.

– Videonu da görmüsən? Var səndə? Baxmaq olar?

– Yox, yoxdur! Nəyinə lazımdır axı?

– Yox e, sadəcə baxım, görüm ki, həqiqətən videodakı Sonadır, yoxsa yox. Qonşularda olmalıdır, istəyirsən, deyim göndərsinlər mənə?

– Yox, dedim ki lazım deyil! Atası baxıb da, ondan yaxşı tanıyacaqsan onun qızını? Lazım deyil!

– Yaxşı, hirslənmə, əyləş, bir az yemək yeyərsən. Bilirəm, bu dəhşətli hadisə səni də sarsıdıb, lap əldən düşmüsən, əyləş, bir tikə çörək ye.

Əslində Arizin heç iştahası yox idi, amma etika xətrinə əyləşib ailəsi ilə bir tikə yemək yedi. Yeməyini bitirən kimi kompüterinin arxasına keçdi. Sərvərin son sözləri onu rahat buraxmırdı. Tez internetdə axtarış edib intihar hadisələrini araşdırmaq istəyirdi. O, axtarış yerinə “qız intihar” yazdı, axtarış filtrlərini son bir ay üçün tənzimlədi və nəticələrə baxmağa başladı. İlk qarşısına çıxan məqalə Sonanın intiharı haqqında idi. Jurnalistlər nə vaxt gəlib bu məsələni araşdırdılar ki?! Məhəllədə Sərvərin dediklərinin hamısı məqalədə öz əksini tapmışdı. Ərəb turisti, intim görüntülər olan video, Əkbərin adı və s. məlumatlar məqalədə əks olunmuşdu.

Ariz bir az da araşdırmaya davam etdi və məlum oldu ki, son bir ay ərzində iyirmi birinci intihar hadisəsidir, onlardan on səkkizi Bakka şəhərində, digər üçü isə rayonlarda baş vermişdi, bu yalnız qızların intiharı idi. “İlahi, bu ölkədə nələr baş verir? Bu qədər intihar olar?!” – deyə Ariz düşünməyə başladı. Heç də xoş olmayan araşdırmanın nəticəsində Arizin qolları yanına düşdü. O, nə baş verdiyini hələ də dərk etmirdi. O, kresloya söykənərək dərindən bir ah çəkdi. Əynini geyinərək tez həyətə düşdü, maşına əyləşərək şəhər mərkəzinə, “Bakka küləyi” otelinin qarşısına getdi.

Otelin qarşısına çataraq oranı nəzərdən keçirdi, sonra maşınını bir kənarda, təxminən iki yüz metr aralıda saxladı. Maşından düşərək otelin qarşısına gəldi. Orada bir neçə qıza gözü sataşdı, onların əynində açıq-saçıq və cəlbedici geyimlər var idi. Gözləri sağa-sola qaynayırdı, Ariz onlara necə yaxınlaşacağını düşünürdü ki, birdən arxadan onu haylayan səs düşüncələrini yarımçıq qoydu.

– Salam, qaqaş! – Ariz geri dönüb baxanda açıq-saçıq geyinmiş bir qız gördü.

– Salam, xanım! – Ariz onu təpədən dırnağadək baxışları ilə süzdü.

– Hə, nədir, özünə yar axtarırsan? Mən hazır!
– Nə? Nə yar?
– Başa düşmədim, bəs bura niyə gəlmisən? Yerli ola-ola oteldə qalmaq fikrin ki yoxdur?! Yoxsa oteldə qalmaq üçün gəlmisən?
– Nə, nə oteli, yox.
– Yaxşı da, bəs mən də deyirəm özünə yar axtarmağa gəlmisən? Bəlkə mən xoşuna gəlmirəm? İstəyirsən oradakı qızları da çağırım?
– Yox-yox, heç kimi çağırmayın, mən sadəcə hələ baxıram.
– Bəlkə kimisə axtarırsan? Mən sənə kömək edə bilərəm, sən mənə öz zövqünü de, necə birini xoşlayırsan? Qara saç, yoxsa sarı saç? Hündür, yoxsa balaca boy? Şəhərli olsun, yoxsa hansısa rayondan? Hə, utanma, de!
– Yox-yox, siz məni düzgün anlamadınız. Mən konkret bir nəfəri axtarıram.
– Ooo, kimdir o bəxtəvər? – qız əlini Arizin çiyninə qoyaraq ətrafında bir dəfə dövr edərək dedi. – Sənin kimi kişini bizdən oğurlayan o canıyanmış kimdir elə?
– Sən bu oteldə xidmət göstərən hamını tanıyırsan? – səmimiyyəti artırmaq üçün Ariz onunla “sən”ə keçir.
– Bəli, sən onun adını mənə de, zəng edim, gəlsin bura, biz paxıl deyilik. Hə, kimdir o?
– Adı Sonadır, tanıyırsan onu?
– Nə, Sona? – qızın üz ifadəsi kəskin şəkildə dəyişdi və bir neçə addım geri çəkildi. – Nə edirsən Sonanı? – təlaşlı səslə soruşdu.
– Heç, keçən dəfə onunla görüşmüşdüm, de görüm onu tanıyırsan, tapa bilərsən onu? – Ariz qızı şübhələndirməmək üçün belə cavab verdi.
– Hə, tanıyıram, indi aydın oldu, o, səni öz sehrli oxları ilə özünə məftun edib. Yox, o, burada yoxdur, iki gündür ki, buralara gəlmir. Yəqin xəstələnib, ona görə gəlmir,

özün bilirsən də... – qız naz-qəmzəli halda cavab verir.
– Sən dəqiq bildin, hansı Sonadan söhbət gedir? Bəlkə burada bir neçə Sona var?
– Yox, canım, bildim kimi deyirsən, universitetdə tələbə olan Sonanı deyirsən, səhv etmirəmsə, Şüalıq kəndindən olmalıdır. Üzdən sakit kimi görünsə də, yataqda çox şıltaq qızdır. Heç də təəccüblü deyil ki, səni yenə buralara gətirib.
– O da sənin kimi burada "xidmət" göstərir?
– Mənim kimi? – qız tənəli baxışlarla Arizi süzür. – Yox, o, hələ mənə çata bilməz! O, burada beş-altı aydır ki, xidmət göstərir, mənim isə ikiillik təcrübəm var. Yəqin ki, ikiillik təcrübənin nələrə qadir olduğunu özün dərk edirsən. O hara, mən hara?! Sən yəqin hələ təcrübəli biri ilə qarşılaşmamısan, ona görə də Sona sənin ağlını başından alıb. Gəl mən sənə elə bir kef yaşadım ki, Sonanın adını birdəfəlik unudasan!
– Sən də... Sən... – Arizin dili tutulur, bir az özünü toplayıb soruşur. – Sən neçəyə?..
– Narahat olma, bizdə qiymətlər eynidir, yüz dollar, saatı.
– Yaxşı, verərəm, yüz dollar verərəm.
– Onda gəl gedək və otaq götürək.
– Yox, otel otağı istəmirəm.
– Narahat olma, canım, otağın qiyməti xidmətə daxildir, gəl, – qız Arizin əlindən tutub otelin girişinə tərəf çəkirdi.
– Yox-yox, sən məni başa düşmədin, mən oteldə istəmirəm.
– Hə, bəs harada istəyirsən, elə burada? – qız qəhqəhə çəkib gülür.
– Yox, burada da yox, maşında, dəniz kənarında.
– Aa, deməli, sən ekstrim xoşlayırsan, olsun. Amma mən yenə də yüz dolları səndən alacağam, demişdim

axı, qiymətlərimiz eynidir, dəyişmir.

– Pul problem deyil, verəcəm, narahat olma.

– Bir dəqiqə, mənim vaxtım sənin maşınına oturan kimi başlayacaq, sonra demədi demə.

– Olsun, narahat olma, əlavə vaxt olsa, onu da ödəyəcəyəm, pul üçün narahat olma, gəl, maşınım bu tərəfdədir.

Onlar maşına əyləşirlər, Ariz maşını dəniz kənarına sürür, maşını saxlayan kimi qız dərhal onu qucaqlayır.

– Canım, gəl yanıma!

– Bir dəqiqə! - Ariz onu özündən uzaqlaşdırır və təlaşlı şəkildə ətrafa baxır, tanışlarından kiminsə onu görəcəyindən narahat idi. – Sən gəl tələsmə, biz heç axı hələ tanış da deyilik.

– Hə, sən belə xoşlayırsan, yaxşı, mənim adım Nigardır, – qız əlini Arizə tərəf uzadır.

– Hə, lap yaxşı, Nigar, mənim adım isə Arizdir, – Ariz onun əlini sıxır.

– Əla! Madam ki artıq tanış olduq, onda gəl yanıma, – qız yenə Arizi qucaqlamağa cəhd edir.

– Yox, bir dəqiqə dayan, bir səbrin olsun! – Ariz yenə onu özündən uzaqlaşdırır.

– Başa düşmədim, yoxsa başqa cür xidmət istəyirsən, amma maşında bu mümkün deyil.

– Yox, bir dəqiqə, ay Nigar, bir dəqiqəlik sakit dur, qoy fikirlərimi toplayım.

– Sənin nəsə problemin var? Narahat olma, məndə həblər var, verim sənə? Onlar belə hallarda kömək edir.

– Yox, Nigar, bir dəqiqə səbir elə, al bu yüz dolları! – Ariz cibindən yüz dollar çıxarıb Nigara uzadır.

– Hə, düzdür, ödəniş əvvəldə edilir, lap ağlımı başımdan çıxarmısan ha. – Nigar cəld yüz dolları ondan alıb çantasına qoyur. – Hə, indi nə edim? Sən de, mən də bir şey fikirləşərəm.

– Heç nə, bir az sakitləş, artıq pulu da vermişəm sənə. Mənə bir az vaxt ver, mən özümü toplamalıyam.
– Oldu, buyur, mən sakit oturub səni gözləyirəm, amma biləsən ki, artıq iyirmi dəqiqəmiz keçib, sonra məni günahlandırmayasan ha...
– Mən əslində otelin qarşısına intim xidmət almaq üçün gəlməmişdim, – bir neçə dəqiqədən sonra Ariz deyir.
– Nə, bəs nə üçün gəlmişdin? Bəs biz bura niyə gəlmişik? Bəs pulu mənə niyə verdin? Bura bax, mənə dəxli yoxdur sən niyə gəlmisən, mən pulu qaytaran deyiləm!
– Bir az sakitləş, mən pulu səndən geri alan deyiləm. Mənə sənin bir saatlıq vaxtın lazım idi, ona görə buradayıq.
– Pulu almayacaqsansa, əla! Yaxşı, bəs niyə buradayıq?
– Mən Sonaya görə gəlmişdim, mən onun qonşusuyam.
– Nə, qonşusu? – Nigarın gözlərində təəccüb və qorxunu sezmək mümkün idi.
– Bəli, qonşusu, o mənim gözlərimin qarşısında böyüyüb. Bilmirəm xəbərin var, yoxsa yox, dünən o, özünü damdan ataraq intihar edib.
– Bəli, xəbərim var! – Nigarın gözləri doldu. – Səhər qızlar bu barədə xəbəri mənə atmışdılar, saytlarda bu barədə yazılıb.
– Sən onu yaxından tanıyırdın?
– Bəli, ilk günlərindən elə mənim yanımda fırlanırdı, ona bu sənətin sirlərini öyrədirdim. Beş-altı ay idi ki, buralara gəlib-gedirdi. Buradan əvvəl də heç təcrübəsi yox idi, bu otel onun ilk təcrübəsi idi. Dərsdən çıxan kimi düz bura gəlirdi, əynini dəyişib otelin qarşısına çıxırdı.
– Onda sən onunla çox yaxın olmusan, bilmirsən, niyə bu yola düşmüşdü?
– Necə yəni niyə? Bu nə sualdır?
– Yəni pula görəmi, yoxsa narkotikaya qurşanmışdı?

– Yox, nə narkotikası, Sona ağıllı qız idi, elə şeylərdən uzaq idi. Sırf pula görə, maddiyyata görə. Bilirsən də, o, universitetdə pul ilə oxuyurdu, illik dörd min dollar ödəyirdi, universitetin pulunu çatdırmaq elə də asan məsələ deyil. Sözün açığı, ilk dəfə o, bura gələndə ona demişdim ki, oxumağın daşını atsın, onsuz da məzun olandan sonra iş tapmayacaqdı, mən iş tapdım ki, o da tapsın?

– Sən də universitet bitirmisən?

– Bəli, neft hasilatı üzrə mühəndisəm, diplomum da var, amma gör iş verən var? Heyif o vaxtımdan ki, oxumağa sərf etmişəm. Sona da universiteti tərk etsəydi, ona pul lazım olmayacaqdı, yəni bu qədər lazım olmayacaqdı. Vallah, bir mənasız universitetə görə dəyməz bu yola düşməyə. Ona nə qədər dedimsə, eşitmədi, gələcəyə ümidli idi.

– Sən onun yayılmış videosunu görmüsən?

– Bəli, görmüşəm, onu o əclaf ərəb yayıb, alçaq, şərəfsiz! Onların çoxu belə edir, bədbəxt edirlər qızlarımızı!

– Niyə edirlər ki, bunu?

– Nə bilim e, xəstə şeydirlər! Guya öz aləmlərində özlərini reklam edirlər. Adam da yataq görüntülərini yayar? Xəstədirlər! Heç bilirsən nə qədər qız məhz elə bu səbəbdən intihar edib? Təəssüf ki, Sona nə birinci, nə də sonuncudur.

– Düzdür, ağlı başında olan adam belə etməz, niyə camaatın qızını bədbəxt edirsən ki?

– Əslində, bizi bədbəxt edən ərəblər deyil, Ariz, – Nigar dolmuş gözlərini yerə dikir, – bizi bədbəxt edən ölkədəki işsizlik, insanların nadanlığı və laqeydliyidir, budur bizi bədbəxt edən! Yüzlərlə, bəlkə də minlərlə qız məhz bu səbəbdən intihar edib, on minlərlə qız bu iyrənc və murdar yoldan keçib, – Nigar kinayəli gülüşlə deyir, – sonra da özlərinə həkimdə əl gəzdirib

ərə gediblər. Guya bütün bunları görən, bilən yoxdur? Heç kimin vecinə deyil, heç kimin! Hakimiyyətdəkilər öz kefində, pul qırmaqlarında, camaatın da başı bir tikə çörək tapmağa qarışıb, hamı unitaza xidmət edir! Bizim fəaliyyətimizi qadağan etməli olan polislər də gəlib bizdən gündəlik "haqq" alırlar, elə bil ki, burada onların arvadlarını işlədirik...

– Hə, vəziyyət heç də ürəkaçan deyil, razıyam, qızlar, gəlinlər və nəsillər məhv olur!..

– Hələ sən nə qədər QİÇS-ə[1] yoluxmuş qızların başqalarını bədbəxt etməsini bilmirsən. Biz burada əsgi kimi bir şeyik, hər gələn bizi silib tullayır!.. Sanki biz bu xalqın namusu deyilik, sadəcə bir əşyayıq. Heç kim bizi fikirləşmir, heç kim düşünmür, sanki Andaluniya hakimiyyətin dədəsindən miras qalmış bostanıdır, necə istəyirlərsə, elə də rəftar edirlər. İndi özün fikirləş, Sonanın ölümündə günahkar kimdir? Həmin o alçaq, şərəfsiz ərəb, yoxsa ölkə daxilində bu şəraiti yaratmış hakimiyyət, yoxsa bütün bunları sakitcə izləyən andaluniyalılar? Kimdir o qızların ölümündə müqəssir? – Nigar hönkürtü ilə ağlamağa başlayır.

Ariz cəld cibindən yaylığı çıxarıb ona verir və onu sakitləşdirir. Nigar sakitləşəndən sonra onu aparıb otelin qarşısında düşürür və hər ehtimala qarşı onun nömrəsini alır.

## Zehindəki inqilaba səbəb olan görüş

Ariz artıq bir çox suallarına cavab tapmışdı, amma vəziyyətin bu qədər acınacaqlı olduğunu hələ də qəbul edə bilmirdi. Onu daha çox Nigarın verdiyi son sual narahat edirdi: "Kimdir o qızların ölümündə müqəssir?" Ariz bu sual barədə yol boyu fikirləşərək Şüalığa gəlib çatır və bu qayğıları evə aparmamaq üçün maşını dəniz kənarına

1 QİÇS – Qanda İmmun Çatışmazlığı Sindromu – SPİD.

sürür. İndi ona bu barədə düşünmək və fikirlərinə aydınlıq gətirmək üçün təkliyə və zamana ehtiyac var idi, belə hallarda o, Sədəf dənizinə üz tuturdu. Dənizin ləpələrinin səsi onu həm sakitləşdirirdi, həm də düşüncələrinin dərinliklərinə getmək üçün ona yol göstərirdi.

Ariz dəniz kənarına çataraq maşını saxlayır, aşağı enərək qayaların üzərinə çıxır. Şüalıq çimərliyi öz qayaları ilə Bakkada məşhur idi, insanlar çox vaxt buralara ailəliklə gələrək istirahət edirdilər. Ariz qayanın üzərində əyləşərək baş verənlər barəsində düşünməyə başlayır, dənizin ləpələri onun gözlərinə, səsi isə qulaqlarına rahatlıq gətirir. İndi daxilindəki təlatüm sakit bir aura ilə əvəzlənmişdi, o, indi özünü daha rahat və təhlükəsizlikdə hiss edirdi.

Mart ayı olmasına baxmayaraq, havalar xoş keçirdi, aydın səmada şüalarını yerə saçan günəş Arizin kürəyini isidirdi. Bu cür rahat şəraitdə Ariz öz daxili dünyasında düşüncələri və xatirələri ilə baş-başa qalmışdı. Əvvəlcə emalatxanasında işləyən Davudla etdiyi söhbətlər yadına düşdü, həmin vaxtda Ariz onun dediklərini tam olaraq anlamırdı, amma indi artıq Davudun dediyi bir neçə sahədə fəsada şahid olmuşdu. Davudun kürəkəninin narkotikaya qurşanması, fahişəliyin ölkədə geniş vüsət alması, insanların intiharı və ən əsası, Davudun ona dediyi son sözlərindəki kimi insanların laqeydliyi artıq Arizi narahat etməyə başlamışdı. Davud son sözləri ilə sanki baş verəcək hadisələrdən xəbərdar olduğu üçün fəryad edirdi. Ariz isə onu anlamırdı, dəstəkləmirdi, onun işdən qovulmasına mane ola bilmədi. İndi isə Davudun dediklərinə özü şahid olurdu. Bütün bunların necə baş verdiyini, əsl səbəblərini isə o, hələ də anlaya bilmirdi. Bir tərəfdən o özünü Davudun işdən çıxarılmasında və onun vəfatında təqsirkar bilir, digər tərəfdən isə ölkədəki durumun səbəbləri haqqında düşünürdü. Birdən arxadan ona edilən müraciət onu düşüncələrindən ayırdı.

– Salam, oğlum!
– Əleyküm salam! – Ariz geri dönərək baxdı, bir nurani ağsaqqal idi, geyimindən hocalardan olduğu bəlli idi. Ariz cəld ayağa qalxdı. – Necəsiz, hoca, üzr istəyirəm, bir az düşüncələrə dalmışdım, gəldiyinizi hiss etmədim.
– Əyləş, oğlum, mən əsla səni narahat etmək istəmirdim, mane olmaq istəmirəm, əyləş və qətiyyən narahat olma. Mən də elə sənin kimi hərdən bura gəlib düşüncələrimlə tək qalmaq istəyirəm.
– Həmişə burada əyləşirsinizsə, mən o biri qayalığa gedə bilərəm, siz narahat olmayın.
– Yox, oğlum, nə bu sahil, nə də bu qayalıq mənim ata-baba malım deyil, bura bütün Andaluniya vətəndaşları üçündür, əyləş və narahat olma.
– Baş üstə, hoca, onda siz də əyləşin, lütfən, - Ariz əyləşir, hoca da ondan bir metr aralıda özünə yer edir.
– Oğlum, düşüncələrin sanki təlatümlü dəniz kimidir, salamatlıqdır?
– Şükür, hoca, salamatlıqdır, – Ariz başını aşağı salaraq cavab verir, sanki yalan danışdığını gizləmək istəyirdi, amma hocanın da kifayət qədər təcrübəsinin olduğundan xəbərsiz idi.
– Oğlum, bu həyat haqq ilə batilin savaş meydanıdır, bəzən hansısa bir döyüşün uduzulması heç də savaşın məğlubiyyəti demək deyil. Bəzən bu məğlubiyyətlər bizim səhvlərimiz ucbatından baş verir, amma biz bu səhvlərdə ilişib qalmalı deyilik. Biz öz keçmişimizlə bərabər yaşamağa məhkumuq, amma irəlini də görməliyik. Əsas savaş və qələbə hələ irəlidədir. Narahat olma, sənin də qalib olacağın savaşın növbəsi gəlib çatacaq, – hocanın sözləri sanki Arizin qəlbindən xəbər verirdi.
– Hoca, bəzən səhvləri buraxmaq bizdən asılı olmur, şərait və şərtlər elə tələb edir.

– Yox, oğlum, səhvləri biz öz seçimimizlə buraxırıq. Yeri gəlmişkən, heç özümü təqdim etmədim, yəqin ədəbsizlik kimi başa düşməzsən, bu qoca vaxtımda bir az belə şeyləri unuduram. Mən Ənvər hocayam, bir az buradan aralıda qalıram. Bəs sənin adın nədir?
– Mənim adım Arizdir, bu kənddə qalıram, çox şad oldum, hoca.
– Hə, Ariz, həyat belədir, bizim səhvlərimiz və düzlərimizdən ibarətdir. Səhvsiz kim var ki?! Hamımız səhv edirik! Bəzən səhvimiz elə özümüzə təsir edir, bəzən də ictimai fəsada səbəb olur, həyatdır.
– Hoca, sadəcə mənə hələ çatmır ki, mənim hansı səhvlərim olub ki, böyük bir fəsada səbəb olsun. Sizin dediyiniz kimi əgər özümə təsiri olsa, bunu anlamaq olar, ictimai təsiri olarsa, bunu necə izah edə bilərsiz?
– Ariz, sən mənim oğlum yerindəsən, – zahirən Ənvər hocanın yaşının altmış beş və daha yuxarı olduğunu təxmin etmək mümkün idi, – gəl mənə müraciət edəndə “sən” de, siz-biz lazım deyil, qoy aramızda bir səmimiyyət yaransın.
– Hoca, bu mənim tərbiyə və dünyagörüşümə ziddir, bəlkə elə “siz” deyə müraciət edim?
– Oğlum, yəqin ki, arada Allaha dua edirsən, onunla danışırsan, hə?
– Bəli, əlbəttə, olur.
– Allaha müraciət edərkən Ona “sən” deyə müraciət edirsən, yoxsa “siz”?
– “Sən” deyə müraciət edirəm.
– Onda necə ola bilər ki, Allaha “sən” deyə müraciət etdiyin halda, bəndəsinə “siz” deyə müraciət edə bilərsən?
– Haqlısız, amma cəmiyyətimizdə belə qəbul olunub axı.
– Bunu cəmiyyətimizə təkəbbürlü alimlər, vəzifə

sahibləri, dayaz düşüncəli ziyalılar gətirib, sən onlara fikir vermə, heç də bu həyatın həqiqətləri həmin alimlərin düşündüyü və cəmiyyətə dediyi kimi deyil.

– Maraqlıdır, heç bu barədə düşünməmişdim, siz düz deyirsiz.

– Yenə “siz”? Olmadı ki?! – Ənvər hoca gülümsəyir, – elə indicə razılaşdın ki, mən düz deyirəm.

– Hə, hoca, sən düz deyirsən, – Ariz də utanaraq gülümsəyir.

– Oğlum, bu həyat bir mənbədən başlayan və mənsəbinə doğru axan bir çay kimidir. Sadəcə insanların çoxu hələ bunu dərk etmir, əslində hamı bunu bilir, sadəcə qəbul etmək istəmir.

– Necə yəni çay? Sözün açığı, mən başa düşmədim, – Ariz hocaların dərin bir dərya olduğunu bilirdi, buna görə də ondan maksimum dərəcədə yararlanmaq istəyirdi, – bir az da aydınlaşdıra bilərsən, zəhmət olmasa?

– Əlbəttə, gəl mən sənə bunu bir pritça ilə izah edim. Təsəvvür et ki, sən mənbəyindən mənsəbinə doğru axan bir çayda kürüdən yenicə çıxmış bir xırda balıqsan. İlk dəfə ətrafa baxanda nə görürsən? Çay uca bir dağdan başlayaraq, üzü aşağı, mənsəbinə tərəf axır, bütün balıqlar da elə bu axının istiqamətində üzür. Sən də onlara qoşulub, axının istiqamətində üzməyə başlayırsan, yaşayırsan, böyüyürsən. Bir müddətdən sonra ətrafı daha yaxşı qavramağa başlayırsan. Bir gün axın istiqamətində üzərkən axının əksinə üzməyə çalışan və buna görə də digər balıqlar tərəfindən daşlanan, hamının doğrucul kimi tanıdığı bir balıqla rastlaşırsan. Onun yanından üzüb keçən balıqlar onu təhqir edir, təpikləyir, ona daş atır və onu axmaq adlandırırlar. Sən təəccüb içində həmin balığa yaxınlaşıb, niyə onun axının əksinə üzdüyünü soruşursan. O isə sənə həqiqəti dərk etdiyinə görə belə etdiyini deyir. O, sənə deyir ki, bu

çay dağın ətəyindəki uçuruma axır, oradan da vulkanik lavanın üzərinə tökülür, su yenidən buxarlanaraq, yağış və qar halında dağın başına yağır, balıqlar isə məhv olub gedir. Sən həmin balığı doğru danışan kimi tanıdığına görə ona inanırsan, amma yanından ötüb keçən balıqlar da sənə ona baş qoşmamağa və axından geri qalmamağa səsləyir. Sən tərəddüdlər içində yenə də axın istiqamətində üzməyə davam edirsən, amma artıq sən həmin sən deyilsən. İndi artıq ətrafda baş verənlərə qarşı daha diqqətlisən, irəlilədikcə hərdən başqa balıqların da ətrafdakıların qınağına baxmayaraq geriyə, mənbəyə tərəf üzdüyünü görürsən. Digər balıqlar onlara da daş atır, axmaq adlandırırlar, amma bu onları öz yollarından ayırmır. Sən hər dəfə belə balıq görəndə ilk gördüyün balığın dedikləri haqqında fikirləşirsən və bu səni daha çox narahat edir. Bir gün sən növbəti axının əksinə üzən balığı saxlayıb niyə axının əksinə üzdüyünü soruşursan. O da sənə ilk balığın dediklərini deyir. Sən soruşanda ki, axı hələ heç kim mənsəbi görüb qayıtmayıb, həmin balıq sənə deyir: "Bəli, düz deyirsən, hələ heç kim oranı görüb qayıtmayıb, amma axı bu heç mümkün də deyil!". Sən ondan bəs nəyə əsasən belə etdiyini soruşanda, o sənə belə cavab verir: "İlk gördüyün balığı doğrucul kimi tanıyıram, hələ heç vaxt ondan yalan eşitməmişəm! Mənsəbin necə olduğunu dəqiq bilməsəm də, mənbəyin mütləq yaxşı və əmin-amanlıq mənbəyi olduğunu dəqiq bilirəm, mən ora çata bilməsəm də, ən azından həmin yolda ölərəm, bu, daha yaxşıdır!" – deyərək yoluna davam edir. Sən isə bir müddət yerində durub bu barədə fikirləşirsən, götür-qoy edirsən, yanından üzüb keçən digər balıqlar artıq sənə də söz atmağa başlayır. Sən ilk gördüyün balığın dediklərini son gördüyün balığın dedikləri ilə müqayisə edib, heç bir yanlışlıq tapmırsan. Dərhal axının əksinə

dönərək var gücünlə üzməyə başlayırsan. Elə bu andan da sənin üçün bütün müsibətlər başlayır, səni də daşlayırlar, təhqir edirlər və axmaq adlandırırlar. Amma sən layiqincə doğru bildiyini edirsən, yorulmadan və usanmadan axının əksinə üzməyə davam edirsən. Mənbəyə çatıb-çatmamaqdan asılı olmayaraq daim bu yolda olanlar, məhz onlardır nicata çatanlar!

– Möhtəşəm! – Ariz heyrətdən bərəlmiş gözləri ilə Ənvər hocaya baxırdı. – Sadəcə möhtəşəmdir! Sənin danışdığın bu pritça mənim yolumu əməlli-başlı aydınlatdı, amma mənim bir çox suallarım var, mən onlara cavab tapmalıyam!

– Mən sənə həmin suallara cavab tapmaqda kömək edə bilərəm, buyur.

– Yox, mən hələ danışdığın bu pritçanı yaxşıca dərk etməliyəm, mənə iki gün möhlət ver, şənbə günü yenə bura gələcəyəm, suallarımı da hazırlayaram, olar?

– Əlbəttə, olar! Mən səbirlə şənbə gününü gözləyəcəyəm.

Ariz Ənvər hoca ilə sağollaşaraq maşınına əyləşir. Evə doğru gedərkən yolda Ənvər hocanın dedikləri haqqında düşünür. Ənvər hoca ilə rastlaşdığına görə çox sevinirdi, onu özü üçün həyat dərsini verə biləcək ustad kimi görürdü. Həmin gün Ariz evə çatıb ailəsi ilə şam edir və rahat şəkildə yatır.

Ertəsi gün Ariz artıq işdə idi, vəziyyəti bir az yüngülləşmişdi. Saat on radələrində telefonunu götürərək Nigara zəng edir:

– Alo, Nigar xanımdır?

– Salam, bəli, kimdir?

– Salam, mənəm, Ariz, narahat etmədim ki?

– Hansı Ariz? – deyəsən, Nigar yuxulu idi.

– Dünənki Ariz, səninlə dəniz kənarına getmişdik, xatırlayırsan?

– A, yadıma düşdü, Şüalıqdan olan Ariz, Sonanın

qonşusu. Buyur, Ariz.

– Sən dünən dedin ki, neft hasilatı üzrə mühəndissən, düzdür?

– Hə, düzdür, hətta diplomum da var, toz basmış olsa da, – Nigar gülümsəyir.

– Əla! Sən gəl belə elə, elə indi sənədlərini də götür və gəl bizim idarəyə, yəqin ki, yazılı halda hazır tərcümeyi-halın da var, hə?

– Telefonumda var, çap eləmək asandır. Hara gəlim, başa düşmədim axı.

– Mən indi sənə ünvanı atacağam, çalış nahar fasiləsi üçün burada olasan, iki saat vaxtın var, oldu? Səni gözləyəcəyəm.

– İş var? – Nigar sevinib təəccüblə soruşdu.

– Sən sənədlərinlə gəl bura, mən baxacağam. Yubanma!

– Oldu! – Nigar dəstəyi asır.

Ariz Nigarı işə düzəltmək istəyirdi, heç olmasa bir nəfəri bu bəladan xilas edə bilsəydi, özünü çox xoşbəxt hiss edəcəkdi.

Nahar fasiləsində artıq Nigar idarənin qarşısında idi, Ariz onu qarşılayıb kabinetinə apardı. Diqqətlə onun tərcümeyi-halına baxdı, diplom və digər sənədlərinə, sertifikatlarına baxdı və onu özü ilə kadrlar şöbəsinə, Afaq xanımın yanına apardı.

– Salam, Afaq xanım, gəlmək olar?

– Hə, Ariz, buyur, gəl, əyləşin, – Afaq Nigarı gözləri ilə süzməyə başlayır. – Bu kimdir belə?

– Afaq xanım, bu Nigar xanımdır, gənc mühəndisdir, əgər onu işə götürsəniz, bizim əməkdaşımız olacaq.

– Hə? Təcrübəsi var?

– Siz narahat olmayın, Afaq xanım, ilk aylarda mən ona hər şeyi öyrədəcəyəm, hər şey yolunda olacaq.

– Müdiriyyət bilir?

– Müdiriyyət məsələsi mənlikdir, siz narahat olmayın.

Yeni layihə çox böyükdür, köməksiz mümkün deyil, əgər müdiriyyətin bir sualı yaranarsa, mən onu əsaslandıracağam.

– Yaxşı, nə deyirəm ki, qoyun sənədləri bura, nahar fasiləsindən sonra baxaram.

– Afaq xanım, xahiş edirəm, elə edək ki, sabah artıq Nigar vəsiqəsini alsın və işə başlasın.

– Yaxşı, mən sənədləri hazırlayıb elə bu gün imzaya təqdim edərəm, təsdiqlənsə Nigara zəng edərəm, gəlib vəsiqəsini götürər. Siz narahat olmayın.

Axşamüstü Nigar artıq vəsiqəsini almışdı, o, gözlərinə inana bilmirdi, çoxdan arzuladığı, xəyalını qurduğu həqiqət olmuşdu, indi artıq o, neft hasilatı üzrə mühəndis işləyəcəkdi. O, sevinərək Arizin kabinetinə gedir, onun boynunu qucaqlayaraq ağlamağa başlayır.

– Sakit, Nigar, sakit! Ayıbdır, kənardan baxanlar var, özünü ələ al! – Ariz onu özündən uzaqlaşdırmağa cəhd edir. – Əyləş, sakitləş, Nigar.

– Çox sağ ol, Ariz! – Nigar əyləşərək sevinc göz yaşlarını silməyə başlayır. – Son iki ildə mənimlə insan kimi rəftar edən ilk şəxs sən oldun, mənə ikinci həyat bəxş etdin, mən sevindiyimdən heç bilmirəm nə edim.

– Sən əvvəlcə sakitləş və diqqətlə mənə qulaq as. Sən əvvəlki həyat tərzinlə vidalaşmalısan, sən artıq bizim idarəni təmsil edirsən, bunu bacaracaqsan?

– Əlbəttə, bu nə sözdür, mən uşaq deyiləm ki?! Sən elə bilirsən ki, mən istədiyimdən o yola düşmüşdüm? İşsizlikdən, pulsuzluqdan, çarəsizlikdən mən o iylənmiş ərəb turistlərinə xidmət göstərirdim, bəs deyirəm axı, sən mənə ikinci həyat bəxş etdin. Heç bilmirəm sənə necə təşəkkür edim, – yenə Nigarın gözləri dolur.

– Mən sənə deyəcəyəm, əvvəlcə əyninə normal bir don almalısan, bu cür qiyafədə işə gəlmək olmaz. Pulun yoxdursa, mən sənə verərəm, – Ariz əlini cibinə salır.

– Yox-yox, sən nə danışırsan, onsuz da sən mənim üçün artıqlaması ilə hər şeyi etmisən, qalanını mən həll edərəm, sən narahat olma, pulum var, elə bu saat gedib özümə bir neçə abırlı don alaram.

– Sonra, sən hər gün mütəmadi olaraq səhər işə gələcəksən, işdə yeni vərdişlər və biliklərə yiyələnəcəksən, qətiyyən tənbəllik və laqeydlik etmək olmaz!

– Sən mənə arxayın ola bilərsən, inan ki, başını aşağı etməyəcəyəm. Bu andan etibarən məni dünənki həyatımla bağlayan bütün körpüləri yandırıram! Heç paltarlarımı götürmək üçün də otelə qayıtmayacağam! Hətta bu gün özümə yeni telefon nömrəsi alacağam, kirayə qaldığım evi də bu həftə dəyişəcəyəm ki, heç kim məni tapa bilməsin. Qətiyyən narahat olma, sənin bütün etimadlarını doğruldacağam, görəcəksən.

– Əla, indi isə get və sabaha hazırlaş. İşə gələn kimi gələrsən bura, mən sənin üçün iş masası hazırlatdıracağam.

Nigar sevinc içində idarəni tərk edir, yol boyu bugünkü hadisəni düşünərək gah gülür, gah da ağlayırdı. İndi artıq o azad idi, ehtiyac içində, tüfeyli və əxlaqsız həyatdan azad olurdu. Özünə don almaq haqqında plan qurur, sabaha nə geyinəcəyini götür-qoy edirdi. Bəli, yeni həyata, yeni planlarına başlamaq lazımdır!..

Artıq ertəsi gün çox gözəl və abırlı bir donla Nigar Arizin kabinetinə gəlir və onun üçün hazırlanmış iş masasına əyləşir. Nahar fasiləsinə Arizlə gedir və sonra onunla əraziyə, emalatxanalara gedir, ərazi və işçilərlə tanış olur. Hər gördüyü avadanlıq barədə universitetdən yadında qalan şeyləri danışır, suallar verirdi. Ariz isə məsum bir təbəssümlə onu seyr edir və qulaq asırdı. Bəli, bu hadisə Arizə sübut etdi ki, hətta uçurumun kənarında olan bir həyatı da xilas etmək olar, yetər ki, istək olsun. Ariz Nigara

baxdıqda xəyalında Sonanı canlandırırdı, axı Sona da bu cür ümidlərlə universitetdə oxuyurdu, sadəcə onun həyatı uçurumun dibinə daha tez çatdı, onu xilas etmək mümkün olmadı. Nigarı xilas etməklə Ariz sanki düşüncələrində Sonanı xilas etmişdi, bu yolla o, özünə təsəlli verə bilərdi.

Gözlənilən şənbə günü gəlmişdi, Ariz yuxudan qalxmış və artıq qəhvə ilə yüngül qəlyanaltı da etmişdi. İndi o, dəniz kənarına, Ənvər hoca ilə görüşə tələsirdi. Düzdür, onu necə tapacağını bilmirdi, çünki Ənvər hocanın telefonu yox idi, amma bu, Ariz üçün maneə deyildi, o, tezcə özünü Sədəfin sahilinə çatdırmaq istəyirdi. Elə bu niyyətlə də Yeganə ilə sağollaşıb həyətə düşdü, maşına minib dəniz kənarına getdi.

Ariz artıq yarım saatdan çox idi ki, dəniz kənarında, eyni qayanın üzərində oturub dənizi seyr edirdi. Ənvər hocadan hələ ki, səs-səmir yox idi. O, neçə gün idi ki, Ənvər hocanın ona danışdığı pritça barəsində düşünürdü. Bu pritça onu əməlli-başlı titrətmişdi, Ariz düşünürdü ki, Nigarın həyatını xilas etmək üçün məhz elə həmin pritça ona motivasiya vermişdi. Hələ ki, bura qədər hər şey yaxşı idi, amma Ariz mütləq öz suallarına cavab tapmalı idi. Birdən hocanın səsini eşitdi:

– Salam, Ariz, necəsən?

– Oo, salam, Ənvər hoca, yaxşıyam, sən necəsən? – Ariz cəld qalxıb üzünü Ənvər hocaya çevirərək ədəb-ərkanla onun salamını aldı.

– Əyləş, Ariz, narahat olma, mən də yaxşıyam, – Ənvər hoca Arizin üzündəki sevinci dərhal sezdi. – Deyəsən, işlər yoluna düşməyə başlayıb, sevinclisən.

– Bəli, sayəndə qismən yoluna düşməyə başlayıb. İki gün əvvəl bir qızı bataqlıqdan çıxarıb xilas etməyə müvəffəq olmuşam, sözün açığı, elə buna görə də çox sevincliyəm.

– Yaxşıdır, hətta əladır! Tanrı bizi elə insanlara xidmət

etmək üçün yaradıb, sadəcə insanlar eqoist olublar, özlərindən başqa heç kimi düşünmürlər.
– Keçən dəfə danışdığın pritçadan sonra sanki mən ətrafıma qarşı daha diqqətli olmağa başlamışam, amma haradan başlamalı olduğumu, nəyi necə edəcəyimi hələ də bilmirəm. Beynimdə çoxlu suallar da yaranıb, onlara da cavab axtarıram.
– Hə, sualın olmağı yaxşıdır.
– Niyə yaxşıdır ki?
– Sual yaranırsa, deməli, həqiqət axtarışındasan, həqiqətləri dərk etmək istəyirsən. Həqiqəti isə yalnız onu dərk etməyə hazır olanlar axtarır.
– Düzdür! – Ənvər hocanın sözləri, dəlilləri Arizin qəlbinə yağ kimi yayılırdı, sanki onun ac ruhu doyurdu.
– Hoca, mənim üçün bəzi qaranlıq məqamlar var, onları aydınlaşdırmaq istəyirdim, icazənlə.
– Buyur, Ariz, nə sualın varsa, ver. Bildiklərimi cavablandırmağa çalışacağam.
– Hoca, ölkədəki ağır durumdan yəqin ki xəbərin var.
– Hansı ağır durumdan söhbət gedir?
– Yəni işsizlik, camaat dolanmağa pul tapmır, uşaqlar bir qarın ac, bir qarın tox böyüyür. Üstəlik, işsizlik və pulsuzluğun səbəb olduğu digər fəsadlar da meydana çıxır, məsələn, fahişəlik və oğurluq artır, cinayətlər çoxalır, qarətlər, qətllər, yetim qalan uşaqlar və s.
Ariz bir anlığa susur və özünü toplamağa çalışır.
– Hə, bildim, indi bildim. Bu barədə sualın nədir?
– Niyə Allah insanlara bu qədər zülmü rəva görür? Bunun nə kimi hikməti ola bilər axı? Məgər O, bizi bu zülmlərə mübtəla etmək üçün yaradıb? – Ariz sualları birnəfəsə verir və dərindən nəfəs alır, diqqətlə Ənvər hocanın üzünə baxır, sanki suallarından utanır.
– Aydındır, sualın aydındır, Ariz. Burada bir məsələ var ki, gərək əvvəlcə onu aydınlaşdıraq. Əvvəla, Allah

ədalətlidir və O, heç kimə zülm etmir. Bununla razısan?
– Bəs onda bütün bu zülmlər nədir?
– Ona cavab verəcəyəm, narahat olma, sən sadəcə sualıma cavab ver, Allahın ədalətli olması və heç kimə zülm etməməsi ilə razısan?
– Ən azından bunun əksini deyə bilmərəm, sadəcə bir az da izah etsən, daha gözəl olar.
– Yaxşı, Ariz, necə bilirsən, zülm yaxşı şeydir, yoxsa pis şey?
– Əlbəttə, pisdir, zülmün yaxşısı olur məgər? – Ariz gülümsəyir.
– Yaxşı, onda mənə de görüm, bütün kamal, gözəl sifətlərə sahib olan Allah pis bir iş görərmi?
– Xeyr, əsla!
– Onda niyə sualında zülmü Allaha nisbət verdin?
– Axı hər şeyi yaradan və nizama salan Odur!
– Bəli, elədir, amma zülm artıq başqa şeydir.
– Necə yəni başqa şey, anlamadım, bir az da izah edərsən?
– Əvvəlcə ədalətin tərifinə baxmalıyıq ki, onun nə olduğunu anlayaq. *Hər kəsin öz haqqını alması və hər şeyin öz yerində olmasına ədalət deyilir*.
– Nə gözəl tərifdir, mən bu vaxta qədər ədalətə bu cür tərif verən görməmişdim, heç deyəsən, mən ədalətin nə olduğunu bilməmişəm. Buyur, hoca, davam et.
– İndi isə zülmü anlayaq. Zülm ədalətin müqabilində olan, onun yerini tutmuş bir məfhumdur.
– Necə yəni?
– Məsələn, nur və zülmət, isti və soyuq, biri olanda o biri olmur. Nur olanda zülmət yox olur, nur olmayanda zülmət olur. İsti olanda soyuq olmur, soyuq olanda isti olmur.
– Hoca, müasir fizika bu məsələni o qədər də asan hesab eləmir, məsələn, alaqaranlıq və ılıq kimi anlayışlar var.

– Ariz bir az gülümsəyir.
– Bəli, var, sadəcə mən müqabillik münasibətini izah etdim. Əlbəttə ki, nur azaldıqca zülmətin artması hesabına alaqaranlıq olur, məgər elə deyil?
– Hm, elə demək olar, razılaşmaq olar.
– Əla, ədalət də elə o cürdür, ədalət olan yerdə zülm olmaz, ədalət olmayan yerdə zülm olar.
– Onda qoy Allah yaratdığı dünyanı ədalətlə doldursun, olmaz elə?
– Bir dəqiqə, Ariz, – Ənvər hoca gülümsəyir, – elə deyil, səbirli ol. Allah bizi yaradıb, yaxşı ilə pisi ayırmaq üçün bizə ağıl verib, bu vaxta qədər nə qədər peyğəmbər və filosoflar yetirib, ədalətin nə olduğunu bizə çatdırıb. *Dünyanın ədalətlə dolması üçün insanların Allahın dediklərini icra etmələri lazımdır, biz isə bu gün bunun əksini görürük.* Nədənsə insanlar zülmün artmasına görə özlərini yox, məhz Allahı təqsirkar çıxarmaq istəyirlər. Amma Allahlıq burada heç bir şey yoxdur, bunu insanlar özləri edir.
– Bir az da misallarla izah edə bilərsən?
– Olar. Bax, bizim dövlətimiz varmı? Var! Onun qanunları varmı? Var! Məmurlar bu qanunlara əməl edirlərmi? Yox, etmirlər! Bunun nəticəsində ölkədə zülm artır? Artır! İndi de görüm, ölkədə zülmün artmasında təqsirkar dövlətimizdir, yoxsa qanunlarımız?
– Yox, heç biri deyil, təqsirkar və günahkar cinayətkar məmurlardır!
– Afərin, bax məsələ tam olaraq məhz elə bu cürdür!
– Axı mən anlamıram, niyə azsaylı məmurun özbaşınalığına görə bütün xalq əziyyət çəkməlidir? Səbəb nədir?
– Səbəb... Səbəb bilirsən nə deməkdir?
– Hə, nəyinsə səbəbi. – Ariz cavab versə də çiyinlərini çəkdi, sual ona çox qəribə göründü. – Yaxşı, bilmirəm,

mən təslim.
– *Səbəb nəticənin hasil olması üçün lazım olan şərtlərdən biridir*.
– Bir az qəliz oldu, hoca, bunu bir az da açıqlaya bilərsən?
– Əlbəttə, bax, sənin dünyaya gəlişin bir nəticədir, atanla ananın nikahının nəticəsi, deməli, onların hər ikisi sənin nəticə olaraq hasil olmağın üçün lazım olan şərtlərdən biridir. İndi necə, aydındır?
– Deyəsən, hə. – Ariz gözlərini qıyıb deyiləni anlamaq üçün beynini işlədirdi.
– Sadə dillə desək, yumurtanın hasil olması üçün toyuq səbəbdir. İndi necə?
– Hə, bildim, indi daha asan oldu və əvvəlki misalınızı da tam anlamış oldum.
– Əla! Allah dünyada "səbəb-nəticə" qanununu təyin edib və dünya da bu qanunla tənzimlənir.
– Necə yəni? Allah qanun qoyub?
– Bəli, Allah hər şeyi yaradıb və tənzimlənməsi üçün qanunlar qoyub. Bax, - Ənvər hoca yerdən bir daş götürür, – bu daşı görürsən? Mənim bu daşı buraxmağım nəyə səbəb olacaq?
– Onun yerə düşməsinə.
– Daş nə səbəbdən yerə düşəcək?
– Cazibə qanununun işləməsi səbəbindən.
– Cazibə qanununu Nyuton kəşf edib, yoxsa icad edib?
– İcad edib.
– Xeyr, sən "kəşf" ilə "icad"ın fərqini bilmirsən.
– Onların fərqi var ki?
– Əlbəttə, var! Kəşf ona deyirlər ki, o əvvəlcədən də var olub, sadəcə insanların ondan xəbəri yox idi. Məsələn, Amerika qitəsinin kəşfi. İcad isə odur ki, əvvəlcə olmayıb, sonra kimsə onu düşünüb və edib. Məsələn, buxar maşınının icadı. İndi aydındır?

– Bəli, tam olaraq aydındır. Onda Nyuton cazibə qanununu kəşf edib.
– Bəli, kəşf edib. Yaxşı, bəs cazibə qanununu kim icad edib, kim təyin edib?
– Aa, aydındır, indi aydın oldu, əlbəttə ki, Allah.
– Əla, indi görürəm ki, sənə aydın oldu.
– Başa düşmədim, cazibə qanununun zülmlə nə əlaqəsi var ki?
– Zülmlə yox, “səbəb-nəticə” qanunu ilə əlaqəsi var. Cazibə qanunu maddi və fiziki qanundur, amma başqa qanunlar da var, məsələn, sosial və iqtisadi qanunlar, düzdür?
– Bəli, o tip qanunlar da var.
– Məsələn, Marksın tələb-təklifin qiymətə təsiri qanunu haqqında oxumusan?
– Bəli, tələb artanda qiymət artır və əksinə.
– Bəli, indi de görüm, bu qanun Marksın elə yazdığına görə işləyir, yoxsa qanun elə işlədiyinə görə Marks onu elə yazıb?
– Dayan, qoy bir fikirləşim. – Ariz yuxarı baxaraq çənəsini ovxalayır və fikirləşir. – Məncə, qanun elə işlədiyinə görə Marks bunu bu cür yazıb.
– Əhsən! Yavaş-yavaş anlayırsan, deyəsən. Onda sənə daha bir sual, bəs bu qanunu kim təyin edib?
– Aydındır, mənə çox gözəl bir metod öyrətdiniz, bu, gələcəkdə mənə düzgün təfəkkür etmək üçün kömək olacaq.
– İndi isə sosial sferadan da bir misal çəkim sənə. Ölkədə məmurlar özbaşınalıq edər, insanların haqqını tapdalayar və xalq da bunun müqabilində susarsa, hətta fərdlər belə öz hüquqları üçün mübarizə aparmazsa, ölkədə zülm artar, yoxsa azalar?
– Əlbəttə, artar, amma burada hansı qanun işləyir ki?
– *Zülm qarşısında müqavimət görməyəndə ərşə yüksəlir,*

bu qanun işləyir. Bu barədə demək olar ki, bütün mütəfəkkir və filosoflar yazıblar, bunu hətta uşaq da müşahidə edə bilər.

– Düzdür, istənilən ölkədə cinayətkarlıqla mübarizə aparılmasa, aləm bir-birinə dəyər, orada təhlükəsizlik olmaz, düzdür.

– Bax bütün bu qanunlar kimi "səbəb-nəticə" qanununu da Allah təyin edib. Bu qanun bizi hər yerdə əhatə edir, hər şey onun daxilindədir. *Nurun azalma səbəbi zülmətin artması ilə nəticələnir, tələbin artması səbəbi qiymətin artması ilə nəticələnir, müqavimətin olmama səbəbi isə zülmün artması ilə nəticələnir.*

– Bəs niyə insanların çoxu mənim düşündüyüm kimi düşünür, səbəbi Allahda görür?

– Bunun bir neçə səbəbi ola bilər. Məsələn, bəziləri cahillikdən, elmləri olmadıqlarına görə, digərləri isə məsuliyyəti öz üzərlərindən atmaq üçün.

– Cahilliyi bildik, bəs məsuliyyəti niyə öz üzərlərindən atsınlar ki?!

– Bunun da müxtəlif səbəbi ola bilər. Məsələn, bəziləri qorxduğuna görə, digərləri isə rahatlıqlarını əldən verməməyə görə, özlərini əziyyətə salmaq istəmirlər. Ən azından, ömrüm boyu müşahidə etdiklərim bunları deməyə mənə əsas verir. İndi necə, aydın oldu?

– Bəli, hoca, tam olaraq aydındır, bugünkü dərsiniz mənim anlayışlarımı alt-üst etdi, mütləq mənə bir az zaman lazımdır. Bir az düşüncələrimi qaydaya salım, yenə görüşək.

– Nə vaxt istəsən, Ariz, nə vaxt istəsən.

– Sabah, sabah görüşə bilərik?

– Niyə də yox, mən dəvəsi ölmüş ərəbəm, nə vaxt istəsən, gəl, – Ənvər hoca gülümsəyir.

Ariz onunla sağollaşaraq maşına əyləşib evinə gedir. Evə çatan kimi tez kompüterin arxasına keçir və "səbəb-

nəticə” qanunu haqqında araşdırmaya başlayır. Ariz sanki acından ölən adam kimi yeni bilgilər əldə etmək üçün axtarır, oxuyur, tez dəftərçəsinə qeyd edir. Onun qəribə davranışını görən Yeganə özünü saxlaya bilmir.

– Ariz, sənə nə olub, gözümə qəribə dəyirsən? Harada idin?

– Dəniz kənarında idim, maraqlı bir hoca ilə tanış olmuşam, iki gün ərzində o qədər maraqlı şeylər öyrənmişəm ki...

– Hocaların hansı maraqlı olmur ki? Onların hamısı müdriklik və kamillik zirvəsinə çatmış şəxslərdir, sadəcə biz ruhumuzu qaraltmışıq, üzərini qəsavət örtüb.

– Düzdür, – Ariz kompüterdən ayrılıb, diqqətli nəzərlərlə Yeganəyə baxdı, – dəniz kənarında mənə bir az hava dəyib, acmışam, yeməyə bir şey hazırla, süfrə arxasında sənə hər şeyi danışacam.

– Dur, dur get əllərini yu, yemək demək olar ki, hazırdır.

Onlar yenə ailəlikcə süfrə arxasında əyləşirlər, Ariz isə ağızdolusu Ənvər hoca barəsində danışır, onun öyrətdiyi şeyləri Yeganə ilə bölüşür. Yeganə də maraqla qulaq asır, Arizin Ənvər hocaya verdiyi eyni sualları verir, Ariz də özündən razı halda onlara növbə ilə cavab verir.

Yeməkdən sonra Ariz qızı Nərmin ilə həyətə düşür, Nərmin uşaqlarla oynayır, Ariz isə dəftərçəsinə qeydlər edirdi, bugünkü görüşdən öyrəndiklərini və sabahkı görüş üçün yeni sualları. Sabah bazar günü olduğundan evdə idi, bu fürsəti qaçırmaq istəmirdi, axı Ənvər hoca ilə növbəti görüşü gələn həftə sonuna qalacaqdı. Bəli, Ariz suallarına cavab tapırdı, amma hələ hamısına yox. Ona görə də Ənvər hoca ilə görüşə tələsirdi.

Ariz yenə dəniz kənarında idi, qayanın üzərində əyləşib dənizi seyr edirdi. Bəxtindən bu aralar havalar da pis keçmirdi. Ariz Ənvər hocanın son görüşdə dediyi bəhanələr

haqqında düşünürdü, ən çox da insanların qorxusu haqqında. İnsanlar niyə qorxmalıdır, nə üçün qorxmalıdır ki?! Bu nəyin qorxusu ola bilər ki, insanları məsuliyyətdən uzaqlaşdırsın? Bu sualları düşünərək dəftərçəsini nəzərdən keçirirdi ki, birdən Ənvər hocanın səsini eşitdi.

– Salam, Ariz! Necəsən, yenə nə düşünürsən?

– Salam, Ənvər hoca! – Ariz cəld hörmət əlaməti olaraq ayağa qalxdı. – Yaxşıyam, çox şükür, sən necəsən?

– Mənəm də, çalışıram ki, yaxşı olum.

– Hah, sözə bax e, çalışıram ki, yaxşı olum. Məgər yaxşı deyilsiz ki?

– Ariz, "yaxşı" məfhumu keyfiyyəti xarakterizə edir və onun müxtəlif kriteriyaları ola bilər. Müxtəlif mütəfəkkirlər və filosoflar "yaxşı" məfhumuna kriteriyalar veriblər, bu, onların subyektiv yanaşmasıdır.

– Bəs əsl kriteriya hansıdır?

– Əlbəttə ki, Allahın verdiyi kriteriyalardır, *əsas məsələ Allahın istədiyi şəkildə "yaxşı" olmaqdır.*

– Onda əsl kriteriyalar necə olmalıdır?

– Birincisi, qorxusuz olmaq, cəsarətli olmaq, Allahdan başqa heç kimdən qorxmamaq.

– Allahdan qorxmaq? Mən həmişə bu sual barədə düşünmüşəm, tez-tez müxtəlif hocaların bu barədə sosial şəbəkələrdə çıxışlarını da izləyirəm, onlar deyir ki, Allahdan qorxmaq lazım deyil, Onu sevmək lazımdır. Siz isə deyirsiz ki, Allahdan qorxmaq. Bunu necə başa düşüm?

– Yox, o cür qorxmaqdan söhbət getmir.

– Bəs nə cür bir qorxu? İzah edə bilərsən?

– Əlbəttə, bu dəqiqə! – Ənvər hoca üzünü geri çevirir, əli ilə uzağı göstərib: – Təsəvvür elə ki, bax orada bir aslan dayanıb, sən nə hisslər keçirərsən?

– Əlbəttə ki, qorxaram! – Ariz təlaşla geri çevrilib Ənvər hocanın göstərdiyi istiqamətə baxdı.

– Allah qorxusu bu qorxudan deyil, bunlar başqa-başqa qorxulardır.
– Bəs nə cür bir qorxudur Allah qorxusu?
– *Ölümdən sonra Onunla görüşəndə əməllərimizə görə cavab verə bilməmək qorxusu, Allah qorxusu bax budur.* Aydın olur?
– Möhtəşəmdir, hələ belə bir izah nə eşitmiş, nə də oxumuşdum. Bəs niyə digər hocalar bu barədə danışmırlar, insanları maarifləndirmirlər?
– Hansı hocaları deyirsən, Allah qorxusunu unudub, hakimiyyət qorxusu ilə yaşayan, bu hakimiyyətdən maaş alan hocaları deyirsən? – Ənvər kinayəli baxışlarla gülümsəyir.
– Hə, aydındır, hoca, artıq məsələ aydındır. Bəs onlar məgər sənin bildiklərini bilmirlər?
– Bilirlər, niyə bilmirlər ki? Çox gözəl bilirlər, hətta elələri var ki, elmdə mən heç onların əlinə su tökməyə belə yaramaram.
– Bəs elə isə niyə susurlar?
– Bəziləri qorxudan, bəziləri isə sadəcə təsvildədirlər.
– Nə, təsvil? O nədir?
– *Təsvil insanın özünü aldatmasıdır, saxta fakt və arqumentlə insan özünü doğru yolda olduğuna inandırır.* Məsələn, həmin hocalar fikirləşir ki, onlar həqiqətlərin hamısını deməsələr də, bəzilərini deməklə həm insanlara, həm də Allaha xidmət edirlər. *Allah özü kamil olduğu kimi ona xidmət də kamil olmalıdır, yarımçıq xidmət isə nəfsə xidmətdir.*
– Bəli, Allah kamildir, amma insanlar, cəmiyyətimiz kamil deyil axı.
– Düzdür, Ariz, sən düz deyirsən, amma sənin bu düz sözün bu mövzu ilə əlaqədar deyil. Kamil olmayan cəmiyyəti naqis xidmətlə kamilləşdirmək olarmı? İnsanlar gəldi-gedərdir, əbədi və əzəli olan isə Allahdır,

əsas hədəf Allaha xidmət olmalıdır, nəinki cəmiyyətə. İnsanların razılığını qazanmağa çalışan hər iki dünyada bədbəxt olar, Allahın razılığını qazanmaq istəyən isə bu dünyada müvəffəq olmasa da, o dünyada hökmən müvəffəq olacaq. İndi fərqi görürsən?

– Bəli, hoca, fərq böyükdür! Bəs digər hocalar ölümü və Allahla qarşılaşacaqlarını bilmirlər?

– Bilirlər, niyə bilmirlər ki?! Bəs bayaq dedim axı, onlar təsvildədirlər, özlərini aldadırlar, yalnız özlərini. Onlar bu gedişlə Allahı da aldadacaqlarını düşünürlər, amma heç məni aldada bilmirlər. – Ənvər hoca başını yelləyərək gülümsəyir. – Onları təsvilə tərəf bir az da meyilləndirən qorxularıdır.

– Onlar nədən qorxurlar ki?!

– Necə yəni nədən, əlbəttə, hakimiyyətdən!

– Onu bildim, hakimiyyətdən niyə qorxurlar ki?

– Həbs, işdən çıxarılma, maaşın kəsilməsi və s. səbəblərə görə qorxurlar.

– Maddiyyat...

– Bəli, amma təkcə o deyil, bəziləri məşhurdur, ianələrdən yaxşı pul toplayırlar, məclislərə gedəndə insanlar onlar üçün ayağa qalxır, bahalı maşınlarda gəzirlər. Düşünürlər ki, ağrımayan başlarını niyə ağrıtsınlar ki?!

– Yaxşı, bunları bildik, bəs qorxudan necə yaxa qurtarmaq olar?

– Həqiqəti dərk edərək, başqa yol yoxdur.

– Sən mənə danışdıqca həqiqətləri dərk edirəm.

– Xeyr, sən həqiqəti yalnız başa düşürsən, mən isə dərk etmək deyirəm. Bunlar başqa-başqa şeylərdir, aralarında böyük fərq var.

– Həmin fərqi misalla izah edərsən?

– Əlbəttə, bax, sənə deyilir ki, maşını sürəndə təhlükəsizlik kəmərini bağlamaq lazımdır. Sən bunu

başa düşürsən, burada çətin heç bir şey yoxdur. Amma maşına oturduğun zaman təhlükəsizlik kəmərini "çık" edib taxırsansa, bax bu artıq dərketmənin əlamətidir. Qısaca, *dərketmə başa düşülənin tətbiq edilməsidir,* indi aydın oldu?

– Bəli, tam olaraq aydın oldu, əla izah idi. İndi qorxuya qalib gəlmək üçün hansı həqiqətləri dərk etməliyəm?

– Bu dünyanın fani olduğunu, gec-tez öləcəyini, Allahla görüşəcəyini dərk etməlisən.

– Bu yolda mənə bir az kömək lazımdır, mövzunu bir az da aça bilərsən?

– Əlbəttə, mən sənə sadə suallar verəcəyəm, cavabı özün tapacaqsan. Yüz il bundan əvvəl bu dünyada var idin?

– Xeyr, yox idim.

– Bəs yüz il sonra bu dünyada olacaqsan?

– Xeyr, inanmıram ki, mən o qədər uzunömürlü olam, xeyr, olmayacağam.

– Sən mütləq bir gün öləcəksən?

– Bəli, hamı öləcək!

– Yox, sən hamını bura qatma, özündən danış!

– Bəli, mən mütləq öləcəyəm!

– Deməli, bu həyat müvəqqətidir, fanidir, eləmi?

– Bəli, elədir, hoca, bu dünya müvəqqəti və fanidir.

– Elə isə bu həyatı necə yaşamaq lazımdır?

– Necə lazımdır?

– Səni sən yox ikən bir damcı sudan xəlq edən, sonra da sənə ölümü göndərəcək Allahın səndən istədiyi şəkildə!

– Bu bir az ağır oldu, bir az dayan, beynim dediklərini həzm etməyi çatdıra bilmir.

– İstəyirsənsə dur bir az gəz, kömək edər.

– Yox, hər şey yaxşıdır. – Ariz dəftərçəsinə qeydlər edərək cavab verir. – Sən davam elə, konkret olaraq necə yaşamaq?

– Qorxusuz yaşamaq, ləyaqətlə yaşamaq, hər addımında, hər seçimində Allah qarşısında daşıdığın məsuliyyəti düşünərək yaşamaq!
– Bunlar necə əldə olunur?
– *Qorxusuz yaşamaq üçün cəsarətli olmaqla, ləyaqətli olmaq üçün ali dəyərləri, Allah rizasını beş günlük dünyaya satmamaqla, məsuliyyətli olmaq üçün isə özünü hər gün hesaba çəkməklə...*
– Bunlar o qədər də asan işlər deyil.
– Bəli, bu əsl cihaddır!
– Nə, cihad, kiminlə cihad?
– Nəfslə cihad! Bax, "cihad" sözünün kökü "cəhd"dir, sən bütün bunlara nail olmaq üçün cəhd etməlisən, ciddi cəhd, əzəmət göstərməlisən, bunlar elə də asan şeylər deyil, bilirəm, amma Allah insana çəkə bilməyəcəyi yükü də yükləməz. Bütün bunlar elə insan üçündür. "Cihad" sözü də səni qorxutmasın, insan bütün sahələrdə yalnız ciddi cəhd göstərməklə uğur əldə edə bilər, məsələn, iqtisadiyyatda, elmdə, siyasətdə, mübarizədə, sənətdə və s.
– Çox sağ ol, indi məsələ mənə xeyli aydın oldu. Qorxudan qurtulmağın konkret olaraq hansı yolu var?
– İki yolu var, nəzəri və təcrübi. Nəzəri yolu tez-tez ölüm haqqında fikirləşmək, ətrafında olan insanların, malın, dünyanın və hər şeyin yox olacağı barədə düşünmək, tez-tez qəbiristanlığa gedərək orada yatan insanların qəbirlərinə baxmaqdır.
– Qəbiristanlığa getmək də təcrübi yoldur?
– Yox, o da nəzəri yoldur.
– Bəs təcrübi yol necədir?
– Bir gün evdə tək olanda evin ortasında uzan və öldüyünü zənn et. Bir müddət sonra qalx və kənarda oturub baş verəcək hadisələri təsəvvür et. Ailən necə gəlib sənin öldüyünü görmələrini, tez qohum-qardaşa

xəbər etmələrini, onların sizə yığışmalarını, səni xalçaya büküb mürdəşirə aparmalarını, orada sənin meyitini necə yumalarını, sonra səni necə qəbrə qoymalarını və üstünü örtmələrini təsəvvür et.

– Dəhşət! – Arizin qorxudan gözləri bərəlmişdi, bir az da canına üşütmə düşmüşdü. – Bunları necə sakit təsəvvür etmək olar?

– Kim dedi ki, sakit təsəvvür edəcəksən? Eh, əgər təsəvvür qabiliyyətin güclüdürsə, o qədər ağlayacaqsan ki...

– Düzdür, razıyam, belə çətin bir prosesi sakit halda təsəvvür etmək çətin olar.

– Sən çalış elə təsəvvür edəsən ki, sanki bütün bu proseslər reallıqda baş verir, sən də onları müşahidə edirsən. Yalnız o zaman sən qorxudan qurtula bilərsən.

– Oldu, mən növbəti həftə ərzində dediklərini dərk etməyə çalışacağam, gələn dəfə isə başqa mövzuları müzakirə edərik.

– Hansı mövzuları?

– Ləyaqət və məsuliyyət mövzularını.

– Olar, gələn həftə mən yenə gələcəyəm, əlbəttə, ömür vəfa edərsə...

Ariz Ənvər hoca ilə sağollaşaraq evə gedir. Növbəti həftə ərzində o, Nigarın biliklərini təkmilləşdirməsi ilə yanaşı həqiqəti dərk etməyə də vaxt ayırır. Ənvər hocanın dediyi ölüm prosesini də təsəvvür edir, gözlərinin qarşısında canlandırır və onu ruhən yaşayır. Bu təcrübi metoddan sonra Ariz artıq dünyaya başqa cür baxmağa başlamışdı, onda dəyişikliklər baş verirdi. İndi o öz ətrafına daha çox diqqətli idi, hamının dərdi ilə maraqlanır və hamıya kömək etməyə tələsirdi.

Nəhayət ki, Arizin gözlədiyi şənbə günü gəlmişdi, yubatmadan dəniz kənarına gəlmiş və qayanın üzərində oturaraq yenə dəftərçəsinə qeydlər edirdi.

– Salam, Ariz! Yenə nə düşünürsən? – Ənvər hoca artıq gəlmişdi.
– Salam, ustad! Olar sənə “ustad” deyim? – Ariz yerindən qalxaraq hocanı salamladı.
– Əyləş, Ariz. Niyə mənə ustad demək istəyirsən ki?
– Sən mənə həyat dərsi verirsən, heç bir məktəbdə və universitetdə verilməyən dərsi. Bu, yalnız ustadların işidir.
– Nə deyirəm ki, əgər məni ustad kimi görürsənsə və bu sənin üçün xoşdursa, qoy olsun, mənə ustad de, amma əsas məsələ mənim öyrətməyim yox, sənin öyrənməyindir. Mən yalnız sənin ləyaqətli yaşamağı öyrənəcəyin halda ustad ola biləcəyəm, üzərinə məsuliyyət götürürsən. – Ənvər hoca gülümsəyərək Arizin reaksiyasını izləyirdi.
– Halaldır, ustad, keçən dəfə yarımçıq qalmış mövzulara toxundun.
– Bəs ustad belə olmalıdır da... – Hər ikisi gülümsəyir.
– Allah səndən razı olsun, ustad!
– *Allahın razılığı – ləyaqətli yaşayışın əsl hədəfi də elə bu olmalıdır.*
– Allahın razılığını necə əldə etmək olar?
– Elə ləyaqətli yaşayışla, – Ənvər hoca gülümsəyir.
– Yaxşı, bəs onda necə ləyaqətli yaşayaq?
– Bunun üçün əvvəlcə başqa insanların ləyaqətli olduğunu qəbul edəcək və onların ləyaqətini qoruyacaqsan.
– Necə? Bir misalla izah edərsinizmi?
– Əlbəttə, bütün insanları Allah yaradıb, onlara bu dünyanın nemətlərindən yararlanması üçün şərait yaradıb. Hazırda Andaluniyada bir çox insan Allahın onlar üçün ayırdığı ruzi və şəraitdən yararlana bilmir, onların haqqı pozulur. Ölkəmizdə insan hüquqları hər bir sahədə pozulur, tapdalanır.

– İnsan hüquqları? Hansı insan hüquqları, Avropada cinsi azlıqları dəstəkləyən insan hüquqları nağılı? – Ariz istehza ilə gülməyə başlayır.
– Bir dəqiqə dur! – Ənvər hoca sərt reaksiya verir, Arizin gülüşü üzündə donur.– Bu tərz yanaşmanı kimdən öyrənmisən?
– Keçən həftə sosial şəbəkələrin birində bir hoca bu barədə danışırdı, deyirdi ki, "Avropa insan hüquqları nağılı ilə cinsi azlıqları dəstəkləyir". Məgər düz demir? Avropa insan hüquqları adı ilə cinsi azlıqları dəstəkləmir?
– Vay olsun belə hocanın halına, vay! Sən heç bilirsən insan hüququ nədir?
– Belə bilirəm, ustad, amma sən geniş izah etsən, daha yaxşı bilərəm.
– Birinci "hüquq" kəlməsinə baxaq. *İnsanın yaranmış şəraitdən istifadə etmək imkanına hüquq deyilir. Hüquq özü iki yerə bölünür, təbii hüquq və dövlət tərəfindən tanınan hüquq.* Təbii hüquq heç bilirsən nədir?
– Sözün açığı, mən heç hüququn tərifini bilmirdim, onu necə bilim?!
– Təbii hüquq bizim fitrətimizə bağlı olan hüquqdur, yəni biz var olduqca həmin hüquq da var.
– Ustad, misalla izah edə bilərsən?
– Allahın insana hələ o, anasının bətnində olduğu zaman verdiyi "yaşamaq", "sağlamlıq" və "qida" hüquqları təbii hüquqlardandır, insan doğulan kimi ona verilən "azadlıq" hüququ da təbii hüquqdur. Yəni insan hüquqlarının bir hissəsi Allah tərəfindən insana verilmiş hüquqdur! Belə olduğu halda həmin hoca hansı cəsarətlə Allahın bəxş etdiyi hüququ "nağıl" adlandıra bilər?
– Ustad, bəs Avropadakı cinsi azlıqlara da hüquq verilir axı, – Ariz təkidlə dedi.

– Bəli, elədir, amma fərq var, böyük bir fərq! Sən heç statistikaya baxmısan? Cinsi azlıqlar dünya əhalisinin neçə faizini təşkil edir?
– Yox, statistikaya baxmamışam, xəbərim yoxdur.
– Keçən il üçün 27 ölkədə keçirilmiş monitorinqə görə cinsi azlıqlar on səkkiz yaş həddi üzərində olan dünya əhalisinin cəmi bir faizini təşkil edir. İndi insafla de, bir faizə görə yerdə qalan insanların Allah tərəfindən verilmiş hüquqlarını "nağıl" adlandırmaq olarmı?
– Yox, ağıl insana deyir ki, azlığa görə çoxluğun hüquqlarından imtina etmək olmaz! Yaxşı, bəs niyə həmin hoca belə danışırdı?
– Deyəsən, keçən görüşümüzdə danışdıqlarımızı unutmusan. Hocaların, xüsusilə sosial şəbəkələrdə populyar olan hocaların əksəriyyəti hakimiyyətin onlara verdiyi istiqamət üzrə fəaliyyət göstərirlər. Gör bir ha, bütün xalqın hüquqlarını "nağıl"a döndərmək üçün əllərində birfaizlik cinsi azlıqları bayraq edirlər. İndi Allah bu məmləkətə necə bərəkət versin?
– Bəs bayaq demədin ki, hər kəsə ruzini verən Allahdır?
– Bəli, dedim, amma ruzi başqa şeydir, bərəkət başqa şey.
– Onları da misalla izah edərsən?
– Əlbəttə, bir qoyun ildə neçə dəfə bala verir və hər dəfə neçə balası olur?
– İki dəfə balalayır, hər dəfə bir və ya iki bala.
– Bu, bir il ərzində maksimum dörd bala edir, düzdür?
– Bəli, düzdür.
– Bəs it ildə neçə dəfə balalayır, hər dəfə neçə bala verir?
– İt ildə iki-üç dəfə balalayır, hər dəfə altı və ya səkkiz bala.
– İl ərzində minimum on iki bala edirmi?
– Bəli, çox edər ki, az etməz.
– Qoyunları insanlar kəsib yeyir, onları bəzən qurd

və ayı da yeyir, amma itləri kəsib yeyən yoxdur. Buna baxmayaraq, ətrafda xeyli sayda, sürülərlə qoyun görmək olur, amma o qədər it görmək olmur, düzdür?
– Bəli, ustad, düzdür.
– Bax bərəkət də elə budur. İndi aydın oldu?
– Bəli, tam aydın oldu, möhtəşəm misallar çəkirsən, ustad, qaranlıq heç nə qalmır.
– Əla! İndi qayıdaq hüquq məsələsinə, hüquq müqəddəsdir, çünki mənbəyi Allahdır, bəli, bəzi ölkələrdə bəzi insanlar hüquqdan sui-istifadə edir, amma bu o demək deyil ki, hüquq özü pisdir və ya nağıldır. İnsan hüquqlarının tapdanması cəmiyyətdə fəsadlara səbəb olur, ona görə də hamı, tamamilə hamı həm öz hüququnu, həm də digər insanların hüquqlarını qorumalıdır!
– Hüququn pozulması hansı fəsada və necə səbəb olur?
– Xatırlayırsansa, dünyada sosial qanunların olduğunu demişdim, yadındadır?
– Bəli, xatırlayıram, səbəb-nəticə qanununu da xatırlayıram.
– Əla! İnsan varsa, deməli, yaşamalı və bunun üçün də qidalanmalıdır. Yaşamaq və qida üçün işləmək lazımdır, çünki iş səbəb, qida isə nəticədir. Bax, ölkəmizdə insanların ən əsas hüquqlarını, qida və yaşamaq hüquqlarını təmin etmək üçün belə şərait yoxdur, bu səbəbdən insanların əsas hüquqları pozulur. Əgər insan qidalanmaq üçün lazım olan pulu işləməklə əldə edə bilmirsə, onda oğurluğa, narkotik maddələrin satışına və fahişəliyə üz tutur. Diqqətlə ətrafa baxanda sən bu fəsadları görürsənmi?
– Bəli, ustad, görürəm və dərk edirəm, hətta onunla mübarizə aparmağa da cəhd edirəm, əlbəttə, gücüm çatdığı qədər.
– Əla! Səninlə işim lap asan olacaq! Niyə mübarizə aparırsan?

– Çünki həmin insanların bu cür həyat tərzinə layiq olmadığını hesab edirəm.
– Əhsən! Görürsən, əslində ləyaqətin nə olduğunu şüuraltı səviyyədə dərk edirsən, indi onu üzə çıxarmaq lazımdır.
– Mən buna çox sevinirəm, ustad! Bu, mənim üçün çox əla bir xəbər oldu!
– İndi isə məsuliyyət barədə danışaq, hazırsan, yoxsa gələn görüşümüzə saxlayaq?
– Yox, ustad, elə indi danışaq, mümkünsə.
– Olar, mənim vaxtım var. *Əvvəlcə "məsuliyyət" sözünün mahiyyətinə baxaq. "Məsuliyyət" sözünün kökündə "sual" sözü var. Məsuliyyət, yəni hər hansı bir şey barədə sorğu-sual olunmağın.*
– Aydındır, məsələn, ölkədəki fəsadlar barədə hakimiyyətin sorğu-sual olunacağı kimi?
– Qismən, amma təkcə hakimiyyət məsuliyyət daşımır, hamı məsuliyyət daşıyır, sən də, mən də.
– Biz də? Biz niyə məsuliyyət daşımalıyıq ki? Bunu da, mümkünsə, bir misalla izah edərsən, ustad?
– Əlbəttə, təsəvvür elə ki, biz hamımız bütün Andaluniya xalqı ilə birlikdə bir gəmidəyik. Gəminin idarəsi bir qrup başıpozuq adamın əlindədir və onlar gəmini deşməyə başlayırlar. Gəminin deşilməsi bütün xalq üçün təhlükə yaradacaq və ailəmiz də daxil olmaqla hamının həlakına səbəb olacaq. Sən və mən isə ailəmizə görə məsuliyyət hiss edərək, onların gəmini deşməsinə mane olmağa çalışmalıyıq. Əks halda Allah bizə "niyə onlara mane olmadınız" sualını verəndə biz nə cavab verəcəyik? Ailəmiz üçün məsuliyyət daşıdığımız halda necə ola bilər ki, bütün xalq üçün məsuliyyət daşımayaq? Belə olarmı?
– Xeyr, olmaz, amma burada vəziyyət başqadır, gəminin deşilməsini hamı görə bilər, amma ölkədəki fəsadı

hamı görmür, belə olduğu halda isə təkbaşına mübarizə aparmaq mümkünsüzdür.

– Mümkünsüz heç nə yoxdur, bəli, çətindir, çox çətindir, amma mümkündür.

– Bunun mümkünlüyünü mütləq müzakirə etməliyik, amma sabaha saxlayaq.

– Olar, sabah mən yenə də gələcəyəm.

Ariz ustadı ilə sağollaşaraq evə gedir, ondan eşitdikləri, söhbətlərindən qeyd etdikləri barədə düşünməyə başlayır. Ariz başa düşürdü ki, ustadı ona indiyə qədər bilmədiyi şeyləri öyrətdikcə onun məsuliyyəti artır. Bəli, Ariz artıq bu məsuliyyətin ağırlığını öz çiyinlərində hiss etməyə başlamışdı. Ariz uzun, keşməkeşli, amma şərəfli bir yolun başında olduğunu hiss edirdi.

Budur, səhər Ariz yuxudan tez ayılır, Yeganə və Nərmini narahat etməmək üçün sakitcə yerindən qalxır, əl-üzünü yuyur və həyətə düşür. Məhəllə dükanından səhər yeməyi üçün çörək və qızını sevindirmək üçün şokolad alır. Bəs necə, axı Nərmin atasının şirin qızıdır. Ona nə isə hədiyyə edildikdə üzündə yaranan sevinci seyr etmək Arizə həyatın çətinliklərini unutdururdu.

Ariz evə dönəndə artıq Yeganə də, Nərmin də oyanmışdılar, Nərmin atasının əlində şokoladı görən kimi tez yanına qaçıb, üstünə atılaraq onu qucaqladı. Ailəliklə əyləşib səhər yeməyini yedilər. Ariz isə ailəsini seyr edir və Ənvər hocanın dünən ona danışdığı “gəmi misalı”nı düşünürdü. Bəli, o, artıq bu fəsadın gec-tez ailəsinə, sevimli həyat yoldaşına və qızına toxunacağını dərk edirdi. Ariz artıq başa düşürdü ki, mütləq ölkədəki bu zülmlə mübarizə aparmaq lazımdır. Amma necə? Hə, bu sualının cavabını o, bu gün Ənvər hocadan almalı idi. O, tez-tez saatına baxır və ustadı ilə görüş vaxtının tez gəlməsi üçün zamanı tələsdirmək istəyirdi.

Günortadan sonra yenə Ariz dəniz kənarında idi, o,

yenə qayalar üzərində oturaraq düşünürdü. Amma bu dəfə özünü fərqli hiss edirdi, sanki döyüşə hazırlaşırdı, Roma kolizeyində döyüşəcək əsl qladiator kimi. Amma necə döyüşəcəyini, hücum və müdafiə taktikasını necə quracağını bilmirdi. Bu qeyri-müəyyənlik onu qorxudurdu, amma Ənvər hocanın qorxunu dəf etmək barədə verdiyi məsləhəti də unutmurdu, o, tez-tez öz-özünə "*torpaqdan gəlmişik, torpağa da dönəcəyik, əsas nə qədər yaşamaq yox, necə yaşamaqdır!*" cümləsini təkrarlayırdı. Birdən:

– Ölüm son deyil! – deyən Ənvər hocanın səsi onu yenə düşüncələrindən ayırdı.

– Salam, ustad! – Ariz cəld ayağa qalxdı.

– Salam, Ariz, əyləş, – Ənvər hoca da qaya üzərində əyləşir.

– Sən haradan bildin ki, mən ölüm haqqında düşünürdüm? – Ariz təəccüblü halda soruşdu.

– Düşüncə zamanı zahirən və ruhən yaşadığın haldan bildim. Unutma, mənim kifayət qədər təcrübəm var, – Ənvər hoca gülümsəyir.

– Elədir, məhz elə həmin təcrübən sayəsində mənim kimi kələ-kötür bir kötüyü rəndələyib adam edirsən, – Ariz də gülümsəyir. – Əlbəttə, ölüm son deyil.

– Amma bunu unutmamalısan, əsla və heç vaxt unutmamalısan! Oldu?

– Baş üstə, ustad! Unutmaram! Bunun da hikmətini mənə açıqlasan, lap əla olar.

– Bu, çox sadədir, *əgər sən bilsən ki, hər şey bu həyatla bitmir, onda şücaətin və cəsarətin sənə qorxunu üstələməyə kömək edəcək, sən sadəcə məğlubedilməz olacaqsan!* Sən məğlubedilməz olmaq istəmirsən?

– Əlbəttə, istəyirəm, elə bugünkü görüşə gəlməyimin də əsas səbəbi məhz budur. Mən artıq dərk edirəm ki, ölkədəki zülmlə mübarizə aparmaq lazımdır, elə bir mübarizə ki, öncədən məğlub olmayacağını biləsən.

Onun sirlərini və yollarını mənə öyrətməyini səndən xahiş edirəm.
– Sən çox ağır, amma şərəfli bir yola qədəm qoyacaqsan, bunun sirlərini sənə öyrətmək də mənim borcumdur, amma bu halda artıq mübarizə aparmaq sənə vacib olacaq. Sən bundan boyun qaçıra bilməyəcəksən, anlayırsan?
– Bəli, bu işin məsuliyyətini tam olaraq dərk edirəm. İnan ki, sən mənimlə fəxr edəcəksən, ustad.
– Mən artıq səninlə fəxr edirəm, Ariz, – Ənvər hoca ruha işləyən bir təbəssümlə Arizin üzünə baxır. – Elə isə onda başlayaq.
– Başlayaq? Haradan başlayaq, ilk addım nə olacaq?
– İlk addım sənin niyyətin olacaq, sənin niyyətini müəyyən etməliyik. Bu mübarizəni başlamaqda niyyətin nədir?
– Ölkədə ədalətin bərqərar olması, əsas niyyətim budur.
– Nə üçün ölkədə ədaləti bərqərar etmək istəyirsən ki?
– Necə yəni nə üçün, əlbəttə ki, vətənim və xalqım üçün.
– Hansı vətən, hansı xalq? Bu müvəqqəti dünyadakı fani vətən və xalq üçün?
– Hə, anladım, ustad, Allahın razılığını qazanmaq üçün, əsl səbəb budur əslində!
– Əhsən sənə, Ariz!
– Əhsən ustadıma! – Ariz utandığından başını aşağı salaraq gülümsəyir.
– Bəli, sənin niyyətin fani və müvəqqəti varlıqlara bağlı olmamalıdır, əbədi və əzəli bir varlığa bağlı olmalıdır. Yalnız o halda sənin niyyətin ali ola bilər, o da əgər sapmasan...
– Sapmasam? Yəni sapma da ola bilər?
– Elə bilirsən ki, niyyətini müəyyənləşdirəndən sonra hər şey asan olacaq? Heç də yox, sən bir çox ağlagəlməz imtahanlardan keçəcəksən. Onlara hazır olmalısan,

başa düşürsən?
– Bəli, mən nə dediyini təxmin edirəm, ustad, amma haradan başlayacağımı hələ də bilmirəm.
– İlk öncə sən tanınmalısan, sənin siman, səsin və xalis niyyətin tanınmalıdır.
– Bunu necə etmək olar? Mən mahnı oxumalıyam, müğənni olmalıyam? – Ariz təəccüblə soruşur.
– Yox, ay Ariz, yox, nə müğənnisi? – Ənvər hoca gülümsəyir. – Sən siyasi mübarizəyə başlayacaqsan, meydana atılacaqsan.
– Nə, siyasət? Ustad, siyasət çox pis və çirkin bir şeydir, məni o çirkaba bulaşdırma, xahiş edirəm.
– Elə şey yoxdur, siyasət çox ali və müqəddəs bir sahədir. Sadəcə sən onu pis və çirkin bilirsən. Deyə bilərsən, niyə siyasəti elə bilirsən?
– Baxıram və görürəm də, siyasətçilər yalan danışır, məkr işlədir, satılır, ikiüzlülük edir, bunlar məgər yaxşı şeylərdir?
– Bax, Ariz, siyasəti bu günə qoyan elə hakim komanda olub.
– Necə?
– Çox sadə! Seçkidən əvvəl xalqa vədlər verib sonra aldadıblar, müxalifəti pulla ələ alıb, sonra ifşa ediblər, ziyalıları bir qab yalla danışdırıblar və s. Belə olduğu halda da insanlarda təbii olaraq siyasətə qarşı nifrət yaranıb, çünki onlar hələ xalis niyyətli, sözü ilə əməli üst-üstə düşən bir kəsi görməyiblər!
– Bəs onda əsl siyasət nədir? – Ariz maraqla soruşdu.
– Siyasətə iki tərif verə bilərik, ümumi və xüsusi. Ümumi tərif belədir: *Qarşıya qoyulmuş hədəfə çatmaq üçün aparılan fəaliyyətə siyasət deyilir.* Xüsusi, politoloji mənada isə siyasətin tərifi belədir: *Hakimiyyətin əldə olunması və hakimiyyətin qorunması istiqamətində aparılan fəaliyyətə siyasət deyilir. Əgər aparılan siyasət*

*milli maraqlara və xalqın mənafeyinə uyğun olarsa, bu ali və müqəddəs siyasət olacaq. Əgər aparılan siyasət yalnız bir qrup insanın şəxsi mənafeyi və maraqlarına uyğun olacaqsa, onda bu, pis və çirkin, murdar siyasət olacaq*. Bizdə illərdir ki, bu cür murdar siyasət yürüdülüb, heç təəccüblü deyil ki, sənin kimi ziyalı bir adam bu siyasətdən iyrənir. İndi aydındır?

– Aydındır, bəs bu qədər hiylə və məkrin arasında mən niyyətimi necə qoruyacağam, bu yolda necə sabitqədəm olacağam?

– Bax bu da sənin imtahanın olacaq, sənin fərasətindən asılı olacaq.

– Yaxşı, mən əlimdən gələni edəcəyəm, amma haradan başlamalı, necə tanınmalıyam?

– Bax, Ariz, üzü payıza doğru ölkədə seçkilər olacaq, parlamentə deputat seçkiləri, sən öz namizədliyini irəli sürəcəksən, aydındır?

– Seçkilərə? Hansı seçkilərə, on illərdir saxtalaşdırılan seçkilərə? Bir seçkinin ki nəticəsi əvvəldən bəllidir, onun nəyinə qatılım, niyə namizədliyimi verim? Axı heç şans yoxdur, nəticə də olmayacaq! Bu ki vaxt və pul israfı olacaq, elə həmin vaxtı və pulu başqa işlərə sərf edərəm də, – Ariz təəccüblə Ənvər hocadan aydınlıq gətirməsini gözləyirdi.

– Düzdür, həmişə saxtalaşdırılıb, bu dəfə də saxtalaşdırılacaq, amma sən yenə də namizədliyini verəcək və seçkidə aktiv iştirak edəcəksən!

– Yəni deyirsən ki, olimpiada şüarı kimi “əsas qələbə deyil, iştirakdır”?

– Demək olar ki, amma tam deyil. Bax, sən bu seçkidə uduzsan da, yəni seçki saxtalaşdırılsa da xalq səni tanıyacaq və sən siyasi arenanın düz ortasına atılacaqsan. Sən heç bilirsən ki, siyasi arenaya daxil olmaq necə çətindir? Bir çox insan həmin arenanın

elə kənarında, ora daxil olmadan həyatını başa vurur. Səndə isə elə olmayacaq!

– Niyə məndə fərqli olacaq ki?

– Əvvəla, sənin niyyətin xalis, özün isə cəsarətli və şücaətli olacaqsan, xalq səni elə ilk gündən o cür tanıyacaq. İkincisi, bu vaxta qədər demək olar ki, hamı seçkilərdən sonra siyasi arenadakı fəaliyyətini bu və ya digər səbəblərdən saxlayıb və yarımçıq qoyub, sən isə sona qədər gedəcəksən!

– Sona qədər, yəni ölümə qədər?

– Məgər ölüm sondur ki? – Ənvər hoca gülümsəyərək cavab gözləyir.

– Xeyr, ölüm son deyil!

– Deməli belə, sən seçkilərə qoşulacaqsan, seçki saxtalaşdırıldıqdan sonra hüquqi müstəvidə, məhkəmələrə müraciət etməklə mübarizəni davam etdirəcəksən, hətta Avropa İnsan Haqları Məhkəməsinə də müraciət edəcəksən. Bütün bu prosesləri də ictimaiyyətlə bölüşəcəksən ki, xalq sənin simanda bir mübarizlik, cəsarət və qətiyyət görsün.

– Axı məhkəmələr də nəticə verməyəcək.

– Niyə səni nəticə narahat edir ki?

– Necə yəni niyə? Bəs mən niyə seçkilərə qatılıram? Nəticə lazım deyilsə, elə yerimdə oturaram da.

– Aydındır, Ariz, sənə nəticə lazımdır, amma deputat olmaq nəticəsi yox, ölkəyə ədalət gətirmə nəticəsi.

– Guya həmin nəticəyə çatacağım dəqiqdir ki?

– Ariz, səhv etmirəmsə, mən sənə “səbəb-nəticə” qanunu haqqında danışmışam, düzdür?

– Bəli, düzdür, xatırlayıram.

– Elə isə, bil ki, ölkəyə ədalətin gəlməsi nəticəsi bir çox səbəblərin cəm olmasından meydana gələcək, amma sən həmin səbəblərdən biri olmalısan! Aydındır?

– Bəs digər səbəblər?

– Digər səbəblər isə xalqın səni dəstəkləməsi, hakimiyyətin zülmünün artması, insanların sənə etibar etməsi, səndə xilaskar obrazını görməsi və s. Səbəblər çoxdur, amma sən öz vəzifənə, roluna görə məsuliyyət daşıyırsan. Sən öz işini görəcəksən, yerdə qalan ilə işin olmasın, səni heç kim başqasının passiv olmasına görə günahlandırmayacaq, sorğu-sual etməyəcək.
– Aydındır, ustad, indi daha çox aydındır. Mən öz üzərimə düşəni yerinə yetirəcəyəm və digər səbəblərin də meydana gəlməsini gözləyəcəyəm, düz başa düşdüm?
– Düzdür, amma naqisdir! Sən öz vəzifəni layiqincə yerinə yetirəcəksən və digər səbəblərin cəm olması üçün də nüvəni formalaşdıracaqsan.
– Bəs nüvəni necə formalaşdıracam?
– Əgər niyyətində xalis və sabit olsan, insanları heç vaxt xəyanət etməyəcəyinə inandırsan, həmin nüvə özü formalaşacaq, insanlar özləri sənə tərəf gələcək.
– Yəni bu vaxta qədər elə bir insan ortaya çıxmayıb?
– Xeyr, çıxmayıb, məhz elə ona görə də hakimiyyət bu gün necə istəyirsə, o cür də hökm edir, cəmiyyət isə birləşə bilmir.
– Axı insanlar niyə birləşməlidir ki? – Ariz çiyinlərini çəkir.
– Ariz, insan ictimai varlıqdır, digər heyvanların əksəriyyəti kimi. Heç müşahidə etməmisən, aslanlar, canavarlar, qoyunlar, isti diyarlara köç edən quşların hamısı cəm şəkildə, sürü və dəstələrlə ov edirlər, hərəkət edirlər. Təşkilatlanmış və cəm şəkildə hərəkət etmək əslində insanın fitrətindədir, sadəcə insan eqoizmə qapılaraq fərdləşib, yalqızlaşıb, bununla da o, despotik hakimiyyətlərin timsalında qurda-quşa yem olub. Necə ki heyvanlar ləyaqətli və bacarıqlı həmcinslərinin ətrafında toplaşır, eynilə insanlar da elə etməlidir, sadəcə onları bu keyfiyyətlərinə əmin

etməlisən.

– Səncə, məndə alınar?

– Alınar nədir? Artıq alınıb! Məgər mən boş yerə bu qədər insanların arasından səni seçmişəm? Sən heç bilirsən ki, mən neçə illərdir ki, yurdumdan didərgin düşərək buralara gəlmişəm. Səni, bəli, məhz səni tapmaq üçün illərimi sərf etmişəm!

– Niyə məni? – Ariz təəccübünü gizlədə bilmir. – Məgər məndə həmin keyfiyyətləri görürdün?

– Bəli, həmin keyfiyyətlərin hamısının qığılcımını səndə görürdüm və bu müddət ərzində həmin qığılcımın necə alışdığını da müşahidə edirdim. Həmin qığılcımları hər yeri bürüyəcək alova çevirmək də sənin özündən asılıdır!

– Təşəkkür edirəm, ustad, xoş sözlərinə görə!

– Bunlar sadəcə xoş sözlər deyil, həqiqətdir! Əslində mən sənə təşəkkür edirəm! Sən mənə missiyamı tamamlamaqda kömək etdin. İndi mən rahat öz kəndimizə qayıda bilərəm, bu bizim son görüşümüzdür.

– Necə yəni son görüş? Bəs məni kim başa salacaq, kim yol göstərəcək?

– Əsas şeyləri mən sənə izah etdim, bu görüşümüzün sonuna qədər də nəyi çatdıra bilsəm, deyəcəyəm. Geridə qalanı isə sənin özündən asılı olacaq.

– Onda əvvəlcə mənə izah et ki, seçkiyə necə hazırlaşım.

– Bu çox sadədir, hansı kəndin sakinləri seçkidə sənə səs verəcəksə, həmin kəndlərə get, insanları ilə ünsiyyət qur, məclislərində iştirak et. Çalış sənin xalis niyyətindən hali olsunlar, əsas məsələ onların etimadını qazanmaqdır.

– Bəs seçkilərdən sonra nə edim?

– Seçkilərdən və məhkəmələrdən sonra ictimai fəaliyyətini genişləndirəcəksən, ölkə gündəmində olan ən ümdə məsələlərə qarışacaqsan, insanlara

kömək edəcəksən. Hər yerdə olub, heç yerdə də görünməyəcəksən.
– Məgər elə mümkündür ki?
– Mümkündür, həmin vaxt yetişəndə sən artıq bunun yollarını da tapacaqsan. Hə, bir də ki, seçkilərdən sonra sənə bir çox partiyalardan təkliflər gələcək, amma sən hamısına “yox” deyəcəksən!
– Niyə, bəlkə elə həmin partiyalarla birləşib nəsə etmək olar?
– Həmin partiyalar nəsə edə bilsəydilər çoxdan edərdilər, – Ənvər hoca kinayə ilə gülümsəyir. – Əsas məsələ digər insanların da niyyətidir. Bu yolda sənə çox insanlar yaxınlaşacaq, onların niyyətlərinə diqqət yetirərsən, şəxsi ambisiyalar üzərində mübarizə aparan insanlardan uzaq durarsan, onlar cılız insanlardır, onlarla mübarizə aparmaq olmaz, kiçik bir nailiyyət əldə edən kimi səni yarı yolda qoyacaqlar. Hakimiyyətdən maaş alan hocalardan da çox şey gözləmə, əgər müstəqil, öz zəhməti ilə dolanan hoca tapsan, onunla niyyətinə uyğun şəkildə davranarsan. Aydındır?
– Aydındır, ustad! Sən mənimlə elə danışırsan ki, sanki vəsiyyət edirsən.
– Narahat olma, biz bir neçə dəfə də görüşəcəyik, bir yolunun ortasında, sən tam azad olanda, bir də yolunun sonunda, sən qalib olanda.
– Ustad, belə olmaz, heç olmasa getdiyin yeri de.
– Niyə belə olmasın ki? Məgər məktəbdəki müəllimlər hələ də sənin yanındadır? Məgər onlar sənə dərs verəndən sonra səni həyata buraxmayıblar? – deyə Ənvər hoca gülümsəyir.
– Əlbəttə, amma o başqa, bu başqa.
– Başqa şey deyil, mən sənə həyat dərsi verdim və indi sən mübarizənə hazırsan, sadəcə nəsihətlərimi unutma! İndi isə sağollaşmaq və ayrılmaq zamanı gəldi.

Sənə bu yolda səbir arzu edirəm!

– Səbir, yəni dözüm?

– Yox, səbir başqa şeydir, dözüm başqa şey. *Səbir – vəzifəni icra edərkən qarşıya çıxan maneə, problem və müsibətlərə baxmayaraq yola davam etməkdir.*

– Təşəkkür edirəm, ustad! Mənə əsl həyat dərsi verdin!

Ariz Ənvər hoca ilə qucaqlaşıb vidalaşır, sonra maşınına əyləşib evinə gedir.

## Mübarizənin başlanğıcı

Artıq Arizin mübarizə üçün istiqaməti var idi, o, qarşıdan gələn seçkilərə hazırlaşırdı. Seçki dairəsinə gedərək dairənin əhatə etdiyi kəndlərin adını öyrənir; Şüalıq, Zirinc, Türkoba və Bənd kəndləri. İndi onun qarşısında həmin kəndlərə gedərək insanları ilə ünsiyyət qurmaq kimi bir vəzifə var idi. İrəlidə hələ altı ay olsa da, o, vaxtdan səmərəli şəkildə istifadə etmək istəyirdi.

Növbəti həftədən Ariz bir-bir həmin kəndlərə getməyə başladı. Əvvəlcə məscidlərə gedir, camaat namazlarına qoşulurdu və insanlarla isti münasibət qurmağa başlayırdı. İş yerində bir fond qurdu, hər ay maaş köçürülərkən işçilər həmin fonda könüllü surətdə pul verir, Ariz isə ərzaq payları alaraq həmin kəndlərə aparır və ehtiyacı olan ailələrə paylayırdı. Lakin Ariz Ənvər hocadan aldığı dərsini yaxşı dərk etmişdi, o, bütün bu ehtiyacı olan ailələrə ərzaq paylayarkən yalnız Allahın razılığını düşünürdü. Əlbəttə, insanlar əvəzində təşəkkür eşitmək belə olmayan yaxşılıqları görür və tədricən qəlbləri Arizə qarşı isinməyə başlayırdı.

Artıq seçkilərin elan olunmasına bir ay qalmışdı, bu müddət ərzində Ariz hansı kəndə gedirdisə, onu orada çox xoş qarşılayırdılar, bəli, artıq demək olar ki, insanların qəlbində yer tuta bilmişdi.

Seçkilərin vaxtı elan olundu, namizədlər üçün sənədlərin

qəbul olunma vaxtı bir həftədən sonra başlayacaqdı. Ariz həyəcan keçirirdi, haradan başlayacağını bilmirdi. O, yenə seçki dairəsinə getdi və hansı sənədlərin lazım olduğunu öyrəndi. Növbəti gündə Ariz sənədləri toplamalı və ərizə yazmalı idi. Tələb olunan sənədlər arasında iş yerindən arayış da var idi. Ariz işdə olarkən bu barədə müdiri İlqar ilə danışmaq qərarına gəldi.

– Salam, İlqar, necəsən? Gəlmək olar? – Ariz İlqarın kabinetinin qapısını açaraq icazə istəyir.

– Salam, Ariz, əlbəttə, buyur, əyləş. Necəsən, işlərin necə gedir? – İlqar həmişə Arizlə səmimi söhbət edirdi, artıq uzun illər idi ki, bir yerdə işləyirdilər.

– Yaxşıdır, İlqar, salamatlıqdır.

– Əla! Yeni layihələrlə bağlı bir problem yoxdur ki?

– Xeyr, nə problem olmalıdır ki? – Ariz təbəssümlə cavab verir.

– Çox şükür! Buyur, səni dinləyirəm, nə qulluğun?

– Qulluq deyəndə ki... Mənə iş yerindən arayış lazımdır, imkan dairəsində bu günə, ya da uzağı sabaha.

– Nə məsələdir? – İlqar həyəcanla soruşdu. – Birdən pul lazım olar və sən kredit götürmək istəyərsən ha, belədirsə mən sənə borc verə bilərəm.

– Yox, kredit məsələsi deyil, başqa işdir.

– Nə? Başqa iş tapmısan, bizi tərk edirsən? – İlqarın həyəcanı artır, axı o, Arizi itirmək istəmirdi.

– Yox, ay İlqar, nə başqa iş? Ölkədə fərli iş yerləri var ki? Başqa məsələdir, üzümüzə gələn seçkilərdə deputatlığa namizədliyimi vermək istəyirəm.

– Nə, deputatlığa namizəd? – İlqar heyrətini gizlədə bilmədi. – Bu haradan çıxdı belə?

– Nədir, yoxsa məni deputatlığa layiq bilmirsən?

– Yox, əlbəttə, bilirəm, sən bugünkü deputatların hamısından daha çox layiqsən həmin vəzifəyə. Sadəcə maraqlı gəldi, seçiləcəyini düşünürsən?

– Bilmirəm, mən namizədliyimi verəcəyəm, yaxşı bir seçkiqabağı təbliğat və təşviqat kampaniyası keçirəcəyəm, insanlar dəstəkləsələr, gəlib mənə səs versələr, seçilərəm.

– Ay Ariz, elə bil Andaluniyaya dünən gəlmisən, guya bilmirsən seçkilər necə keçirilir?

– Bilirəm, xəbərim var, amma yenə də bu mübarizəyə qoşulmaq istəyirəm. Səndən lazım olan sadəcə arayışı təşkil etməkdir.

– Arayış düzələn məsələdir, elə indicə həll edərik. – İlqar dəstəyi qaldırıb köməkçisinə zəng edir və Ariz üçün təcili arayış hazırlamağı tapşırır. – Budur, bu məsələ həll olundu, mənim sözüm başqa idi. Nəyinə lazımdır seçki, nəyin çatmır ki? İşin-gücün, evin-eşiyin, ailən, maşının. Niyə ağrımayan başını ağrıdırsan ki?

– İlqar, məsələ iş və ya pul məsələsi deyil, özün də bilirsən ki, atam vəfat edəndən sonra həyatımı sıfırdan qurmuşam. Bir çox yaşıdlarım hazırkı həyatıma qibtə edir, amma məsələ bu deyil! Mən ölkədəki zülmü görürəm və bununla mübarizə aparmaq istəyirəm, boş yerə oturub gözləməklə heç nə düzələn deyil.

– Elə sənə qalıb bu zülmlə mübarizə? Görünən budur ki, xalq öz halından razıdır, sən təkbaşına nə edə biləcəksən ki?

– Xeyr, xalq halından razı deyil, sadəcə inandığı bir insan hələ ortaya çıxmayıb. – Ariz saatına baxaraq dedi.

– Mən bir iclasa getməliyəm, mümkünsə arayış hazır olanda mənə xəbər edərsən?

– Narahat olma, göndərərəm, qoyarlar masanın üstünə.

Ariz İlqarla sağollaşaraq kabinetini tərk edir. Daha çox onunla bu mövzuda mübahisə edib aranı korlamaq istəmirdi, ona lazım olan arayış idi, o da həll olundu.

Növbəti gün Ariz bütün sənədlərlə birlikdə seçki dairəsinə gəldi, sənədləri təqdim etdi və namizədliyinin

qəbul olunması üçün ərizəni yazdı. Ərizəni və sənədləri təqdim etmək üçün onu seçki dairəsinin İmran adlı sədrinin yanına apardılar. Kök, orta boylu və keçəl görünüşə malik olan bu sədr Arizdə etimad doğura bilmədi. İmran ərizəyə qol çəkib Arizə verdi.  Oradakı işçilər sənədləri qəbul edib ona xəbər edəcəklərini dedilər.

Ariz vaxtı itirməmək üçün dərhal kəndlərdəki dostlarına zəng etdi. Son aylar ərzində hər dörd kənddə kifayət qədər yeni dostlar qazanmışdı. Onlara zəng edərək vacib bir məsələ barəsində görüşməyin lazım olduğunu dedi, onları Şüalıq kəndinə, evlərinin yaxınlığındakı kafeyə dəvət etdi.

Axşam hamı kafedə yığışmışdı, məsələnin nə olduğunu bilməsələr də, hamı sadəcə Arizin çağırışına gəlmişdi. Ariz söhbətə haradan başlayacağını bilmirdi, bilmirdi ki, seçkidən başlasın, yoxsa ölkədəki vəziyyətdən. Birdən Türkoba kəndndən gəlmiş Tehran sözə başladı:

– Ariz, vəziyyət necədir? İşlərin necə gedir?

– İşlərim yaxşıdır, – Ariz dərhal cavab verdi, sonra düşünərək əlavə elədi, – vəziyyət isə heç də ürəkaçan deyil.

– Nə olub ki, salamatlıqdır? – Zirinc kəndindən olan Qədir təlaşla soruşdu.

– Özümdə salamatlıqdır, amma ölkədə vəziyyət heç də yaxşı deyil, insanlar əziyyət çəkir, işsizlik, pulsuzluq, narkomaniya baş alıb gedir, hakimiyyətdəkilər isə sadəcə ciblərini doldurmaqla məşğuldur.

– Bunda təzə heç nə yoxdur ki?! – Şüalıq kəndindən olan Hüseyn müdaxilə edir.

– Düzdür, elə məni ürəkləndirən də odur ki, hamımız bunu bilirik və bu, mübarizədə mənə kömək olacaq.

– Hansı mübarizədə? – Bənd kəndindən olan Anar maraqla sual verdi.

– Qabaqdan gələn deputat seçkilərində.

– Sən seçkilərə qoşulmaq istəyirsən? Namizədliyini vermək istəyirsən? – Hüseyn təəccüblə soruşdu.
– Bəli, niyə də yox? Əgər ölkədə nəyisə dəyişmək istəyirəmsə, gərək cəhd edəm, mübarizə aparam. Oturub gözləməklə ölkədə heç nə dəyişən deyil. Düz demirəm?
– Elədir, düz deyirsən, – Hüseyn razılıq əlaməti olaraq başını tərpətdi.
– Bəs namizədlik üçün nə lazımdır, biz sənə necə kömək edə bilərik? – Tehran soruşdu.
– Sənədləri toplayıb vermək lazım idi, onu etmişəm, artıq məni qeydə alıblar, amma növbəti mərhələlərdə sizin köməyinizə ehtiyacım olacaq.
– Əlimizdən gələn köməyi edəcəyik, heç ürəyini sıxma, sən bizə ümid verdin, nəhayət ki, bizim də aramızdan parlamentdə kimsə olacaq, qapısını tanıdığımız biri, burada doğulmuş, böyümüş və dərdlərimizi bilən bir adam! – Hüseyn öz heyrətini gizlədə bilmədi.
– Sən narahat olma, biz öz üzərimizə düşəni edəcəyik, düz deyil, dostlar? – Anar hamıya sual ünvanladı, dörd kənddən on beş nəfər gəlmişdi və hamı razılıq əlaməti olaraq başını tərpədirdi.
– Əla! – Ariz mənzərəni seyr edərək sevinirdi. – Elə isə onda məni dinləyin. İlk mərhələdə imza toplamaq lazım gələcək, beş yüz imza. Hər kənddən mənə yüz imza toplamağa kömək etsəniz, yerdə qalan iki yüz imzanı da mən Şüalıq sakinlərindən toplayaram. Bu cür yanaşsaq, məncə, bir həftəyə imzaları toplayıb bitirə bilərik.
– Çox asanlıqla, hətta mən o imzaları üç günə toplayıb bitirə bilərəm! – Qədir qətiyyətli şəkildə cavab verdi.
– Şüalıqdan da yüz imza toplamaq mənlikdir! – Hüseyn də sinəsini qabağa verdi.
– Əla! Amma bu son deyil, sonrakı mərhələ daha çətin

olacaq. Mən mətn hazırlamışam, bukletlər çap ediləcək, plakatlar hazırlanacaq. Kəndlərdə onları paylamağa və yapışdırmağa kömək lazım olacaq. Amma bunu biz təbliğat müddətinin ilk həftəsində etməliyik, çünki sonra vaxt çatmaya bilər.
– Bu da asandır, kənddə o qədər uşaqlar var ki, bir himə bənddirlər, hələ sənin adını eşitsələr, sevə-sevə dəstək olacaqlar, – Tehran müdaxilə edir.
– Məsələn, plakatları maşınların  və avtobusların arxa şüşələrinə yapışdıraraq, onların müdiri mənim tanışımdır, bir dəfə kənddə məclisdə səni də görüb, tanıyır, qətiyyən etiraz etməz, mən onunla elə bu gün danışaram, – Anar deyir.
– Əla, bunların hamısı əladır, amma hələ də son deyil. Mən kəndlərdə seçicilərlə görüşməliyəm, yer tapmaq, insanları dəvət etmək lazım gələcək. Bunun üçün sizin dəstəyiniz lazım olacaq. Məsələn, yeri tapıb günü təyin etmək, dəvətnamələri çap edib paylamaq lazımdır, çalışmaq lazımdır ki, kənd ağsaqqalları da orada olsun. Bunu necə, edə bilərik?
– Bizim kənddə bu toplantını təşkil etmək mənim boynuma! – Tehran əlini qaldırır.
– Bizdə də mən təşkil edərəm, məhəlləmizdə böyük bir kafe var, insanları da çağıraram, – Anar deyir.
– Mənim ad günüm olacaq, elə isə bir qoyun kəsib süfrə açaram, kəndin ağsaqqallarını, ara adamlarını evə dəvət edərəm, bizdə həmin toplantını keçirərik. – Qədir gülümsəyərək deyir. – İstəsən lap kafedə edərik, məhəllədəki kafe dostumundur, heç pul da almaz.
– Olar, lap əla olar! Şüalıqda da biz həll edərik, hə? – Ariz Hüseynə baxır, o da başını razılıq əlaməti olaraq tərpədir. – Onda danışdığımız kimi mən imza vərəqələrini alan kimi sizə çatdıracağam. Unutmayın, vaxtımız çox olsa da, biz onu israf edə bilmərik. Hər şeyi

əvvəlcədən düşünüb hazır etməliyik.

Onlar ilkin razılıq əldə edib dağılışırlar. Ariz hər şeyin plan üzrə getməsini istəyirdi, ona görə də ertəsi gün seçki dairəsinə getdi və imza vərəqələrini istədi. İşçilərdən biri onu öz otağına dəvət etdi, onlar birlikdə imza vərəqələrinin üstünü yazdılar və imzaladılar. Ariz imza vərəqələrini götürüb oranı tərk etdi. Dərhal kəndlərdəki dostlarına bir-bir zəng edərək onlarla görüşdü və imza vərəqələrini onlara verdi. İmzalarda bir xəta olmasın deyə vərəqələrin düzgün doldurulma metodunu da onlara izah etdi.

Bir həftədən sonra artıq bütün imzalar toplanmışdı, hər bir kənddən yüz, Şüalıqdan isə iki yüz imza. Ariz özü də imza toplamışdı, qonşudan, qohumdan və tanışlardan şəxsən özü gedib imza toplamışdı. Hamı öz vəzifəsini layiqincə yerinə yetirmişdi. Ariz imza vərəqələrini seçki dairəsinə təhvil verir. Orada işçiləri təəccüb bürüyür, axı Ariz bir həftəyə necə beş yüz imzanı toplaya bilərdi? Onlar öz heyrətlərini gizlətmədilər, Ariz isə təvazökarlıq edərək qohumlarından razılıq etdi. İndi imzaların yoxlanması üçün bir həftə vaxt lazım idi, bu vaxt ərzində Ariz başqa işlər görməyi planlaşdırırdı. Mütləq axşam hamı toplanmalı idi, eyni kafeyə.

Axşam artıq hamı Arizin evinin yaxınlığındakı kafeyə yığışmışdı.

– Qardaşlar, ilk növbədə imzaların toplanmasında göstərdiyiniz dəstəyə görə təşəkkür edirəm, var olun!

– Borcumuzdur! – hamı başını razılıq əlaməti olaraq tərpətdi.

– İndi artıq başqa mərhələyə keçid alırıq. Onlar imzaları yoxlayana qədər bir həftə, seçki kampaniyasının başlanmasına qədər isə dörd həftə vaxtımız var. İmzalar yoxlandıqdan sonra mənim namizədliyimi qeydiyyata alacaqlar və adım bülletenə düşəcək. Bu bir həftə ərzində mən seçki platformam üzərində işləyəcəyəm,

onu hazırlayacağam. Siz isə öz kəndlərinizdə seçki haqqında və mənim namizədliyim haqqında təbliğat aparacaqsınız.

– Bizim kənddə demək olar ki, artıq hamı bilir. – Hüseyn özündən razı halda dedi.

– Əlbəttə, iki yüz imza elə Şüalıqdan yığılıb. – Ariz gülümsəyir. – Amma digər kəndlərdə aktiv iş getməlidir, çalışın bütün çayxanalarda, kafelərdə, məclislərdə və məscidlərdə hamı bu barədə danışsın, hamı bir-birini bu işdə həvəsləndirsin.

Birdən Ariz kənardan kafedəki mənzərəyə baxdı, iyirmiyə yaxın insan onun ətrafına toplaşıb və əvvəllər seçki prosesində heç bir təcrübələri olmadıqları halda, bu istiqamətdə iş aparırdılar. Deməli, bu xalqda istedad var, sadəcə despotik hakimiyyət bu istedadı cücərməyə qoymur, yavaş-yavaş hər şey qaydasına düşəcək.

Növbəti həftə ərzində Ariz həm seçki platformasını hazırladı, həm də buklet və plakatların dizaynını. Buklet və plakatları çap etdirmək üçün nəşriyyat evi ilə də danışmışdı, Ariz işlərin bu cür rahat və sürətli getməsinə görə çox sevinirdi.

Və nəhayət, bir həftənin tamamında Arizi seçki dairəsinə çağırdılar, ona imzaların yoxlandığını dedilər və namizədlik vəsiqəsini təqdim etdilər. Ariz vəsiqəyə baxdıqda məsuliyyəti dərk etməyə başladı, bəli, uzun və məşəqqətli olduğu qədər də şərəfli bir yola ilk addımlarını atırdı.

Axşam yenə hamı kafeyə toplaşmışdı.

– Qardaşlar, əzminiz və dəstəyiniz sayəsində namizədliyim qeydə alındı! – Ariz vəsiqəni onlara təqdim edir, hamı bir-bir ona baxıb yanındakı insana ötürür. – Bu, bizim kollektiv və təşkilati səyimiz nəticəsində hasil oldu, hər birinizə təşəkkür!

– Təbrik edirik! – hamı təbrik etməyə və sevinməyə

başladı.
– Bu həftə ərzində mən seçki platformamı yazdım, buklet və plakatların dizaynını hazırladım və indi sizə təqdim etmək istəyirəm.
– Əla olar, Ariz! – Hüseyn reaksiya verdi.
– Platformam üç dayaq üzərində qurulub: 1. Sosial ədalət. 2. Qanunların işləməməsi. 3. Məmur özbaşınalığı.
– Lap bizim ölkədən yazmısan ki, ay Ariz, – Qədir gülərək deyir.
– Eh, sən hələ təfərrüatlarını görəsən, – Ariz gülərək replika ilə cavab verir. – Amma onları indi desəm vaxt çatmaz, bu barədə bir video çəkəcəyik və sosial şəbəkələrdə paylaşacağıq, məncə, belə daha maraqlı və məqsədəuyğun olar. Biz bütün videoları indidən çəkib hazır edəcəyik və yalnız təbliğat kampaniyasına rəsmi olaraq start veriləndən sonra paylaşacağıq. Belə olduğu halda siz də rahat şəkildə onları paylaşa biləcəksiniz.
– Bəs biz bu üç həftə ərzində nə edək? – Tehran maraqla soruşur.
– Siz təbliğata davam edəcəksiniz, mən özüm təbliğat apara bilmərəm, bu qanunla qadağandır, amma siz edə bilərsiz. Yenə də hər yerdə söhbət edəcəksiniz, insanları məlumatlandıracaqsınız. Kəndlərinizdə bir məclis olanda mənə xəbər edin ki, orada iştirak edim, qoy insanlar məni görsünlər, sual versinlər, məncə, belə daha effektiv olar. Yeri gəlmişkən, biz sabahdan artıq çəkilişlərə başlayırıq, bunun üçün artıq operator, rejissor və montajçı da tapmışam. Bu işdə könüllü olaraq bizə dəstək olacaqlar.
– Bəs buklet və plakatlar? Onları nə vaxt paylayacağıq? – Anar soruşdu.
– Buklet və plakatlar bir həftəyə hazır olacaq, onları da danışmışam, amma paylamaq yalnız kampaniya başlayandan sonra mümkündür, bir az səbir edək,

həlləlik mümkün vasitələrlə təbliğat aparmalıyıq. Hə, istəsəniz mənim şəklimlə bir elektron plakat hazırlayıb sosial şəbəkələrdə paylaşa bilərsiniz, bu qadağan deyil, amma siz etməlisiz, mən yox.

– Əla, mənim bir dostum var, dizaynerdir, ondan xahiş edərəm, bir neçə elə plakat hazırlayar və biz növbə ilə onları paylaşarıq.

Hüseyn bu təklifi bəyənib dəstəklədi.

– Onda videolar hazır olan kimi yenə də yığışacağıq, ilk olaraq həmin videoları sizə təqdim edəcəyəm.

Bir həftə ərzində Seyidin rejissorluğu, Ceyhunun operatorluğu və Arifin montajçılığı ilə videolar çəkilib hazır edildi. Nurlan da buklet və plakatları çap etdirmişdi, demək olar ki, hər şey hazır idi. Ariz yenə komandasını kafeyə yığdı, videoları, bukletləri və plakatları onlara təqdim etdi. Hamı videoları bəyəndi, plakatlarla şəkil çəkdirdilər, hər şey əla gedirdi. İndi iki həftəni səbirlə gözləmək lazım idi, rəsmi olaraq təbliğat kampaniyası başlayan kimi videolar paylaşılacaq, bukletlər paylanılacaq, plakatlar isə yapışdırılacaqdı.

Budur, rəsmi olaraq təbliğat kampaniyası başlayır, əvvəlcədən plakatlar və bukletlər kəndlərə göndərildiyindən, elə gecə ikən plakatlar lövhələrə, maşınların arxa şüşələrinə yapışdırılır. Üç həftə ərzində Ariz kəndlərə səfər edir, insanlarla görüşür, yığıncaqlar təşkil edilir və insanlar son otuz ildə ilk dəfə bir namizədi canlı olaraq görürdülər. Seçki prosesinə və Arizin namizədliyinə həddən artıq maraq var idi, bu, işlərin yaxşı getməsinin əlaməti idi. Amma bir problem də var idi və onu həll etmək lazım idi, müşahidəçi problemi. Ariz sosial şəbəkələrdə könüllü müşahidəçilər üçün elan verdi, onun çağırışına səksən nəfər hay verdi, bu çox yaxşı idi, axı dairədə cəmi otuz yeddi məntəqə var idi.

İki həftə aparılan təbliğatdan sonra bütün çayxanalarda,

kafelərdə və məclislərdə hamı seçkidən və Arizin namizədliyindən danışırdı, xalq sanki onun timsalında gələcəyə bir ümid işığı görürdü. Bütün proseslər sürətlə seçkilər gününə doğru irəliləyirdi. Əlbəttə, qarşıya bəzi problemlər də çıxırdı. Sədəf rayon İcra Hakimiyyətinin başçısı Elşən bütün kəndlərin icra nümayəndələrinə göstəriş vermişdi ki, kəndlərdə Arizin plakatlarını söksünlər və hakim komandanın dəstəklədiyi Soltan adlı namizədin təbliğatını aparsınlar. Xüsusi fəallığı isə Arizin doğulub böyüdüyü Şüalıq kəndinin icra nümayəndələri Rauf və Anar göstərirdi. Bütün bu problemlərə baxmayaraq, kəndlər Arizin namizədliyini çox isti qarşılayırdı.

Nəhayət, seçki günü gəldi, amma necə gəldi?! Seçki prosesi bitən kimi bəzi məntəqələrdə qutular açılmadı, bəzi məntəqələrdə bülletenlər sayılmadı, bəzi məntəqələrdə isə protokollara rəqəmləri şişirdib yazdılar. Bütün bu qanun pozuntuları videoya çəkildi və görüntülər sosial şəbəkələrdə ictimailəşdirildi. Hakim komanda əvvəlcədən dəstəklədiyi Soltanı deputat edə bilmişdi, bu, hakim komandanın xalqa qarşı savaşda “qələbə”si idi. Soltan yaşlı-cavan, kişi-qadın demədən hər kəsin iradəsinə tüpürərək xalqın səsini oğurladı.

Seçkilərin saxtalaşdırılması ilə xalqın iradəsi oğurlandı və qəlblərdə Arizin yaratdığı ümid qığılcımı söndürüldü. Amma Ariz bu qığılcımın sönməsinə yol verməyəcəkdi. Elə seçki gecəsi Ariz bütün müşahidəçiləri evlərinin yaxınlığındakı kafeyə topladı, hamıdan qanun pozuntuları haqda yazdıqları aktları aldı, səhərə qədər oturub aktlara əsasən seçkidəki qanun pozuntuları barəsində bir müraciət hazırladı. Səhər açılan kimi müraciətin birini seçki dairəsinə, digərini isə Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim etdi. MSK önündə olarkən bir neçə namizədin də orada etiraz etdiyini gördü, Ariz dərhal onlara qoşuldu, bir neçə kanala dairəsindəki qanun pozuntuları barədə

müsahibə verdi və oğru hakimiyyətə meydan oxudu:

– Mən son otuz ildə yeganə namizəd idim ki, dairə ərazisində doğulub böyümüşdüm və real mübarizə aparırdım. Bu, kənd sakinlərinin qəlbində bir ümid qığılcımı yandırmışdı, mən həmin qığılcımı sönməyə qoymayacağam, mənim üçün geriyə yol yoxdur!

Bu kiçik müsahibə sosial şəbəkələrdə işıq sürəti ilə yayılmağa başladı, çox qısa bir zamanda Arizə qarşı bir maraq formalaşdı, indi hamı onun nə edəcəyini gözləyirdi.

İlk olaraq Ariz sənədləri hazırlayaraq Apelyasiya Məhkəməsinə müraciət etdi. Bu barədə sosial şəbəkələr vasitəsilə ictimaiyyəti məlumatlandırdı. İki gün sonra məhkəmə oldu, Ariz və müşahidəçilər məhkəmədə iştirak etdilər. Bir-bir növbə ilə bütün müşahidəçilər seçki prosesində gördükləri qanun pozuntuları barədə danışaraq, yazdıqları aktları hakimlərə təhvil verdilər, amma Arizin iddiası təmin edilmədi, hakim ağlasığmaz bəhanə gətirdi.

– Siz məhkəməyə MSK-nın rəsmi saytı ilə uyğun olmayan bir neçə protokol vermisiniz, amma biz bu protokolların həqiqi olub-olmadığını bilmirik, – deyə hakim axmaqcasına bəhanə gətirirdi.

– Möhtərəm hakim, necə yəni həqiqiliyini təyin edə bilmirik? Məgər siz həmin protokollarda möhürləri görmürsünüz? Möhür mənim atamda olur, yoxsa məntəqə sədrində? – Ariz əsəbiləşərək etiraz etdi.

– Möhür var, mənim möhürlə işim yoxdur ki, mən imzaları nəzərdə tuturam. Mən indi nə bilim ki, bu imzalar həqiqidir? – Hakim yenə axmaqlamağa davam edirdi.

– Möhtərəm hakim, siz nə danışdığınızı eşidirsiz? Sizə cəmi dörd protokol verilib ki, onlar MSK-nın rəsmi saytı ilə uzlaşmır, bəs müşahidəçilərin dedikləri, onların təqdim etdiyi aktlar? Məgər bütün bunlar sizi qane

etmir ki, hələ bir imzaların həqiqiliyini sorğulayırsız? – Ariz əsəbi halda reaksiya verirdi.

– Vətəndaş, təqdim edilən aktların da hərəsində bir neçə imza var, indi biz nə bilək ki, bu imzalar da həqiqidir? – artıq hakim əməlli-başlı sərsəmləyirdi.

– Ay hakim, – Ariz artıq hakimə hörmətsiz şəkildə müraciət edirdi, – mən şahidlərdən danışıram, məgər siz bir saat ərzində danışan müşahidəçilərin dediklərini eşitmədiniz? Onların gördükləri, dedikləri və yazdıqlarını siz dəlil kimi qəbul etmirsiniz? Onlar ki, MSK-dan qeydiyyatdan keçmiş rəsmi müşahidəçilərdir, bəs indi biz necə edək, Mars planetindən şahidlər gətirək? – Ariz artıq hakimi ələ salırdı. – Mən hələ sizə təqdim etdiyimiz videogörüntüləri demirəm, bəs onları da dəlil kimi qəbul etmirsiniz?

– Vətəndaş, məhkəmənin iş prinsipi var, biz həmin prinsiplərlə işləyirik, təqdim etdiyiniz videogörüntüləri də dəlil hesab etmirik, qanunla bu nəzərdə tutulmayıb, qanunu poza bilmərik.

Hakimin ya qorxudan, ya da xəcalətdən əsdiyini hamı müşahidə edirdi.

– Belə şey olar?! – Ariz artıq səsinin tonunu qaldırırdı.

– İki polis içəri daxil olub onları döydüyümü desə, məni o saat həbs edəcəksiniz, bu qədər şahid və fakt olduğu halda, xalqın səsi və iradəsi oğurlandığı halda isə siz mənə nağıl danışırsınız?!

– Vətəndaş, mən dediyimi dedim, indi isə məhkəmə məsləhətləşmək üçün fasilə elan edir! – Hakim çəkicini masasının üzərinə çırparaq qalxır və yan otağa keçir.

Ariz əsəbi halda müşahidəçilərə baxır, sanki baxışları ilə onlara "görürsünüz necə əxlaqsızcasına cinayətə don geyindirirlər" deyirdi. Müşahidəçilərdən biri ona sakitləşməsi üçün işarə edir, bəli, sakitləşib qərarı gözləməkdən başqa çıxış yolu yox idi. Bir neçə dəqiqədən

sonra hakim yenə zala daxil olur, öz yerinə keçir.

– Vətəndaş, sizin şikayətinizə baxdıq və iddianızı əsassız hesab edərək işə xitam verilir! – Hakim çox qısa halda hökmü oxuyaraq, zaldan çıxmağa cəhd etdi.

– Bir dəqiqə dur! – Ariz yerindən şığıyaraq hakimin qarşısını kəsdi. – Belə məhkəmə olar? Bu qədər şahid, videoçəkiliş, akt, protokol uyğunsuzluğu olduğu halda siz işi rədd edirsiniz? Belə məhkəmə olar?

– Vətəndaş! – Hakim isterika içində çığırmağa başlayır.

– Mən belə qərar verirəm, xoşuna gəlmirsə get hara istəyirsən şikayət et!

– Necə yəni hara istəyirəmsə şikayət edim? Siz lətifə danışırsız? İnsanlar kimdənsə şikayətçi olanda məhkəməyə gəlir e, siz mənə deyirsiz ki, məhkəmədən şikayət edim? Məni ələ salırsız? – Ariz artıq əsəbdən əsirdi, bir neçə müşahidəçi onu hakimin yolundan uzaqlaşdırmağa və sakitləşdirməyə cəhd edirdi.

– Ee, aparın bunu buradan, çəkil yolumdan! Get nə istəyirsən et! Mən işimi gördüm! – deyə hakim zalı tərk edir.

Ariz məhkəmə zalında donub qalmışdı, o, hələ belə sırtıq və əxlaqsız kişi fahişəsi görməmişdi, əsəbdən əsirdi, gözləri dolmuşdu. Müşahidəçilər cəld Arizi məhkəmə zalından çıxardılar, açıq havada, skamyada otuzdurub bir az su verdilər.

– Mən ömrümdə belə ədalətsizlik görməmişdim, gör mənim vətənim Andaluniya nə gündədir, gör mənim vətənim hansı alçaq məxluqların əlində girovdur. Bunlarla mübarizə aparmaq lazımdır, sona qədər, ölümə qədər, bu yaramazlar ölkəmizi məhvə aparırlar, belə dövlət olmaz, belə ölkə olmaz.

– Ariz, – Hüseyn onun qoluna girir, – qalx, qalx gedək, burada məsələ aydındır. Gedək, indi də sənədləri Ali Məhkəməyə və Konstitusiya Məhkəməsinə hazırlayaq.

Onlar dağılışırlar, Ariz və Hüseyn Şüalığa gəlir, oturub məhkəmələrə müraciətləri yazırlar. Növbəti gün Apelyasiya Məhkəməsinin qərarını alan kimi digər sənədlərə əlavə edərək, Ali və Konstitusiya Məhkəməsinə müraciət edirlər.

Onsuz da Konstitusiya Məhkəməsində dinləmə olmur, onlar sadəcə şikayəti MSK-ya göndərir, MSK da seçki dairəsinə, bir sözlə "səndən, yar, sənə, yar, şikayətim var" mahnısının sözləri kimi. Bu hal Arizin ürəyini daha çox bulandırır və mübarizə əzmini artırırdı. Ali Məhkəmədə isə proses cəmi üç dəqiqə çəkdi.

– Vətəndaş, sizin şikayətinizə baxıldı və təqdim etdiyiniz dəlillər tərəfimizdən yoxlanıldı. Dəlil və faktlarınızı qənaətbəxş hesab etmədiyimizdən, sizin işinizə xitam verilir!

– Möhtərəm hakim, niyə dəlil və faktlar qənaətbəxş deyil? Sizi necə qane etmək olar?

– Vətəndaş, sabah gəlib qərarımızı götürə bilərsiz, orada hər şey izah olunacaq, bizi yubatmayın, digər vətəndaşlar sizi gözləyir, zalı tərk edin.

Ariz yenə də məhkəmə zalından məyus halda çıxır. Artıq o, əmin olmuşdu ki, vətənində ədalət deyilən şey yoxdur, bəli, ölkədə ədaləti yox etmişdilər. Bu despotik hakimiyyət ədaləti harada tapırdısa, yalnız onu zorlamaq haqqında düşünürdü, istər insana aid olsun, istərsə də dövlətə aid ədalət!..

Ali Məhkəmənin qərarını da alan kimi dərhal sənədləri hazırlayaraq Avropa İnsan Haqları Məhkəməsinə göndərdi. Ariz bilirdi ki, oradan cavab illər sonra gələcək, amma bu müddətdə o, gözləməyəcək və mübarizəni davam etdirəcəkdi.

Bir gün yenə dostları ilə evinin yaxınlığındakı kafedə toplaşmışdılar, müzakirə edir və məsləhət verirdilər. Birdən Hüseyn bir təklif verdi.

– Ariz, bütün bu proseslərdə sən insanlara sosial

şəbəkələr vasitəsi ilə məlumat verirdin, rahat şəkildə kamera önündə canlı olaraq danışırdın, bəlkə bir neçə kanala müraciət edib onlarda da bu barədə danışasan? Hələ ki, gündəmdə əsas mövzu seçkilərdir, bu gün mənim qarşıma bir neçə YouTube kanalı çıxıb ki, orada namizədlər öz dairələrindəki pozuntular barəsində danışırdılar, bəlkə sən də həmin kanallara çıxasan?

– Bu bizə nə verəcək? – Ariz soruşdu.

– Necə yəni nə verəcək? Onların öz auditoriyası var, daha geniş auditoriya, insanlar sənin kimi əxlaqlı, dürüst və iradəli bir adamı tanımalıdır, mütləq tanımalıdır! – Hüseyn təkid etdi.

– Doğrudur, onların geniş auditoriyası var, birdən mən canlı efirdə yaxşı danışa bilmərəm, biabırçılıq olar ha, – Ariz narahatlığını gizlətmədi.

– Yaxşı da, ay Ariz, sənin özündən xəbərin yoxdur ki heç, – Hüseyn uğunub gedir.

– Mən ciddi deyirəm, birdən elə sual verərlər ki, çaşıb qalaram, cavab verə bilmərəm, – Ariz hələ də ehtiyat edirdi.

– Sən narahat olma, sən heç bir sözün altında qalmazsan, səni yaxşı tanıyırıq, gəl bu daşı ətəyindən tök və razılaş! – Hüseyn əl çəkmirdi.

– Yaxşı, olsun! Onda sən mənə həmin kanalların adını və ya telefon nömrələrini verərsən, mən də onlarla əlaqə saxlayaram, əgər razılıq versələr, mütləq həmin kanallarda müsahibə verərəm.

Hüseyn həmin kanalların nömrələrini tapıb Arizə göndərir, növbəti gün Ariz onlara zəng edir və müsahibə üçün müraciət edir. Demək olar ki, hamısı razılıq verir. Ariz bir-bir həmin kanallarda çıxış edir, qanun pozuntuları və mübarizəsi barədə ictimaiyyətə məlumat verir və özünü xalqa tanıtdırır. Həmin müsahibələrin altında yazılan şərhlərdən insanların onu əqidəli və düzgün insan kimi

qəbul etdiyini müşahidə edir.

Bir gün Arizin telefonuna xarici ölkədən bir zəng gəlir, o, bir az nömrəyə baxaraq hansı ölkə olduğunu təyin etmək istəyir, kod tanış gəlsə də tam olaraq anlamır, lakin cavab verir.

– Alo, bəli.

– Alo, salam, Arizdir danışan?

– Bəli, Arizdir. Kimdir?

– Mənim adım Qəribdir, mən "Andaluniya harayı" kanalının sahibiyəm, xaricdə, İngiltərədə yaşayıram və buradan fəaliyyət göstərirəm.

– Hə, bildim, Qərib bəy, sizin kanalı görmüşəm, böyük auditoriyanız var, buyurun.

– Ariz bəy, mən hələ seçkilər vaxtı sizi izləyirdim, möhtəşəm bir seçki kampaniyası keçirdiniz, sizi təbrik edirəm!

– Möhtəşəm? Harası möhtəşəm oldu ki? Məgər görmədiniz ki, necə saxtalaşdırdılar?

– Gördüm, hər şeyi gördüm, MSK önündəki çıxışınızı, məhkəmələr barədə hesabatınızı da gördüm. Son bir həftə ərzində digər kanallarda çıxışlarınızı da izləmişəm, sözün açığı, tərəddüdüm vardı, təəccüb edirdim ki, heç bir partiya üzvü olmadan, siyasi fəaliyyətiniz olmadan necə bu cür seçki kampaniyası keçirə bilmisiniz?! Amma son həftə ərzində müsahibələrinizə baxdıqdan sonra mənə aydın oldu ki, sizin müvəffəqiyyətinizin sirri ixlasınızda və səmimiyyətinizdədir. Məhz elə buna görə də sizi təbrik edirəm! Bu gün bu xüsusiyyətlərə malik olan birini tapmaq çətindir, çox çətin!

– Çox şişirtməyin, Qərib bəy, sadəcə olduğum kimi görünməyə çalışıram. Buyurun, mən sizə necə kömək edə bilərəm?

– Sizi efirimizə dəvət etmək istəyirdim, əlbəttə, əgər imkanınız varsa.

– Çox məmnuniyyətlə qoşularam, Qərib bəy, nə vaxt?

– Sabah Bakka vaxtı ilə saat 21:00-da, alınar?

– Alındırarıq, Qərib bəy. Bəs mən sizin efirinizə necə qoşulacağam?

– Narahat olmayın, mən sizə bir link göndərəcəyəm, siz oradan qoşulacaqsınız, asan bir şeydir, narahat olmayın.

– Oldu, Qərib bəy, sabah sizdən linki gözləyəcəyəm.

Bu, Ariz üçün artıq başqa bir səviyyə idi, düzdür, “Andaluniya harayı” kanalının abunəçi sayı Bakkadakı kanalların abunə sayından iki-üç dəfə az olsa da, canlı efirinə yeddi-səkkiz min insan baxırdı, bu isə Bakka kanallarını üç-dörd dəfə üstələyirdi.

Növbəti gün Ariz evin bir kənarında efirə çıxmaq üçün yer düzəltmişdi və axşamı gözləyirdi. Budur, saat 20:00-da Qərib bəy ona bir link göndərdi: “Ariz bəy, qoşulun, yoxlayaq”. Ariz dərhal link vasitəsi ilə proqrama qoşuldu, səs və görüntünü yoxladı, hər şey qaydasında idi. Saat 21:00-ı gözləmək qalırdı.

Həmin gün efiri səkkiz mindən çox insan proqram davam edərkən canlı şəkildə izlədi, Qərib bəy Arizə suallar verirdi, Ariz isə öz növbəsində aramla, tələsmədən onları cavablandırırdı. Verilişin sonunda Arizə verilən sual isə bütün verilişin məğzini ifadə etdi.

– Ariz bəy, sizin təbliğat kampaniyanızdan kadrları izləyicilərimizə təqdim etdik, seçkilərdə və ondan sonrakı proseslərdə baş verənlər barədə danışdınız, amma məni və insanları maraqlandıran daha bir sual var. Bir neçə gündən sonra Konstitusiya Məhkəməsi yeni parlamenti təsdiq edəcək, siz mübarizədən çəkiləcəksinizmi?

– Xeyr, əsla, mənim üçün geriyə yol yoxdur, sona kimi mübarizə aparacağam! – deyə Ariz qətiyyətlə cavab verdi.

– Sona qədər, yəni haraya qədər? Siz sonu harada görürsünüz?

– Ya Andaluniyamızda ədalət günəşi zühur edəcək, ya da öləcəyəm! Amma ölüm də son deyil, mən qiyamətdə bütün hakimiyyətin yaxasından yapışacağam, orada nə prezident var, nə də fəhlə, hamısı eyni olacaq! Bax onda mən onların yaxasından yapışıb haqqımı tələb edəcəyəm!

– Çox konkret cavab verdiniz, əhsən! Budur, bax, budur Andaluniya kişisi! – Qərib bəy eyforiya dolu hisslərlə dedi. – Bəs deyirdiniz bu xalqın ləyaqətli nümayəndələri yoxdur? Açın gözünüzü və görün! Ariz bəy, növbəti addımlarınız necə olacaq?

– Bunu hələ sirr olaraq saxlayıram, amma yaxın ətrafımla müzakirə edib qərarlaşdırandan sonra sizə də deyərəm, hələ Konstitusiya Məhkəməsinin qərarını gözləyirik, görək necə olacaq.

– Ariz bəy, Apelyasiya və Ali Məhkəmə kimi Konstitusiya Məhkəməsi də bu oğru hakimiyyətin nəzarəti altındadır, siz onlardan möcüzə gözləməyin, sadəcə hələlik özünüzü qoruyun, siz bu xalqa hələ lazımsınız! Sizə uğurlar arzu edirəm!

Ertəsi gün Ariz həmin verilişə baxanda doxsan min insan tərəfindən izləndiyini gördü, yüzlərlə şərhlər və müsbət rəylər yazılmışdı. Bu, çox yaxşı idi, Ariz artıq kənd səviyyəsindən çıxaraq, ölkə səviyyəsində tanınmağa başlamışdı. Bu müddət ərzində o, etiraz edən digər namizədlərlə görüşür, “Andaluniya harayı” və digər kanalları izləyirdi.

Nəhayət, Konstitusiya Məhkəməsində keçiriləcək iclas günü gəlib çatdı, Ariz digər etiraz edən namizədlərlə birlikdə məhkəmənin qarşısında idi. Orada çoxlu jurnalistlər və polislər də var idi. Hər dəfə jurnalist hansısa namizəddən müsahibə götürəndə polislər “dağılışın, yolu bağlamayın” deyərək onları dağıtmağa başlayırdı. Birdən jurnalist xanımlardan biri mikrofonu Arizə uzadaraq:

– Salam, Ariz bəy, sizin bu məhkəmədən gözləntiniz nədir? – deyə soruşdu.
– Salam, xanım, bilmirəm, əvvəlki məhkəmələr nə etdi ki, Konstitusiya Məhkəməsi də nə etsin.
– Deyirsiz ki, seçkilərin nəticələrini ləğv etməzlər?
– Xanım, gün kimi aydındır ki, xalqın hakimiyyəti oğurlanır, kim tərəfindən, marslılar tərəfindən oğurlanır? Kimin hünəri çatar ki, seçkini saxtalaşdırsın? Əlbəttə ki, seçkini elə mövcud hakimiyyət saxtalaşdırıb, xalqın səsini və hakimiyyətini oğurlayır, bu ki gün kimi aydındır!
Elə bu an polisin biri jurnalist ilə Arizin arasına girərək:
– Dağılışın! Yolu bağlamayın! – deyir.
– Ay çavuş, siz nə edirsiz? İmkan verin, müsahibəmizi verək! – Ariz qəzəbli səs tonu ilə reaksiya verir.
– Olmaz, burada yığışmaq olmaz, dağılışın! – polis qəzəbli səslə deyir.
– Kim deyir burada yığışmaq olmaz? Harada yazılıb ki, burada yığışmaq olmaz? Andaluniya mənim vətənimdir, o, kiminsə dədəsindən miras qalmış bostanı deyil ki, mənə harada dayanmaq olar, ya olmaz desin! – Arizin səs tonu artıq qalxmışdı.
– Ə, nə boş-boş danışırsan? Dedim sənə dağılışın, vəssalam! – polis ədəbsizcəsinə danışmağa başlayır və daha iki polis də onlara yaxınlaşır.
– “Ə” nədir? Çavuş, sən mənim ödədiyim vergilərlə formalaşan büdcədən maaş alıb ailəni dolandırırsan! Bu nə danışıq tərzidir? Ədəbli ol!
– Ə, tutun bunu, sürüyün buradan! – digər polis nəfərləri Arizin qoluna girib onu uzaqlaşdırmaq istəyirlər, digər namizədlərin müdaxiləsi ilə polislər əl saxlayırlar.
– Ariz bəy, lütfən sakitləşin, bu zorbalar ailələrində belə tərbiyə alıb, lütfən, – namizədlərdən biri Arizi sakitləşdirir.

– Bura mənim vətənimdir, eşidirsiz?! Mən harada, necə istəsəm elə də dayanacağam! Siz kimsiniz ki, mənə göstəriş verəsiniz?! – Ariz uzaqlaşaraq polislərə qışqırır.

Ariz digər namizədlə oradan uzaqlaşır, yaxınlıqdakı kafelərin birindən qəhvə alırlar və içərək yenidən məhkəmə qarşısına gəlirlər. Bir neçə dəqiqədən sonra məhkəmə önündə bir canlanma müşahidə edilir, jurnalistlər tez ora qaçırlar, namizədlər isə etiraz əlaməti olaraq "saxtakar-saxtakar" deyə qışqırmağa başlayırlar. Məlum olur ki, elə gözlənildiyi kimi, hakimiyyətin siyasi sifarişi ilə Konstitusiya Məhkəməsi seçkilərin nəticəsini tanıyır və yeni parlamenti təsdiqləyir.

Yeni parlamentin ilk iclası iki həftədən sonra olacaqdı. Ariz digər namizədlərlə görüşür və razılaşandan sonra həmin gündə parlament önündə etiraz etmələri barədə razılıq əldə olunur. İki həftə ərzində Ariz normal olaraq işə gedir, ailəsinə vaxt ayırır və axşamlar "Andaluniya harayı" kanalını izləyirdi. Artıq bir neçə gün idi ki, kanalda "Tartara faciəsi" haqqında danışırdılar.

Bir neçə zabitin və əsgərin müsahibələri yayılmışdı, onlardan bəziləri sıxılaraq, bəziləri isə əsərək Tartarada baş vermiş faciə haqqında danışırdılar. Zabit və əsgərlər onlara necə işgəncə verildiyi, onların arxasına plastik boru və butulka yeridildiyi barədə danışırdılar. Onları toka vermiş, suda boğmuş, dırnaqlarını çıxarmışdılar. İşgəncələr altında qətlə yetirilmiş əsgər və zabitlərin anaları da müsahibə vermişdi. Kanalda dəhşətli reallıqlar barədə danışılsa da, izləyici sayı on mini keçmirdi.

Qərib bəy ürək yanğısı ilə bu faciənin harayını çəkirdi, insanları qəflət yuxusundan oyatmağa cəhd edirdi. Ən dəhşətli səhnələrdən biri də işgəncələr altında qətlə yetirilmiş Elçin adlı əsgərin Validə adlı anasının müsahibəsi idi. Onun öz müsahibəsində "ey Andaluniyanın mərd, şərəfim və qeyrətim var deyən oğulları, mənim səsimə

səs verin, harayıma hay verin!" deyərək haray çəkdiyi müsahibə idi. Ariz bütün bu hadisələrdən dəhşətə gəlirdi, axı necə ola bilər ki, bir hakimiyyət onu qoruyan ordunun əsgər və zabitlərinə bu cür zülm etsin?

Qərib bəy efirdən izləyicilərə səslənərək bu işə dəstək olmaları üçün çağırış edirdi. Bir həftə bu hadisələri izləyəndən və Validə ananın harayını eşidəndən sonra Ariz Qərib bəyə zəng edir.

– Alo, Qərib bəy, salam, necəsiz?

– Oo, salam, Ariz bəy, sağ olun, siz necəsiz?

– Mən yaxşı olmağa çalışıram, var olun! Qərib bəy, mən sizi "Tartara faciəsi" ilə əlaqədar olaraq narahat edirəm.

– Buyurun, Ariz bəy, həqiqətən də dəhşətli hadisədir, yəqin ki, sizi də sarsıdıb.

– Elədir, dünən Validə ananın harayını eşidəndən sonra özümə gələ bilməmişəm. Mən bu işə dəstək olmaq istəyirəm, necə edə bilərəm?

– Ariz bəy, mən sizin dürüstlüyünüzə və cəsarətinizə heyranam! Əhsən sizə! Hazırda bu işi Andaluniyada Aslan bəy aparır, müsahibələri də o götürür, sadəcə, biz onun adını hələlik gizli saxlayırıq. Mən sizə onun nömrəsini verərəm, siz də onunla əlaqə saxlayarsınız, ona bu dəqiqə dəstək lazımdır, hər cür dəstək.

– Əla olar! Validə ananın da nömrəsini verərsiz? Onunla da görüşüb danışmaq istəyərdim.

– Əlbəttə, siz narahat olmayın, Aslan bəylə görüşsəniz, o, sizi Validə ananın evinə aparacaq. Əvvəlcə Aslan bəylə danışarsız, yox, daha yaxşı olar ki, ona yazasınız. Siz bu dəqiqə diqqət mərkəzindəsiniz, o gün məhkəmə önündəki müsahibənizə də baxdım, möhtəşəm idiniz!

– Təşəkkür edirəm, Qərib bəy! Onda elə danışdığımız kimi siz mənə Validə ananın və Aslan bəyin nömrəsini atın, mən onlara yazaram.

– Oldu, bir azdan göndərərəm.

Bir neçə dəqiqədən sonra Qərib bəy Arizə Aslan bəyin və Validə ananın nömrələrini göndərir. Ariz ilk öncə Validə anaya zəng edir.

– Alo, salam, Validə anadır danışan?

– Alo, bəli, salam, kimdir danışan?

– Mənim adım Arizdir, seçkilərdə namizəd idim, indi hakimiyyətlə, onun zülmü ilə mübarizə aparıram. Dünən “Andaluniya harayı” kanalındakı çıxışınıza baxdım, nömrənizi Qərib bəydən almışam, zəng etdim sizə deyim ki, Andaluniyanın vicdanlı və qeyrətli oğulları var və mən sizə bu işdə dəstək olacağam!

– Allah sizdən razı olsun, oğlum! Bir bilsəniz ki, mən necə sevinirəm?! İllərdir küçələrdə, idarələrin qarşısında qalmışıq, səsimizə səs verən yox idi, Allah Qərib bəydən də razı olsun ki, bizim dərdimizi işıqlandırdı.

– Narahat olmayın, Validə ana, siz bizim hamımızın anasısız, biz sizi darda qoymayacağıq! Bu həftə şəhərdə bir az işim var, mütləq onları bitirən kimi Tartaraya, sizi görməyə gələcəyəm!

– Sağ ol, ay oğul, Allah işlərini asan eləsin!

Ariz Validə ana ilə sağollaşaraq Aslan bəyə mesaj yazır: “Salam, Aslan bəy, adım Arizdir, nömrənizi Qərib bəydən almışam. Mən “Tartara faciəsi”ndə sizə dəstək olmaq istəyirəm. Bu həftə sonu gəlib sizi və Validə ananı ziyarət etmək istəyirəm”. Ariz mesajı göndərir və cavab gözləməyə başlayır. Bir stəkan çay süzüb divanda əyləşmişdi ki, Aslan bəydən cavab mesajı gəldi: “Salam, Ariz bəy, mən sizin çıxışınızı izləmişəm, sizi ləyaqətli və cəsarətli insan kimi tanıyıram. Lap əla olar, bizə bu işdə hər cür dəstək lazımdır, Validə anaya xüsusilə dəstək lazımdır. İzləmisinizsə orada hansı dəhşətlərin yaşandığından da xəbərdarsınız. Mən artıq yüzdən yuxarı müsahibə almışam, onların hamısı artıq Qərib bəydədir, razılaşmışıq ki, gündə birini efirə verəcək, mən də müsahibələri götürməyə davam

edirəm, hər gün yeni müsahibəni internet vasitəsilə ona göndərirəm. Bir xahişim olacaq, gəlməmişdən bir gün öncə mənə xəbər edərsiniz, mən sizə ünvanı yazacağam. Sözün açığı, Tartaranın girişində kimdən hüquqşünas Aslan bəyi soruşsanız, hamı məni tanıyır. Görüşənədək!".

Ariz cavab mesajını oxuyaraq sevindi, axı o, ustadı Ənvər hocanın məsləhəti ilə xalqı narahat edən ən vacib məsələ ilə məşğul olacaqdı. Amma həftə sonuna qədər hələ parlament önündə etiraz var idi. Ariz hələ taleyin ona nə cür sürprizlər hazırladığını bilmirdi...

Artıq həftənin cümə axşamı idi, parlamentin yeni iclası olmalı idi və seçki saxtakarlığına etiraz edən namizədlərin müşahidəçiləri saxta parlamentə etiraz etmək üçün onun qarşısına toplaşmışdı. Ariz ora tək getmişdi, hər cür hadisə ola biləcəyi üçün heç kimi riskə atmaq istəmirdi. Amma hələ ki, tam sakitlik idi, etirazçılar və jurnalistlərdən başqa parlament önündə heç kim yox idi. Jurnalistlər oradan canlı yayım açmışdılar, namizədlər də insanları parlament önünə etiraza səsləyirdilər.

Artıq yarım saat keçəndən sonra parlament binası önündə minə yaxın insan var idi. Hamını təəccübləndirən bir sual var idi, niyə polis gözə dəymirdi? Birdən parlament binasının sağından və solundan əsgər daşıyan iri maşınlar göründü, maşınlar parlament binasının qarşısındakı meydanı dövrəyə aldılar və onlardan çoxlu sayda dəbilqəli və qalxanlı əsgərlər düşdü. Zabitlərdən biri səsgücləndirici ilə orada toplaşanlara səsləndi:

– Burada toplaşanların nəzərinə! Siz ölkə daxilində təxribat yaratmaqda suçlanırsınız, dərhal meydanı boşaltmağınızı əmr edirəm! Əks halda sizə qarşı güc tətbiq ediləcək! Növbəti on dəqiqə ərzində bu meydanı tərk edənlərə qarşı heç bir tədbir görülməyəcək! Vaxt getdi!

Parlament qarşısında toplaşan insanlar zabitin

bu sözlərinə “saxtakarlar, oğrular!” deyə qışqıraraq reaksiya verirdilər. Namizədlərin bəzisi media vasitəsi ilə xalqa müraciət edərək dəstək vermələrini, meydanlara tökülmələrini istəyirdilər. Əsgərlər cərgə halında hərəkətsiz dayanaraq, komandirlərindən əmr gözləyirdilər. Beş dəqiqə tamam olan kimi zabit onlara “atəş!” əmrini verdi. Əsgərlər üç istiqamətdən insanların toplaşdığı yerə gözyaşardıcı qaz mərmisi atdılar, saniyələr içində meydan qaz dumanı ilə örtüldü. Öskürən kim, boğulan kim, öyüyən kim. Qaz bir az seyrəldikdən sonra ikinci əmr gəldi: “İrəli!”. Əsgərlər üç yandan nümayişçilərin üzərinə hücum çəkdi, insanları amansızcasına döyməyə başladılar. Elə bu anda çoxlu sayda polis maşınları da parlament binasının önünə gəldi. Zərbələr altında halsız şəkildə yerdə yıxılıb qalanları dərhal polis maşınlarına doldurmağa başladılar. Birdən zabit “namizədlərin hamısını həbs edin, heç kim aradan çıxmasın!” əmrini verdi. Namizədlər insan kütləsi içərisində müqavimət göstərmək istəsələr də alınmadı. Qaz insanları halsız şəklə salmışdı, onların çoxu güclə nəfəs alırdı. Birdən Arizin sağ qulağına dəyənək zərbəsi dəydi. Zərbədən onun qulağı cingildədi, başı döndü və o yerə yıxıldı. Dərhal iki əsgər onun qollarına girib sürüyərək izdihamın içindən çıxardılar və polisə təhvil verdilər. Polis nəfərləri də Arizə sillə-yumruq vura-vura onu polis maşınına basdılar. Arizin olduğu polis maşınında səkkiz nəfər var idi, polis maşını dərhal tərpəndi və onları “Mütəşəkkil Cinayətlə Mübarizə İdarəsi”nə gətirdilər.

Maşın idarənin həyətinə daxil olub binanın qarşısında dayandı. Maşının qapısı açılan kimi dərhal maskalı polislər həbs olunanları sürüyərək maşından çıxardılar və onları idarənin zirzəmisinə apardılar. Qaranlıq və nəmişlik iyi verən zirzəmidə dəhlizin sonuna yaxın Arizi bir otağa saldılar. Arizin ardınca bir neçə maskalı polis içəri daxil olub dəyənəklərlə Arizi döyməyə başladılar. Bir neçə

dəqiqədən sonra Ariz huşunu itirdi.

Şart! – Arizin üzərinə bir vedrə su töküb onu ayıldırlar. Tez onu ayağa qaldırır və əllərini kəndirlə tavandan asılmış qarmağa bağlayırlar. Bu halda onu yenə döyməyə və elektrik cərəyanı verməyə başlayırlar. Polislər bunun üçün dəyənəyə oxşayan xüsusi alətdən istifadə edirdilər. Birdən otağın qapısı açılır və mülki geyimdə bir şəxs otağa daxil olur. Arizə yaxınlaşır, çənəsindən tutub başını sağa-sola çevirərək onun üzünə baxır.

– Adın Ariz oldu, eləmi? – mülki geyimli polis Arizdən soruşur.

– Bəli, Arizdir, bəs siz kimsiniz? Bura haradır? Məni niyə döyürsüz?

– Sən xarici xüsusi kəşfiyyat orqanlarına işləyərək, dövlət çevrilişinə cəhddə təqsirləndirilirsən, bura isə idarədir, sənin kimi alçaqları cəzalandırmaq üçün idarə. Kimə işləyirsən, kimlərlə əlaqə qurmusan? – mülki geyimli şəxs qəzəbli səslə soruşur.

– Nə? Nə dövlət çevrilişi? Mən namizədəm, seçkilərin saxtalaşdırılmasına görə etiraz edirdim, dövlət çevrilişi nədir? Mən vəkilimlə görüşmək istəyirəm, mənim vəkilimi çağırın, Xalid bəyi çağırın!

– Sən bunun dilinə bax hələ, bunun danışmağa, tələb etməyə halı da var? Nə baxırsız, – digər polislərə müraciət edir, – qalxın və onu əməllicə əzişdirin!

Polislər cəld yerlərindən sıçrayaraq qalxırlar və yumruqlarla Arizin başına, üzünə, təpiklərlə ayaqlarına və belinə zərbələr endirməyə başlayırlar. Arizin çığırtısı bütün dəhlizi bürümüşdü. Onun burnundan, dodaqlarından qan süzülürdü, sol qaşı da partlamışdı, qanı dayanmırdı. Başını qaldıracaq halı olmadığı üçün başı aşağı sallanmış halda idi, burnunun ucundan və çənəsindən qan damırdı.

Birdən qapı açılır və otağa iki nəfər daxil olur, biri bayaq gəlmiş mülki geyimli şəxs, digəri isə polis zabiti formasında

olan mayor. Mayor olanın adı Samir idi, o, idarədə şöbə rəisi idi, mülki geyimli şəxs isə Müzəffər idi, o isə Samirin müavini idi, rütbəsi də kapitan idi. Müzəffərin qara və çopur sifəti var idi, ilk baxışdan onu heç insana bənzətmək də mümkün deyildi. Samir isə ağ və yumru sifətli idi, başının ortasında isə saçları tökülmüşdü. Onların hər ikisi Arizlə üzbəüz dayanıb onun halına baxdılar, Müzəffərin üzündə təkəbbürlü təbəssüm olsa da, Samirin üzündə mərhəmət ifadəsi var idi.

– Hə, alçaq, danış görək kimə işləmisən? – Müzəffər Arizdən soruşur.

– Nə işləməsi? Məni buraxın və vəkilimi çağırın! – Ariz təkid edir.

– Alçaq! – Müzəffər Arizə bir sillə vurur, – sən vətənimiz Andaluniyaya xəyanət etmisən! Mütləq bunun cəzasını alacaqsan!

Samir Müzəffərə işarə edərək onun kənara çəkilməsini istəyir, özü Arizə yaxınlaşıb deyir:

– Ariz, sən gəl inad edib bizim işimizi çətinə salma, bizə məxfi kanaldan məlumat daxil olub ki, siz ingilis xüsusi kəşfiyyat orqanları ilə əlbir olub ölkədə çevriliş etmək istəmisiz. Gəl rahat şəkildə bunu boynuna al, bütün bu iztirablar da bitsin, bizimlə əməkdaşlıq etdiyinə görə prokurorla da danışarıq ki, sənin cəzanı yüngülləşdirsin. İnad etmə!

– Yoldaş mayor, mən heç kimə işləməmişəm, məni burada nəinki döyməyə, heç saxlamağa belə ixtiyarınız yoxdur!

– Yaxşı, mən indi gedirəm, bir saata gələcəyəm, əminəm ki, onda sən hər şeyi mənə danışacaqsan, – deyə Samir otağı tərk edir və digər polisləri də otaqdan çıxarıb qapını çöldən bağlayır.

Bir neçə dəqiqə keçəndən sonra Ariz qonşu otaqlardan qışqırtı səsləri eşitməyə başlayır. Aydın məsələ idi ki,

digər həbs olunanlar da burada idi və onlara da işgəncələr verilirdi. Dəhlizin o başından gələn qışqırtı isə lap dəhşətli idi, sanki kiminsə diri-diri dərisini soyurdular. Arizi vahimə basmağa başlayır, canına qorxu düşür. Elə bu anda Ənvər hoca ilə qorxu haqqında etdiyi söhbətlər onun yadına düşür. “Bəli, biz torpaqdan yaranmışıq və torpağa dönəcəyik, ölüm son deyil!” – deyə öz-özünə təkrarlayırdı.

Birdən qonşu otaqdan səs eşidildi: “Yaxşı-yaxşı, daha döyməyin, mən etiraf edirəm, bəli, mən casusam və dövlət çevrilişi etmək istəyirdim!”. Ariz bu səsi eşidib narahat oldu, görəsən, ona nələr etmişdilər ki, o, belə asanlıqla öz əleyhinə ifadə verirdi?

Təxminən on dəqiqə də keçəndən sonra otağın qapısı açılır, Samir, Müzəffər və başqa bir neçə polis nəfərləri otağa daxil olur. Samir gəlib Arizlə üzbəüz dayanır:

– Ariz, sənin dostun etiraf etdi, bax, görürsən, daha ona işgəncələr verilmir, indi o, rahatdır və istirahət edir. Bax və ondan nümunə götür.

– Siz ona nələr etdiniz ki, o, öz əleyhinə ifadə verdi? Siz alçaqsınız! İnsana belə işgəncə verməzlər, siz insan deyilsiniz!

– Deyəsən, hələ də ağıllanmamısan, hə, nə olar, bir az bu polislərlə tək qalarsan, onlar səni ağıllandırarlar, mən isə sənin yaxşılığını istəyirdim.

Birdən polislərdən biri otağa daxil olaraq Müzəffəri çölə çağırır, onun qulağına nəsə deyir və gedir. Müzəffər cəld Samirə yaxınlaşır:

– Rəis, bunun telefonunun şifrəsini qırıblar və telefonunu yoxlayıblar, bu əclaf heç bilirsiz kimlərlə əlaqə qurub?

– Kimlərlə, orada nə tapılıb? – Samir maraqla soruşur.

– İngiltərədə yaşayan Qəriblə və ona “Tartara faciəsi” barədə müsahibələri çəkib göndərən Aslanla.

– Nə danışırsan?! Onda kələfin ucunu tapmışıq ki?! Əla!

Elə indicə get və özün hər şeyi yoxla və dərhal mənə xəbər ver! – Samir sevinir və üzünü Arizə tutaraq:

– Eşidirsən, sən vətənə xəyanətdə təqsirləndirilən Qəriblə danışmısan, dövlət çevrilişinə cəhd edən Aslanla danışmısan, bütün bunlar sənin günahını sübut etmirmi?

– Sübut edirsə verin məni prokurorluğa, qoy məhkəmə önünə çıxarılım və məni həbs etsinlər, daha niyə uzadırsız ki?

– Sən demə, özünü ağıllı sayır bu əbləh! Darıxma, biz sənə hər şeyi başa salacağıq! – Samir polislərə Arizi döyməsləri üçün işarə edir.

Polislər yenə də Arizi döyməyə başlayırlar, Samir isə otağın bir kənarında əyləşərək bu mənzərəyə tamaşa edirdi. Birdən Müzəffər otağa daxil olur:

– Rəis, bu əbləh həftə sonunda Aslanla görüşəcəkmiş, onunla bu barədə danışıb və razılaşıbmış. Aslan Tartarada yaşayır və yazıb ki, "Tartaranın girişində kimə desən ki, hüquqşünas Aslan bəy lazımdır, sənə evimi göstərəcəklər". Rəis, bəlkə Aslana bir torba tikək və onu da həbs edək?

– Aha, nə gözəl, nə qəşəng?! Əla! Elə də edəcəyik, məlumatı əməliyyatçılara ver, qoy elə indi çıxsınlar, biz onu dərhal həbs etməliyik! – Samir sevincək əmr verir və Müzəffər otağı tərk edir.

Ariz işgəncələr altında olsa da bütün bu danışılanları eşidirdi, o, narahat olmağa başlamışdı, axı oturduğu yerdə Aslan bəyi zibilə salmışdı. Birdən Ariz dilləndi:

– Əl saxlayın! Mən rəislə danışmaq istəyirəm!

– Danışmaq istəyirsən? – Samir cəld Arizə yaxınlaşdı. – Buyur, eşidirəm, mənə nə demək istəyirsən?

– Siz Tartaradakı faciədən xəbərdarsız? Orada əsgər və zabitlərimizə nə divan tutulduğunu bilirsiz? Heçmi vicdanınız sızlamır?

– Vətənə xəyanət edənlərə nə etsən azdır! Bu məni heç narahat etmir!
– Bəs onda cinayət məcəlləsi, məhkəmə, həbsxana nəyə lazımdır? Harada yazılıb ki, vətənə xəyanət edənə butulka soxulmalıdır? Harada belə şey var?
– Yəqin sənin Amerikadakı Quantanamo həbsxanasından xəbərin yoxdur. Hətta demokratiya və insan hüquqlarının beşiyi adlandırılan Amerikada da işgəncələr var.
– İndi guya siz öz cinayətinizə haqq qazandırırsınız? Cinayət hər yerdə cinayətdir, istər Amerikada olsun, istərsə də Andaluniyada! Siz mütləq bütün bunlara görə cavab verəcəksiniz, xalq, tarix və Allah qarşısında mütləq cavab verəcəksiniz!
Birdən Müzəffər otağa daxil olur və Samirə yaxınlaşır:
– Rəis, əməliyyatçılar artıq çıxdılar, yəqin ki, bir neçə saata Aslan bizim əlimizdə olacaq.
– Əla, bax buna deyərlər operativlik!
– Bir əmma var, rəis.
– Nə olub?
– Rəis tapşırdı ki, nə olursa olsun, günün sonuna hamıdan etiraf alınmalıdır, biz tələsməliyik, günün sonuna bir neçə saat qalıb. Mütləq axşam efirində bütün kanallarda xainlərin etirafı barədə xəbər getməlidir, cəmiyyəti sakitləşdirməliyik, yuxarıdan belə göstəriş gəlib, – deyə Müzəffər sağ şəhadət barmağını yuxarı qaldırır.
– Bəs biz nə edirik? Biz də elə o işlə məşğuluq da. Başqa məhbuslarla vəziyyət necədir?
– Rəis, bundan başqa hamısı etiraf edib, bircə bu qalıb. Nəsə etməliyik, belə davam edə bilməz!
– Nə təklif edirsən?
– Gəl onun ailəsini bura gətirək, həyat yoldaşı Yeganəni və qızı Nərmini.

Ariz ailəsinin adını eşitcək bərk narahat oldu:

– Yəni bu alçaqlığı da edəcəksiniz? Mənim ailəmin bu məsələyə nə dəxli var?

– Dəxli var! – Müzəffər Arizin üzünə bozardı. – Lap əla dəxli var! Bəs siz dövlət çevrilişi etsəydiniz, mənim ailəmə dəxli olmayacaqdı? Dərhal gedirik sənin ailəni bura gətirməyə! – Müzəffər bunu deyərək otaqdan çıxır.

– Yoldaş mayor, – Ariz üzünü Samirə tutaraq deyir, – mənim ailəmin bu məsələyə dəxli yoxdur, bu alçaqlığı etməyin!

– Mən bilmirəm, sən günün sonuna qədər etiraf etməlisən, vəssalam! – Samir də otaqdan çıxır.

Ariz Samirin arxasınca qışqırsa da faydası olmur. Otaqda olan polislərdən biri Arizin üzünə su tökür və ona içməyə bir az su verir. Ariz əsəbdən əsərək nələr baş verdiyi barədə düşünürdü, o qədər döyülmüşdü ki, artıq ayaq üstə durmağa halı qalmamışdı, sadəcə kəndirdən sallanırdı.

## Görünməmiş bir faciə

Yarım saat keçəndən sonra Samir otağa daxil olur və Arizin qollarını açaraq onu yerə bərkidilmiş stula əyləşdirərək, əllərini və ayaqlarını bağlamağı əmr edir. Polis nəfərləri dərhal əmri icra edirlər. Arizin üzünün qanını silirlər ki, çox da vahiməli görünməsin.

İki dəqiqə keçməmiş Müzəffər qapıdan içəri daxil olur:

– Rəis, gətirmişik.

– Gətirin içəri! – Samir göstəriş verir.

Budur, Yeganə və Nərmin ağlayaraq otağa daxil olurlar, Ariz onları görcək daxilən sarsılır, deməli, onlar bu alçaqlığı da edərlərmiş.

– Yeganə, Nərmin, sizə heç nə etməyiblər ki? – Ariz dərhal təlaşla soruşur.

– Ariz, biz yaxşıyıq, sadəcə bilmirik ki, bizi bura niyə gətiriblər, – Yeganə gözlərinin yaşını silərək cavab verir.

– Atacan, ata, bizi polislər niyə tutub? Biz neyləmişik ki? – Nərmin ağlayaraq soruşur.

– Qızım, siz heç nə etməmisiniz, polislər atanı başqası ilə səhv salıb, bir azdan buraxacaqlar. – deyə Ariz qızını sakitləşdirməyə çalışır.

– Sənin atan cinayətkardır! – Müzəffər Nərminə yaxınlaşaraq deyir. – O, anamız Andaluniyaya xəyanət edib, indi də cəzalandırılır.

– Yox, mənim atam xəyanətkar deyil, o, namizəd idi, siz seçkiləri saxtalaşdırdınız, o da etiraz etdi, indi ondan nə istəyirsiz? Buraxın onu, eşidirsiniz, buraxın onu! – Nərmin hıçqırtı ilə ağlayır.

– Ariz, – Samir üzünü Arizə tutaraq deyir, – ailənə daha çox zülm etmə, günahını etiraf et, biz də onları evə aparaq.

– Xeyr! – Yeganə hikkə ilə etiraz edir. – Arizin heç bir günahı yoxdur! Siz ona işgəncə verməklə cinayət edirsiniz, onun boynuna qoymaq istəyirsiniz! Ariz, heç bir halda etiraf etmə, bizim üçün də narahat olma, biz Allaha sığınmışıq!

– Bu nə dəlixanadır e, rəis! – Müzəffər əsəbiləşir. – Bir dəqiqə kənara gəl.

Samirlə Müzəffər otağın bir kənarına çəkilirlər. Müzəffər etirafı almaq üçün Samirə təklif verir:

– Gəl mən Nərminin ora-burasına toxunum, Arizi qızını zorlamaqla təhdid edim, o da etiraf etsin.

– Sənin başın xarabdır! – Samir əsəbiləşərək sərt reaksiya verir. – O ki hələ uşaqdır, uşağa elə şey eləmək olar? Sənin başın gedir, deyəsən.

– Bir dəqiqə dayan! – Müzəffər Samirin üzünə bozarır. – Günün sonunda rəisə nə cavab verəcəksən, hə? Görmürsən, Ariz artıq sınıb dayanıb, sadəcə bir az güc gəlmək lazımdır. Mən demirəm ki, onun qızını zorlayım, sadəcə deyirəm ki, görüntü yaradaq, heç bir ata buna

dözməz, Ariz də dözməyəcək və sınacaq.

– Müzəffər, bu alçaqlıqdır, mən bu işə qol qoya bilmərəm! Sabah mətbuata sızsa, camaat gəlib bizim üzümüzə tüpürər, başa düşürsən?

– Sən narahat olma, rəis, hər şey mənlikdir, kim sənə nə desə, göndər üstümə!

– Dayan! Sən mənim canım, elə et ki, qızın canı yanmasın, psixi travma almasın, eşidirsən?

– Oldu, sən narahat olma, sadəcə bax və öyrən! – Müzəffər Samirə göz vuraraq Nərminə yaxınlaşır.

Ariz ailəsinə baxaraq ağlayır və bağlandığı stulda çırpınırdı. Müzəffər Nərminin qolundan tutaraq onu Arizə yaxınlaşdırır, onun başı səviyyəsinə qədər əyilir və Nərminə deyir:

– Qızım, istəyirsən atanın əziyyətləri bitsin?

– Hə, əmi, istəyirəm, nə olar, onu buraxın da, – Nərmin hıçqıraraq cavab verir.

– Onda ona de ki, hər şeyi etiraf etsin, – Müzəffər hiylə işlədir.

– Atamın heç bir günahı yoxdur, əmi, onu nahaqdan tutmusunuz, onu buraxın.

– Yox, səninlə alınmadı. – Müzəffər məyus görkəm alır. – Ariz, istəyirsən ki, qızını və arvadını buraxaq, getsinlər?

– Onları heç bura gətirməməli idiniz, dərhal onları buraxın! – Ariz sərt tərzdə cavab verir.

– Onda sən gəl hər şeyi etiraf elə, – Müzəffər hiyləgər bir tonla deyir.

– Mənim etiraf edəcək heç bir günahım yoxdur! – Ariz səsinin tonunu qaldırır.

– Yox, sizdən adam olmayacaq! Bax, Ariz, mən istəmirəm ki, sənin qızına zor tətbiq edim, özün məni başa düşürsən də? – Müzəffərin rəngi bozarır və gözləri parıldayır.

– Yox, buraxın mənim qızımı! – Yeganə müdaxilə edərək

Nərmini Müzəffərin əlindən almaq istəyir.

– Çəkil görüm! – Müzəffər Yeganəni itələyir. – Tutun bunu, uzaqlaşdırın buradan, mənə mane olmasın! – Polislər Yeganənin qollarını buraraq otağın divarına tərəf çəkirlər.

– Buraxın onu, toxunmayın ona! – Ariz qışqıraraq deyir.

– Hə, mənim ağıllı qızım, – Müzəffər yenə Nərmini qucaqlayır, onun səviyyəsinə qədər əyilib deyir, – biz harada qalmışdıq?

– Atamı buraxın! – Nərmin gözləri yumulu halda ağlayaraq deyir.

– Hə, düzdür, atanı buraxmaqdan danışırdıq. – Müzəffər bic-bic gülümsəyir. – Bax, görürsən, anana əziyyət verilir, amma atan buna tamaşa edir, ananı qurtarmaq üçün heç nə etmir. İndi gəl yoxlayaq görək ki, atan səni sevir, yoxsa yox.

Bunu deyərək Müzəffər sağ əlini Nərminin sinəsinə sürtməyə başlayır. Nərmin gözləri yumulu halda titrəyərək hıçqırtı ilə ağlayırdı. Ariz "yox!" deyə hayqırırdı, Yeganə polislərin əlindən çıxmaq üçün "buraxın qızımı!" deyərək qıvrılırdı, Samir isə utandığından üzünü divara tərəf çevirmişdi. Müzəffər əlini Nərminin sinəsindən boynuna tərəf sürtərək qaldırırdı, Nərmin artıq səsli halda qışqıraraq ağlayırdı. Samir artıq dözə bilmirdi, öz-özünə "yetər!" deyərək Müzəffərə tərəf getdi, birdən Nərmin Müzəffərin sağ əlini dişlədi, Müzəffər "ay səni, küçük" deyərək Nərmini buraxdı və onun qarnından təpiklə vurdu. Nərmin zərbədən yıxıldı, başı divara dəyərək, zərbənin ağırlığından boynu qırıldı və hərəkətsiz halda yerdə qaldı. Samir Müzəffərin iki addımlığında dondu, Ariz üzünü göyə tutaraq " yox, qızım!" deyə haray çəkdi, polislər gördükləri mənzərədən süstləşdi və Yeganənin əllərini buraxdılar, Yeganə ağzını tutub ağlayaraq yerə çökdü, Müzəffər isə sağ əlini ağrıdan tutaraq Nərminin meyitinə baxırdı, yerində

donmuşdu.

– Ay axmaq, sən nə etdin? – Samir Müzəffərə üz tutub dedi.

– Nə etdim ki, qız əlimi dişlədi və mən də refleks olaraq ona təpik vurdum, – deyərək Müzəffər özünü haqlı çıxarmağa cəhd etdi.

– Tez həkim çağırın! – Samir polislərə göstəriş verdi.

Həkimlər gəldi, qızın öldüyünü təsdiqlədilər, Yeganəyə sakitləşdirici iynə vurdular, qızın meyitini xərəyə qoyub apardılar. Yeganənin nəzərləri donmuşdu, artıq heç nəyə reaksiya vermirdi, onu maşına əyləşdirib evinə apardılar. Ariz isə bağlandığı stulda elə hey çırpınır, Müzəffəri söyür və qışqırırdı.

Samir hələ də şokda idi, nə baş verdiyini həzm edə bilmirdi. Artıq rəislərinə Arizin sınmaması və yaşanan insident barədə məlumat vermişdi, rəis isə "yazarsınız ki, qız qaçmaq istəyərkən üçüncü mərtəbədən yıxılıb, işi belə bağlayarsız" demişdi. Samir başa düşürdü ki, ortada bir cinayət baş verib və özü də daxil olmaqla Müzəffər cəzasız qalacaq. Arizə isə çıxılmaz vəziyyətdə qalaraq, "polisə müqavimət, polisə fiziki xətər yetirmək" maddəsi ilə bir neçə ay həbs verəcəkdilər. Samir bu dəhşətin içindən necə çıxacağını bilmirdi.

Bu hadisənin üstündən iki gün keçmişdi, Arizin vəkili Xalid idarəyə gələrək Müzəffərlə görüşür, onun bu məsələnin əslindən xəbəri yox idi, Yeganə stresdən nitqini və ağlını itirmişdi, heç kimlə danışmırdı, sadəcə oturduğu yerdə gözünü bir nöqtəyə zilləmişdi.

Müzəffər Xalidi öz kabinetində qarşıladı:

– Salam, Xalid bəy, buyurun, əyləşin.

– Salam, təşəkkür edirəm, rəis.

– Buyurun, sizi dinləyirəm.

– Bilirsiz, sizdə həbsdə olan Arizin qızı sabah dəfn ediləcək, Arizin dəfndə iştirak etməsini tələb etməyə

gəlmişəm.

– Olmaz, Ariz xüsusi ağır cinayətdə ittiham olunur, onu buraxa bilmərik.

Əslində isə Arizin üzündə işgəncə izləri olduğuna görə buna yol verə bilməzdi.

– Rəis, Ariz atadır, onun qızı faciəvi şəkildə ölüb, bu insanlıqdan deyil, onun dəfndə iştirakını təmin edin! Buyurun, bu da müraciət ərizəsi! – Xalid ərizəni Müzəffərə təqdim edir.

– Siz ərizəni verdiniz, mən də qəbul etdim. Təşəkkür edirəm, indi isə gedə bilərsiniz!

Müzəffər ayağa qalxaraq Xalid bəyə qapını göstərir.

– Belə olmaz! Mən şikayət edəcəyəm!

– Bəli, bu, sizin konstitusion haqqınızdır, hara istəsəniz şikayət edə bilərsiniz! – Müzəffər kinayə ilə cavab verir.

Ertəsi gün Şüalıq qəbiristanlığında Nərmini dəfn edirlər, nə atası, nə də anası dəfndə iştirak edir. Necə də məzlum bir dəfn, son mənzilə valideynlərinin iştirakı olmadan yola salınan zavallı qızcığaz!... Nərminin dəfnində kənarda tək duraraq izləyən bir nəfər var idi, o, Samir idi, hıçqırtı ilə ağlayaraq dəfn prosesini izləyirdi.

Nərmin ölən gündən Samir rahat yata bilmirdi, hər gecə Müzəffərin Nərminə təpik vurma səhnəsini yuxusunda görürdü və yuxudan qorxu içində ayılırdı. O, nə özünü, nə də Müzəffəri bağışlaya bilmirdi. Dəfndən qayıdaraq idarəyə gəlir, kabinetinə daxil olmaq istəyəndə Müzəffərin səsini eşidir, yenə telefonda kiminləsə qışqıraraq danışırdı. Samir kabinetinin qapısını örtür və Müzəffərin kabinetinə tərəf gedir. Qapını açıb içəri daxil olur, Müzəffər arxası qapıya, ayaqlarını qaldırıb dolabın üzərinə qoyaraq telefonla danışırdı. Samir öskürür, Müzəffər səsə geriyə çevrilir, Samiri görcək tez özünü düzəldir, dəstəyi asır və ayağa qalxır.

– Rəis, salam, necəsiz? Bağışlayın, sizi görmürdüm,

buyurun, əyləşin.
– Eybi yoxdur, – Samir onunla üzbəüz əyləşir, – bilirsən haradan gəlirəm?
– Haradan gəlirsiz, rəis?
– Nərminin dəfnindən.
– Hansı Nərmin, rəis?
– Necə yəni hansı Nərmin? – Samirin gözləri bərəlir və səsinin tonu qalxır.
– Rəis, vallah bilmədim, hansı Nərmindir belə?
– Adam ələ salırsan, alçaq? – Samir ayağa qalxır.
– Rəis, niyə qışqırırsan? – Müzəffər də ayağa qalxır. – Xatırlamadım da, məni öldürməyəcəksən ki?
– Necə yəni xatırlamadın, bir neçə gün öncə təpiklə vurub öldürdüyün Nərmin! Canisi olduğun Nərmin, qatili olduğun Nərmin! Üzərində alçaqlıq etdiyin Nərmin, atasının və anasının gözləri önündə əlləşdirdiyin Nərmin! – Samirin səsi dəhlizi bürümüşdü, qapının önünə çoxlu polis yığışmışdı.
– Rəis, bir dəqiqə dayan ey! – Müzəffər tez kabinetin qapısını bağladı. – Ay kişi, nə xoruzlanırsan kabinetimdə, nə demək istəyirsən? Sən kimsən ki, mənim otağımda anqırırsan? Sən bilmirsən ki, mənim əmim nazirlikdə şöbə rəisidir? İstəyirsən poqonlarını sökdürüb sənə yedizdirim? Nə anqırırsan burada, tez elə, uç buradan! – Müzəffər sifəti bozarmış halda Samirin üstünə çığırırdı.
– Mənə deyirsən sən?
– Ə, həri, sənə deyirəm, bas bayıra kabinetimdən! Səni maşınımın arxasına bağlayıb küçük kimi sürüyərəm! İlişməyə adam tapmamısan, deyəsən! Sənin poqonlarını sökdürüb gözünə soxdurmaq mənə borc olsun!
– Yaxşı, baxarıq, görək kim kimə nə edəcək! – Samir dərhal Müzəffərin kabinetini tərk edir.

Dəhliz boyu Samir iti addımlarla öz kabinetinə gedir, içəri daxil olaraq açarı salıb dolabı açır. Dolabdan tapançasını

götürür, güllə darağını çıxararaq yoxlayır, güllələrin olduğuna əmin olub darağı yerinə taxır və tapançanı cibinə qoyur. Samir kabinetindən çıxaraq iti addımlarla, heç yana baxmadan düz Müzəffərin kabinetinə gəlir. O, qapını astaca açır, Müzəffərin yenə arxası qapıya tərəf telefonla danışdığını görür. Səssizcə kabinetə daxil olur, qapını örtür və açarla qapını bağlayır. Açarın səsindən Müzəffər geriyə dönür və Samirin tapançanı ona tuşladığını görür:

– Rəis, rəis neyniyirs...

PART! Tapançadan açılan atəş Müzəffərin sözünü yarımçıq kəsir.

Müzəffər yerə yıxılaraq çapalamağa başlayır, Samir ona yaxınlaşır, güllənin onun sol yanaq nahiyəsindən tutduğunu görür. Birdən kabinetin qapısı döyülməyə başlayır: "Rəis, yaxşısız, rəis nə oldu orada?" – deyə polislərin səsi eşidilir. Samir tapançanı Müzəffərin alnına tuşlayır və "al, alçaq, şərəfsiz!" deyərək bir də atəş açır. Budəfəki atəşdən sonra Müzəffər artıq çapalamırdı. Qapıdakı polislər artıq qapını sındırmağa başlayırlar, "rəis, etmə, eləmə!" deyə qışqırırlar. Samir kabinetdəki güzgünün qarşısına gəlir, güzgüyə yaxınlaşaraq üz-gözünə baxır, başını sağa-sola çevirir, hər tərəfdən özünə nəzər salır, sonra bir az geriyə çevrilərək özünə aralıdan baxır və "yox, qaqaş, pis deyilsən!" deyərək tapançanı çənəsinin altına dirəyir və atəş açır. Nəhayət ki, polislər qapını sındıraraq içəri daxil olur və gördükləri mənzərədən donub qalırlar. Üç atəşdən sonra havada barıt tüstüsü sallanıb qalmışdı, Müzəffərin yıxıldığı yerdə divardan, Samirin yıxıldığı yerdə tavandan qan damırdı, polislər sadəcə yerlərində qurumuşdular. Beləliklə də, həyat özü Nərmin balanın qisasını onlardan aldı...

Artıq bir neçə gün keçmişdi, Arizin üzündə işgəncə izləri yoxa çıxmışdı, artıq onu məhkəmə qarşısına çıxarmaq olardı. Məhkəmədə işə baxan hakimi əvvəlcədən xəbərdar

etdikləri üçün o, Arizin şüşə qəfəsə salınaraq mikrofonunu söndürməyi tapşırmışdı. Məhkəmə iclasında Arizdən başqa hamı danışdı, digər namizədlər, yalançı hal şahidləri və Arizin üzünə duran polislər. Məhkəmə Arizə bir il həbs təyin etdi. Məhkəmədən sonra Arizi müvəqqəti təcridxanaya apardılar, indi o, hansısa həbsxanaya aparılacağını gözləyirdi, adətən bu, bir həftə çəkirdi. Təcridxanada olduğu vaxt polislərin Aslan bəyi də həbs etdiklərini eşitdi, Ariz buna görə özünü günahlandırırdı, axı Aslan bəyi onun telefonundan tapmışdılar...

Yeganə evdə tək-tənha oturmuşdu, o, yenə də heç kimlə danışmır və bütün günü gözlərini uzaqlara zilləyərək nəsə düşünürdü. Əslində o, xəyallarında yaşayırdı, illər öncə ailənin tam və xoşbəxt olduğu, Nərminin beş yaşı olduğu günlərdə xəyalən gəzişirdi. Xəyalında Nərmin parkda sürüşkənlərdən sürüşür, yelləncəklərdə yellənir, atası ona sevdiyi şokoladı alır, Nərminin isə sevincdən üzündə təbəssüm yaranırdı. Yeganə bütün bunları xəyalında canlandırdıqca, yaşadıqca yüngülcə gülümsəyirdi. Birdən yan otaqdan, Nərminin otağından səs gəlir, bu səs Yeganəni xəyallarından ayırır və o, ağır-ağır başını səs gələn tərəfə çevirir. İlahi, bu nədir, Yeganə qızı Nərmini görür. O, cəld stuldan qalxaraq Nərminə tərəf qaçır, diz üstə çökərək onu qucaqlayır, bağrına basıb üz-gözündən öpür:

– Qızım, mənim şirin balam, mən bilirdim ki, sən ölməmisən, mütləq gələcəksən!

– Ana, mən orada tək darıxıram, səni istəyirəm, ana!

– Harada, harada darıxırsan?

– Orada, – Nərmin barmağı ilə yuxarını göstərir, – məni niyə tək qoymusan, ana. Gəl də yanıma, nə olar?!

Nərmin Yeganənin əlindən tutaraq onu otağına tərəf çəkir. Yeganə qalxır və qızının, həyat bağçasının açmamış solan gülünün arxasınca gedir. Onlar otağın pəncərəsinə yaxınlaşırlar, Nərmin pəncərədən pərvaz edərək uçub

gedir, Yeganə də pəncərəyə qalxaraq özünü atır və beləliklə də ana öz balasına qovuşur.

Həyətdə hamı səs-küyə yığışır, bu dəhşətli hadisə hamını sarsıdır, birdən Arizin qonşusu olan Sərvərin səsi eşidildi:

– Ariz də belə bədbəxt oldu. Sənə deyən lazım idi ki, axı nəyin çatmırdı? Gül kimi işin-gücün, evin-eşiyin, ailən-uşağın. Yox ki yox, mütləq deputat olacaqdı, dünyanı düzəldəcəkdi, budur, indi olan-qalanı da əlindən çıxdı.

Həkim və polis gəldi, Yeganənin meyitinə və hadisə yerinə baxış keçirərək meyiti xərəyə qoyub apardılar. Səhəri gün Arizin vəkili Xalid bəy Arizin saxlandığı təcridxanaya gəlir, təcridxana rəisi ilə görüşərək onu hadisədən hali edir və Arizlə görüş istəyir. Təcridxana rəisi Arizi dəfnə buraxacağına söz verir və Xalid bəylə Arizin görüşünü təşkil edir, bu ağır xəbəri Arizə Xalid bəy çatdırmalı idi.

Xalid bəy artıq görüş otağında idi, budur, qapı açılır və Ariz qolları qandallı halda, iki polisin müşayiəti ilə otağa daxil olur. Ariz Xalid bəylə üzbəüz oturur və salamlaşır:

– Salam, Xalid bəy!

– Salam, Ariz! Necəsən? Özünə gəlmisən?

– Bu dəhşətlərdən sonra necə özümə gələ bilərəm ki? – Ariz çiyinlərini çəkərək cavab verir.

– Bəli, ağırdır, hər bir itki ağırdır. Mən sənə bir xəbər gətirmişəm, sözün açığı, heç bilmirəm ki, necə deyim, – Xalid bəy başını aşağı salır.

– Mənim yaşadıqlarımdan sonra artıq məni heç bir xəbər sarsıda bilməz! Buyur, de, rahat ol!

– Ariz, Yeganə... – Xalid bəyin gözləri dolur.

– Nə Yeganə? Nə olub Yeganəyə? – Ariz təlaşla özünü qabağa verir.

– Ariz, Yeganə itkiyə dözməyərək intihar edib, – Xalid bəy cibindən dəsmalını çıxararaq gözlərinə sıxır və ağlamağa başlayır.

– Nə? İntihar? Nə intiharı, sən nə danışırsan, Xalid! –

Ariz ayağa qalxaraq Xalid bəyin çiyinlərindən tutur və onu silkələyir, polislər dərhal müdaxilə edir, Xalid bəy onlara əli ilə yaxınlaşmamaları üçün işarə edir, polislər geri çəkilir.

– Sakitləş, Ariz, bu hadisə dünən qəfil baş verib, – Xalid bəy də ayağa qalxaraq Arizi qucaqlayır, hər ikisi də ağlayır. – Bu gün dəfn olacaq, hər şey hazırdır, camaat səni gözləyir, get əynini dəyiş, biz dəfnə gedirik.

Xalid bəy özü ilə götürdüyü paltarları Arizə verir. Ariz paltarları ondan alır, ağlayaraq otağı tərk edir. Əynini dəyişir və polislər onu qolları qandallı halda təcridxananın qapısına çıxarırlar. Prosedura görə, məhbus dəfndə iştirak üçün polis maşınında, polisin müşayiəti ilə gedə bilərdi. Onlar polis maşınına əyləşərək Şüalıq qəbiristanlığına gəlirlər. Ariz yol boyu susqun halda xəyallara dalmışdı.

Qəbiristanlıqda artıq hər şey hazır idi, qəbir qazılmış, insanlar toplaşmışdı, Yeganənin cənazəsi də orada idi, sadəcə dəfn üçün Arizin gəlməyini gözləyirdilər. Arizi maşından düşürürlər və polisin müşayiəti ilə onu Yeganənin dəfn olunacağı qəbrin yanına gətirirlər. Ora toplaşanlar arasında olan qohumlardan bir neçəsi Arizin qabağına gedərək onu qucaqlamaq və başsağlığı vermək istəsələr də, Ariz onları itələyərək özündən uzaqlaşdırır, indi onun gözü sadəcə Yeganənin cənazəsini görürdü. Birdən Ariz sürətlə cənazəyə tərəf gedir, qarşısında diz üstə oturaraq onu qucaqlayır:

– Yeganə, axı niyə məni bu zalım dünyada tək qoydun? – deyərək üzünü səmaya tutur və qışqırmağa başlayır.

– İlahi! Axı bu necə bir imtahandır, İlahi! İndi mən necə səbir edim, İlahi!

Ariz Yeganənin başını qucaqlayır, onu əliylə tumarlayaraq oxşamağa başlayır:

– Əzizim, axı niyə sən özünə qıydın, ay mənim ömrümün

baharı, necə qıydın özünə?! – Ariz bunları dedikcə ağlayırdı, ətrafdakılar da göz yaşlarına hakim ola bilmədi, hamı bu ürək dağlayan mənzərənin qarşısında kövrəlib ağlayırdı.

Birdən Ariz başını qaldırır və gözü bir metr aralıda kiçik bir qəbrə sataşır, dərhal həmin qəbrin Nərminə aid olduğunu başa düşür. Yeganənin başını ehmallıca yerinə qoyur və dizi üstə, iməkləyərək Nərminin qəbrinə yaxınlaşır, özünü qəbrin üzərinə ataraq fəryad qoparmağa başlayır:

– Nərmin, qızım, Nərmin, bu alçaqlar sənə necə qıydılar?! Sənin kimi gül balaya necə qıydı bu alçaqlar! Axı sənin nə günahın var idi ki, səni polis idarəsinə gətirib zorlamaq istədilər?! Axı sən nə etmişdin ki, səni təpiklə vurub öldürdülər?!

Birdən orada toplaşan insanlar bir-birinə baxdılar, Arizdən eşitdiklərindən narahat olmuşdular. Arizin qohumlarından biri ona yaxınlaşaraq:

– Ariz, özünə gəl, necə yəni Nərmini zorlamaq istədilər? Necə yəni onu təpiklə vurub öldürdülər? Sən nə danışırsan, Ariz, özünə gəl!

– Bəli! – Ariz ayaq üstə qalxaraq ətrafdakı insanların üzünə baxaraq dedi. - Bəli, mənim qızımı polis idarəsinə gətirmişdilər, onu Müzəffər adında bir heyvərə zorlamaq istəyirdi, Nərmin onun əlini dişlədi və o da onu təpiklə vurdu, Nərminin başı divara dəydi və boynu sındı. Məgər siz bunu bilmirsiz? Bilmirsiz ki, bizim polis idarələrində nələr yaşanır?

Bu anda polislər cəld Arizə yaxınlaşaraq onun ağzını tutdular, qollarını buraraq, onu polis maşınına apardılar. İnsanlar eşitdiklərindən bərk narahat olmuşdular. Dərhal Şüalıq kəndinin icra nümayəndəsi Rauf və Anar insanları sakitləşdirməyə başladı:

– Sakit olun, camaat, narahat olmayın, bu itkilərdən sonra kimin başında ağıl qalar ki? Görünür, Arizin ağlı

qaçıb, onu müalicə etmək lazımdır, – Rauf alçaqcasına canfəşanlıq edirdi.

Oraya toplaşan insanlar Raufun və Anarın necə alçaq xislətli olduğunu bilirdilər, elə buna görə də onlara inanan olmadı.

– Dövlət rəsmi olaraq məlumat yayıb, Arizin qızı qaçmaq istəyərkən üçüncü mərtəbədən yıxılaraq ölüb. Sadəcə Ariz psixiki olaraq sarsılıb, yazıq, hansı birimiz bu qədər müsibətin qarşısında tab gətirə bilərik ki?! – Anar da hiyləgərliklə bu hadisəni ört-basdır etməyə çalışdı.

Polislər çırpınan Arizi güclə polis maşınına çatdırdılar, o, maşına minən anda müqavimət göstərməyə çalışırdı, elə hey "Nərmin, qızım!" deyə hayqırırdı. Nəhayət, polislər onu maşına mindirir və oradan uzaqlaşırlar, insanlar da Yeganəni dəfn edirlər.

Yolda Ariz özünü çılğın kimi aparırdı, çırpınırdı, əsəbdən başını maşının şüşəsinə vururdu, polisləri söyürdü. Polislər dərhal təcridxana rəisinə bu barədə məlumat verdilər. Dəfndən sonra Rauf və Anar da rayonun icra hakiminə bu barədə məruzə etdilər. Artıq hakim komandanın baş vermiş insidentdən xəbəri var idi və bu hadisəyə don geyindirmək üçün polislərə Arizi dərhal dəlixanalardan birinə aparmaq tapşırığı verildi. Bununla da onlar Arizin psixiki pozuntusunu rəsmiləşdirəcəkdilər.

Polis maşını qonşu Bənd kəndindəki dəlixananın həyətinə daxil olur, bir neçə həkim artıq onları gözləyirdi. Polislər və həkimlər birləşərək Arizi maşından düşürdür, onu yerə yıxır və sakitləşdirici iynə vururlar. Bir neçə dəqiqədən sonra Ariz yerdə hərəkətsiz qalmışdı. Onu xərəyə qoyaraq palataya apardılar, çarpayıya uzatdılar və əllərini, ayaqlarını kəmərlərlə bağladılar. Öz ağız suyunda boğulmasın deyə başını sağa tərəf çevirdilər, Arizin heç udqunmağa belə taqəti yox idi. İndi o, ağzının suyu axaraq, gözləri açıq vəziyyətdə uzaqlara baxırdı, əslində o, nə görürdü, nə də eşidirdi, sadəcə baxırdı...

# Dəlixanada görüşlər

Artıq saatlar keçmişdi, gecə düşmüşdü, işığa qənaət etmək üçün palatalarda işıqları söndürdükləri üçün palatanı sadəcə dəhlizdən gələn, qapının pəncərəsindən düşən zəif işıq işıqlandırırdı. Ariz tərpənməz şəkildə çarpayıda uzanmışdı. Birdən onun sağ əlinin barmaqları tərpənir, sonra əlini yumur. Deyəsən, tədricən iynənin təsirindən ayılırdı. O, başını düzəltdi, gözlərini bir neçə dəfə yumub açdı. Uzun müddət açıq qaldığına görə gözləri qurumuşdu, o, tez-tez gözlərini yumub açaraq onları islatmağa çalışırdı. Dərindən nəfəs almaq istədi, elə bu zaman onun ağzına yığılmış su nəfəs borusuna getdi. Ariz öskürməyə və öyüməyə başladı, o qədər öskürdü ki, gözləri yaşardı. Bir azdan özünə gəldi, ətrafına baxaraq nə baş verdiyini və harada olduğunu xatırlamağa çalışdı. Hələ heç nə xatırlamırdı.

– Hey! Burada kim var? Mən haradayam? – deyə hayqırdı, amma hay verən yox idi.

O, ayağa qalxmaq istədi, lakin əllərinin və ayaqlarının bağlı olduğunu gördü.

– Hey! Mən haradayam? Niyə məni bağlamısınız? Tez məni açın! – deyə yenə hayqırdı, lakin faydasızdı...

Artıq ürəyi sürətlə döyünürdü, o, harada olduğunu bilmirdi. Ariz son dəfə harada olduğunu, nə gördüyünü xatırlamağa çalışdı, amma sanki beyni onun sözünə baxmırdı. O, sadəcə uzanıb rahatlaşmağa qərar verdi. Heç nə düşünmədən sadəcə uzanmış halda rahatlıq və aramlıq əldə etmək istədi. Bir müddətdən sonra onu tamamilə rahatlıq hissi bürüdü. Birdən palatanın bir küncündən bir səs eşidildi, Ariz tez üzünü səs gələn tərəfə çevirərək:

– Hey, kimdir orada? Mən haradayam? Sən kimsən? – deyə soruşdu, amma cavab yox idi.

Birdən səs gələn tərəfdən, divardan bir işıq saçıldı və

otağın qaranlığını aydınlatdı. Bu işığın fonunda bir insan silueti göründü, o, addım-addım Arizə yaxınlaşırdı.

– Hey, sən kimsən? Mənə cavab ver, kimsən sən? Mən haradayam, niyə çarpayıya bağlıyam? – Ariz soruşsa da, yenə cavab gəlmədi.

Siluet addım-addım, xüsusi bir aramlıqla Arizə yaxınlaşırdı. Bir metr qalmış Arizin gördüklərindən gözləri bərəldi, qarşısında duran Davud idi, bəli, onun emalatxanasında çalışmış, Arizi ölkədəki zülm barəsində xəbərdar etməyə çalışmış, məhz bu səbəbdən də işdən qovulmuş və ürəyi partlayaraq vəfat etmiş Davud.

– Davud əmi, bu sənsən? – Ariz qorxudan titrəyərək soruşdu.

– Salam, Ariz, bəli, mənəm, sənin tanıdığın Davud əmiyəm! Hə, de görüm indi necəsən?

Sanki Davudun ətrafında nurdan bir pərdə var idi, səsi də insanın qəlbinə təsir edirdi.

– Davud əmi, – Ariz qorxudan titrəyən başını yastıqdan qaldıraraq onu nəzərləri ilə süzdü, – axı sən, axı sən...

– Ölmüşəm? Belə demək istəyirsən?

– Bəli, Davud əmi, sən bura necə gəldin? – Ariz büsbütün çaşqınlıq içində idi.

– Ariz, mənim olduğum yer bəllidir, arada mənim kimi insanlara bu dünyaya gəlməyə icazə verirlər. Mən də gəldim ki, görüm necəsən, görüm indi mənim sənə dediyim zülmləri dərk etmisənmi, yoxsa yox.

– Davud əmi, sən düz deyirdin, hər şeyi düz deyirdin, hələ əskik deyirdin, zülm nəinki ərşə çatıb, artıq ərşi dələrək o tərəfə də keçib.

– Aha, deməli, az da olsa ağıllanmısan, bu yaxşıdır. De görüm, bəs mən deyəndə niyə mənə qulaq asmadın, hə? Məgər mən səni nə vaxtsa aldatmışdım?

– Davud əmi, mən səndən üzr istəyirəm, vallah, onda qəflət yuxusunda idim, sanki uzun və şirin yuxuda idim,

dediklərin mənə qorxulu kabus kimi gəlirdi, yuxudan oyanmamaq üçün inkar edirdim. Yalvarıram, Davud əmi, – Ariz hönkürtü ilə ağlamağa başlayır, məni bağışla, Davud əmi, ayaqlarının altında ölüm, bağışla məni... – Ağlamağın şiddətindən Arizin səsi eşidilməyəcək qədər azalır.

– Ariz, sakitləş, mən bura sənin ağlamağına tamaşa etməyə gəlməmişəm, mənim səninlə başqa işim var, sakitləş.

Ariz özünü ələ almağa çalışırdı, əlləri bağlı olduğundan gözlərinin yaşını silə bilmirdi. Davud əmi isə səbirlə onu izləyirdi və sanki havada süzürdü, heç ayaqları yerə dəymirdi. Ariz tədricən özünə gələ bilmişdi, o, üzünü Davuda çevirib gülümsəyərək dedi:

– Məni bağışlayırsan, Davud əmi?

– Bu, sənin özünü necə aparacağından asılıdır, Ariz.

– Mən nə etməliyəm ki?

– Bundan sonra sən sona kimi zülmlə mübarizə aparacaqsan, ölkəmizə ədalət günəşi doğana kimi.

– Mən elə onu edirəm, Davud əmi, başıma gələn bütün müsibətlər də elə buna görədir.

– Bura qədər etdiklərin öz yerində, mən bundan sonrasını deyirəm.

– Bundan sonra? Axı mən bu çarpayıya bağlıyam, heç bilmirəm ki, haradayam.

– Sən ömrünün sonuna qədər burada qalmayacaqsan ki?! – Davud əmi gülümsəyir, onun gülüşündən ayrılan sərin bir meh Arizin üzünə toxunur.

– Mən buradan çıxandan sonra nə etməliyəm?

– O vaxt emalatxanada sənə dediyim kimi, təşkilatlanaraq mübarizə aparmaq lazımdır, necə deyərlər, döyüş sahəsində tək cəngavər olmur, sənin komandan olmalıdır.

– Kiminlə, necə təşkilatlanmaq?

– Onu sən buradan çıxandan sonra vəziyyətə uyğun olaraq təyin edəcəksən. Sən sona qədər mübarizə aparacağına söz verirsənmi?

– Bəli, sona qədər, ölümə qədər, heç ölüm də son deyil!

– Əhsən! Yalnız bu halda mən səni bağışlayacağam, eşitdin?

– Bəli, eşitdim! – Çətin də olsa Arizin üzündə təbəssüm göründü. – Çox sağ ol, Davud əmi, çox sağ ol!

– Mən getməliyəm, hələ gedəcək bir neçə yerim var. Sağ ol və özündən muğayat ol, sən hələ vətənə, xalqa lazımsan!

– Sağ ol, Davud əmi!

Davud geri çevrilərək işığa tərəf gedir, bir az keçəndən sonra onun silueti nura qarışaraq gözdən itir.

“Bu nə qəribə görüş idi?!” – deyə Ariz öz-özünə fikirləşir. Axı Davud əmi bir neçə il öncə vəfat etmişdi, o, necə bura gələ bilərdi? Birdən işıq gələn divardan bir səs gəlir:

– Ariz, necəsən, oğlum?

– Kimdir? Kimdir gələn? – Ariz işıq gələn tərəfə baxır, bir siluet tədricən ona yaxınlaşır və onun Ənvər hoca olduğunu görür.

– Mənəm, Ənvər hoca.

– Ustad, sən burada nə edirsən?

– Xatırlamırsan? Axı son görüşümüzdə sənə demişdim ki, biz hələ iki dəfə də görüşəcəyik, bir dəfə sən azad olanda, ikinci dəfə də sən qalib olanda. Xatırlayırsan?

– Bəli, ustad, xatırlayıram. Sən.. Sən də ölmüsən, ustad?

– Yox, mən hələ ölməmişəm, – Ənvər hoca gülümsəyərək cavab verir.

– Bəs axı bayaq Davud əmi gəlmişdi, bir neçə il əvvəl ölmüş Davud əmi. Axı sən də eyni yerdən gəldin.

– Ariz, bura məna aləmidir, mənim kimi hocalar üçün bu çox asan işdir, əsas odur ki, Allahın razılığı üçün insanlara xidmət edək. Gördüm ki, sənin müşküllərin

var, sənin yardımına tələsdim.
– Ustad, mənim üçün çox ağırdır, sən bilirsən, mənim qızımı öldürdülər, həyat yoldaşım intihar etdi, bunları bilirsən? – Ariz yazıq səslə soruşdu.
– Bəli, bilirəm, elə ona görə də gəlmişəm, çünki artıq sən azadsan.
– Necə yəni azadam?
– Artıq səni bu dünya həyatına bağlayan heç bir tel də yoxdur.
– Başa düşmədim? Mənim azad olmağım üçün ailəm ölməli idi? – Ariz təəccüblə səsinin tonunu qaldırır.
– Sakitləş, oğlum! Məgər bilmirsən ki, ölüm son deyil? Siz axirətdə görüşəcəksiniz, məgər buna şübhə edirsən?
– Xeyr, şübhə etmirəm, sadəcə nigaranam, narahatam.
– Nədən nigaransan, Ariz, səni narahat edən nədir?
– Yeganə, mənim nigarançılığım Yeganədəndir.
– Niyə Yeganədən nigaransan ki?
– Axı o, intihar edib, özünü öldürüb.
– Hə, nə olsun ki?
– Mən eşitmişəm ki, intihar böyük günahlardandır və intihar edənlər axirətdə cəhənnəmə gedəcəklər.
– Bəli, intihar böyük günahdır və bu işi görənlər cənnət üzü görməyəcəklər, bu düzdür.
– Elə isə bəs biz axirətdə necə görüşəcəyik?
– Hə, indi sənin narahatlığın mənə aydın oldu. Yeganə intihar edəndə ağlını itirmişdi, o, artıq özünü idarə etmirdi. Ağlını itirmiş bir adam öz əməllərinə görə sorğu-sual olunmaz. Təəccüblü deyil, yazıq qız, gözünün qarşısında övladını öldürüblər, kimin ağlı buna dözər ki?!
– Yəni deyirsən ki, intiharının səbəbi ağlını itirməsi olduğuna görə Yeganəyə günah yazılmayacaq?
– Bəli, mən elə onu deyirəm.
– Aydındır, amma mən yenə də nigaranam.

– Nigaran qalma, Ariz, bax ora, – Ənvər hoca əli ilə işığa tərəf işarə etdi, – gör orada nə görürsən?

Ariz Ənvər hocanın işarəsi ilə işığa tərəf baxdı, nurun içində iki siluet göründü. Siluetləri görən kimi Arizin qəlbinə ılıq bir rahatlıq doldu, o, Yeganənin və onun əlindən tutmuş Nərminin siluetlərini görürdü. Onların hər ikisi nurun içindən Arizə əl edirdi. Arizin biixtiyar olaraq gözlərindən yaş süzülməyə başladı, əlləri bağlı olduğundan onlara əl edə bilmirdi. Lakin dodaqları ilə onlara öpüş göndərdi və pıçıltı ilə “mən sizi sevirəm, biz mütləq görüşəcəyik!” dedi. Ənvər hoca Arizin bu halına baxıb gülümsəyirdi.

– İndi sən tam olaraq azadsan, oğlum! Mən öz işimi bitirdim, indi qaldı sənin işin, – deyə Ənvər hoca işığa tərəf dönərək uzaqlaşmağa başladı.

– Ustad, getmə, mənə yol göstər, mən nə etməliyəm?

– Məndən əvvəl gəlmiş qonağın sənə hər şeyi deyib.

Ənvər hoca işığa tərəf gedərək əlini yelləyirdi.

Ariz Ənvər hocanın ardınca baxırdı, o, nur içində Yeganə ilə Nərminə yaxınlaşdı və Nərminin alnından öpdü. Ariz göz yaşları ilə bu mənzərəni seyr edirdi. Birdən işıq zəifləyərək tədricən sönməyə başladı. Otaq yenə də qaranlıq idi, indi Ariz öz düşüncələri ilə baş-başa qalmışdı. Düşüncələr içində onu yuxu apardı və o, dərin bir yuxuya daldı, qəlbinə aramlıq gətirən dərin bir yuxuya...

Səhər Ariz açılan palatanın qapısının səsinə oyandı. Ağxalatlı bir kişi və bir qadın ona yaxınlaşdı.

– Siz kimsiniz? Mən haradayam? Bura haradır? – Ariz birnəfəsə soruşdu.

– Sakit, sakitləş, biz həkimik və sən Bənd kəndindəki dəlixanadasan, – deyə kişi həkim ona cavab verdi.

– Məni niyə dəlixanaya gətirmisiz? – Ariz təəccüblə soruşdu.

– Bilmirik, mən həkiməm, bu isə tibb bacısıdır, – deyə həkim ağxalatlı qadına işarə etdi. – Əsas məsələ odur

ki, siz özünüzü necə hiss edirsiniz? Sakitləşmisiniz?

– Mən özümü əla hiss edirəm, sadəcə anlaya bilmirəm ki, məni bura niyə gətirmisiniz.

– Yəqin iynənin təsirindəndir, bir neçə saata hər şeyi xatırlayacaqsınız. Biz əllərinizi və ayaqlarınızı açsaq, siz nə edəcəksiniz?

– Tualetə getmək istəyirəm, üzümü də yuyardım.

– Deyəsən, sakitləşib və hələ heç nə xatırlamır, – tibb bacısı həkimin qulağına pıçıldadı.

– Biz indi sizin əllərinizi və ayaqlarınızı növbə ilə açacağıq, əgər hər hansı bir təhlükə yaratsanız, dərhal polisləri çağıracağıq, – deyə həkim başı ilə dəhlizi işarə etdi.

– Niyə təhlükə yaradım ki? Mən sizi anlamıram, həkim,

– Ariz məsum baxışlarla həkimə baxır.

– Onda tərpənməyin, ehmallıca kəmərləri açaq.

Həkim ehtiyatla Arizin əllərini açır, sonra da ayaqlarını. Ariz ayaq üstə qalxaraq gərnəşir və tualetin yerini soruşur.

– Tualet haradadır?

– Ardımca gəlin, – həkim palatadan çıxır, Ariz də onu izləyir.

Ariz əl-üzünü yuyaraq tualetdən çıxır. Ona peçenye ilə bir stəkan çay verirlər. Çayı içər-içməz həkimin kabinetinə iki polis daxil olur. Onlar Arizi götürüb maşına əyləşirlər və təcridxanaya gedirlər. Maşında əyləşərək başını şüşəyə söykəyən Arizin üzündə təbəssüm var idi. O, dəlixanaya niyə və nə üçün gətirildiyini, qəbiristanlıqda baş verənləri və palataya gəlmiş qonaqları, onlarla söhbətlərin hamısını xatırlayırdı, amma bunu özü üçün sirr kimi saxlayırdı.

Bir neçə gün də təcridxanada qalandan sonra Arizi "Bataqlıq" adlı həbsxanaya köçürdülər, o yerə ki, indi o, öz əhvalatını kameradakı məhbus yoldaşlarına danışırdı.

"Bataqlıq"da zaman sürətlə keçirdi, Arizin kamerasının

bir neçə dəfə dəyişdirilməsinə baxmayaraq, o, hamı ilə dil tapırdı, öz əhvalatını onlara danışırdı, zülmlə mübarizə üçün təşkilatlanaraq mübarizənin əhəmiyyətini izah edirdi. Bir neçə aydan sonra həbsxanada ona qarşı rəğbət yaranmışdı, amma bilmirəm yazıqları gədiyinə görə, yoxsa qətiyyətlə mübarizə apardığına görə hamı ona hörmət edirdi.

## Kiçik zindandan böyük zindana

Məhkəmənin Arizə təyin etdiyi birillik həbsin müddəti başa çatmışdı. Artıq o, azadlığa çıxırdı, məhz elə buna görə də Ariz çox sevinirdi. Onun paltarlarını verdilər, əynini dəyişdi və budur, iki nəzarətçinin müşayiəti ilə onu həbsxananın qapısına gətirdilər. Qapıda onu dostu Hüseyn gözləyirdi, Ariz onu görcək tez boynuna sarıldı, bir az sevincindən ağlayandan sonra maşına əyləşdilər və yola düşdülər.

Evlərinin qarşısına çatanda Hüseyn maşını saxladı və aşağı düşdü. Arizə maşından düşməyə kömək etdi.

– Hüseyn, buraya qədər gəldin, məni tək buraxmadın, çox sağ ol, amma bundan sonrasını mən özüm həll edərəm. Sən isə evinə get.

– Əminsən, Ariz? Mən sənin həmişə qulluğundayam, bunu yadında saxla.

– Bilirəm, qardaş, bilirəm. Mən indi sadəcə evdə tək qalmaq istəyirəm, bir müddət təkliyə ehtiyacım var, hisslərimi və düşüncələrimi qaydaya salmalıyam.

– Düzdür, düz deyirsən, Ariz, amma bir şey lazım olsa, mütləq mənə xəbər ver, – deyə Hüseyn telefonunu göstərir.

Hüseyn maşınına əyləşib gedir, Ariz bir neçə dəqiqə binanın önündə dayanır, Sonanın çırpıldığı yerə baxır, sonra isə öz evinin pəncərəsinin qarşısına gələrək, Yeganənin çırpıldığı yeri təyin etməyə çalışır. Bu işin ona fayda verməyəcəyini başa düşən kimi binaya daxil olur, evinə qalxır, açarı qapının kilid yuvasına daxil edərək bir anlığa donur. O, məhv

edilmiş keçmişi ilə üz-üzə gəlməmişdən öncə özündə güc toplamalı idi. Bir neçə dəfə dərindən nəfəs alandan sonra qapını açır və mənzilə daxil olur.

Mənzil toz içində və qaranlıq olmasına baxmayaraq, Arizin gözündə təmiz, səliqəli və işıqlı görünürdü. Qapıdan içəri daxil olan kimi qızının necə onun üzərinə qaçdığını, boynunu qucaqladığını təsəvvür etdi, o, ixtiyarsız şəkildə dizi üstə oturdu və sanki Nərmini qucaqlayırmış kimi qollarını yana açdı. Ariz öz qollarını qucaqlayaraq sağa-sola yellənir, üzərini yaş örtmüş gözləri ilə dəhlizin başında duran Yeganəni görürdü, Yeganə təbəssümlə bu mənzərəyə tamaşa edirdi. Ariz bir anlıq qızının iyini hiss etdi, dərindən nəfəs alaraq onun iyini ciyərlərinin ən dərin guşələrinə doldurdu. Nərminin iyini özündə daha çox saxlamaq üçün nəfəsini buraxmamağa çalışırdı, sanki Nərmindən ona qalan son yadigarı əldən verməmək istəyirdi. İlahi, bu necə də kövrəldici bir mənzərə idi...

Bir neçə dəqiqədən sonra Ariz ayağa qalxır və yataq otaqlarının qarşısına gəlir. Qapını asta-asta açır, təmiz, səliqəli və işıqlı bir yataq otağı. Yeganə güzgü önündə duraraq yenə özünə bəzək-düzək verirdi, o, Arizi görcək ona naz-qəmzə ilə baxıb gülümsəyirdi. Ariz bu xəyalları ürkütməmək üçün ayaqlarını yerə ehmallıca basırdı, yavaş-yavaş Yeganəyə yaxınlaşaraq, burnunu onun boynuna yaxınlaşdırdı, gözlərini yumaraq, dərindən nəfəs alaraq onun iyini ciyərlərinə çəkdi. İlahi, axı bu necə bir ətirdir ki, üstündən bir il keçməsinə baxmayaraq, yenə də Arizin ciyərlərinə nüfuz edirdi. Ariz nəfəsini buraxaraq gözlərini açdı, toz içində və qaranlıq bir yataq otağı görürdü. O, geriyə doğru bir neçə addım ataraq qapının kandarına çatdı, iki qapı dirəyinin arasında yerə əyləşib, qapı dirəyinə söykəndi, dizlərini qatlayaraq başını aşağı salıb hönkürtü ilə ağlamağa başladı. Onun ağlamaq səsi ətrafa yayılmasa da, qəlbini dələrək ruhuna nüfuz edirdi, Ariz tədricən

reallığı dərk etməyə başlayırdı.
Bəlkə də bəzi oxucular üçün bunu oxuyub keçmək rahat olacaq, amma Ariz ömrünün sonuna kimi bu hisslərlə yaşamalı idi, nə qədər başqa, mühüm işlər olsa da, Ariz öz keçmişindən, ailə səadəti ilə rəngarəng olan keçmişindən qopa bilməyəcəkdi.
Artıq bir həftə idi ki, Ariz evində idi, o, evə əl gəzdirmişdi, təmizlik işləri görüb evdə səliqə yaratmışdı. Yataq otaqlarındakı seyfdə bir az pulu var idi, evə ərzaq almışdı və bütün günü evdə otururdu, xəbərləri izləyir və həbsxana həyatından sonra rahatlıqdan həzz alırdı. Arada imkan tapıb Yeganə və Nərminin qəbirlərini ziyarət etdi, saatlarla orada oturaraq ailəsi ilə keçirdiyi xoşbəxt günlərini xatırladı.
Yenə o, qəhvə içərək xəbərləri izləyirdi, ölkədə və dünyada baş verənlərə nəzər salırdı. Hələ ki, o, haradan başlayacağını bilmirdi, amma axtarışda idi. Birdən yadına düşür ki, haradasa dəftərçəsinə Qərib bəyin, Aslan bəyin və Validə ananın nömrələrini qeyd etmişdi. Cəld ayağa qalxaraq öz köhnə dəftərçəsini axtarmağa başlayır. Birdən yadına düşür ki, otaqlara əl gəzdirəndə onu çarpayısının yanındakı şkafda görüb, cəld yataq otağına gedərək dəftərçəsini şkafdan götürür, vərəqləyərək nömrələri tapır. Onu həbsxanadan azad edəndə telefonunu verməmişdilər, odur ki, özünə işlənmiş, amma yeni modellərdən olan bir telefon almışdı. Tez nömrələri telefonunun yaddaşına qeyd edir və Qərib bəyə zəng edir.

– Alo, salam, Qərib bəy!
– Salam, kimdir danışan?
– Mənəm, Arizdir, xatırlayırsız?
– Dayan, hansı Ariz, namizəd var idi, o?
– Bəli, həmin namizəd Ariz. Necəsiz?
– Mən yaxşıyam, əsas odur ki, sən necəsən?
– Mən də yaxşıyam, çalışıram daha yaxşı olum.

– Səni həbs etmişdilər axı, buraxıblar?

– Bəli, bir həftə olar çıxmışam.

– Hə, həmişə azadlıqda. Hə, azadlıqda necədir, yadırğamamısan?

– Azadlıq deyəndə ki, mən kiçik zindandan böyük zindana düşmüşəm, Andaluniya özü böyük bir zindandır!

– Orası elədir, danış görüm nə var, nə yox.

Ariz Qərib bəylə son danışığından bu günə qədər başına gələnləri qısa şəkildə ona danışır, Qərib bəy də heyrətlə ona qulaq asır.

– Qərib bəy, mən özümü Aslan bəyin həbsində təqsirkar bilirəm, ona görə də günahımı yumaq istəyirəm.

– Yox, sən təqsirkar deyilsən, narahat olma, yeganə təqsirkar hakimiyyətdir.

– Yox, mən bilirəm ki, Aslan bəy çox vacib bir iş aparırdı, onun işi mənim ucbatımdan yarımçıq qaldı, indi mən onun işini davam etdirmək istəyirəm.

– Doğrudan? – Qərib bəy heyrətlə soruşur. – Sən həbsxanadan yeni çıxmısan, hələ bir-iki ay dincəl, özünə gəl.

– Mən artıq dincəlmişəm, bir həftə bəsimdir. Validə ananın nömrəsi məndə var, bilmirsiniz, dəyişməyib ki?

– Mən bilən yox, dəyişməyib.

– Əla, onda mən onunla əlaqə saxlayaram, sadəcə istədim əvvəlcə sizinlə danışım və razılaşaq.

– Düz etdin, narahat olma, nə vaxt istəsən zəng et, sözün açığı, bu işə dəstək verdiyinə görə çox sevindim, hələlik!

Ariz Qərib bəylə danışandan sonra dərhal Validə anaya zəng etdi.

– Alo, salam, Validə ana, necəsiz?

– Alo, salam, çox sağ olun. Kimdir danışan?

– Mənim adım Arizdir, bir il bundan əvvəl sizə zəng

etmişdim, görüşməli idik, amma həbs edildim, yenicə həbsxanadan çıxmışam. Qərib bəylə danışdım, istəyirəm Aslan bəyin yarımçıq qalmış işini mən davam etdirim.

– Hə, nə olar, ay oğul, lap əla olar!

– Onda gəlin belə edək, mən şənbə günü Tartaraya gələrəm, siz isə zərərçəkmişlərdən bir neçəsini dəvət edərsiniz, sizdən müsahibə götürəcəm, sonra onu Qərib bəyə göndərəcəm, olar?

– Əlbəttə, olar, ay oğlum, Allah sizin kimi insanlardan razı olsun! Aslan bəy həbs olunandan sonra qorxudan bir insan bizə yaxın durmadı, qalmışıq dərdimizi kimə danışaq.

– Narahat olmayın, Validə ana, hər şey yaxşı olacaq. Mən Tartaraya çatanda sizə xəbər edəcəyəm. Sadəcə maşınıma əl gəzdirməliyəm ki, səfər üçün hazır olsun. Hələlik, Validə ana!

Ariz elə axşam usta çağırıb maşınını yoxlatdırdı. Usta ona yeni akkumulyator aldırdı və maşınını işə saldı. Bir az sürüb yoxlayandan sonra Arizi əmin etdi ki, bu maşınla istəsə lap Afrikaya gedə bilər.

Səhər tezdən Ariz keçmiş iş yerinə getmişdi, hamıdan tez gələrək idarənin qarşısında gələnlərə baxırdı, tanıdıqları ilə salamlaşırdı. Birdən uzaqdan Nigarın gəldiyini gördü, cəld onun qabağına çıxaraq salamlaşdı.

– Salam, Nigar, necəsən?

– A, Ariz, bu sənsən? – Nigar sevincək Arizi qucaqladı, gözləri dolmuşdu.

– Sakit, ay qız, ayıbdır, bizə kənardan baxırlar.

– Əşşi, qoy baxsınlar, çatlayıb yansınlar. Necəsən?

– Mən yaxşıyam, əsas sən necəsən?

– Mən də yaxşıyam. Haralarda idin? – Nigar utanaraq başını aşağı salır, verdiyi sualdan xəcalət çəkir. – Bağışla məni, Ariz, mən sənin həbs edildiyini və yaşadığın

ailə faciəsini bilirəm. Sadəcə bir anlığa unutdum və avtomatik olaraq sual verdim.

Nigarın gözləri dolmuşdu, o, hələ də başını qaldırıb Arizin üzünə baxmırdı.

– Yaxşı görək, mən bura gəlmişəm ki, könlüm açılsın, sən də başlamısan ağlamağa. Bəsdir, qurtar. Gəl gedək, yaxınlıqda kafe var, gedək bir qəhvə içək.

Ariz Nigar ilə kafeyə gedir, hərəyə bir fincan qəhvə alıb əyləşirlər.

– Hə, Nigar, de görək işdə vəziyyət necədir, bir irəliləyiş var?

– Bəli, hər şey yaxşıdır, mən artıq üç aydır ki, layihə mühəndisi vəzifəsinə keçmişəm.

– Əladır ki, bəs mənim yerimə kim gəlib?

– Tofiq, əvvəllər layihə planlaması şöbəsində idi, tanıyırdın onu?

– Hə, Tofiqi tanıyıram, onunla işləmək bir az çətindir, yəqin ki, sənə əziyyət verər.

– Yox əşşi, nə əziyyəti, "Bakka küləyi" otelinin əziyyətindənsə buranın əziyyəti daha yaxşıdır, – deyərək Nigar gülümsəyir.

– Harada qalırsan?

– Mən əvvəllər ucuz başa gəlməsi üçün uzaqda qalırdım, indi yaxınlıqda ev tutmuşam, düzdür, kirayəsi bahadır, amma nə etmək olar?

– Ev almamısan hələ?

– Andaluniyada mənim kimiləri ev ala bilir? Qarnımızı güclə doyura bilirik, evin kreditini necə ödəyəcəyik? Yox, Andaluniyada halal zəhmətlə ev almaq çox çətin məsələdir.

– Evində tək qalırsan?

– Bəli, tək qalıram, ev yiyəsi buna xüsusi olaraq nəzarət edir. Bilsə ki, evə bir kişi gətirmişəm, dərimi soyar, – deyib Nigar gülür.

– Belə özün də təksən, yəni həyatda?

– Bəli, yalquzağam, təkbaşına həyat sürürəm, ömrümü yola verirəm.

– Deyirəm, bəlkə mənim evimə köçəsən, həm sənin kirayəyə pulun çıxmaz, həm də mən tək darıxmaram.

– Bıy, bu nədir, Ariz, məni yatağa salmaq istəyirsən? – Nigar üzünü ona tutaraq gülümsəyir.

– Xeyr, mən sənə normal şəkildə kəbinli surətdə yaşamağı təklif edirəm.

– Yəni sən məni özünə həyat yoldaşı etmək istəyirsən? Düz başa düşdüm? Məni? – Nigar təəccüblə soruşur.

– Bəli, səni. Nə olub ki sənə?

– Yox ey, yəni deyirəm, axı sən mənim keçmişimi bilirsən, – Nigar utanaraq başını aşağı salır.

– Sən mənə de görüm, səni işə düzəldəndə tövbə etmişdin, tövbəni pozmamısan?

– Yox, nə danışırsan? Elə şey olar?

– Onda yaxşısan. Bax, düşün, götür-qoy et, əgər razılaşsan, elə bu həftə kəbin kəsdirək.

– Yaxşı, Ariz, – utandığından və həyəcandan Nigarın yanaqları qızarmışdı, başını qaldırmadan dedi. – Əgər razılaşsam olar atama və anama da deyim?

– Əlbəttə, onların da haqqıdır ki, qızlarına görə sevinsin.

– Çox sağ ol, Ariz! – Nigar Arizin boynunu qucaqlayır.

– Ay qız, bəsdir, camaat bizə baxır, özünə gəl.

– Mən sənə sabah cavabımı deyəcəyəm.

– Yubatma, sonra həftə sonu səfərə gedəcəyəm, bu işi həll edək ki, sənin əşyalarını da daşıyıb köçməyini çatdıra bilək.

Ariz Nigarla sağollaşaraq elektronika malları satılan mağazaya gəlir, oradan telefon üçün ştativ və yaxalıq mikrofonu alır. Artıq Tartaraya getmək üçün hər şey hazır idi, maşın, telefon, ştativ, mikrofon.

Ertəsi gün səhər Ariz Nigarla görüşdü, Nigar Arizlə

evlənməyə razılıq verdi, elə həmin gün kəbin kəsildi və Ariz Nigara onun evinə köçməyə kömək etdi. Bu, Arizin işini xeyli yüngülləşdirirdi, həm təklikdən canı qurtarırdı, həm də evi boş qoyub Tartaraya getmək istəmirdi.

Şənbə günü gəldi, Ariz maşınına əyləşib Tartara istiqamətində hərəkət edirdi. Rayonun girişinə çatan kimi Validə anaya zəng etdi və yolu izah etməsini xahiş etdi. Bir az axtarandan sonra onun evini tapdı. Bir neçə zərərçəkmiş Validə ananın evinə toplaşaraq Arizi gözləyirdi. Ariz onlardan müsahibə götürəcəkdi. İlk əvvəl Validə anadan müsahibə götürdü.

– Ey Abbas əfəndi, bizim səsimizə səs ver, ya bu işə ədalətlə baxılması üçün tapşırıq ver, ya da çıx de ki, mən sizin prezidentiniz deyiləm! – Validə ananın müsahibənin sonunda dedikləri sanki Arizi yuxudan ayıltdı. Validə ananın nə danışdığına heç qulaq asmamışdı, xeyr, o, yuxulu deyildi, sadəcə Şahsuvarın danışdığı dəhşətlər yadına düşmüşdü.

Validə anadan sonra Ariz digər zərərçəkmişlərdən də müsahibə götürdü. İşini tamamlayan kimi maşına əyləşərək Bakkaya tərəf sürməyə başladı. Gecəyarısı evinə çatdı, Nigar yatmamışdı və Arizi gözləyirdi, nigaran qalmışdı.

– Ariz, səfərin necə keçdi?

– Belə də, müsahibələr götürdüm, bir az yorğunam, istəyirəm onları montaj edib Qərib bəyə o cür göndərim. Bir qəhvə hazırlasan məmnuniyyətlə içərəm.

– Bu dəqiqə, südlü olsun?

– Bəli, mən həmişə südlü içirəm.

Ariz müsahibələri kompüterinə köçürərək montaj işinə başlayır. Videoların artıq-əskik yerlərini kəsir, calayır və montaj edirdi. Nigar onun qəhvəsini gətirdi və onun yanında oturub tamaşa etməyə başladı. Ariz hər addımı ona izah edirdi, Nigar da maraqla baxırdı. Gecə saat üçə qədər montajla məşğul oldular, Nigarın gözləri artıq yumulurdu.

– Dur, get yerinə, yoxsa burada yıxılıb qalacaqsan, – Ariz ona gülməyə başladı.

– Yox, sən durana qədər burada oturacağam, – Nigar gözləri yumulu halda cavab verir.

– Ay qız, sənə deyirəm ki, dur get. Mən də işimi iki dəqiqəyə tamamlayıb gəlirəm.

Nigar gözləri yumulu halda ayağa qalxır və yatağına gedir. Ariz onun arxasınca baxaraq başını bulayır və gülürdü. O, montaj işini bitirən kimi bütün videoları Qərib bəyə göndərir. Videoların həcmi böyük olduğundan ən azı beş-altı saat vaxt lazım olacaqdı. Bu əla idi, yatıb dincəlmək üçün bu vaxt Arizə bəs edəcəkdi.

Ariz hər həftənin şənbə günləri Tartaraya gedir, zərərçəkənlərdən müsahibə alır və Qərib bəyə göndərirdi. Nigar artıq montaj işini öyrənmişdi, odur ki, Ariz Tartaradan qayıdan kimi telefonunu Nigara verir, özü isə yatmağa gedirdi.

Artıq bir neçə ay idi ki, Ariz müsahibələri alırdı, lakin Qərib bəylə danışmışdı ki, onları hələ nümayiş etdirməsin, onlar münasib vaxtı gözləyirdilər. Növbəti dəfə Tartaraya gedəndə Validə ananın həyətində əlli nəfər kişi var idi, onlar Arizi görən kimi onu evə dəvət etdilər. Ariz onların niyə yığışdığını anlamırdı. Birdən Validə ana sözə başlayır:

– Ariz, oğlum, biz artıq səni neçə aydır ki, tanıyırıq, Aslan bəydən sonra sən bizə dayaq oldun, kömək oldun, amma bizim işimiz irəli getmir. Bunlar da mənim oğlanlarımdır, məndən bir Elçinimi alsalar da, bu gün mənim yüzlərlə, minlərlə Elçinim var. Bizim bir planımız var, amma bizə kömək lazımdır.

– Nə plandır? Nə kömək lazımdır? – Ariz otaqdakıları süzərək soruşur.

– Biz həmin paşalardan qisas almaq istəyirik, onların yaşadıqları və işlədikləri yeri öyrənmək, onları pusmaq, hərəkət qrafiklərini öyrənmək və günlərin birində

"Tartara faciəsi"ndə qətlə yetirilmiş oğullarımızın qisasını almaq! – Validə ana yumruğunu stolun üzərinə çırpır. – Sən isə bizə onların ünvanlarını tapmağa kömək edəcəksən, oğullarıma qalmağa yer təşkil edəcəksən, plan cızmağa kömək edəcəksən. Sən ağıllı və cəsarətlisən, səndə əsl liderlik xüsusiyyətləri var, elə isə bu işdə bizə liderlik et.

– Yox, mən məhz bu işdə sizə kömək edə bilməyəcəyəm, məni bağışlayın.

– Niyə, yoxsa qorxursan?

– Söhbət qorxudan getmir! Bayaq siz dediniz ki, məni ağıllı və cəsarətli adam kimi tanıyırsız, elə isə necə indi mənim qorxduğumu düşünə bilərsiniz? Bir neçə paşanın, hətta bütün paşaların sui-qəsdi heç bir problemi həll etməyəcək. Məgər ölkəmizin problemi təkcə "Tartara faciəsi"dir? Başqa problemlərimiz yoxdur?

– Bu miqyasda olanı yoxdur! – Validə ana hikkə ilə cavab verir.

– Validə ana, sizin xətrinizi nə qədər istədiyimi bilirsiniz, onu da bilirəm ki, hər kəsə dərdi bir dağdır, amma inanın, ölkədə daha böyük problemlər var.

– Məsələn, nə problem var?

– Validə ana, ölkədə qanun işləmir, hüquq tanınmır, ədalət yoxa çıxıb, polisdən adam döyüb-öldürmək üçün istifadə olunur. Eh, məgər bilmirsiz ki, mənim qızımı polis öldürüb? Məgər bilmirsiz ki, qızımın qanını "qaçmaq istəyərkən üçüncü mərtəbədən yıxılaraq ölüb" deyə batırdılar? Yox, Validə ana, ölkədə problem çoxdur, bu problemlər kökündən həll edilməlidir.

– Bizim gücümüz bütün problemləri həll etməyə yetməz, biz yalnız öz problemlərimizi həll edə bilərik.

– Bəli, təkbaşına edə bilməzsiz, məhz elə ona görə də təşkilatlanmalıyıq, bizim sayımız artmalıdır,

çoxalmalıyıq! Əgər məni həqiqətən də ağıllı və cəsarətli bir adam kimi tanıyırsınızsa, onda sözümə qulaq asın, mən sizə bunun bir yolunu göstərərəm.

– Olsun, oğlum, qoy sən deyən olsun. Ölkənin bütün problemləri həll olunduqda bizim də problemlərimiz həll olacaq.

– Mən gələn həftəyə bir şey fikirləşərəm, siz isə sakit durub sadəcə xəbər gözləyin.

Ariz dərhal maşınına minərək Bakkaya qayıdır, yol boyu bu təklifin təşkilatlanmanın başlanğıcı üçün yaxşı addım olduğunu düşünürdü. Amma haradan və necə başlayacağını hələ bilmirdi. Axşam Qərib bəyə zəng etdi və bu barədə onunla danışdı.

– Sən düz eləmisən, Ariz, bir neçə paşanı öldürməklə problem həll olmayacaq, mütləq kompleks bir şeylər düşünülməlidir. Yaxşı, bəs indi fikrin nədir?

– Hələ necə edəcəyimi bilmirəm, amma əvvəlcə bizə kanalınızı genişləndirmək, auditoriyanızı böyütmək lazımdır.

– Bu əla olar, amma necə?

– Hələ bilmirəm, sabah şəhərdə gəzib-dolaşaram, bəlkə bir şey düşünə bildim.

– Olar, sən yol yorğunusan, Ariz, səni çox saxlamayım, get yat, dincəl.

Ertəsi gün Ariz Bakka küçələrində piyada gəzirdi. Yolu keçmək istəyərkən işıqforun qırmızı işığında durdu. Ətrafa nəzər yetirirdi, birdən arxadan onu kimsə səslədi:

– Əmi, buyurun!

Ariz geri dönüb çəlimsiz bir oğlanın ona bir kağız uzatdığını gördü. Ariz gülümsəyərək kağız parçasını ondan alıb oxumağa başladı, bu, masaj salonunun reklamı idi, telefon nömrələri və sayt ünvanları var idi. Ariz onu cibinə qoydu və yoluna davam etdi. Ariz bütün günü şəhərdə gəzdi, amma hələ də bir şey düşünə bilməmişdi. Bir azdan gün

batacaqdı, Ariz evə tələsirdi, piyada yolu çox çəkəcəyinə görə əl edərək taksi saxladı.

Yol boyu taksi sürücüsü nədənsə danışırdı, hərdən bahalıqdan gileylənir, hərdən də polislərin rüşvət almasından danışırdı. Ariz güzgüdən diqqətlə taksi sürücüsünün üzünə baxdı və birdən:

– Sən "Tartara faciəsi" barəsində eşitmisən? – deyə ondan soruşdu.

– Bəli, eşitmişəm, elə sizdən öncə bir müştəriyə orada baş verənlər barədə danışırdım, o da maraqlanırdı. "Andaluniya harayı" adlı kanal var, orada həmin zərərçəkənlərin müsahibələri var, sizə də məsləhət görürəm.

Qəfildən Ariz dərhal əlini cibinə salır, masaj salonunun reklamı üçün ona verilən kağızı tapıb çıxarır, bir kağıza, bir də taksi sürücüsünə baxır və birdən:

– Tapdım, tapdım! – deyə qışqırmağa başlayır.

– Nəyi tapdın, ay qardaş? – sürücü heç nə anlamayaraq Arizdən soruşur.

– Saxla, saxla burada! – Ariz cibindən pul çıxararaq sürücüyə verir.

– Ay qardaş, sənə nə oldu, nəyi tapdın, kimi tapdın?

– Kanalı genişləndirməyin yolunu tapdım. Sən yenə müştərilərinlə "Tartara faciəsi" barədə söhbət et və onlara "Andaluniya harayı" kanalına abunə olmağı tövsiyə et. Gündə neçə müştərin olur?

– Müxtəlif olur, bir gün iyirmi, bir gün qırx, baxır da.

– Deməli, gün ərzində ən azı iyirmi insana kanal barədə xəbər verə bilərsən, bu işi mütəmadi olaraq görsən, aya altı-səkkiz yüz müştəri edir. Bu əla göstəricidir! Qətiyyən bu işi tərk etmə, daimi olaraq müştərilərinlə "Tartara faciəsi" haqqında danış və onları "Andaluniya harayı" kanalına abunə olmağa sövq et. Sağ ol, qardaş!

Evinə hələ bir neçə kilometr qalmasına baxmayaraq Ariz

maşından düşür, o, bir az piyada gedərək növbəti addımlar barəsində düşünür, götür-qoy edirdi. Elə bu düşüncələrlə evinin qarşısına çatır, telefonunu çıxararaq nəşriyyat evində çalışan dostu Nurlana zəng edir:

– Alo, salam, Nurlan, necəsən?

– Salam, Ariz, sağ ol, sən necəsən?

– Nurlan, sənə işim düşüb, yanımızdakı kafedə görüşüb söhbət edə bilərik?

– Əlbəttə, on dəqiqəyə oradayam.

– Oldu, bir çay sifariş edib səni gözləyəcəyəm.

Ariz geri dönərək kafenin qarşısına gəlir. Kafenin pəncərəsindən içəridə oturub çay içən, domino və nərd oynayan, qəlyan çəkən gənclərə baxır. "Ölkədə zülm ərşə qalxdığı bir vaxtda bu insanlar necə belə rahat əylənə bilər?" – deyə Ariz düşünür. Amma Ariz onları qınamırdı, çünki nə vaxtsa özü də ölkədəki zülmdən qəflətdə idi, amma indi o artıq oyanıb! Ariz oyandığına görə başqalarını da oyatmalıdır! Mütləq elə bir şey düşünmək lazımdır ki, hər kəs ölkədəki zülmün mahiyyətini dərk etsin! Axı "*zülmün qarşısını ala bilmirsənsə, onu hər kəsə yaymalısan!"* deyə bir deyim də var, indi Ariz həmin mərhələni həyata keçirməli idi. Çayxanada oturaraq çay içən, domino və nərd oynayan gənclər özləri dərk etməsə belə, bu zülmdən xilas olmalıdır və bu yük Ariz kimi insanların çiynində idi.

Ariz kafeyə daxil olaraq, küncdə sakit bir masa seçir və orada əyləşir. Ona yaxınlaşan ofisianta çay sifariş edir. Çay gələnə qədər Ariz ətrafında gülüb-danışan, əylənən insanlara baxır. Əvvəlki vaxtı olsaydı, bəlkə də əsəbiləşərdi, qəzəblənərdi, amma polis idarəsində, dəlixanada və həbsxanada yaşadıqlarından sonra o, özündə səbri formalaşdırmışdı, Ariz artıq dərk edirdi ki, əsəbiləşmək heç nəyi düzəltmir, əksinə xarab edir. Son bir il ərzində onun xasiyyətində hiss olunacaq dərəcədə dəyişiklik olmuşdu, ilk bunu ona deyən Hüseyn olmuşdu. Bəli, səbir

və təmkinlə təyin olunmuş hədəflərə doğru hərəkət etmək lazım idi.
Ofisiant çayı gətirib Arizin qarşısına qoyub gedir, o, özünə bir stəkan çay süzür, təzə dəmlənmiş, pürrəngi bir çay. Ariz stəkandakı çaya baxaraq həbsxanada Aydının dəmlədiyi çayı xatırlayır və üzündə təbəssüm yaranır.

– Salam, Ariz, necəsən? – Nurlanın səsi Arizi xəyallarından ayırır.

– Salam, Nurlan! – Ariz cəld ayağa qalxaraq Nurlanın əlini sıxır. – Buyur, əyləş!

– Çay indi gəlib?

– Bəli, təzədir. Bəlkə də işin-gücün var idi, narahat etdim.

– Yox, bu nə sözdür, Ariz?! Mən hər zaman sənin qulluğundayam, bilirsən. Nə vaxt nə lazım olsa, buyur, bir zəngin kifayətdir.

– Var olasan, əziz dost! Seçkilər zamanı yetərincə mənə dəstək oldun, dizayn etdiyin bukletlər və plakatlar çox uğurlu alınmışdı. İndi də mənə bu istiqamətdə köməyin lazımdır.

– Seçki olacaq ki? – Nurlan təəccüblə soruşdu.

– Yox, seçki olmayacaq, – Ariz gülümsəyərək cavab verir. – Sadəcə bəzi şeylər var ki, onları dizayn və çap etmək lazımdır.

– Bu asan məsələdir, nədir ki onlar?

– Bax bunu görürsən? – Ariz cibindən masaj salonunun vizit kartı ölçüsündə olan reklam kağızını çıxarır və Nurlana göstərir. – Belə bir şey hazırlamaq lazımdır, amma masaj salonu üçün yox, üzərində “Andaluniya harayı” kanalının adı və loqosu olsun, YouTube və Facebook loqosu olsun, arxasında isə kanalın fəaliyyəti barədə bir neçə cümlə olsun, telefon nömrəsi olsun. Alınar?

– Əlbəttə, alınar! Burada nə var ki? Sən mənə loqoları,

telefon nömrəsini və nə yazılmalıdırsa göndər, həll edim. Burada bir saatlıq iş var, mən də deyirdim ki, görəsən, nə işdir, – deyə Nurlan gülümsəyir.

– Amma bundan çox lazım olacaq.

– Nə qədər çox?

– Azı iki yüz min ədəd, alınar?

– Alınar, amma gərək əvvəlcə idarəmizdən qiymətini öyrənim. Bu qədəri nə edirsən ki?

– Kanalı reklam edəcəyik.

– Belə kanal reklam edərlər, masaj salonu-zaddır? – Nurlan gülməyə başlayır.

– Başqa nə təklifin var?

– Bir az bundan böyük ölçüdə, binaların girişlərinə yapışdırmaq üçün plakatlar hazırlamaq olar.

– Yox, plakat olmaz! Onları bələdiyyə işçiləri sökdürəcəklər, bunlar isə əlbəəl veriləcək, bu daha effektiv üsul olar.

– Nə deyirəm ki, belə işləri sən daha yaxşı bilirsən, – Nurlan çiyinlərini çəkərək razılaşır.

– Onda danışdıq, mən sənə tələb olunan məlumatları elə indi çay içərkən göndərəcəyəm, sən isə sabah mənə qiyməti və hazır olma vaxtını deyəcəksən. Oldu?

– Oldu.

Ariz elə oradaca, çay içərkən lazım olan məlumatları Nurlana göndərir, çayın hesabını ödəyir və onunla sağollaşaraq evə gedir.

Ariz evə çatan kimi “Andaluniya harayı” kanalına daxil olur, qəhvə hazırlayaraq kompüterin qarşısında əyləşib izləməyə başlayır. Efirdə hansısa vətəndaş öz problemlərindən danışır, Qərib bəy də mövzuya uyğun olaraq şərhlər verirdi. Efirin sonuna az qalmışdı, izləyici sayı beş minə yaxın idi. Kanalın abunə sayının qırx min olmasına baxmayaraq, beş min insanın verilişi izləməsi yaxşı göstərici idi, amma ölkədə dəyişiklik etmək üçün yetərli deyildi. Mütləq

insanları kanal barədə məlumatlandırmaq lazım idi.
Efir sona çatan kimi Ariz Qərib bəyə mesaj yazır və onunla danışmaq istədiyini bildirir. Bir neçə dəqiqədən sonra Qərib bəy Arizə görüntülü zəng edir.

– Oo, salam, Ariz bəy! Necəsən?

– Sağ olun, Qərib bəy, yaxşıyam, siz necəsiz?

– Mənəm də, bir az yorğunçuluqdur. Yeri gəlmişkən, müsahibələr əla alınıb, Aslan bəydən daha yaxşı suallar verirsən, təbrik edirəm!

– O qədər də olmaz, Qərib bəy, – Ariz utandığından başını aşağı salır, – bunlar boş şeylərdir.

– Nə boş şey? Sən heç bilirsən ki, nə boyda bir iş görürsən?

– Mən müsahibələrə görə sizi narahat etmirəm, başqa işim var, müsahibələrin vaxtı çatacaq və siz onları efirinizdə yayımlayacaqsınız.

– Orası elədir, hələlik onları göz bəbəyim kimi qoruyuram. Nə işin var idi ki?

– Qərib bəy, kanalın abunə və izləmə sayını artırmaq üçün bir plan düşünmüşəm, icazənizlə həmin planı icra etmək istəyirəm.

– Nə plandır elə?

– Bunu görürsünüz? – Ariz masaj salonunun reklam kağızını kameraya yaxınlaşdırır.

– Bəli, görürəm. Nədir, masaj salonlarına gedəcəksən? – Qərib bəy gülümsəyir.

– Xeyr, bu cür reklam kartları çap etdirəcəyəm və onları taksilərdə müştərilərə paylatdıracağam. Artıq dizaynerlə danışmışam, sabah mənə iki yüz min belə kart üçün qiyməti deyəcək.

– İki yüz min? Bu qədəri necə paylayacaqsan, onları kim paylayacaq?

– "Tartara faciəsi"ndə zərərçəkmişlər, sonradan kim könüllü olaraq dəstək olmaq istəsə, onlar.

– Zərərçəkmişlər buna razıdırlar?
– Mən şənbə günü Tartarada idim, əlliyə yaxın zərərçəkmiş Validə ananın evinə toplaşmışdı, onlar paşalardan qisas almaq üçün məndən kömək istədilər.
– Sən də razılaşdın?
– Xeyr, bir neçə paşaya olunacaq sui-qəsd problemin həlli deyil. Mən onları təşkilatlanaraq düzgün strategiya və taktika ilə mübarizə aparmağa səslədim, onlar da razı oldular. Əgər siz narazı deyilsinizsə, mən planı daha ətraflı sizə izah edərdim.
– Buyur, Ariz, mən səni diqqətlə dinləyirəm.
– "Tartara faciəsi"ndə zərərçəkmişlərdən götürdüyüm müsahibələri təqdim etməmişdən öncə izləyici sayını ən azı on minə çatdıraq, müsahibələri təqdim etdikcə, abunəçi və izləyicilərin sayı artdıqca insanlara bir "X" günü təyin edək ki, həmin gündə hamı küçələrə və meydanlara çıxsın. "X" günü yaxınlaşdıqca abunə və izləyici sayını daha sürətlə artırmalıyıq, əslində bu proses təbii olaraq da sürətlənəcək. Proses davam etdikcə bir çox insanlar və ziyalılar da ürəklənərək bizə qoşulacaq və pərdə arxasında bizə dəstək verəcək. İnsanlar ziyalıların toplaşdığını biləndə daha çox maraqla kanala axın etməyə başlayacaq. "X" günü yaxınlaşdıqca ölkədə əhalinin ruh halı da yüksələcək, biz arada bir neçə xırda aksiya üçün çağırışlar edəcək və həm xalqın, həm də hakimiyyətin nəbzini yoxlayacağıq. Bu, insanlarda ruh yüksəkliyi yaradacaq, proses əsasən zərərçəkmişlərin ətrafında getsə də, insanların dəstəyindən sonra bu, ölkəmiqyaslı hərəkata çevriləcək. "X" gününə bir və ya iki ay qalmış "Ədalət" hərəkatı elan olunacaq və bu hakimiyyət tərəfindən zülmə məruz qalmış bütün insanlara çağırış ediləcək. Yalnız hərəkat elan olunanda bu işə dəstək olan ziyalılar və aktiv insanlar cəmiyyətə təqdim olunacaq ki, əgər hakimiyyət onları həbs etsə

belə, prosesi durdura bilməsin. "X" günü gələndə isə artıq hadisələr öz axarı ilə cərəyan edəcək.

– Möhtəşəm! Sadəcə möhtəşəm düşünmüsən, amma bir neçə məsələni mütləq müzakirəyə çıxarmalıyıq!

– Müzakirəyə çıxarmalıyıq? Kiminlə?

– Bizi pərdə arxasında dəstəkləyən ziyalılarla. Etiraz etmirsənsə, onları da zəngə qoşardım.

– Xeyr, buyurun.

– Aha, bu dəqiqə, Həsən bəy, Əflatun bəy, Əkrəm bəy, Ramiz bəy və Kərim bəy. Gözləyək, qoy qoşulsunlar.

Bir neçə saniyədən sonra onlar bir-bir görüntülü olaraq zəngə qoşulurlar. Qərib bəy Arizi onlara təqdim edir və planını danışmağı xahiş edir. Ariz bayaq Qərib bəyə dediklərini təkrar olaraq onlara danışır. Bəylər fikirli görünürdü, Ariz danışdıqca onların bəzisi qeydlər aparır, bəzisi isə düşünürdü. Ariz fikrini tamamlayan kimi:

– Hə, bəylər, siz Ariz bəyi dinlədiniz, fikirləriniz nədir?

– Həmin reklam kağızlarını çap etmək üçün vəsait haradan tapılacaq? – Əkrəm bəy soruşur.

– Mənim əlimdə bir neçə yüz dollar var, bilirəm, bu yetməyəcək, amma bank hesabımda da üç min dollara yaxın pul olmalıdır, sabah bankdan həmin məbləği çəkərəm. Burası mənlikdir, narahat olmayın, – Ariz qətiyyətlə cavab verir.

– "X" günü nə vaxt olacaq? – Əflatun bəy soruşur.

– "X" günü hələlik şərtidir, biz hansı günü təyin etsək, həmin gün də "X" günü kimi elan olunacaq, amma bir ildən tez olmamalıdır, – Ariz cavab verir.

– Yaradılacaq "Ədalət" hərəkatının təşkilat komitəsində kimlər yer alacaq? – Ramiz bəy soruşur.

– Bu zəngdə iştirak edənlər və məsləhət bildiyimiz şəxslər. Məncə, Validə ananın da orada olması vacibdir, xalq artıq onu mübariz ana kimi tanıyır və hörmət edir, – Ariz cavab verir.

– Reklam kağızları necə paylanılacaq? – Həsən bəy soruşur.

– Tartara zərərçəkmişləri öz maşınları ilə taksi kimi fəaliyyət göstərəcək, onlar telefonlarına proqram yükləyərək bu xidmətə qoşulacaqlar. Hər bir müştəriyə kanal və “Tartara faciəsi” barədə məlumat verəcəklər, onları kanala abunə olmağa təşviq edəcəklər, – Ariz cavab verir.

– İki yüz min reklamı hansı zaman kəsiyində paylamaq olar? – Kərim bəy soruşur.

– İlkin mərhələdə təxminən əlli nəfərlik heyətlə başlamaq olar. Mən artıq maraqlanmışam, həmin taksilər gün ərzində təxminən iyirmi-qırx nəfər müştəri daşıyır, minimumla götürsək, günə min insana paylanacağı halda, bu təxminən yeddi ay çəkə bilər. Amma biz bu işi genişləndirə bilərik, digər taksi sürücülərini də bu işə qoşsaq say artacaq və biz iki yüz min reklam kartını hətta üç aya da paylaya bilərik. Hələ üstəlik motosiklet ilə yemək daşıyan kuryerləri də bu işə qoşa bilsək, bəlkə də biz bunu iki aya edə bilərik, – Ariz cavab verir.

– Hərəkatı elan edən kimi hakimiyyət həbslərə başlayacaq, birdən kimisə işgəncələrlə sındıraraq kamera önünə çıxarıb insanları sakitləşdirməyə, geri çəkilməyə çağırsalar necə olacaq? – nəhayət, Qərib bəy sual verir.

– Biz bu halı istisna etmək üçün yalnız ölümə qədər bu işdə olmağa razılıq verənləri təşkilat komitəsinə daxil edəcəyik. Məsələn, biri mən! Mən sizin və Allahın qarşısında bu işdə ölümə qədər gedəcəyimə and içirəm! – Ariz sağ əlini qaldıraraq and içir.

– Yaxşı, bəs hər şey uğurla sona çatarsa, yeni qurulacaq hakimiyyətə kim başçılıq edəcək? – deyə Qərib bəy soruşur.

– Bu indi önəmli deyil, əsas məsələ ölkədə kök atmış azğın hakimiyyəti qovmaqdır, sonra kimin prezident seçiləcəyini isə xalq təyin edəcək, normal ölkələrdə olduğu kimi şəffaf və ədalətli seçkilər. Hə, yeri gəlmişkən, heç kimin zehnində pis fikirlər olmasın deyə mən burada, elə sizin hüzurunuzdaca prezidentliyə namizədliyimi verməyəcəyimə and içirəm! – Ariz yenə sağ əlini qaldıraraq and içir.

Zəngə qoşulmuş bəylər başlarını razılıq əlaməti olaraq tərpədirlər və hamısı bir-bir bu işdə ölümə qədər gedəcəyinə və prezidentliyə namizədliyini verməyəcəyinə and içir. Ariz sabah çap işi ilə məşğul olacağını və Qərib bəyə məlumat verəcəyini bildirir, Qərib bəy bu işdə koordinator rolunu oynayacaqdı.

Səhər tezdən Ariz banka gedir və hesabını bağlatdırır, üç min iki yüz dolları alaraq bankı tərk edir. Telefonunu çıxararaq Nurlana bu mesajı yazır: "Salam, Nurlan, çap işini hesabladınız? Nə qədər edir?" Ariz maşına əyləşərək evinə gedir. Evə çatanda Nurlandan mesaj gəlir: "Salam, Ariz, deməli, çap işi min iki yüz dollara başa gələcək, amma əvvəlcə mən kartın dizaynını bitirməliyəm ki, sənə göndərim. Əgər bəyənsən, onda çapa verərik, təbii ki, əgər qiymət səni qane edəcəksə". Ariz dərhal cavab yazır: "Əla! Mən səndən kartın şəklini gözləyirəm".

Ariz mənzilə qalxır, bir qəhvə hazırlayır, kompüterin arxasına keçərək xəbərləri izləməyə başlayır. Bu gün iş günü olduğundan Nigar işdə idi, evdə sakitlik hökm sürürdü. Birdən telefona mesaj gəlir, bu, Nurlandan idi, o, kartın hər iki tərəfinin şəklini göndərmişdi. Ariz tez onları açaraq baxdı, kart çox nəfis şəkildə dizayn olunmuşdu, axı Nurlan işinin ustası idi. Ariz dərhal "MÖHTƏŞƏM!!!" yazaraq cavab verir. Bir neçə saniyədən sonra Nurlandan "Çapa verək? Qiymətlə razısan?" mesajı gəlir və Ariz dərhal "Əlbəttə, pulunu axşam görüşərik, verərəm sənə" cavabını

yazır və telefonu masanın üzərinə qoyur. Yenə Nurlandan mesaj gəlir: “Bu axşam işim var, pul üçün də tələsmə, malı sənə sabah təhvil verəndə ödəyərsən, qaçmırıq ki?!” Ariz gülümsəyərək “oldu, qardaş, hara qaçacağıq ki?! )))” cavabını yazır. Hələ ki, hər şey yolunda gedirdi.
Növbəti gün axşam Nurlan Arizə zəng edir:

– Salam, Ariz, evdəsən?

– Salam, Nurlan, bəli, evdəyəm.

– Beş dəqiqəyə çatıram, mallar hazırdır, düşərsən aşağı?

– Əlbəttə, elə indicə düşürəm.

Ariz dəstəyi asır, özü ilə pul götürərək həyətə düşür. Həyətdə qonşusu Sərvəri görür.

– Salam, Ariz, necəsən? Çoxdandır görünmürsən, haralardasan? – Sərvər soruşur.

– Salam, Sərvər, çox vaxt evdə oluram, hərdən bayıra çıxıram.

– Deyirəm sən də necə həyatını məhv elədin e. Gül kimi ailən, işin-gücün, evin, sənə lazım idi deputat olmaq? Axı nəyin çatmırdı? Bu məhəllədə hamı sənin həyat şəraitinə həsəd aparırdı.

– Sərvər, məgər sən ölkədəki zülmü görmürsən? Dərk etmirsən?

– Yox, elə bircə ağıllı sənsən! – Sərvər kinayə ilə dedi.

– Əlbəttə, görürəm, kor deyiləm ki?! Axı sən tək bu canavarlarla nə edə bilərsən ki? Sənin bunlara gücün çatar?

– Niyə mənim? Niyə sən özünü kənarda görürsən? Məgər mənim yeddi başlı əjdaha ilə təkbaşına döyüşüb qalib gəlməyimi gözləyirsən? Axı belə şeylər nağıllarda olur, məgər sən hələ böyüməmisən? – Ariz azacıq əsəbiləşmişdi, bunu hiss edər-etməz dərhal özünü yığışdırdı. – Mən öz işimi gördüm və görürəm, qoy bu zülmün qarşısında dörd ayaq şəklində duranlar özlərinin halına baxsın! Sən nə qədər bu hakimiyyətin

qarşısında dörd ayaq halında duracaqsansa, o da səni bir o qədər minəcək və çapacaq! – Ariz sakit tonla fikrini bitirdi və Sərvərdən uzaqlaşdı.

Sərvər Arizin arxasınca baxaraq başını yelləyib: "Get görüm nə edə biləcəksən! Hayıf Yeganədən və Nərmindən!" – deyib üzünü çevirərək getdi.

Bir neçə dəqiqədən sonra Nurlan maşınla gəldi, düşüb Arizlə görüşdü, maşının yük yerini açaraq ona iki qutunu göstərdi:

– Buyur, bu da sənin malların. Qutular bir az iridir, daşımağa kömək edərəm. Baxmaq istəyirsən, açım birini?

– Yox, ehtiyac yoxdur, sənin işin həmişə mükəmməl olur, – Ariz cibindən pulu çıxarıb verir. – Buyur, bu da min iki yüz dollar.

– Əşşi, qaçmırıq ki?! – deyə Nurlan gülümsəyərək pulu alır və cibinə qoyur.

Köməkləşib qutuları Arizin mənzilinə qaldırırlar, Nurlan sağollaşıb gedir. Ariz qutunun birini açır və kartın birini çıxarır. Həqiqətən də nəfis bir şəkildə hazırlanmışdı.

Gecə efir bitən kimi Ariz Qərib bəyə görüntülü zəng edir:

– Salam, Qərib bəy! Necəsiz?

– Salam, Ariz, təşəkkür edirəm.

– Qərib bəy, baxın, reklam kağızları artıq hazırdır! – deyə Ariz kartın birini kameraya yaxınlaşdırır.

– Sən lap əjdahasan ki, ay Ariz! – deyə Qərib bəy gülümsəməyə başlayır. – Halaldır sənə! Sənin kimi övladları olduqca Andaluniyanın kürəyi yerə dəyməz! Möhtəşəm bir iş görmüsən, səni təbrik edirəm! Bir dayan, qoy digərlərini də zəngə qoşum, qoy iş görənin necə olduğunu onlar da görsünlər. – Qərib bəy digərlərini də zəngə qoşur.

Ariz kartı onlara da nümayiş etdirir, Qərib bəy isə Arizi tərifləyirdi. İndi qaldı Tartara zərərçəkmişlərini bu işə razı

salmaq, sadəcə şənbə gününü gözləmək lazım idi.
Şənbə günü gəldi, Ariz maşına əyləşərək Tartaraya getdi. Əvvəlcədən danışıldığı kimi Validə ananın evində altmışa yaxın zərərçəkmiş əsgər və zabit onu gözləyirdi. Ariz özü ilə bir qədər kartlardan da götürmüşdü, bu sadəcə onlara nümayiş etdirmək üçün lazım idi. Ariz onlarla salamlaşır və sözə başlayır:

– Keçən dəfə siz paşalara sui-qəsd edərək qisas almaq istəyirdiniz, bu yanlış yoldur! Siz qisasa ona görə üz tutursunuz ki, ölkəmizdə ədalətli məhkəmə və ədliyyə sistemi yoxdur. Onsuz da ölkəmizdə ədalət olsaydı, siz bu işgəncələri görməzdiniz. Düzdür? – Ariz hamıya sual edir.

– Düzdür, düz deyirsiniz, Ariz bəy! – hamı xor səslə razılaşır.

– Mən sizə sivil mübarizə təklif edirəm, nəinki Tartaraya, bütün Andaluniyaya ədalət gətirəcək bir mübarizə! Biz "Andaluniya harayı" kanalı ətrafında təşkilatlanacağıq, oradan da sizin müsahibələr yayımlanacaq, insanlar bu dəhşətli faciə barəsində xəbər tutacaq, başqa yerli kanallar da bu faciəni işıqlandırmaq məcburiyyətində qalacaq. Beləliklə, sizin səsiniz daha çox insana çata biləcək, amma bunun üçün sizin dəstəyinizə ehtiyac var. Siz hamınız Bakkaya gedəcək, telefonlarınıza uyğun proqramı yazaraq taksi fəaliyyətinə başlayacaqsınız. Maşınınıza əyləşən hər bir müştəriyə "Andaluniya harayı" kanalı və "Tartara faciəsi" haqqında danışacaqsınız və onlara bu kartlardan verəcəksiniz, onları kanala abunə olmağa və onu izləməyə təşviq edəcəksiniz. Bu kartlardan iki yüz min ədəd artıq çap edilib, indi qalıb sizin onları paylamağınız. Biz tədricən öz sıralarımızı genişləndirəcəyik, könüllü olaraq digər taksi sürücüləri də bu işə qoşulmaq istəsələr, onlara bu kartlardan verəcəyik. Hətta yemək daşıyan kuryerlərə

də bundan verəcəyik ki, qapılarda insanlara paylasınlar. Siz bu prosesə dəstək verməyə hazırsınızmı? – Ariz sual edərək oradakı insanlara baxır, bir neçə nəfər tərəddüdlü görünsə də, əksəriyyəti başını razılıq əlaməti olaraq tərpədirdi.

– Ariz, oğlum, bəs bu qədər insan harada qalacaq? – Validə ana soruşur.

– Yəqin ki, sizin bəzilərinizin Bakkada yaşayan qohumlarınız var və siz onlarda qala bilərsiniz, amma buna baxmayaraq, kim hesab edirsə ki, Bakkada qalmağa yeri yoxdur, sol tərəfə keçsin, – deyə Ariz sol əlini yana açır. Cəmi on nəfər dəstədən ayrılır. – Əla, on nəfəri yerləşdirmək asan işdir. Biz tərəflərdə bir ev tutaram, sizə sadəcə yatmağa yer lazımdır, ikiotaqlı, hamam və tualeti olan mənzil sizə kifayət edər.

On nəfər başlarını razılıq əlaməti olaraq tərpədir.

– Bəs onları taksi şirkətinə kim düzəldəcək? – Validə ana soruşur.

– Bu çox asan bir işdir, sadəcə ağıllı telefon, sürücülük, şəxsiyyət vəsiqəsi və bank kartı lazımdır. Kimdə ağıllı telefon yoxdursa, əlini qaldırsın. – Heç kim tərpənmir – Əla! Onda, kimdə bank kartı yoxdursa, əlini qaldırsın. – On nəfər əlini qaldırır – Əla! Alın, bu yüz dolları, – Ariz masanın üzərinə yüz dollar qoyur, – sabah bankda özünüzə kart açdırın və on dolları kartınıza yatırın. Bu, ilk günlərdə sifarişləri qəbul etməyiniz üçün kifayət edəcək, sonra isə ödəmə aparatlarından hesabınızı doldura biləcəksiniz. İndi isə vatsap proqramında bir qrup yaradın, hamınız, Validə ana və mən həmin qrupda olmalıyıq, həmin qrupa kənar adam əlavə etmək olmaz. Hər ehtimala qarşı kimsə təhlükə hiss edərsə, dərhal qrupdan çıxmalı olacaq, ümumi işi qorumaq üçün.

– Məndə həmin taksi proqramı var, – zərərçəkmişlərdən biri deyir. – Qrup yaradılan kimi proqramın adını ora

yazaram ki, hamı yükləyə bilsin.

– Əla! Bu da həll olundu. Kimin başqa nə sualı var? – Ariz hamıya nəzər salaraq soruşdu.

– Nə vaxt Bakkaya gəlsinlər? – Validə ana soruşur.

– İkicə gün mənə möhlət verin, mən onlar üçün qalmağa ev tapım, qrupda sizə xəbər edəcəyəm. Bakkada qalmağa yeri olanlar isə sabahdan gələ bilərlər. Biz bir güllə ilə iki dovşan vuracağıq, həm siz pul qazanacaqsınız, həm də ümumi işin təbliğinə kömək etmiş olacaqsınız. Hə, bir məsələni də deyim, hələlik mənim bir az pulum var, amma sonrası çətin olacaq, ona görə də təklif edirəm ki, biz bir fond yaradaq, Validə ana fondun rəhbəri olsun, müəyyən işləri görmək üçün pul lazım olanda ona müraciət edərik. Etiraz etmirsiniz? – otaqdakıların hamısı başlarını tərpədir. – Əla! Onda danışdığımız kimi! Yeri gəlmişkən, Qərib bəyin bütün bu işlərdən xəbəri var, sizin razılaşdığınızı eşitsə mütləq sevinəcək!

– Sizin hamınızın nömrəsi məndə var, – Validə ana ucadan dedi. – Vatsap qrupunu mən yaradacağam və hamınızı ora daxil edəcəyəm. Bir az yubanın ki, elə dağılışmamış bunu həll edək.

Hamı razılaşır.

Ariz onlarla sağollaşaraq maşınına əyləşir və Bakka istiqamətində hərəkət edir. Yolda o, Qərib bəyə zəng edir:

– Salam, Qərib bəy!

– Salam, Ariz! Deyəsən yoldasan, hə?

– Bəli, Tartaradan gəlirəm, zərərçəkənlərlə razılaşdım, altmış nəfərə qədər kişi bir neçə günə taksi xidmətinə başlayacaq, hələ ki, işlər yolunda gedir.

– Vallah, sənə halaldır, Ariz! Demişəm də, sən əjdahasan!

– İndi on nəfər üçün qalmağa ev tapmalıyam, bircə problem budur, amma şəhərə çatan kimi həll edəcəyəm, narahat olmayın!

– Ariz, sən özündən muğayat ol, bir çox işlərdə Validə

ananı qabağa ver, bu alçaqlar səni həbs edə bilərlər, amma Validə ananı yox, onu artıq hamı tanıyır, sən hələ vətənə lazımsan!

– Narahat olmayın, Qərib bəy, mən ehtiyatı əldən vermə
rəm. Sağ olun, hələlik!

Ariz evə çatan kimi kompüterin arxasına keçir və kirayə ev elanlarına baxır, bir neçəsinin nömrəsini götürərək zəng edir və sabah evə baxmağa gəlmək üçün onlarla razılaşır. Validə ana artıq vatsap qrupunu yaratmışdı, Ariz həmin qrupa yazır: "Artıq bir neçə mənzil tapmışam, onlar qonşu Məkan kəndindədir, şəhərin mərkəzinə on beş dəqiqəlik yoldur, sabah onlara baxmağa gedəcəyəm. Sabahdan kim Bakkaya gələcəksə, mənimlə görüşün və kartları sizə verim. Gələndə hər kəs özü üçün döşək, yastıq və yorğan götürsün". Bir çox qrup üzvləri sabah Bakkaya gələcəklərini yazırlar.

Səhər Ariz həmin mənzil sahiblərinin birinə zəng edir və evə baxmağa gedir. Ev Məkan kəndinin çıxacağında, mərkəzi yolun yaxınlığında yerləşirdi. İkiotaqlı idi, səliqəli hamam və tualeti var idi. Binanın ikinci mərtəbəsində yerləşirdi, otaqlar da geniş idi. Mənzil Arizin ürəyincə idi, sahibindən qiymətini soruşdu:

– Aylığı neçəyə deyirsiz?

– İki yüz dollar, amma bu mənzil tərbiyəli insanlara verilir, başqa söz-söhbət olmamalıdır! – deyə ev sahibi qeyd edir.

– Narahat olmayın, biz burada şirkətin sürücülərini yerləşdirəcəyik. Alın, bu altı yüz dolları, üç aylıq bu mənzil bizimdir.

– Neçə sürücü olacaq?

– Təxminən on nəfərə yaxın, bəlkə də az.

– Bu səliqəli evdir, həmişə ailəyə kirayə verilib, evi pis günə qoymazlar ki?

– Narahat olmayın, onlar uşaq deyil, yaşlı-başlı və

səliqəli insanlardır. Sabahdan köçə bilərlər?

– Gəlsinlər, – ev sahibi pulu Arizdən alır, – amma qapının açarı cəmi üç ədəddir.

– Narahat olmayın, onları mənə verin, mən surətlərini çıxararam.

Ariz açarları ondan alır, qapını bağlayır və maşına oturaraq kənd mərkəzinə gedir, açarın birini ustaya verərək on ədəd surət çıxarmağını tapşırır.

İşlər yolunda gedirdi, Ariz evdə qəhvə içərək, dəftərçəsini nəzərdən keçirirdi. O, görməli olduğu işləri qeyd etməyə, onları planlaşdırmağa vərdiş etmişdi. Birdən qrupa mesaj gəlir: “Mən artıq Bakkadayam, hara gəlim?” – deyə qrup üzvlərindən biri yazmışdı. Ariz cəld ona “Məkan kəndinə gəl, bir azdan mən sənə xəritədə yeri atacağam”, – deyə cavab yazdı, tez-tələsik qəhvəsini bitirib bir qutu kart götürərək aşağı düşdü, maşına əyləşərək Məkan kəndinə getdi. Yolüstü ustadan açarların surətlərini də götürdü, evin qarşısına çatan kimi qrupa xəritədəki ünvanı göndərib yazdı: “Ev buradadır, hamı buraya gəlsin”. Qutunu da götürərək mənzilə qalxdı. Açarların hamısını bir-bir yoxladı və düzgünlüyünə əmin oldu. İndi o, mənzildə oturaraq sürücülərin gəlişini gözləyirdi.

Gün ərzində sürücülərin onu da gəldi, Ariz onları qarşılayır, döşəklərini daşımağa kömək edirdi. Qutudakı kartları onlara göstərərək:

– Kartlar bunlardır, indidən maşınlarınıza min ədəd qoyun, qutu burada qalacaq, digər sürücülər də onları buradan götürəcək, mən qrupa bu barədə yazacağam, – deyə Ariz qrupa bütün sürücülərin kartları bu mənzildən götürməli olduqlarını yazır. – İkinci qutu da var, siz sabah səhərdən etibarən işə başlayacaqsınız. Hamam və tualet buradadır, ev sahibi səliqəli olmağı tapşırdı. Ev üçün üç aylıq kirayə pulu artıq ödənib, indi sizin öhdənizə qalan taksi sürərək pul qazanmaq və

kartları insanlara paylamaqdır. Kimin nə sualı var?

– Yemək-içməyimiz necə olacaq? – sürücülərdən biri soruşur.

– İlk günlər üçün bunu götürün, – Ariz cibindən yüz dollar çıxararaq sürücüyə tərəf uzadır, – elə indi bir az bazarlıq edin, sonrasına baxarıq. Siz işlədikcə pulunuz olacaq, narahat olmayın! Mən indi gedirəm, sabahdan hamı iş başına!

– Oldu, Ariz bəy, sağ olun! – hamı Arizlə sağollaşır, Ariz onları tərk edir.

Gecə efirdən sonra Ariz Qərib bəyə görüntülü zəng edir:

– Salam, Qərib bəy, axşamınız xeyir olsun!

– Axşamın xeyir, Ariz! Hə, işlər necə gedir?

– Artıq sürücülərin əksəriyyəti Bakkadadır, on nəfəri də mənzil ilə təmin etdim, üç aylıq kirayə pulunu da ödədim. Sabahdan işə başlayacaqlar.

– Sən doğrudan da əjdahasan, Ariz! Təəssüf ki, xalqın hələ səndən xəbəri yoxdur. Gözlə, qoy digər bəyləri də zəngə qoşum.

Qərib bəy digərlərini də zəngə qoşur, Ariz yenilikləri onlarla bölüşür, hamı Arizin zirəkliyinə heyrətlənir və onu tərifləməyə başlayır.

– Ariz, pul məsələsi necədir? – Qərib bəy soruşur.

– Hələ ki qaydasındadır, heç bir sıxıntı yoxdur. Biz bir fond yaratmışıq, Validə ana nəzarət edəcək, sürücülər qazanclarından ona pul verəcəklər, bir aydan sonra az da olsa bizim bir büdcəmiz formalaşacaq.

– Mükəmməl fikirləşmisiz, həm pul qazanılacaq, həm də təbliğat gedəcək. Sadəcə möhtəşəm! – deyə Qərib bəy vurğulayır. – Amma sən yenə də özündən muğayat ol!

– Baş üstə! Mən sabah sürücülərə nəzarət edəcəm, sizə informasiya verəcəyəm. Hələlik! – Ariz zəngdən ayrılır və yatağına gedir.

Artıq bir həftə idi ki, sürücülər işləyirdi və kartlar paylanırdı. İlk günlərdə tərəddüd edən zərərçəkmişlər qrupdakı yazışmaları görərək həvəslənmiş və komandaya qatılmışdılar. Hər şey yağ kimi gedirdi. Artıq on beş minə yaxın kart paylanmışdı, bu özünü kanalın abunə və izləmə sayında göstərməyə başlamışdı. Hələlik kanalda gündəlik problemlər və gündəm müzakirə edilirdi, “Tartara faciəsi”nə keçid almaq üçün hələ tez idi, bunun üçün canlı efirin izləyici sayı ən azı on beş minə çatmalı idi. Hədəflər aydın idi, qalırdı sadəcə həmin hədəflərə doğru hərəkət etmək, hamı işləməli idi...

## Milli Müqavimətin formalaşması

Artıq iki ay idi ki, “Andaluniya harayı” kanalının təbliğatı istiqamətində iş gedirdi, iki yüz minlik kart qurtarmaq üzrə idi. Bu müddət ərzində bu kampaniyaya qoşulan sürücülərin sayı yüz əlliyə çatmışdı, yemək daşıyan kuryerlərdən əlli nəfərə qədəri də bu işə qoşulmuşdu. İndi artıq kanalın yüz əlli mindən çox abunəçisi var idi. Gündəlik canlı efirlərə eyni anda on beş mindən çox insan baxırdı. Bu, çox əla bir göstərici idi.
Ariz Nurlanla danışaraq daha iki yüz min kart sifariş etdi, onları təhvil alan kimi dərhal Məkan kəndindəki mənzilə apardı. Sürücülər də bu işdən razı idi, onlar təşkilatlanma işi ilə paralel olaraq həm də pul qazanırdılar. Validə ananın fonduna da xeyli pul yığılmışdı, növbəti kartların pulu da elə həmin fonddan ödənilmişdi. Hələ ki, hər şey plan üzrə gedirdi, bu fakt Arizi sevindirsə də, növbəti mərhələnin yükü ona ağır gəlirdi. İndi artıq kanalda “Tartara faciəsi”nə keçid almaq olardı, amma əvvəlcə bunu Qərib bəylə və digər ziyalılarla müzakirə etməli idi. Gecə efirdən dərhal sonra Ariz Qərib bəyə görüntülü zəng etdi.

– Salam, Qərib bəy, necəsiz?

– Salam, Ariz, bir az yorğunam, sən necəsən?

– Yaxşı olmağa çalışıram, təşəkkür! Kanalın inkişafından razısınız?

– Əlbəttə, sən möhtəşəm bir iş görürsən, Ariz! Təşəkkür edirəm!

– Xeyr, bunu mən etmirəm, bu, kollektiv zəhmətin, özünü bu işə həsretmənin nəticəsidir.

– Düzdür, Ariz, amma sənin təşkilatçılığın, ideyaların da qiymətsizdir!

– Arpa dənəsindən də kiçik olan zəhmətimi bu qədər ali dərəcədə dəyərləndirdiyiniz üçün sizə minnətdaram, Qərib bəy. Necə bilirsiniz, artıq "Tartara faciəsi"ni işıqlandırmağa başlamaq olarmı?

– Deyirsən artıq vaxtdır? Bəlkə hələ bir az da gözləyək, izləyici sayı iyirmi minə qalxdıqdan sonra?

– Qərib bəy, inanın, siz "Tartara faciəsi"ni izləyicilərə təqdim edən kimi baxış sayı artacaq, abunə sayından xəbəriniz var? Abunə sayı ən azı üç dəfə artıb, izləyiciləri hər gün eyni mövzularla yormağı məsləhət görmürəm, məncə, artıq vaxtıdır.

– Elə isə icazənlə digər bəyləri də zəngə qoşum, onlarla da məsləhətləşək.

Qərib bəy digər bəyləri də zəngə qoşur, Ariz onları "Tartara faciəsi"ni işıqlandırmağın vaxtının çatdığına inandıra bilir. Ariz həbsdə olarkən məhbusların birindən məntiq dərsləri almışdı, amma o, təkcə məntiq qaydalarını bilməklə kifayətlənmirdi, onları həyatına, danışığına və yazılarına tətbiq edirdi. Məntiq, həqiqətən də, ağıllı və ixlaslı insanın əlində güclü bir silah kimidir.

Razılıq əldə olunan kimi ertəsi gündən "Andaluniya harayı" kanalında "Tartara faciəsi" işıqlandırılmağa başlanır. Qərib bəy Tartarada baş verən dəhşətləri özünə məxsus formada şərh edirdi, çox böyük ustalıqla elə kəlmələr seçirdi ki, insanların ruhuna toxuna bilsin. Gözlənilən effekt alınmışdı, elə ilk verilişdən canlı baxış sayı iyirmi iki min oldu. Bəli,

Arizin proqnozu özünü doğrultmuşdu.

Növbəti gün Ariz zərərçəkmişlərin qrupuna yazdı: "Dünəndən etibarən Qərib bəy "Tartara faciəsi"ni işıqlandırmağa başlayıb, izləyici sayı elə ilk efirdən artdı. Bu, bizə bir stimul olmalıdır, daha böyük şövqlə təbliğat aparmaq və təşkilatlanmaq üçün. Hər kəs məsuliyyətli olarsa, qələbə yaxındadır!". Arizin yazdığı bu cümlələr hamını ruhlandırmışdı, hamı daha artıq şövqlə bu işə yaxınlaşmağa söz verdi.

Artıq bir neçə həftə keçirdi, işlər plan üzrə irəliləyirdi. Kanalın abunə sayı iki yüz əlli minə, canlı izləmə sayı isə qırx minə çatmışdı. Ariz Qərib bəylə danışaraq efirdə belə bir videomüraciətin hazırlanmasına razılıq alır. Videomüraciətdə Qərib bəy belə deyirdi:

> – Ey mənim ulu xalqım! Tartarada baş vermiş dəhşətli faciə səni bir xalq olaraq məhv etmək üçün həyata keçirilib, orada sənin övladlarına işgəncə verilib, zorlanıb və qətlə yetirilib! Ya sən bir xalq olaraq meydana çıxıb öz şərəf və ləyaqətini bərpa edəcəksən, ya da məhv olub yer üzündən silinəcəksən! Bu, Andaluniya üçün böyük bir dərddir, amma hər bir böyük dərd paylaşılaraq yüngülləşir! Efirlərimizi bəyənin və paylaşın ki, Andaluniyanın harayı hər kəsə çatsın!

Bu bir dəqiqəlik videomüraciət bütün sosial şəbəkələrdə yayıldı, hamı Tartarada nə baş verdiyini öyrənmək üçün "Andaluniya harayı" kanalına üz tuturdu. Amma bir kanal təkbaşına bu işin öhdəsindən gələ bilməzdi, digər kanalları da bu marafona qoşmaq lazım idi. Burada Qərib bəy bir fənd işlətdi, o, bir qrup yaradaraq "Tartara faciəsi"nə dəstək olan sıravi vətəndaşları topladı və onlara tapşırdı ki, canlı efirə çıxan bütün kanalların rəy bölməsinə "Tartara faciəsi"nin işıqlandırılmasını tələb edən rəylər yazsınlar. Çox çəkmədi ki, bu, öz effektini verdi. Amma kanal rəhbərləri hələ də tərəddüddə idi. Qərib bəy Bakkada fəaliyyət göstərən bir

neçə YouTube kanalının rəhbəri ilə danışdı və onları bu faciəni işıqlandırmağa razı saldı. Əlbəttə, onlar Bakkada olduqlarına görə qorxurdular, amma faciənin ciddiliyini dərk etdiklərinə görə razılaşdılar. Razılaşmaya əsasən, onlar təhlükədən qorunmaq üçün yalnız "Andaluniya harayı" kanalında yayımlanan müsahibələrə və zərərçəkmişlərin sözlərinə istinad edəcəkdilər. Bu, hazırkı durumda daha təhlükəsiz görünürdü.

Növbəti həftədə demək olar ki, bütün YouTube kanalları "Tartara faciəsi"ndən danışdı, bəzi kanallar hətta Validə ana və digər zərərçəkmişləri efirlərə dəvət edərək canlı müsahibə aldılar. Bəli, artıq ölkədə demək olar ki, hamı bu barədə danışırdı. İşlər artıq tam olaraq istənilən məcrada gedirdi.

Bir neçə həftə də keçdi, "Andaluniya harayı" kanalı getdikcə böyüyürdü, artıq abunəçilərin sayı beş yüz minə yaxınlaşırdı, canlı izləyici sayı isə səksən minə yaxın idi. Canlı efir bitəndən sonra hər bir verilişə yüz minlərlə insan baxırdı. Rəylərdə insanların zülmə qarşı necə kin qusduqlarını müşahidə etmək olurdu.

Bir gecə videozəngdə Ariz bir təklif verdi:

– Məncə, artıq kiçik bir etiraz aksiyası təşkil etmək olar.

– Hansı adla? – Qərib bəy soruşdu.

– Zərərçəkmişlərin hakimiyyətdən "Tartara faciəsi"nə ədalət tələbi ilə.

– Polislər dağıdacaq, insanlar həbs olunacaq, – Həsən bəy irad bildirir.

– Məncə, yox, aksiyanı Validə ananın ətrafında təşkil edəcəyik, ancaq zərərçəkmişlər əllərində ərizələrlə ədalət tələb edəcəklər. Bəlkə də mən fikrimi düz ifadə etmədim, bu, etiraz aksiyası yox, ədalət tələbi aksiyası olacaq, – deyə Ariz aydınlıq gətirir.

– Hə, bax bu olar! – Qərib bəy dərhal dəstəklədi. – Zərərçəkmişlərlə elə efirdə bunu müzakirə edərik.

Artıq bir neçə həftə idi ki, Validə ana başda olmaqla zərərçəkmişlər canlı efirə çıxaraq, öz faciələrini danışır və proseslərə fikir bildirirdilər. Validə ana xalq tərəfindən sevilirdi, hətta "Mübarizlər" adlı bir təşkilat onu "Mübariz Ana" kimi elan etmişdi. Dəstə-dəstə insanlar onu Tartarada ziyarətə gəlirdi, könüllü olaraq onun fonduna yardımlar edirdilər. Bütün bunlar onun xalq tərəfindən sevildiyinə əyani sübut idi.

Növbəti gün canlı efirdə ədalət tələbi ilə aksiyanın keçirilməsi təklifini müzakirə edirdilər. Qərib bəyin Validə ana ilə dialoqu hər şeyi həll etdi:

– Validə ana, sizin çoxsaylı ərizə və şikayətlərinizə baxmayaraq, hakimiyyət özünü karlığa və korluğa vurur. Bəlkə siz sözünüzü onlara yaxşı eşitdirmirsiniz?

– Qərib bəy, normal ölkələrdə mətbuat və mediada cinayət motivi olan hər hansı bir məlumat cinayət işinin və istintaqın başlanması üçün kifayət edir. Bizim ölkədə isə yazılan ərizələr və şikayət məktubları da effekt vermir. Öldürülmüş əsgər və zabitlərin valideynlərinin fəryadı, işgəncə görmüş balalarımızın harayı hakimiyyət tərəfindən reaksiyasız qalır. İndi biz nə edək ki, kar qulaqlar bu fəryadları eşitsin?

– Validə ana, bəlkə ədalət tələbi ilə bir aksiya keçirəsiniz? Gəlin bununla əlaqədar izləyicilərlə də bir sorğu keçirək. Hörmətli izləyicilər, ədalət tələbi ilə aksiya keçirilsə, Validə anaya dəstək verəcəksinizmi? Buyurun, Validə ana, sizin də fikirləriniz önəmlidir.

– Mən oğlumun meyitini görən ilk andan demişəm, indi də deyirəm, oğlum üçün şəhidlik almayana, bütün cinayətkarları həbsxanada görməyənə qədər bu yoldan döndü yoxdur! Əgər öləcəyəmsə, öldürüləcəyəmsə mütləq bu yolda öləcəm və oğlumun yanına üzüağ gedəcəyəm! Bunlar səhərlər oyatmağa qıymadığım oğlumu öldürüblər, mən onlara heç keçərəm? Yerlə göy

bir olsa belə bu işdən nəinki bir addım dala, heç sağa və sola belə atmayacağam! İllərdir ki, biz idarələrin önündə sülənirdik, nə yaxşı ki, siz və Aslan bəy ortaya çıxıb bu işi işıqlandırdınız, bizim də qəlbimizə bir aramlıq gətirdiniz! Mən yenə də deyirəm, bu işdə ölənə qədər varam, hətta ölümdən sonra belə onların yaxasından əl çəkən deyiləm!

– Eşq olsun mübariz anamız Validə anaya! Hazırda bizi səksən beş min insan canlı olaraq izləyir, siz danışdıqca mən rəy bölməsinə baxıram, on minlərlə insan sizə dəstək ifadə edir, budur, möhtəşəm Andaluniya xalqı bax budur, hala olsun sizə! – Qərib bəy insanları motivasiya etməyi yaxşı bacarırdı. – Validə ana, onda mən təklif edirəm ki, on gündən sonra baş prokurorluğun önündə "Tartaraya ədalət" tələbi ilə bir aksiya keçirəsiniz. Aksiyada yalnız zərərçəkmişlər iştirak etsin. Nə deyirsiniz?

– Mən nə deyəcəyəm ki, elə həmişə dediyimi deyirəm, mütləq "Tartara faciəsi"nə ədalət gəlməlidir!

– Madam ki belədir, onda sabahdan təşkilati işlərlə məşğul olmaq lazımdır! Mən də əlimdən gələn dəstəyi sizə göstərəcəyəm.

Əlbəttə, hakim komanda bu efirləri izləyirdi və onlar bərk narahat olmuşdular, axı onlar bu aksiyanın qarşısıalınmaz bir prosesi başladacağını bilirdilər, təcili nə isə etməliydilər. Bir neçə zərərçəkmişi şərləyərək həbs etdilər, bununla xalqın ruhuna qorxu toxumu səpməyə cəhd edirdilər, amma buna baxmayaraq aksiya baş tutdu. Təxminən iyirmi zərərçəkmiş baş prokurorluğun qarşısına toplandı, onlar əllərində ərizələrlə "Tartara faciəsi"nə ədalət tələb edirdilər. Bir neçə kanal bu aksiyanı canlı olaraq yayımlayırdı. Zərərçəkmişlərdən əlavə yüzlərlə insan dəstək üçün ora toplaşmışdı. Polis zərərçəkmişləri dağıda bilmədi, onlar sadəcə əllərindəki ərizələrlə ədalət tələb

edirdilər. Aksiya baş tutdu!..

Həmin gün gecə videozəngdə bəylər bu hadisəni müzakirə edirdi:

– Bəylər, hamınızı təbrik edirəm, aksiya baş tutdu! – Qərib bəy sevincli görünürdü.

– Bəli, bu aksiya möhtəşəm bir proses üçün uğurlu bir başlanğıc oldu! – Həsən bəy təsdiqlədi.

– Bəylər, məncə, artıq "X" gününü təyin etməyin zamanı gəlib, necə düşünürsünüz? – Ariz soruşdu.

– Sən nə təklif edirsən, Ariz? – Qərib bəy soruşur.

– Sabah noyabr ayının beşidir, mən təklif edirəm ki, efirdən "X" gününü gələn ilin beş noyabrına elan edək, – Ariz cavab verir.

– Bir il? Səncə, bu çox deyil? – Qərib bəy təəccüblə soruşur.

– Xeyr, biz on illərlədir ki, despot hakimiyyətlərin əsarəti altındayıq, onların içərisində ən güclü və amansızı hazırkı hakimiyyətdir. Bunlar əməlli-başlı kök atıblar, hər yerdə kadrları var, pul, silah, polis, ordu, mafioz və kriminal dəstələr, nə desəniz varlarıdır. Xalqa qarşı da xüsusi amansızlıqlarının dəfələrlə şahidi olmuşuq. Məncə, biz "X" gününə yaxşı hazırlaşmalıyıq, – Ariz aydınlıq gətirir.

– Yaxşı, bəs biz bunu necə elan edəcəyik? – Qərib bəy soruşur.

– Biz yox, Qərib bəy, siz elan edəcəksiniz, sabahkı efirinizdə. Deyəcəksiniz ki,... – Ariz Qərib bəyə hər şeyi izah edir.

Növbəti gün efirdə Qərib bəy "X" gününü elan edir:

– Əziz xalqım! Bu hakimiyyətlə təkbaşına mübarizə aparmaq mümkün deyil, Tartaradan başqa o qədər zülmlər edib ki! Təhsili, səhiyyəni, iqtisadiyyatı və mənəviyyatı məhv ediblər, hər bir vətəndaşa birbaşa və ya dolayısı ilə zülm ediblər, milli sərvətləri xarici

banklara daşıyaraq ölkəni talan ediblər. İndi isə biz bir xalq olaraq öz sözümüzü deməli və onlara öz yerlərini göstərməliyik! Narahat olmayın, onları əvəz edəcək komanda var! Allaha şükürlər olsun ki, Andaluniya xalqı milli qeyrətə sahib olan oğullardan xali deyil! Vaxtı çatanda mən onları sizə elan edəcəyəm, qətiyyən narahat olmayın! Bu gün noyabr ayının beşidir, gələn il noyabrın beşini biz "Ədalət günü" kimi elan edirik. Hamı, istisnasız olaraq hamı həmin gün zülmə etiraz etmək, vətənimiz Andaluniyaya ədalət gətirmək üçün küçələrə çıxmalıdır! Yalnız bu yolla bir xalq olaraq biz ölkəmizə ədalət gətirə bilərik!

Adətən efir ikisaatlıq olsa da, məhz bu çıxış bütün sosial şəbəkələrdə paylaşılmağa başlayır, insanların qəlbində bir ümid qığılcımı yandırır. Xalqda hələ indiyədək görünməmiş bir ruh yüksəkliyi var idi. Bunun müqabilində hakimiyyət bərk qorxuya düşmüşdü. Artıq geri dönüşü olmayan bir proses başlamışdı.

Artıq ilk aksiyadan bir neçə ay keçmişdi, əvvəllər danışmağa ürək etməyən yüzlərlə zərərçəkmiş peyda olmuşdu. Artıq Ariz onlardan müsahibə almaq üçün Tartaraya getmirdi, onlar özləri canlı olaraq efirə qoşulur və oradakı dəhşətləri danışırdılar. Amerikada siyasi mühacir həyatı yaşayan Əflatun bəy də ara-sıra efirlərə qoşulur və bu faciənin hüquqi və mənəvi tərəflərini izah edirdi. İndi kanalın altı yüz minə yaxın abunəçisi, yüz minə yaxın isə canlı efir izləyicisi var idi. Kanalın təbliği üçün kartların paylanılması da dayandırılmışdı, artıq buna ehtiyac yox idi. Artıq Andaluniya xalqı ayılmağa başlamışdı, indi insanlar özləri şüurlu şəkildə kanalı təbliğ edirdilər, hər yerdə – çayxanalarda, kafelərdə, məscidlərdə, məclislərdə, hər yerdə insanlar noyabr ayının beşini gözləyirdi, hamı hakimiyyətin zülmündən danışırdı, insanlar sosial şəbəkələrdə qruplar yaradaraq təşkilatlanır, həmin

günün əhəmiyyəti haqqında təbliğat aparırdı. Bəli, qəflət yuxusundan oyanmış xalq məhz belə edir!..

## Tartarada zorlanan qadınlar danışır

"X" günü yaxınlaşdıqca "Tartara faciəsi" ətrafında cəmiyyətdə ajiotaj yaşanırdı, orada əsgər və zabitlərə verilmiş işgəncələr, yaşanmış dəhşətlər insanların hakimiyyətə olan nifrətini daha da körükləyirdi. Lakin insanlar hələ də hər şeyi eşitməmişdi. Qərib bəy Tartarada yaşanmış ən dəhşətli məqamları sona saxlamışdı, söhbət "Tartara faciəsi"ndə işgəncələr altında qətlə yetirilmiş əsgər və zabitlərin qadın ailə üzvlərinin zorlanmasından gedirdi.

Odur ki, bu mərhələdə Qərib bəyin hamıdan gizli saxladığı, yalnız Validə ananın bildiyi və tanıdığı həmin qadınlar artıq efirə çıxmalı və Tartarada yaşanan dəhşətləri Andaluniya xalqına danışmalı idi. Yenə axşam saat 21:00-da "Andaluniya harayı" kanalında canlı efir başlayır. Ariz də yüz minlərlə insan kimi ekran qarşısında əyləşmişdi, birdən o, verilişin adını gördü: "Tartarada zorlanmış qadınlar danışır!". Ariz yerindəcə donmuşdu, İlahi, bu nə başlıq idi?! "Tartara faciəsi"ni araşdırdığı müddətdə ara-sıra zərərçəkmişlərdən bu barədə müəyyən sözlər eşitmişdi, amma həqiqəti və yaşanmış faciənin təfərrüatlarını hələ bilmirdi. Odur ki, ekranın qarşısında oturaraq gözlərini və qulaqlarını dörd açmışdı, o, ən xırda təfərrüatı belə gözdən qaçırmaq istəmirdi.

İlk olaraq Qərib bəy efirdə görünür, izləyiciləri salamlayır, onlardan efiri bəyənərək paylaşmağı xahiş edir. Sonra dərindən nəfəs alaraq sözə başlayır:

– Ey mənim ulu xalqım, ey mənim namuslu və qeyrətli xalqım! Bu gün siz Tartarada yaşanan faciələrin ən dəhşətlisini eşidəcəksiniz. Xahiş edirəm, əsəbləri zəif

olan, ürəklərində problemi olan izləyicilər bu efirə baxmasın. Allah şahidimdir, mən ilk dəfə bu dəhşətləri eşidərkən hönkürtü ilə ağlamışam, halım dəyişib, üç gün özümə gəlməmişəm. O anlarda mən andaluniyalı olduğuma görə, kişi olduğuma görə xəcalət çəkmişəm və özümə ölüm arzulamışam! Axı biz qeyrət və namus yeri bilən xalqıq, axı bizim nəslimizdə binamusluq edən kişi və ya qadın aşkarlandıqda onları daşqalaq edən, qohumluqdan xaric edən xalqıq! Necə oldu ki, indi bir ovuc cinayətkar quldur dəstəsi bizim qız-gəlinlərimizi bu cür dəhşətli formada zorlaya bilir? Necə olur ki, biz bir xalq olaraq bütün bunların müqabilində susqun, qul və kölələr kimi müti qalırıq? Məgər bizim anamız və namusumuz olan vətənimizi qoruyan həmin əsgər və zabitlər bizim qardaşlarımız deyilmi? Əgər onlar bizim qardaşlarımızdırsa, bəs onların bacıları bizim bacımız, anaları bizim anamız, gəlinləri bizim gəlinimiz deyilmi? Əgər bizim namusumuz olan vətənimiz həmin əsgər və zabitlərin namusudursa, onda necə olur ki, onların namusu bizim namusumuz olmasın? Ey mənim ulu xalqım, bu gün eşitdiyiniz dəhşətlərə görə ürəyiniz partlayıb öləcəksinizsə, əmin olun ki, sizin canınız israf olmayacaq! Amma çalışın ki, ölməyəsiniz, sağ qalaraq bu binamus və biqeyrət hakimiyyətlə mübarizə aparmalısınız, bu qız-gəlinlərimizin qisasını almalısınız! Diqqətlə qulaq asın ki, hər bir xırda təfərrüatı dərk edəsiniz və orada baş vermiş dəhşətləri ruhunuzda hiss edəsiniz!

İlk olaraq Qərib bəy Validə ananı efirə dəvət edir. Validə ananın üzündə insan zülmünün son həddini müşahidə etməmək olmurdu. İllərin iztirabı bu ananın üzündə və ruhunda dərin izlər salmışdı. Oğul itkisi ilə yanaşı digər yaşanmış dəhşətlərin canlı şahidi idi, zərərçəkmişləri ondan daha yaxşı anlayan ola bilməzdi. Validə ana

gözlərinin yaşını dəsmalla silərək sözə başlayır:

– Qərib bəy, siz bilirsiniz ki, mən uzun müddətdir ki, Tartarada zorlanmış qadınları efirə çıxmaq üçün razı salmağa çalışırdım. Onlar neçə aylardır ki, tərəddüd içində idi, amma bu gün sizin və digər qeyrətli vətən oğullarının sayəsində "Andaluniya harayı" kanalının abunəçi və izləmə sayı artdıqdan, bu faciə ümummilli bir faciəyə çevrildikdən sonra, nəhayət ki, onları razı sala bildim. Mən onların başına gələn faciələri eşitmişəm, amma buna baxmayaraq, yenə də eşidəndə halımın xarab olacağını bilirəm, izninizlə kameramı söndürüb efirdə iştirakımı davam etdirim.

– Əlbəttə, Validə ana, buyurun. Siz artıq kifayət qədər həm real həyatda, həm də bu efirdə baş vermiş dəhşətlər haqqında danışmısınız. Kaş bizim kişilərimizdə sizdə olan qeyrətin on faizi olaydı...

Validə ana kamerasını söndürür, Qərib bəy də zərərçəkmiş qadınları efirə qoşur. O, ilk olaraq sözü Sevda adlı zərərçəkmişə verir:

– Sevda xanım, ilk növbədə Tartarada başınıza gətirilmiş qeyri-insani dəhşətləri danışmağa razılıq verdiyinizə görə sizə təşəkkür edirəm! Bilirəm, bu barədə danışmaq sizin üçün çox çətindir, amma siz danışmalısınız, danışmalısınız ki, Andaluniya xalqı hakimiyyətin nə qədər binamus və şərəfsiz olduğunu bilsin! Buyurun, söz sizdədir, utanmadan, heç kimdən və heç nədən çəkinmədən başınıza gətirilmiş bütün dəhşətləri bir-bir bu xalqa danışın!

– Qərib bəy, – Sevda xanım gözlərinin yaşını silərək sözə başlayır, – mən çox xəcalət çəkirəm, hələ mənim qohumlarımın əksəriyyətinin mənim başıma gətirilmiş dəhşətlərdən xəbəri yoxdur. Heç bilmirəm ki, mənim çıxışımdan sonra onlar mənə necə münasibət

göstərəcək.

– Qızım, – Qərib bəy müdaxilə edir, – qohumlarının sənə yox, sənə qarşı bu vəhşilikləri edənlərə nə münasibət göstərəcəyi mühümdür! Əgər onlarda zərrə qədər olsa belə kişilik, namus və qeyrət varsa, onlar bu savaşda sizinlə çiyin-çiyinə duracaqlar! Sən narahat olma, qızım, danış, danış ki, qoy bu xalq həqiqətləri bilsin.

– Qərib bəy, – Sevda xanım bir neçə saniyə susduqdan sonra özündə güc taparaq sözə başlayır, – mənim ərim Fərid kapitan idi. "Tartara faciəsi" başlayan gündən onu da digərləri kimi Şaharx kəndindəki hərbi hissəyə aparmışdılar. Tartarada xəbər yayılmışdı ki, orduda xəyanət olduğu üçün araşdırma gedir və xainləri öldürürlər. Artıq on gün idi ki, ondan bir xəbər yox idi, Fəridin atası ilə mənim atam həmin hərbi hissənin qapısına gedərək bir xəbər almağa çalışırdılar, amma heç kim heç nə demirdi. Bu hal artıq bizi narahat edirdi, lakin gözləməkdən başqa bir çıxış yolumuz yox idi. On birinci gün birdən həyətimizə maskalı və əlisilahlı əsgərlər daxil oldu. Onlar zor ilə evə daxil oldular, qayınatam onların qarşısına çıxdıqda onu silahın qundağı ilə vurub yerə yıxdılar. Səsə mən çıxdım, onlar məni görən kimi soruşdular ki, Fəridin həyat yoldaşıyammı və mən təsdiqlədim. Dərhal onlardan biri mənim qarnıma təpik vurdu, mən ağrıdan yerə yıxıldım, sonra saçımdan tutub sürüyərək evdən çölə çıxarmağa başladılar. Qayınatam onlara mane olmağa cəhd etsə də, bu dəfə silahın qundağı ilə onun sifətinə zərbə endirdilər. Məni sürüyərək küçəyə çıxardılar, mən qışqırır və onlara müqavimət göstərməyə çalışırdım. Səsimə qonşular çıxmışdı, onlar mane olmaq istəyəndə əsgərlər silahlarını onlara tuşlayaraq: "Onun əri vətənə xəyanət edib, düşmənə xidmət edib, onu araşdırma

üçün aparırıq!" – dedilər, qonşular dərhal geri çəkildilər, hətta bəziləri mənim tərəfə tüpürdülər də. – Sevda xanım hönkürtü ilə ağlamağa başlayır, pauza yaranır.

– Görürsünüz, ey Andaluniya xalqı! – Qərib bəy bu yerdə aydınlıq gətirir. – Görürsünüz ki, bu alçaqlar, bu binamuslar sizin vətən sevginizdən necə alçaqcasına istifadə edib?! Ar olsun həmin qonşulara, kişi adı onlara qənim olsun! Onlar deyə bilmirdilər ki, ərinin xəyanətinin bu qadına nə aidiyyəti var?! Niyə ərinin günahına görə – hətta o xain olsa belə – bu qadına bu qədər zülm edilməlidir? Kül sizin kişi başınıza! Buyurun, Sevda xanım, davam edin.

– Qərib bəy, məni maşına əyləşdirib həmin hərbi hissəyə gətirdilər, qərargaha çıxarıb, otaqlardan birinə daxil etdilər. Otaqdakı digər maskalı əsgərlər mənim kim olduğunu soruşanda "xainin arvadıdır, sizə peşkəş gətirmişik, şellənin!" dedilər. – Sevda xanım gözlərinin yaşını və burnunu dəsmalla silərək davam edir. – Qərib bəy, onlar orada məni zorladılar, Qərib bəy! – deyə qadın hönkürtü ilə ağlamağa başlayır və hıçqırtı ilə davam edir. – Onların üçü birdən, eyni vaxtda məni zorlayırdılar, – qadın üzünü iki əli ilə tutaraq hıçqırtı ilə ağlayaraq davam edir. – Bir üç nəfər bitirdikdən sonra digər üç nəfər zorlayırdı. – Qadın ağlayaraq üzü kameraya tərəf bükülürdü. – Məni dörd və ya beş saat ərzində bu cür növbə ilə zorladılar. Ayaqlarımdan düz dabanıma qədər qan içində, bədənim isə murdarlıq içində idi. Bununla da ürəkləri soyumayaraq, sonra məni taxta parçası ilə zorlamağa başladılar, – qadının artıq səsi gəlmirdi, o, içində, qəlbinin dərin bir uçurumunda öz halına hıçqırtı ilə ağlayırdı.

– İlahi! – Qərib bəyin qəfil hayqırtısı izləyicilərin ruhunu titrədir. – İlahi, bu nə zülmdür?! Niyə bu dünyanı

dağıtmır və Qiyaməti qoparmırsan?! – Qərib bəy də hıçqırtı ilə ağlamağa başlayır.

Ariz bu səhnələri qanı donmuş halda izləyirdi, coşmuş əsəblərinə sahib çıxmayaraq sağ əli ilə tutduğu fincanı elə sıxdı ki, fincan onun əlində sındı. İlahi, bu necə bir zülmdür? Bu nə dəhşətdir?

– Sevda xanım, sizə bundan artıq əziyyət vermək istəmirəm, bu cəsarətinizə görə sizə təşəkkür edirəm və layiq olmadığım halda kişi adını daşıdığıma görə də sizdən üzr istəyirəm! – Qərib bəy Sevda xanımı efirdən ayırır. – Dostlar, siz Tartarada nə baş verdiyini hələ də dərk etmirsiniz? Onda dayanın, görün digər xanımlar hansı dəhşətlərdən danışacaqlar. Gülər xanım, buyurun, mikrofonu açın və öz dəhşətlərinizi xalqa danışın.

– Qərib bəy, mən Tartarada işgəncələr altında qətlə yetirilmiş Eminin həyat yoldaşıyam. Emini on gündən çox idi ki, Şaharx kəndindəki hərbi hissəyə aparmışdılar. Birdən kənddə onun ölüm xəbəri yayıldı, biz hamımız narahat idik. Mən iki uşağımla bərabər evdə idim, axşamüstü qəfildən maskalı əsgərlər evə daxil oldu və mənim qollarımı buraraq başıma qara kisə keçirdilər. Nə baş verdiyini demədən məni maşına mindirib həmin hərbi hissəyə apardılar. Məni kazarmaların birinə apararaq “növbəti şərəfsizin arvadıdır, kef eləyin!” dedilər. Başımdakı kisəni çıxaranda kazarmada çoxlu sayda maskalı əsgərin olduğunu gördüm. Onlardan biri dərhal qollarımdan tutaraq ayaqlarıma zərbə endirdi, mən yerə yıxılan kimi saçlarımdan tutaraq: “Xain arvadı, fahişə, indi biz sənə göstərərik!” – deyərək kazarmanın ortasına qədər sürüdü. Məni bir stolun üzərinə uzadaraq, əllərimi və ayaqlarımı həmin stolun ayaqlarına kəndirlər bağladılar. Qərib bəy, – burada artıq qadın şiddətlə ağlamağa başlayır, hıçqırtılı bir

səslə deyir, – məni orada iki gün zorladılar...

Qadının elə kamera qarşısında ürəyi gedir.

– Gülər xanım! Gülər xanım! – Qərib bəy təlaşla qadını səsləməyə başlayır.

Kamera və mikrofon açıq qaldığından otaqda uşaq çığırtıları eşidilir, kamera arxasından digər bir qadının Gülərə yaxınlaşaraq üzünə su vurmasını, onu ayıltmağa cəhd etməsini bütün izləyicilər görürdü. Efiri canlı izləyənlərin sayı yüz əlli min idi. İnsanların şərhlərdə hakimiyyətə necə nifrət qusduqlarını hamı, elə hakim komandanın özü də izləyirdi.

– Əziz izləyicilər, – Qərib bəy Gülər xanımı efirdən ayırır, – bu dəhşətləri görürsünüz? İndi dərk edirsiniz ki, siz necə bir ölkədə yaşayırsınız? Axı bu qadının və onun iki uşağının nə günahı var idi ki, onlara bu zülmlər yaşadıldı? Bu uşaqlar bundan sonra necə reabilitasiya olaraq cəmiyyətə qarışacaq? Bu uşaqlar indi necə bu vətəni sevsin? Atasını öldürmüş, anasını zorlamış bir dövləti bu uşaqlar necə sevsin? – Qərib bəyin üz ifadələri onun da əziyyət çəkdiyindən xəbər verirdi. – Bir nəfər hələ qalıb, əziz xalqım, biz mütləq Arzu xanımı da eşitməliyik! Arzu xanım, zəhmət olmasa mikrofonunuzu açın və sizə yaşadılan dəhşəti insanlara danışın!

– Qərib bəy, – Arzu xanım sözə başlayır, – mənim efirdə danışmaq təcrübəm yoxdur, mən qısaca məlumat verəcəyəm.

– Buyur, qızım, bu efir bu gün sizindir, nəyi necə demək istəyirsənsə, sıxılmadan və çəkinmədən de!

– Qərib bəy, mən Tartarada işgəncələr altında qətlə yetirilmiş Gündüzün həyat yoldaşıyam, üç uşaq anasıyam. – Arzu xanım titrək səslə danışırdı. – Məni də

həmin hərbi hissəyə apardılar və iki gün ərzində məni orada altmış nəfərmi, yoxsa yüz nəfərmi əsgər zorladı. – Arzu xanım əvvəlcə hisslərinə hakim olsa da, burada artıq dözməyərək ağlamağa başlayır. – Qərib bəy, onlar sonra məni metal məftillərlə zorlamağa başladılar. Mən bətnimdəki həmin acı hissləri hələ də unuda bilmirəm! – qadın artıq hönkürtü ilə ağlayırdı. – Mənim bətnimi dağıtdılar, məni bir qadın kimi məhv etdilər! – qadın bunları deyərək kamera önündən qalxır və gedir.

Qərib bəy vəziyyəti bu cür görərək qadını efirdən ayırır. İki əli ilə başını tutaraq:

– İlahi! Qiyaməti tez gətir, İlahi! – deyərək Qərib bəy nərə çəkirdi. – Bu nə zülmlər idi mənim qulaqlarım eşitdi? Validə ana! – Qərib bəy kamerası sönük Validə ananı səsləyir. – Açın kameranızı və bu məsələni bir az da sizinlə müzakirə edək.

– Qərib bəy, – Validə ana kamerasını açan kimi sözə başlayır, – bu hələ harasıdır ki?! Eyni dəhşətlər həbsdə yatan zabitlərin də həyat yoldaşlarının və bacılarının başına gətirilib. Tartarada bir zabitin bacısını ora gətirərək lüt soyundurub, qardaşı ilə üzbəüz skotçlamışdılar, sonradan həmin zabitin bacısını da orada günlərlə zorlayıblar. Həmin qız subay idi, indi də onu heç kimə ərə vermirlər, qız elə bir psixoloji travma alıb ki, heç bir kişini görmək belə istəmir.

– Ay alçaqlar! Ay şərəfsizlər! – Qərib bəy ekrandan od püskürürdü.

– Qərib bəy, daha dəhşətli hadisə isə öldürülən zabitlərdən birinin 17 yaşlı qızının zorlanması olub. Hələ məktəbi bitirməmiş tər qönçənin... – Validə ana bu yerdə hönkürtü ilə ağlamağa başlayır..

– Ay binamuslar! – Qərib bəy var gücü ilə hayqırdı. – Ay şərəfsizlər! Eşidirsiniz? Ay mənim kar və kor, zülm

qarşısında lal olmuş xalqım, eşidirsən?! Bu binamus hakimiyyət sənin qız və gəlinlərini görürsən necə zorlayıb? Bundan sonra da susacaqsansa, onda sən məhv olmalısan! Yer üzündən silinməlisən ki, qoy bu torpaqlarda çöl donuzları yaşasın! Eşidirsən?

Arizin gözünün yaşı burnunun suyuna qarışmışdı, əsəbdən əsərək hıçqırtı ilə ağlayırdı. O, Qərib bəyin dediyi sözləri öz ünvanına qəbul edirdi. Əsl qeyrətli Andaluniya kişisi elə belə olmalıdır! Bəs sizcə, necə olmalıdır?

Qərib bəy efiri bitirir, növbəti gündən etibarən bütün sosial şəbəkələrdə hamı bu hadisələrə münasibət bildirirdi. İnsanlar artıq qorxmadan və çəkinmədən hakimiyyətin üstünə kin və nifrət qusurdu...

## "X" günü yaxınlaşır...

Artıq oktyabr ayının dördü idi, bəylər videozəngə qoşulmuşdular, hamı narahat və qayğılı görünürdü, axı hamı "X" gününün mahiyyətini və məsuliyyətini dərk edirdi. Qərib bəy bu videoiclasda bir neçə vacib məsələni bəylərlə müzakirə etməli idi.

– Bəylər, sabah artıq oktyabr ayının beşidir və biz insanlara bir komanda təqdim etməliyik ki, onları tam yəqinliklə meydana çıxmağa təhrik edə bilək, – deyə Qərib bəy bəyan edir.

– Qərib bəy, biz özümüzü göstərən kimi bizi həbs edəcəklər, bunu bilirsiz? – Həsən bəy narahatlığını ifadə edir.

– Əlbəttə ki, həbs edəcəklər! Məgər siz düşünürdünüz ki, bu quldurlar milyardlarla dollar gəlir gətirən, bir ticarət obyekti kimi işlətdikləri dövləti sizə məcməyidə hədiyyə edəcəklər? Onlar quduz itlər kimidir, sizi parçalamaq və məhv etmək istəyəcək, məgər siz buna hazır deyildiniz? – Qərib bəy qınaq dolu bir tərzdə sual verir.

– Yox, Qərib bəy, biz bunu bilirdik, sadəcə ehtiyat edirəm ki, bizlərdən kimisə polis idarəsində, zirzəmidə sındıraraq kamera qarşısında bu işin əleyhinə danışmağa vadar edə bilərlər, – deyə Həsən bəy narahatlığına aydınlıq gətirir.
– Bəs elə ona görə də biz əvvəl gündən and içmişik, məgər aranızda andını unudan və ya ona xilaf çıxan var? – Qərib bəy qınayıcı nəzərlərlə kameraya baxır.
– Xeyr, xeyr... – bəylərin hamısı bir ağızdan cavab verir.
– Hər ehtimala qarşı gəlin andlarımızı təzələyək! – Qərib bəy israr edir və hamı andını təzələyir.
– Qərib bəy, bu işin qarşısını polisdən başqa ordu da ala bilər. Ordunun müdaxiləsi isə çoxlu sayda itkilərlə nəticələnə bilər. Bu haqda bir tədbir tökməli deyilikmi? – Ariz soruşur.
– Siz narahat olmayın, üç ay bundan əvvəl hazırda vəzifə başında olan bir paşa mənimlə əlaqəyə keçib, Tartarada baş verən hadisələrdən sarsıldığına görə bizə dəstək verməyə hazır olduğunu bildirib. Mən bu müddət ərzində onun varlığını hamıdan gizli saxlayırdım, hətta ailəmə də deməmişəm. O, hazırda orduda səlahiyyət sahibidir və söz verib ki, ordunun müdaxiləsinə yol verməyəcək. Görürsünüz, hətta bu hakimiyyətin daxilində də dövlətini, vətənini və xalqını düşünən qeyrətli oğullar var! Bu hakimiyyət elə bilirdi ki, bir neçə kiçik rütbəli zabiti həbs edərək xalqın gözünə kül üfürə biləcək, amma biz xalqa sübut etdik ki, hakimiyyətin hamısı bu cinayətdə günahkardır və cəzalandırılmalıdır! – Qərib bəy ruh yüksəkliyi ilə danışırdı.
– Qərib bəy, həmin paşanın bizə sadiq olduğunu haradan bilə bilərik? – Ariz soruşur.
– Ariz, mən uşaq deyiləm ki, artıq onu bir neçə dəfə sınamışam, sınaqdan üzüağ çıxıb. Xatırlayırsınız, bir

dəfə mən Tartarada öldürülənlərin daxili orqanlarının çıxarılaraq xüsusi konteynerlərlə Bakkaya daşınması barədə sübutlar təqdim etmişdim, buna başçılıq edən hərbi həkimləri ad və soyadları ilə ifşa etmişdim, bütün həmin məlumatları mənə məhz elə həmin paşa ötürmüşdü. Dəfələrlə söhbətimiz zamanı səmimi olaraq ağladığına şahid olmuşam. Digər sınaqları sizə deməyəcəyəm ki, onun kim olduğunu anlamayasınız, amma mənə əmin ola bilərsiniz! – Qərib bəy sağ əlini sinəsinə qoyur.

– Yaxşı, tutaq ki, xalq meydanlara çıxdı, həmin paşa ordunun müdaxiləsinin qarşısını aldı, hakimiyyət də ölkədən qaçdı, bəs sonra nə olacaq? – Əflatun bəy maraqla soruşur.

– Hakimiyyəti həmin paşa ələ alacaq, öz nəzarətinə götürəcək, dərhal altı aylıq etimad hökuməti qurulacaq, həbsdə və mühacirətdə olan siyasilər həmin hökumətdə təmsil olunacaq. Altı aydan sonra seçkilər olacaq, şəffaf və ədalətli seçkilər, ordunun nəzarəti altında keçiriləcək seçkilər – parlament seçkiləri və prezident seçkiləri. Ölkənin idarəetmə sistemində dəyişiklik olunacaq, ölkə parlament idarə üsuluna keçəcək. Bu, irəlidəki illərdə bir nəfərin hakimiyyəti qəsb etməsinin qarşısını almaq üçün həyata keçiriləcək. Bundan əlavə isə Arizin də maraqlı bir təklifi var, buyur, Ariz bəy! – Qərib bəy sözü Arizə verir.

– Bəylər, hakimiyyətin işinə nəzarət etmək və gələcəkdə yoldan sapmanın qarşısını almaq üçün dərin dövlət qurulmalıdır. Dərin dövləti sizin kimi kişilər təşkil edəcək, vətəni və xalqı üçün ölümü belə gözə almış ziyalılar. Belə ki, dövlət daxilində xəyanətə dərhal reaksiya vermək üçün güc nazirliklərinə təsir edə biləcək, milli maraqlara uyğun siyasətin aparılmasına əmin olmaq üçün isə qanunvericilik və icra

hakimiyyətinə nəzarəti formalaşdıracaq və icra edəcək bir dərin dövlət. Bu, gələcək nəsillərin və vətənimizin xoşbəxt gələcəyi üçün bir zəmanət olacaq! – Ariz qısaca izah verir.

– Bəli, – Ramiz bəy təsdiqləyir, – bir çox ölkələrdə bu cür dərin dövlət institutu var və bir narahatlıq olan kimi dərhal da müdaxilə edirlər. Məncə, bu çox gözəl bir yanaşmadır, bəyənilsin!

– Bəylər, əgər elədirsə, onda sabaha hazırlaşın, sabah artıq biz gün üzünə çıxacağıq!

Hamı sağollaşaraq zəngi tərk edir. Ariz Nigarı yaxına səsləyərək, onu sabahdan etibarən baş verəcək proseslər barədə xəbərdar edir:

– Nigar, gəl bura, əyləş. Sabah biz özümüzü elan edəcəyik, hər şey ola bilər, məni həbs edə və ya öldürə də bilərlər. Mən artıq vəsiyyətnaməmi yazaraq vəkilimə – Xalid bəyə vermişəm, əgər məni öldürsələr, ev, maşın və digər əmlakımın hamısı sənə miras qalacaq.

– Ariz, bu nə sözlərdir? Niyə məni gecə vaxtı qorxudursan?

– Qorxutmuram, sadəcə xəbərdar edirəm. Bu hakimiyyəti artıq tanıyırıq, nələrə qadir olduğunu da bilirik. Mən istəmirəm ki, məni həbs edəndən sonra onlar səni də həbs etsinlər, sənə zərər versinlər. Məni lap öldürsələr belə, sənin bir telinə belə zərər gəlməsini istəmirəm, odur ki, sabah səhər Bakkanı tərk edəcəksən, hara gedəcəyini heç mənə də deməyəcəksən. Uzaq bir yerdə ev kirayə götürərsən, ödənişləri nağd pulla edərsən ki, səni izləyib tapa bilməsinlər. Hə, bir də ki, telefonunu və nömrəni tullayarsan, yoxsa səni tapacaqlar. İşlənmiş bir telefon və nömrə alarsan ki, səni izləyə bilməsinlər. Sadəcə xəbərləri izləyərsən. Əgər ölüm xəbəri çıxsa, bir həftədən sonra evə qayıdarsan, heç meyitim üçün də onlara müraciət etməzsən.

– Ariz, – Nigar hönkürtü ilə ağlamağa başlayır, – bu nədir danışırsan?

– Bütün bunlar ehtimal olunan hadisələrdir, biz hər şeyə hazır olmalıyıq. İndi isə sakitləş və get yatmağa, mənim hələ işlərim var.

Səhər tezdən Ariz Nigarın telefonunu onun əlindən alır, onun bank hesabındakı bütün pulları çıxartdırır və yola salır. Nigar göz yaşları içində Arizdən ayrılır, sanki nə zamansa yenidən görüşəcəklərinə ümid etmirdi.

Axşam olur, efirin başlamasına dəqiqələr qalır, bəylərin hamısı proqrama qoşulub və efirin başlamasını gözləyirlər. Qərib bəy verilişin adını "X" gününə hazırsınızmı?" qoyur. Budur, canlı yayım başlayır, Qərib bəy on dəqiqə izləyicilərə "X" gününün mahiyyətindən və əhəmiyyətindən danışır, izləyici sayı artıq yüz mini keçmişdi, bəli, indi bəyləri efirə dəvət etmək olardı. Qərib bəy onları bir-bir efirə qoşur, salamlayır və izləyicilərə təqdim edirdi, onların son bir il ərzində gördükləri işlərdən, bacarıq və keyfiyyətlərindən danışır.

Təqdimatdan sonra Qərib bəy bir-bir onlara söz verir, onlar "X" günü haqqında mövqelərini izləyicilərlə bölüşürdülər. Qərib bəy ölkədə "Ədalət" hərəkatının yarandığın və həmin bəylərin də idarə heyətində olduğunu elan edir. Hərəkatın hədəfinin Andaluniyaya ədalət gətirmək olduğunu elan edir. Efir davam etdikcə izləyici sayı artırdı, efiri izləməyə daxil olanlar onu tərk etmirdi, beləcə, izləyici sayı üç yüz minə çatmışdı. İzləyicilərin şərhləri bəyləri daha da həvəsləndirirdi:

– Var olsun milli qeyrətli ziyalılarımız!

– Belə oğulları olan vətən basılmaz!

– Yaşasın haqqın carçıları!

– Əsl milli ziyalılarımıza eşq olsun!

– Qərib bəyə və dostlarına salam olsun!

– Sona qədər sizinləyik!

– Milli ziyalılarımızla azadlığa doğru!

Bu kimi çoxlu sayda şərhlər insanların dəstəyindən xəbər verirdi. Amma bütün bu şərhlər qətiyyən Qərib bəyin başını gicəlləndirmirdi. Bu yerdə o, izləyicilərə sual verir:

– Əziz xalqım, biz artıq hakimiyyətimizi yaxşı tanıyırıq, birdən sabah bu bəyləri həbs etsələr, onları dəstəkləyəcək və onların azadlığını tələb edəcəksinizmi?

Sədəf dənizinin dalğaları kimi saysız dəstək şərhləri gəlməyə başlayır. Hətta onlarla insan Qərib bəyə zəng edərək canlı efirə qoşulur, ad və soyadlarını qeyd edərək bu işə dəstəklərini ifadə edirlər. Bir sözlə, çox möhtəşəm bir efir olur.

Hakim komanda bütün bu baş verənləri təlaşla izləyirdi, dərhal baş prokuror Kamal paşa Abbas əfəndinin yanına gedir ki, onu məlumatlandırsın:

– Cənab prezident, gəlmək olar? – Kamal paşa prezident iqamətgahında, kabinetin qapısında icazə alır. Təcili və təxirəsalınmaz məsələ olduğundan, Abbas əfəndi onu qəbul edir.

– Buyur, Kamal paşa! Nə olub, niyə məni gecə vaxtı narahat edirsən?

– Cənab prezident, İngiltərədə fəaliyyət göstərən Qərib ölkədə dövlət çevrilişi hazırlayır. Onlar Tartarada baş vermiş xəyanətdən istifadə edərək sizi devirmək istəyirlər. Ölkə daxilindən ona bu işdə dəstək olan insanlar da var, qorxmadan onun efirinə çıxaraq sizə meydan oxuyurlar. – Kamal paşa təlaşla izah edir. – Əmriniz nə olacaq?

– Nə olacaq ki? Dərhal hamısını həbs edin, dərhal!

– Oldu, cənab prezident! – deyə Kamal paşa iqamətgahı tərk edir.

Səhər artıq açılmışdı, Ariz hələ də yerinin içində idi, ayılsa da hələ yataqdan qalxmamışdı. O, nələr baş verəcəyini təxmin etməyə çalışırdı. Bir müddətdən sonra bezərək “nə olacaqsa, olsun!” deyərək yataqdan qalxır, əl-üzünü yuyur və bir qəhvə hazırlayır.

Qəhvəsini içərək dünənki efirdə yazılmış şərhləri oxuyurdu. Artıq verilişə səkkiz yüz min baxış olmuşdu, on minlərlə dəstək şərhləri var idi. Ariz üzündə təbəssümlə qəhvəsini içir və şərhləri oxuyurdu.

Birdən qapı tərəfdən bir gurultu gəlir, maskalı polislər qapını qıraraq mənzilə daxil olur, onlar əllərindəki silahı Arizə tuşlayaraq yerə uzanmasını əmr edirlər. Ariz onlara tabe olaraq döşəməyə uzanır, polislər dərhal onun qollarına qandal vururlar. Sonra onu qaldırır və başına qara kisə keçirərək döyə-döyə mənzildən çıxarırlar. Polislər bütün bunları çəkiliş altında edirdilər, həyətə düşən kimi onu polis maşınına mindirirlər.

Sürətlə hərəkət edən polis maşınları qatarı Bakka Baş Polis İdarəsinin həyətinə daxil olaraq dayanır. Polislər cəld Arizi maşından düşürərək idarənin zirzəmisinə aparırlar. Arizi otaqların birinə salaraq, qollarını tavandan asılmış qarmağa bağlayırlar. Arizin başından qara kisəni çıxarırlar və bir zabit onu sorğu-sual etməyə başlayır:

– Ə, gədə, nə qoşulmusuz bu ingilis casusu olan Qəribə? Nədir, ölkəni xaraba qoymaq istəyirsiz? İstəyirsiz buranı Suriyanın gününə salasınız, hə?

– Niyə Suriyanın? Biz Andaluniyanı Norveçin, Danimarkanın və Finlandiyanın gününə salmaq istəyirik! – Ariz gülərək cavab verir.

– Ay başdan xarab, siz ingilisin fitvasına gedərək yenə ölkəni onlara təhvil vermək istəyirsiz ki, ölkənin sərvətini talan etsinlər? Müstəqilliyimizi belə dəyərləndirirsiniz?

– Deyəsən, ölkənin sərvətlərini ingilislərə peşkəş edən

elə bu hakimiyyətdir axı, – Ariz yenə gülərək cavab verir, amma zabit getdikcə əsəbiləşirdi.

– Sən bir bu alçağın danışığına bax! İndi səni ağıllandırarıq! Tez olun, bunu it balası kimi zingildəyənədək döyün! – zabit maskalı polislərə əmr edir.

– Nə qədər istəyirsiniz döyün, bu sizə kömək etməyəcək, sadəcə axırınız çatdığı üçün belə quduzlaşmısınız! – deyə Ariz sərt şəkildə cavab verir.

Zabit otaqdan çıxır, maskalı polislər isə Arizi dəyənəklə döyməyə başlayırlar. Polislər artıq Bakkada olan bütün bəyləri həbs etmişdilər, hamısı bu idarənin zirzəmisində, qonşu otaqlarda idi və işgəncəyə məruz qalırdı. Polislər onlardan özlərinin və bir-birlərinin əleyhinə dövlət çevrilişinə cəhd barədə etiraf vermələrini tələb edirdilər. Nahar vaxtına qədər onları dayanmadan döydülər. Maskalı polislər nahar üçün otağı tərk etdilər, sadəcə bir polis nəfəri qalmışdı. Birdən həmin polis nəfəri Arizə yaxınlaşaraq:

– Ariz, necəsən, yaxşısan? – deyə soruşdu.

– Kimsən, məni tanıyırsan? – Ariz təəccüblə soruşdu, çünki onun səsi tanış gəlirdi.

– Əlbəttə, tanıyıram, mənəm də, Zaur, Yeganənin xalası oğlu, xatırladın?

– Bəli, xatırladım.

– Onlar sizdən əl çəkməyəcəklər, sizi ölənə qədər döyəcəklər.

– İstəyirlər lap öldürsünlər, sənə nə?!

– Ariz, sən məni düz başa düşmədin, mən istəmirəm ki, sənə əziyyət versinlər.

– Onda aç burax bizi.

– Yox onu da bacarmaram, amma sənə kömək edə bilərəm.

– Necə? Bizdən etiraf almaqla? – Ariz kinayə ilə gülümsəyir.

– Xeyr, mən sənə güclü ağrıkəsici həb verəcəm ki, işgəncələrə dözə biləsən, mən bilirəm ki, sən düz yoldasan, Yeganənin və Nərminin qanı bu alçaq hakimiyyətin boynundadır, onlar mütləq bunun əvəzini ödəməlidir!

Zaur cibindən həbi çıxararaq Arizə verir, o da onu udur. Bir neçə dəqiqədən sonra Ariz bədəninin keyidiyini hiss edir, ağrılar çəkilirdi.

– Zaur, deyəsən, mənə verdiyin həb işləyir, çox sağ ol!

– Dəyməz, Ariz, sən möhkəm olmalısan!

– Zaur, səndən bir xahişim var, o həbdən digər dostlarıma da ver, mən tək mübarizə apara bilməyəcəyəm, onların köməyinə ehtiyacım var. Bu xahişimi yerinə yetirərsən?

– Ariz, bu çox riskli bir işdir, amma əlimdən gələni edərəm!

Zaur otağı tərk edərək yan otağa keçir, oradakı polisi nahara buraxır və məhbusa həbdən verir. Beləcə o, bütün otaqlara gedərək, hər birinə o həbdən verir. Bu çox yaxşı hal idi, növbəti saatlarda və günlərdə nə olacağını bilməyən məhbuslara bu həb bir ümid qığılcımı kimi görünürdü.

Bütün telekanallarda polisin dövlət çevrilişinə cəhdin qarşısını necə almasından danışılır, şübhəli şəxslərin, başlarına qara kisə keçirilmiş halda necə həbs olunduğu görüntülər təqdim olunurdu. Bütün bunlar xalqın ürəyində xof yaratmağa hesablanmışdı, amma oyanmış xalqa bu təsir etməyəcəkdi.

Telekanallarda yayımlanan kadrlardan yarım saat sonra Qərib bəy təcili olaraq canlı yayım açır, ölkə xaricində olan ziyalıları da efirə dəvət edərək Andaluniya xalqına müraciət edir:

– Ey ulu xalqım! Sənin vicdanlı, qeyrətli və dəyərli ziyalılarını həbs ediblər! Siz artıq telekanallarda yayımlanmış kadrları görmüsünüz. Bəs nə oturmusunuz? Niyə Baş Polis İdarəsinin qarşısına

toplaşıb onların azadlığını tələb etmirsiniz? Axı sizə nə olub ki, ağac kimi yerə kök atıb tərpənmirsiniz?

Birdən Validə ana efirə qoşulur, Qərib bəy dərhal ona söz verir:

– Ey hakimiyyət! Biz sənə bir il möhlət verdik ki, heç olmasa "Tartara faciəsi"nə ədalət gətirəsən, biz çox dedik, siz az eşitdiniz! İndi növbə bizdədir, Andaluniya xalqında! Ey mənim şərəfli və qeyrətli xalqım! – Validə ana oğlu Elçinin qanlı alt paltarını qaldırıb havada yelləyərək deyir. – Sizi and verirəm oğlum Elçinin bu qanlı paltarına! Çıxın, hamınız çıxın polis idarəsinin qarşısına! Həbs olunan ziyalılarımız bir xalq olaraq bizim son ümid yerimizdir! Biz mütləq onları bu canilərin əlindən xilas etməliyik! Mən özüm hazırda Bakkadayam, polis idarəsinə yaxın yerdəyəm, bu qanlı paltarla birlikdə düz ora gedirəm! Qərib bəy, efiri bağlı elan edin ki, izləyicilərin hamısı polis idarəsinin qarşısına gəlsin! Ey ulu xalqım! Mən sizin hamınızı orada gözləyəcəyəm!

Qərib bəy Validə ananın xahişi ilə efiri bağlayır. Verilişə iki yüz min insanın baxmasından əlavə, insanlar Validə ananın çıxış hissəsini kəsərək bütün sosial şəbəkələrdə yayırlar. Bütün sosial şəbəkələrdə insanlar bir-birlərini polis idarəsinin qarşısına getməyə təşviq edirlər. Binalardan, küçələrdən insan seli polis idarəsinin qarşısına axışır.

Yarım saatdan sonra polis idarəsinin qarşısında əlli minə yaxın insan toplaşmışdı, orada olanlar sosial şəbəkələrdə canlı efir açaraq izdihamı nümayiş etdirir və insanları polis idarəsinin qarşısına səsləyirdi.

Hakim komanda çıxılmaz vəziyyətə düşmüşdü, nə edəcəklərini bilmirdilər. Onlar hələ heç vaxt bu qədər insan kütləsi ilə üzbəüz qalmamışdılar. Dərhal Abbas əfəndiyə xəbər vermək və təhlükəsizlik şurasını toplamaq lazım idi.

Polis idarəsinin qarşısına gələn Xalid bəy dərhal polis

rəisi ilə görüş tələb etdi, onu dərhal rəisin qəbuluna apardılar. Rəisin otağına daxil olan kimi:

– Rəis, Ariz bəy və dostları haradadır? – Xalid bəy salamsız sözə başlayır.

– Nə bəy? Onların hamısı cinayətkardır və həbs olunublar! – rəis cavab verir.

– Rəis, pəncərədən çölə baxmısınız? İzdihamı görmüsünüz? Bilirsiniz bir azdan burada nə qədər insan toplaşacaq?

– Sən bizim üçün narahat olma! İndi onların hamısını dağıdacağıq!

– Rəis, bu, bildiyiniz məsələlərdən deyil! Elə etməyin ki, mən çıxıb insanlara deyim ki, siz Ariz bəyə və dostlarına işgəncə verirsiniz!

– Mənə hədə-qorxu gəlirsən, küçük?! İndi səni də basdıraram dama!

– İstəyirsən lap öldür! Sizin ömrünüz artıq bitib! İndi söz xalqdadır!

Rəis Xalid bəyi də həbs etdirir, onu da zirzəmiyə apararaq otaqda bağlayırlar. Rəis ordunun nə vaxt müdaxilə edərək kütləni dağıdacağını gözləyirdi.

İdarənin qarşısında izdiham artırdı, Validə ana düz qapının qarşısında idi və Xalid bəyin geri qayıtmamasına görə bərk narahat idi. Validə ana polislərə səsləndi:

– Ay alçaqlar, ay şərəfsizlər! Xalid bəy haradadır, niyə onu buraxmırsız? – Validə ana üzünü insanlara tutaraq oğlu Elçinin qanlı alt paltarını havaya qaldırdı. – Ey mənim uca xalqım, bu alçaqlar Xalid bəyi də həbs ediblər! Onun azad olunmasını tələb edirik! Qırın idarənin qapısını!

Birdən kütlədə bir canlanma əmələ gəldi, insanlar idarənin çöl qapısına güc gələrək onu aşırdılar. Artıq kütlə idarənin həyətində idi, polis rəisi artıq qorxuya düşmüşdü, tez Xalid bəyi azad etməyi əmr etdi.

Xalid bəy izdihamın qarşısına çıxaraq:

– Ey insanlar, bu şərəfsizlər Ariz bəyə və digərlərinə işgəncə verirlər! – bir neçə internet kanalı da bu görüntüləri canlı olaraq yayımlayırdı, Xalid bəy efirdən izləyən insanlara səsləndi. – Ey xalqım! Nə oturmusan? Nəyi gözləyirsən? Gözləyirsən ki, nə vaxt sənin ziyalı oğullarını öldürəcəklər? Niyə sel kimi axışaraq buraları doldurmursan? Hamınız bura, polis idarəsinin qarşısına axışın!

İnsanların sayı dəqiqələr keçdikcə artırdı. Artıq prezident iqamətgahında təhlükəsizlik şurası toplanmışdı. Abbas əfəndi zala daxil olan kimi:

– Bu nə deməkdir? Bəs siz bu vaxta qədər hara baxırdınız? Niyə vəziyyətin bu yerə gəlib çatmasına izin vermisiniz? Niyə vaxtında bu qoduqları həbs etməmisiniz? – deyə Abbas əfəndi nazirləri və paşaları danlamağa başladı.

– Cənab prezident, buna qədər biz heç kimi həbs edə bilmirdik, bunlar elə dünən üzə çıxıblar, biz nə edə bilərdik ki? – deyə daxili işlər naziri cavab verir.

– Sizin başınız batsın elə! – Abbas əfəndi bərk əsəbiləşmişdi. – Polad paşa, dərhal hərəkətə keçin və kütləni dağıdın! – deyə Abbas əfəndi Daxili Qoşunların komandanı Polad paşaya əmr etdi.

– Oldu, cənab prezident! – deyərək Polad paşa qalxır və iclası tərk edir.

Polad paşa iclas zalından çıxan kimi üzündəki zəhmli ifadə ilə müavininə qoşunlara həyəcan siqnalı verməyi və onların şəhər mərkəzindəki meydanda toplaşmasını əmr edir. İqamətin pilləkənləri ilə düşərək telefonunu çıxarır və polis idarəsinin önündən yayımlanan canlı efirə baxır. Qəzəbli və narahat halda maşınına əyləşir və sürücüsünə şəhər mərkəzindəki meydana tərəf sürməyi əmr edir.

Polis idarəsinin önündə insanların sayı yüz minə

yaxınlaşırdı, idarənin qapısını qırandan sonra etirazçılar artıq idarənin həyətində məhbuslara azadlıq tələb edirdi. Polad paşa bütün bu prosesləri həyəcan və təlaşla izləyirdi. Birdən köməkçisinə onu polis idarəsinin rəisi ilə calaşdırmağı əmr edir. Polad paşa təcili bir tədbir görülməsini düşünürdü, polis rəisi telefon xəttində olan kimi onun köməkçisi telefonu paşaya ötürür:

– Alo, rəis, danışan Daxili Qoşunların komandanı Polad paşadır.

– Buyurun, paşam! – rəis cavab verir.

– İdarənin həyətində baş verənlər barəsində mənə ətraflı məlumat verin!

– Paşam, insanlar idarənin qapılarını qırıb içəri daxil olublar, vəziyyət kritikdir.

– Nə qədər insan toplaşıb?

– Yüz minə yaxın olar, paşam. Bir çox kanallar buradan canlı yayım edir, insanları idarənin qarşısına səsləyirlər. Məncə, təcili olaraq ölkədə interneti söndürmək lazımdır.

– Mən indi bu barədə göstəriş verərəm, siz narahat olmayın. İnsanların tələbi nədir?

– Dövlət çevrilişinə cəhddə təqsirli bilinən məhbusların azadlığını tələb edirlər, paşam.

– Aydındır! Mənim qoşunlarım bir azdan hərəkətə keçəcək, amma indi insanları sakitləşdirmək lazımdır. Təcili olaraq məhbusları azad edin!

– Necə? Onları Abbas əfəndinin şəxsi əmri əsasında həbs etmişik, onları necə azad edə bilərik?

– Siz, deyəsən, məni başa düşmədiniz! Mən Andaluniya Təhlükəsizlik Şurasının sədr müaviniyəm, Daxili Qoşunların komandanıyam, bu fövqəladə vəziyyəti idarə etməyi mənə Abbas əfəndi şəxsən tapşırıb. Ya siz elə indicə həmin məhbusları azad edərək insanların sakitləşməsini təmin edəcək və bununla da ora olan

növbəti axının qarşısını kəsəcəksiniz, ya da biz müdaxilə edənə qədər öz taleyinizlə baş-başa qalacaqsınız! Mənim əmrimin və izahımın hansı hissəsi sizə aydın deyil?

– Xeyr, paşam, əmriniz də, izahınız da tam aydındır!

– Elə isə dərhal onları azad edin, yubatmadan!

– Baş üstə, paşam! – rəis dəstəyi asır.

Polad paşanın maşını Bakka mərkəzində hərəkət etdikcə o, telefonda idarə qarşısındakı prosesləri izləyirdi. Bir neçə dəqiqədən sonra Arizin və digər bəylərin idarənin qapısından çölə çıxdığını gördü. Polad paşa öz-özünə “Əla! İndi növbə bizdədir!” deyərək telefonu söndürdü və köməkçisinə rabitə nazirinə zəng etməyi tapşırdı. Nazir xətdə olan kimi köməkçisi telefonu paşaya uzatdı.

– Cənab nazir, sizinlə danışan Daxili Qoşunların komandanı Polad paşadır.

– Buyurun, paşam.

– Yəqin ki, şəhərdəki vəziyyətdən xəbərdarsınız, idarə qarşısındakı etirazlar getdikcə böyüyür, bir neçə kanal oradan canlı reportaj yayımlayır.

– Bəli, bilirik, xəbərdarıq.

– Təcili olaraq interneti söndürməyinizi tələb edirəm!

– Paşam, əvvəllər də bizim tariximizdə belə hallar olub, amma bu, Abbas əfəndinin şəxsi göstərişi ilə olub.

– Bir dəqiqə! Mən Təhlükəsizlik Şurasında Abbas əfəndinin müaviniyəm, mənə bu məsələni həll etməyi tapşırıb, mən onun iradəsini təmsil edirəm! Siz necə düşünürsüz, bir azdan mənim qoşunlarım oradakı insanları dağıdanda internet üzərindən bu görüntülərin yayımlanması xalqda nə təəssürat oyadacaq? Vaxtı uzatmayın, əmrimi dərhal icra edin! Artıq bütün qoşunlar həyəcan siqnalı ilə şəhər mərkəzinə toplaşıb, bir azdan biz hərəkətə keçəcəyik!

– Oldu, paşam, bu dəqiqə göstəriş verərəm!

Paşa dəstəyi asır və dərhal o biri telefonla yenə polis idarəsinin qarşısında baş verənləri izləməyə başlayır.

Polis idarəsinin yerləşdiyi küçədə əməlli-başlı insan seli var idi, say artıq yüz mini keçmişdi. Ariz səsgücləndiricini əlinə alaraq insanlara müraciət etməyə başladı:

– Ey mənim ulu xalqım! Sən necə də möhtəşəmsən! Sənə təşəkkür edirəm! – insanlar bu xitabı coşqunluqla qarşılayırdı. – Bu müqəddəs işdə bizə dəstək verdiyinizə görə hamınıza təşəkkür edirik! Allah şahiddir, bizim amalımız ədalətli Andaluniyanı görməkdir, ədalətli məhkəmələri və hüquq-mühafizə orqanları olan, şəffaf və ədalətli seçkilərlə formalaşmış hakimiyyəti olan, insanlara ləyaqətli həyat bəxş edən ədalətli Andaluniya! Bu gün bizim tariximizə qızıl hərflərlə yazılacaq, Andaluniya xalqının oyanış və ədalət üçün müqavimət günü kimi! Ey xalqım, evlərinizi tərk edərək hamınız küçələrə çıxın, bizləri meydanda tək buraxmayın! Biz birlikdə çox güclüyük, bu gücün qarşısını heç kim ala bilməz!

Polad paşa bu çıxışı izləyərək çənəsini ovxalayırdı, Arizin çıxışının insanlara ruh yüksəkliyi verəcəyini bilirdi, üzündə narahatlıq, qarnında isə sancı var idi. Birdən telefondakı görüntü kəsilir, bəli, artıq internet kəsilmişdi. “Əla! İndi səhnəyə çıxmaq növbəsi bizdədir!” – deyə Polad paşa sürücüyə tələsməyi əmr edir.

Polis idarəsinin qarşısındakı insanların sayı yüz mindən yuxarı olsa da, hələ milyonlarla insan bu prosesi evində oturaraq telefondan izləyirdi. İnternet kəsildiyinə görə hamı nigaran qalmışdı. Dərhal televizorlar işə düşdü, amma orada həmişəki kimi çal-çağır və əyləncə proqramları idi. Bir çox insanlar maraqlarına təslim olaraq evlərini tərk edərək polis idarəsinin qarşısına gəldi. Dörd bir tərəfdən sel kimi axaraq gələn insanlar polis idarəsinin yerləşdiyi küçələri doldurmuşdu. Amma hələ də insanların

əksəriyyəti evlərində, televizor qarşısında idi. Onların əksəriyyətinin heç baş verənlərdən xəbəri də yox idi.

Artıq yarım saatdan çox idi ki, ölkədə internet söndürülmüşdü, bu zaman kəsiyində polis idarəsinin yerləşdiyi küçədə iki yüz minə yaxın insan toplaşmışdı. Hamı "Andaluniyaya ədalət!", "Ədalət" və "Azadlıq" şüarlarını səsləndirirdi. Evlərdə oturan insanların bəzisi nigaran, digərləri isə bixəbər idi, onların hamısı televiziya kanallarını dəyişərək, hər hansı bir xəbərin olacağını gözləyirdi. Birdən bütün televiziya kanallarında yayımlar dayanır, hamısında eyni kadrlar, polis idarəsinin qarşısındakı insan selini və Arizin çıxışını əks etdirən kadrlar yayımlanmağa başlayır. İnsanlar nə baş verdiyini anlamayıb televizorların qarşısında donurlar. Təxminən beş dəqiqəlik reportajdan sonra ekranda qəzəbli və qətiyyətli görkəmiylə Polad paşa görünür. O, öz çıxışına başlayır:

– Ey mənim ulu Andaluniya xalqım! Hüzurunuzda olan Daxili Qoşunların komandanı, sizin və Allahın həqir bəndəsi olan Polad paşadır! On illərlədir ki, sizə bu ölkədə zülmlər yaşadılır, haqqınız yeyilir və tapdalanır! Hakim komandanın özbaşınalığının, qudurğanlığının və harınlığının qurbanı olmusunuz! İllərdir sizin fəryadınıza qulaq verən, iniltinizi eşidən olmayıb! Bu illər ərzində ölkəmizdə məhv edilməmiş bircə sahə belə qalmayıb! Bu alçaq hakimiyyət sizin neft və qazınızı sataraq özlərinə və övladlarına mülklər alıb, sizin övladlarınız isə bir qarın ac, bir qarın tox yaşayıb, soyuqda evlərinizdə gödəkcədə və paltoda yatıb! Bu hakimiyyət sizi dilənçi səviyyəsinə salıb, sizin ləyaqətinizi əlinizdən alıb! "Tartara faciəsi"ndə baş vermiş dəhşətli işgəncələrdən, qız-gəlinlərin zorlanmasından da artıq xəbəriniz var! Bütün bunlar ona görə olub ki, siz bir xalq olaraq susmusunuz! Siz qorxudan susmusunuz, əlbəttə, kim qorxmazdı ki?! Bu hakimiyyət sənin necə

ziyalı övladlarını öldürüb, həbs edib, məhv edib! Siz bu hakimiyyətdə sizi düşünən şəxslərin olmadığını düşünərək ruh düşkünlüyü yaşamısınız! Hakimiyyət bütün alternativ insanları məhv edərək sizi inandırıb ki, bu xalqın ləyaqətli övladları yoxdur! Amma elə deyil! Bayaq siz efirdə ləyaqətli övladlarınızın bir neçəsini gördünüz! Hələ bir çoxu da həbsxanalarda çürüyür! Biz anamız olan Andaluniyanı birlikdə xilas edəcəyik! Buradan elan edirəm! Artıq mənim tabeçiliyimdə olan qoşunlar telestudiyanı tutub, parlament binasını və hökumət evini mühasirəyə alıb, orduda olan paşalar da xalqa silah çəkməyəcəyinə dair öz zabit şərəflərinə and içiblər! İndi söz səndədir, ey uca xalqım! Evləri tərk edin və adı çəkilən binaların önündə toplaşın! Biz Abbas əfəndiyə və onun ailəsinə ölkəni tərk etmək üçün şərait yaradacağıq, hakim komandadan da kim istəsə ölkəni tərk edə biləcək! Bizə iğtişaş və vətəndaş qarşıdurması lazım deyil, biz sadəcə anamız Andaluniyanı xilas etmək əzmindəyik! Biz xalqımızın dəyərli ziyalıları ilə etimad hökuməti quracağıq və altı aydan sonra şəffaf və ədalətli seçkilərlə öz milli hakimiyyətimizi quracağıq! Bu dövlətin həqiqi sahibləri sənsən, Andaluniya xalqı! Sənin dövlətin və hakimiyyətin oğurlanmışdı, indi öz dövlətinə və hakimiyyətinə sahib çıxmaq zamanıdır! Bununla da bütün efirlər dayandırılacaq, bir də axşam saat 21:00-da dəyərli ziyalılarımızla canlı efir olacaq! Hamınızı meydanlarda gözləyirəm! Tanrı Andaluniyanı qorusun! – efirlərin hamısı sönür.

İnsanlar efirin bitməsindən sonra bir müddət yerlərində donur, nə baş verdiyini anlamağa çətinlik çəkirlər. Şok dalğası keçəndən sonra hamısı evlərini tərk edərək küçələrə, meydanlara və idarələrin qarşısına axışır.

Polis idarəsinin yerləşdiyi küçədə birdən insan selinin axdığını görürlər, bəli, bu artıq bir xalqın oyanışı

və müqaviməti idi. Dərhal müxbirlərdən biri Arizə efirdə getmiş Polad paşanın çıxışı barədə xəbər verir. Ariz əvvəlcə təəccüblənsə də, sonra Qərib bəyin işarə etdiyi məxfi paşanı xatırlayır, dərhal üzündə təbəssüm yaranır. Ariz səsgücləndiricini əlinə götürərək xalqa müraciət edir:

– Ey mənim uca xalqım! Artıq Polad paşa telestudiyanı, parlament və hökumət binasını nəzarətinə götürüb! Artıq bizə heç bir zaval yoxdur! Yaşasın Andaluniya!

Birdən Ariz insan kütləsinin içindən “Ariz, Ariz” çağıran bir səs eşitdi. Səs ona tanış gəldiyindən içində xəfif bir titrəyiş hiss etdi. O, gözləri ilə insanların arasında səsin sahibini axtarırdı. Birdən insanların arasında Nigarı gördü. Ariz dərhal “çəkilin, xanıma yol verin!” deyə insanlara səsləndi. Nigar insan izdihamının arası ilə irəliləyərək özünü Arizə çatdırdı.

– Nigar, sən burada nə edirsən?

– Bəs harada olmalıyam ki?! – Nigar üzündə şad bir ifadə ilə cavab verdi.

– Bəs sən rayona getmədin? Axı sənə tapşırmışdım.

– Səni darda qoyub hara gedə bilərdim ki? Sən mənə ikinci həyat vermiş qəhrəmanımsan, Ariz! – deyərək Nigar Arizin boynunu qucaqlayır.

Dərhal köməkçiləri Abbas əfəndiyə Polad paşanın hərəkətləri barədə məlumat verirlər. Abbas əfəndi bərk qəzəblənərək onu Polad paşa ilə calaşdırmağı əmr edir. Artıq Polad paşa telefon xəttində idi:

– Polad paşa! Bu nə rəzalətdir?! Siz özünüzü nə hesab edirsiniz? Bəs sizin sədaqət andınız necə oldu? Bu ki xəyanətdir! Məgər xəyanətin cəzasını bilmirsiniz? – Abbas əfəndinin ağzından köpük çıxırdı.

– Abbas əfəndi, bir dəqiqə durun! – Polad paşa qətiyyətlə reaksiya verir. – Bu rəzalət deyil, fəxarətdir! Mən özümü bu xalqın xidmətçisi hesab edirəm! Mən sizə

yox, Andaluniya xalqına sədaqət andı içmişəm, elə indi də həmin andıma sadiqliyimi isbat edirəm! Xəyanəti siz və sizin komandanız edib! Cəzanız ölüm olsa da sizə rəhm edərək ölkəni tərk etməyinizə izin verəcəyik! Artıq təyyarənizin hazırlanması üçün müvafiq göstəriş vermişəm, iqamətgahınız mühasirədə olsa da, oranı salamat şəkildə tərk etməyinizə təminat verirəm! Sizin iqamətgahı tərk etməyiniz üçün on dəqiqəniz var! Ailənizlə birlikdə təyyarəyə oturaraq ölkəni tərk edəcəksiniz! Əgər komandanızdan da kimsə ölkəni tərk etmək istəyərsə, onlar üçün də növbəti üç gün ərzində şərait yaradacağıq! Altı aydan sonra qurulacaq hakimiyyət sizin barənizdə nə qərar verəcəksə, ona məsuliyyət daşımıram! On dəqiqə vaxtınız var! Vaxt getdi! – deyərək Polad paşa telefonu Abbas əfəndinin üzünə qapayır.

Abbas əfəndi təbiətcə çox qorxaq adam idi, o, tir-tir əsirdi. Üzünü öz köməkçilərinə tutaraq, iqamətgahın mühasirədə olub-olmamasını soruşdu. Müsbət cavab aldıqda başını tutaraq qışqırdı:

– Tez mənim maşınımı hazırlayın, ailəmə də xəbər edin ki, hava limanına gəlsin, vaxtı itirməyin, cəld! Bizim vaxtımız yoxdur!

Bir saatdan sonra Abbas əfəndi və ailəsi ölkəni tərk etdi. Onun təyyarəsi İngiltərəyə tərəf istiqamət almışdı. Bu xəbər ildırım sürəti ilə ölkəyə yayıldı. Artıq küçələrdə, dövlət binalarının qarşısında milyonlarla insan var idi. Hamı tarixi qələbəyə sevinir və bir-birini müjdələyirdi.

Polad paşanın əmri ilə bütün siyasi məhbuslar həbsxanalardan dərhal azad edildi və ölkədə internetin işi bərpa edildi. Axşam efiri üçün Ariz və digər dəyərli ziyalılar telestudiyanın qarşısına toplaşmışdı. Polad paşa aşağı düşərək onları şəxsən qarşıladı. Qəzəbli görkəmi olsa da, çox sadə və səmimi insan idi.

Budur, saat 21:00-dır və canlı efir başlayır. Bu veriliş bütün televiziya və internet kanalları ilə yayımlanırdı. Studiyada dəyirmi masa arxasında Polad paşa, Ariz, Həsən, Əkrəm, Ramiz, Aslan və digər ziyalı bəylər əyləşmişdi, Qərib bəy də internet vasitəsilə həmin verilişə qoşulmuşdu. Sözə ilk olaraq Polad paşa başladı, etimad hökumətinin qurulması barədə razılıq əldə olundu, altı aydan sonra şəffaf və ədalətli seçkilərlə xalqın hakimiyyətinin qurulması istiqamətində planlardan danışdı. Digər bəylər də öz dəyərli fikirlərini xalqla bölüşdü. Söhbət prezident seçkilərinə gələndə Polad paşa dedi:

– Əziz xalqım! Mən bütün bu işləri sırf ölkəyə ədalətin gəlməsi üçün etmişəm və heç bir iddiam da yoxdur, prezidentliyə də namizədliyimi verməyəcəyəm. Bu dəyirmi masanın ətrafında əyləşən bəylərin hamısı bizim dəyərli ziyalılarımızdır, onlardan hansı biri öz namizədliyini irəli sürərsə, mən onu dəstəkləyəcəyəm. Mənim isə artıq xidmət dövrüm bitmək üzrədir, mən təqaüdə çıxaraq sadəcə Andaluniyanın necə çiçəklənəcəyini seyr edəcəm.

– Dəyərli Polad paşa! – Qərib bəy söz alaraq deyir. – Mən və burada əyləşən bəylərin hamısı prezidentliyə namizədliyimizi verməyəcəyimiz barədə and içmişik! Düzdürmü, bəylər?

– Bəli, düzdür, Qərib bəy! – Ariz və digər bəylər Qərib bəyin dediyini təsdiqləyir.

– Təkcə Aslan bəydən başqa! – Qərib bəy vurğulayır. – O, bütün bu siyasi prosesləri tətikləyən "Tartara faciəsi"nin araşdırılıb ictimailəşdirilməsində çox mühüm rol oynayıb, elə məhz buna görə də illərdir ki, həbsdə idi. Amma bu gün onu bizlərdən fərqləndirən cəhəti həbsdə yatması deyil, bir çoxumuz siyasi məhbus həyatını yaşamışıq, Aslan bəyi fərqli edən onun bir qəhrəman kimi hadisələri yaratmasıdır. Bəli, Aslan bəy

bir qəhrəmandır! Məhz elə bu cür oğullar prezidentlik postuna layiqdir! Mənim təklifim və dəstəyim Aslan bəydən yanadır! Siz də öz fikirləriniz bölüşün, lütfən!

Bu mövzuda müzakirə çox qısa çəkir, dərhal hamı Qərib bəyin təklifini qəbul edir. Efirin sonunda Polad paşa bir də razılaşdıqları istiqamətdə vətənə və xalqa xidmət edəcəyi barədə zabit şərəfi adına and içir və efir bitir. Beləliklə də, "X" günü noyabr ayının beşinə təyin edilsə də, oktyabr ayının altısı kimi tarixə düşür!

Növbəti iki ay ərzində hakim komandanın üzvləri vəzifələrini etimad hökumətinin üzvlərinə təhvil verərək ölkəni tərk edirlər. Onlar üçün heç bir maneə yaradılmır, hamı rahat şəkildə ölkəni tərk edirdi. Amma onlara mal və mülk daşımağa, başqa şəxsin adına keçirməyə icazə verilmirdi. Bütün bu mülklərin taleyi xalqın hakimiyyəti qurulandan sonra həll ediləcəkdi.

## Dərin dövlətin qurulması

Bir çox dövlətçilik tarixi olan ölkələrdə "dərin dövlət" anlayışı var. Bu, yarıməxfi şəkildə fəaliyyət göstərən, ölkənin dəyərli ziyalıları tərəfindən təşkil olunmuş bir qurumdur. Bu təşkilat hakimiyyətin hədləri aşmamasına və dövlətin sağlamlığına nəzarət edən və zərurət yarandıqda dərhal müdaxilə edən bir qurumdur.

Dərin dövlət keçiriləcək seçkilərdən əvvəl qurulmalı idi ki, seçkilərin tam olaraq şəffaf və ədalətli keçməsinə nəzarət etsin. Bəli, artıq ikinci ayda həmin dərin dövlət qurulmuşdu, Ariz, Qərib, Həsən və digər bəylər həmin təşkilatda yer alırdı. Xaricdə siyasi mühacir həyatı yaşayan Əflatun bəy və digərləri də vətənə qayıdaraq dərin dövlətdə yer tuturdu.

Ariz hökumət binasında onlar üçün ayrılmış mərtəbədə, öz kabinetində seçkilər haqqında qanunu nəzərdən keçirirdi. Birdən qapısı döyüldü, bu, onun köməkçisi idi:

– Ariz bəy, aşağıda bir kişi var, sizinlə görüşmək istəyir.

– Gəlsin, gətirin onu içəri.

– Xeyr, Ariz bəy, ona yuxarı qalxmağı təklif etdim, amma imtina etdi.

– Niyə imtina etdi?

– Dedi ki, elə həyətdə gözləyəcək.

– Yaxşı, indi düşürəm.

Ariz əlindəki sənədi masanın üzərinə qoyaraq aşağı düşür. Qapıdan çölə çıxaraq ətrafa boylanır və Ənvər hocanı görür:

– Ənvər hoca, ustad, səni xoş gördüm! – Ariz ustadına tərəf sürətlə hərəkət edərək, onu qucaqlayır. – Ustad, niyə yuxarı qalxmadın, gəl qalxaq.

– Yox, Ariz, elə bura yaxşıdır, sən də təmiz hava alarsan.

– Sənin gəlişin məni çox sevindirdi, buyur, ustad.

– Mən sənə söz vermişdim ki, sonda, sən qalib olanda səninlə görüşəcəyəm. Budur, gəlmişəm ki, sözümün ağası olduğumu görəsən, – deyə Ənvər hoca gülümsəyir.

– Ustad, bir dəfə məni dəlixanaya basmışdılar...

– Sss, – Ənvər hoca sağ əlinin şəhadət barmağını dodaqlarına söykəyərək, Arizə susmaq üçün işarə edir, – bu, sənin sirrindir, Ariz. İki nəfərin bildiyi isə sirr deyil.

– Yox e, ay ustad...

– Dedim axı, bu səninlə Allah arasında olan bir sirdir, onu heç kimə danışma, hər nə baş veribsə bu bir ilahi vəddir, – Ənvər hoca qətiyyətlə təkid edir.

– Oldu, ustad, anladım. Mənə görə nə tapşırığın?

– Ariz, ölkədə olan zülmü sən özün yaşamışdın, ruhunda və cismində hiss etmişdin, indi sənin vəzifən ölkədə ədaləti təmin etməkdir, elə olmasın ki, yenə də ölkədə zülm ayaq açsın.

– Baş üstə, ustad, əlimdən gələni edəcəyəm. Sənin mənə verdiyin həyat dərsini yaxşı yadımda saxlamışam, onlar

zülmün qaranlıqlarında mənim yolumu aydınladıb, inanıram ki, bundan sonra da elə olacaq!.

– Əhsən! Elə belə də olacaq. Mən isə indi getməliyəm.

– Hara gedirsən, ustad? Ehtiyac olanda səni harada tapa bilərəm?

– Daha sənin mənə ehtiyacın olmayacaq. Mən isə mənə ehtiyacı olan başqa ölkələrə gedəcəyəm, axı onlar da qəflətdədir, onları da ayıltmaq lazımdır!

Ənvər hoca Arizlə sağollaşaraq oradan uzaqlaşır. Ariz üzündə xoş xatirəli təbəssümlə Ənvər hocanı gözdən itənədək izləyir.

Artıq altı ay keçmiş, ölkədə şəffaf və ədalətli seçkilər də keçirilmişdi. Artıq Aslan bəyin prezidentliyi altında Andaluniya xalqına məxsus olan bir hakimiyyət qurulmuşdu, xalqa və dövlətçilik maraqlarına xidmət edən ədalətli bir hakimiyyət...

# Son söz

Bu əsəri uzun müddət idi ki, yazmağı düşünürdüm, amma ürək etmirdim, çünki bu əsərdə insanları hiddətləndirəcək, qəzəbləndirəcək və əsəbiləşdirəcək nüanslar olacaqdı. Sonda bir yazıçı dostumun təkidi və motivasiyası ilə bu çətin işi öhdəmə götürdüm.

Ümid edirəm ki, bu əsər oxucuda cəmiyyətdə baş verən zülmlərə görə hiddətə səbəb olacaq, axı necə ola bilər ki, bu qədər zülmün təsvir edildiyi bir əsər insanda hiddətə səbəb olmasın?!

Əsərdə həssas məqamların olduğunu bir müəllif kimi dərk edirəm və inanıram ki, əsəbləri zəif olan insanlar ciddi sağlamlıq problemləri ilə üzləşməyəcəklər.

Bu əsəri 2022-ci ilin müqəddəs Ramazan ayının beşi tarıxində yazmağa başladım və ayın sonuna qədər də bitirdim. İnanıram ki, bu çətin işimi Allah bu müqəddəs ayın hörməti xatirinə asanlaşdırıb bərəkətləndirdi!

Bütün müvəffəqiyyətlər Allahdandır!

# Mündəricat

Ön söz ........................................................................................ 3
Andaluniya və Bakka ilə tanışlıq ........................................... 5
Ölkə və şəhərdəki zülmün təsviri ......................................... 10
Sosial rifahın vəziyyəti ......................................................... 10
Korrupsiya bəlası ................................................................... 14
Müxtəlif sahələrin məhvi ....................................................... 14
Xalqın və ölkənin ruhunun məhvi ......................................... 18
Həbsxananadakı insanların acı xatirələri .............................. 26
Ümumi tanışlıq ....................................................................... 32
Dayının əhvalatı ..................................................................... 33
Şahsuvarın əhvalatı ................................................................ 39
"Tartara faciəsi"nə aparan yol ............................................... 58
İnsana qarşı qeyri-insani işgəncələr ...................................... 115
Zülmdən qəflətdə olan həyat ................................................. 131
Oyanış!.. ................................................................................. 147
Zehindəki inqilaba səbəb olan görüş ..................................... 163
Mübarizənin başlanğıcı .......................................................... 201
Görünməmiş bir faciə ............................................................. 231
Dəlixanada görüşlər ................................................................ 244
Kiçik zindandan böyük zindana ............................................ 251
Milli Müqavimətin formalaşması ........................................... 279
Tartarada zorlanan qadınlar danışır ....................................... 287
"X" günü yaxınlaşır ................................................................. 295
Dərin dövlətin qurulması ....................................................... 315
Son söz .................................................................................... 318

Çapa imzalanmışdır: 15.06.2022.
Formatı 60×90. 1/16.
Həcmi 20 ç.v. Sifariş № 663. Tiraj 1000



"Kişi çığırtısı, qadın harayı,
Təkcə boğulan səs, haqqın səsiydi.
Tartarada olan bu işgəncələr,
Dünyanın ən iyrənc işgəncəsiydi!.."

*Şair Tofiq Həsənli*

---

"Müəllif qələmi ilə insan talelərinin amansız səhnələrini canlandırmaqda Hollywood filmlərini geridə qoymağı bacarmışdır. Düşünürəm ki, bu əsər ölkə sərhədlərini aşmalıdır!"

*Yazıçı Vəlixan İsmixan*